بسم الله الرحمن الرحيم

**İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı**
**İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi**

İslam  Araşdırmaları

İkinci. İl, İkinci. Buraxılış, Bahar-Yay/2022

İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu

və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Əfzələddin Rəhimov

**Texniki redaktor**: PhD. Elman Ağamoğlamov

**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554
**Telefon və faks**: 32114185 - 32613875
**Nömrələr**: elektron çap
**Səhifələrin sayı**:267
**Veb**: www.mou.ir
**E-poçt**: tofiq.asadov@inbox.ru

## Redaksiya heyəti


| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Əfzəlləddin Rəhimov | Sağlam Həyat Akademiyasının Təsisçisi və Sədri |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |



***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

## Məqalə və təqdim şəkli

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

**MÜNDƏRICAT**


BAŞ REDAKTORDAN.......................................................................................... 8

Modern cahiliyyət ilə mübarizə metodları…...………………………….……….9
NəcməddinTalıbzadə

Təsdiq sahəsində əxlaqın dinə ehtiyacı……………………………….……….45
İlqa Əzimov

Həqiqət və onu tanıma yolları…………………………………….....…….87
Namiq Babayev

Xanım Fatimeyi Zəhranın (s.ə) fəzilət və ismətinə şiə rəvayətlərinə əsasən qısa bir baxış…………………………………………………………………129
KönülAllahquliyeva

Qurani-Kərimdə övlad tərbiyəsi metodları……….…………………………145
Könül İmanova

Mehtilik hakkında müslümanların ittifakı……………………………………159
AtalayKoçak

Yasin surəsinin fəzilətinə bir baxış ……………………………………..193
Məhəmməd Əlili‘SevdaRüstəmova

Quran baxışında imanın dini maarifləndirmədə rolu…………………………223
Rza Salmanov

## Baş redaktordan

Maarifçi, hər hansısa elmi və yaxud mənalı fikri başqalarına çatdıran və düşündürən şəxsdir. Başqa sözlə desək, xalqa düzgün ideologiya və faydalı olan həyat tərzini öyrədən, həqiqəti və gözəlliyi sevdirən insandır, maarifçi!
Görəsən hər kəs maarifçi ola bilərmi? Yaxud hər şəxs öz bildiklərini başqaları ilə bölüşmək bacarığına malikdirmi? Əslində, cavab müsbətdir. Hətta ilkin yaranışdan bəri, nəinki təkcə insan övladında, ümumiyyətlə, instinktlə hərəkət edən digər canlılarda da, təhlükə və fayda zamanı bir-birlərini münasib səmtə yönəltmə üslubu var. Belə ki, təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində, başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman öz həmnövlərini birgə faydalanmağa səslədiyini görmək olur. Bu, təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir. İnsan da canlıların ən şərəflisi olduğu üçün, həqiqətləri ən gözəl şəkildə öz aralarında paylaşmağa görəvlənmişdir. Bu görəv həm onun fitrətində qoyulmuş, həm də İlahi dinlər tərəfindən hər bir insan öz elmi qədər bu mənəvi işə əməl etməyə dəvət olunmuşdur.
Ümid edirəm ki, qarşınızdakı bu jurnal siz əziz oxuculara dəyərli yazar maarifçilərimiz tərəfindən gözəl ərməğan olsun. Gözəl mütaliələr diləyirəm.

Dr. Tofiq Əsədov

# Modern cahiliyyət ilə mübarizə metodları

**Nəcməddin Talıbzadə**[1]

## Abatrakt

Cahiliyyət elm sözünün antonimidir. Ərəblər islamdan əvvəl cəhalət və çaşqınlıq içində olduqlarından həmin dövrə cahiliyyə deyilir. Bəzilərinin fikrincə cahiliyyət iki Peyğəmbər (ə.s) arasındakı dövrdəki boşluqdan irəli gələn fəsadların yəni küfrün çox olduğu dövrə deyilir. Bəziləri isə həzrəti Peyğəmbərin (s) doğum tarixi ilə məbəs arasındakı dövrü cahiliyyə adlandırır. İkinci cahiliyyətin mühüm əlamətləri bundan ibarətdir ki, yeni Allah, yeni əxlaq və yeni insan təqdim etməklə modern cahiliyyət yarandı. Son əsrlərdə insanın əldə etdiyi nəhəng elmi nailiyyətlərə rəğmən cahiliyyə sözünü müasir insana şamil etmək olar, ya olmaz? Modern cahiliyyə nədir? Qurani-Kərimin təbiri ilə müasir və ya ikinci cahiliyyə nədir? Dövrümüzdə müasir cahiliyyənin əlamətləri hansılardır? Qurani-Kərim, şiə və əhli-sünnə mənbələrinin hədis və rəvayətlərinə görə cahiliyyə nədir? Bunların hamısının izahı dissertasiya işinin elmi yeniliyi eyni zamanda onun yerli materiallara əsaslanmasından və bu materialların sosioloji-fəlsəfi, sosial-siyasi və hüquqi problemlərə söykənməsi əsasında təhlil edilməsindən ibarətdir

**Açar sözlər:** Cahiliyyət, ilk cahiliyyət (ula), modern cahiliyyət, ağıl, elm

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Giriş

"Ağıl və hidayət" mövzusu, səmavi kitablarda ("Zəbur", "Tövrat", "İncil" və "Qurani-Kərim"də) və müxtəlif dövrlərin peyğəmbərləri (ə.s), həvariləri, Əhli-beyti (ə.s), səhabələri, alimləri və tədqiqatçılarının fikirlərində, əsərlərində öz əksini tapıb. Nəzərə alsaq ki, mövzunun tarixi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, ictimai cəhalət bəlasına həsr edilən elmi-tədqiqat işləri ciddi şəkildə işlənməyib.

İslamda ağılın höccət və dəlil olması; Həzrəti Rəsulullah (s) buyurub: "Dünya və axirət xeyiri elmlə, şərri isə cahilliklədir".[1]

Biz islami mənbələrdə heç dində rastlaşmadığımız bir şeylə-ağılın fövqəladə etibarlı bir sənəd kimi qiymətləndirilməsi ilə qarşılaşırıq. Bu barədə islami mətnlərdə (Quran və hədislərdə) yüksək mənalı sözlər söylənilmişdir. Qurani-Kərim ağılın etibarlı bir sənəd olduğunu aşağıdakı formada bəyan etmişdir.

İnsanın ali xislətləri əqldir; Rəsuli-əkrəm (s) buyurmuşdur: "Ümmətimin arasında bidətlər üzə çıxdığı zaman alim elmini aşkar etməlidir (bidətləri ifşa etməlidir). Bu işi görməzsə, Allahın lənəti ona olsun". [2]

Bu zaman əql səcdəyə düşdü və min il səcdədə qaldı. Allah-təala əmr elədi: Başını qaldır! Məndən sual et, istə, sənə əta qılım; şəfaət elə; şəfaət olun! Əql başını qaldırıb dedi: "İlahi səndən istəyirəm ki, mənə şəfaət edəsən o kəs xatirinə ki, məni ona görə yaratmısan". "Allah-Təala mələklərə buyudu: Şahid olun, Mən ona şəfaət etdim o kəsə görə ki, Mən onu yaratmışam".

Əql barəsində söylənən bu hədisdən məlum olur ki, uca Allahın yaratdığı əvvəlinci, həm də ən qiymətli şey əqldir.

1Biharul-ənvar, c.70,hədis.31,səh.292.
2 Üsuli-kafi, c. 1, səh. 54.

Bəlkə də buna görə Allah (c.c) buyurur: “Həqiqətən, biz adəm övladını kəramətli etdik”. [1]

Bu “kəramət” insana yalnız onun əqli sayəsində nəsib olmuşdur. Elə buna görə də həzrəti əmirəl-möminin Əli (ə.s) buyurur: “Ay Allah, o kəsə ki, əql vermisən, daha nə verməmisən və o kəsə ki, əql verməmisən, daha nə vermisən ?”

Əql kimi qiymətli və şərafətli bu gövhərə sahib olan insan bu gövhərdən şərr işlər üçün istifadə edirsə, onun törətdiyi cinayəti və günahı təsəvvür etmək çətin deyil.

**Cəmiyyətin cəhalət bəlasının qarşısının alınması yolları**

Qədim dünya tarixində aparılmış araşdırmalarda müxtəlif dinlər və etiqadlarla rastlaşırıq. Bu fakt bir daha insanların allahpərəst fitrətə malik olduğunu təsdiq edir. Amma fitri suallarına doğru cavab tapmayanlar təbii olaraq yanlış inanclar ardınca gedirf.

Amma peyğəmbərlərin (ə.s) buyuruqlarına da min bir rəng verməklə cəhalətə sürüklənənlər az deyil. Əksər cəmiyyətlərdə insanları ardıcıl şəkildə doğru yola çağıranların olmasına baxmayaraq digər bir qrup daim cəhaləti dəstəkləmiş və onun aradan qaldırılmasına mane olmuşdur. Qurani-Kərimdə dini oyuncağa çevirənlər haqqında kifayət qədər danışılıb. Şənbə günləri balıq ovu haram edilmişdi. Bir Bəni-İsrail tayfası həmin qazancı əldən verməmək üçün dənizin kənarında hovuzlar düzəltmişdi. Şənbə günləri bu hovuzların dənizə olan yolunu açardılar ki, balıqlar hovuza dolsun. Növbəti gün gəlib həmin balıqları tutardılar. Allah-təala bu tayfanı oyunbazlığına görə cəzalandırardı:

---

1. İsra, 70.

"O zaman ki, şənbə günü həddi (balıq ovunun haram olması hökmünü) aşırdılar. Beləliklə, elə ki, çəkindirildikləri şeydən boyun qaçırdılar, onlara "meymunlar və qovulmuşlar olun!" dedik".[1]

Və cəmiyyətdə cəhalətin rəvac tapmasının digər bir səbəbi dindarların rəftarıdır. Dindarların dinə ciddi yanaşmadığını görən insanlar cəhalətə düçar olur. Həqiqətən insanlar peyğəmbərlər (ə.s) və kitablardan təlim-tərbiyə almaqla, təkamül yolunda irəliləyirlər. "Onları Bizim əmrimizlə doğru yola yönəldən rəhbərlər etdik və onlara xeyir işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər".[2]

Həzrəti imam Sadiq (ə.s) öz səhabələrindən olan Səmaəyə buyurur: "Əql və onun qoşununu tanı. Eləcə də (cəhalət) və onun növlərini".[3]

Bu hədisdən nəticə çıxarmaq olar ki, nadanlıq, dünya malına hərislik, xəyanət, sələm yemək, pozğunluq, hiylə, lovğalıq, ata və ananı incitmək, əhdə vəfa qılmamaq, səbirsizlik, düşmənlə cihad etməkdən boyun qaçırmaq, yüngüllük, kin saxlamaq, düşmənçilik etmək və s. kimi çirkin xüsusiyyətlər böyük günahlara səbəb olur.

Sonra o həzrət buyurdu: "Nadan dindar şəxs insanı özünün yalançı zahidliyi ilə aldadır. Dinsiz alim isə insanı özünə cəzb edir".[4]

Yenə o həzrət bir hədisdə buyurur: "Nadan şəxs ya həddini aşar (ifrata varar), ya da həddindən az iş görər (təfrit edər) (yəni nadan şəxs normal şəxsiyyətə malik deyildir)". İmam Əli (ə) başqa bir hədisdə nadan şəxslərdən

1Əraf, 163/166.
2Ənbiya, 73.
**3**Üsuli-kafi, ci. 1, səh. 21.
4Qisarul-cəməl, c.1, səh. 127.

şikayətlənərək buyurur: "Nadanlıqda yaşayan insanlardan Allaha şikayət edirəm".

O həzrət başqa bir hədisdə buyurur: "Özünü abid kimi göstərən nadanlardan və günahkar alimlərdən uzaq olun. Çünki onlar cəmiyyətdə olan bütün çaxnaşmaların mənşəyidirlər".[1]

"Və (yadınıza salın) o zaman(ı) ki, Musaya (səma) kitab(ı) və (haqqı batildən) ayıran verdik ki, bəlkə hidayət olunasınız".[2]

Qurani-məciddə Musa peyğəmbərlə (ə.s) sehrbazların əhvalatının bir hissəsində buyurulur: "Beləliklə elə ki, (cadugərlik alətlərini) atdılar camaatın gözlərini (sehrlə) bağladılar və onları çox qorxutdular və böyük bir sehr yaratdılar".[3] Həzrəti Musa (ə.s.) özündə qorxu keçirdi.

Həzrəti əmirəl-möminin Əli (ə.s) Musa peyğəmbərin (ə.s) qorxması məsələsini belə izah edir: "Musa (ə.s) öz canından ötrü qorxmadı. Onun qorxusu bundan ötrü idi ki, olmaya nadan insanlar və batil hökumətlər qələbə çalsınlar".

Həzrəti Əmir (ə.s) bu izahında nadanların əyri əməllərlə məşğul olmalarını, eləcə də nadanlığın Peyğəmbərlə (s) açıq mübarizə və zalımları himayə etmək kimi böyük günahlara səbəb olmasını açıqlayır.

Həzrəti imam Rza (ə.s) buyurur: "Hər kəsin dostu onun ağlı, düşməni isə nadanlığıdır".[4]

Allahın rəsulu (s) buyurur: "Ya Əli, mən, sən və nəslindən olan imamlar dünyanın sərvərləri və axirətin padşahlarıyıq.

---

1Qisarul-cəməl, c. 1, səh. 128.
2Bəqərə, 53.
3Əraf, 116.
4əl-Kafi, c. 1, səh. 11.

Bizi tanıyan, şübhəsiz, Allahı tanımış və bizi inkar edən isə, şübhəsiz, Allah-Taalanı inkar etmişdir”.[1]

Yenə peyğəmbəri-əkrəm (s) buyurur: “Zirək (və ayıq) o kəsdir ki, nəfsinə qarşı çıxıb ölümdən sonra üçün çalışsın. Nadan o kəsdir ki, nəfsinə tabe olub Allaha əsassız ümid bağlasın”.[2]

Yuxarıda qeyd olunan ayə və hədislərdən belə məlum olur ki, peyğəmbərlər (ə.s) və asimani kitablar yalnız imanlı insanlar üçün təsirli ola bilər.

Ağıl qüvvəsi məsələlərin mahiyyətini, hiylə və qavrama qüvvəsi isə xırdalıqlarını dərk edir. Ağıl qüvvəsi ilə hiylə və qavrama qüvvəsi məsələləri dərk etməyə yönəlmişdir. Sadəcə olaraq birincisi məsələlərin mahiyyətini, əsasını, ikincisi isə xırdalıqları, incəlikləri dərk edə bilir. İnsandan baş verən bütün əməllər cüzi işlər olduğuna görə onların hamısının mənbəyi hiylə və qavrama qüvvəsidir. Buna görə də birinci qüvvəyə nəzəri ağıl, ikinciyə isə əməli ağıl deyilir. Qəzəb və şəhvət qüvvələri isə bədəni təhrik edib hərəkətə gətirir. Qəzəb qüvvəsi, bədəni insanı narahat edəcək işləri dəf etməyə, şəhvət qüvvəsi də cism üçün uyğun olan, cismə xoş gələn işləri həyata keçirməyə təhrik edir. Ağıl qüvvəsinin digər qüvvələri üstələyəcəyi təqdirdə sair qüvvələrin də işləri məqsədəuyğun olub insanın yaradılışındakı əsas məqsədə yönələcək. Nəticədə qüvvələrin hər biri paklaşaraq özünəməxsus fəzilətə yiyələnəcək. Nəzəri ağıl qüvvəsinin saflaşması nəticəsində hikmət, əməli ağıl qüvvəsinin saflaşması nəticəsində ədalət, qəzəb qüvvəsinin saflaşması nəticəsində şücaət, şəhvət qüvvəsinin saflaşması nəticəsində də iffət sifətləri meydana gələcək. Bütün bəyənilən sifətlərin əsası məhz bu dörd sifətdir.

---

1əl-Əmali, Şeyx Səduq r.ə, səh.523, hədis 6.
2Məcmueyi-vərram, c.1, səh. 243.

Yəni, qeyd edilən bu dörd sifət digər müsbət xüsusiyyətlərin təməlidir. Məsələn, hikmət sifətindən zirəklik, fərasət, gözəl düşünmək, tədbirli olmaq, şücaət sifətindən səbr, təmkin, helm, vüqar, iffət sifətindən də həya, səxavət, əmanətdar olmaq, gülərüzlülük və sair xüsusiyyətlər formalaşır. Deməli, bütün müsbət xüsusiyyətlərin təməli, mənşəyi həmin dörd sifətdir.

1. Hikmət: Bu, varlıqları əsl olduğu kimi tanımaqdan ibarətdir. Hikmətin özü də iki hissəyə ayrılır. Biri nəzəri hikmət, digəri isə əməli hikmətdir. Nəzəri hikmət o varlıqların əsl həqiqətini anlamağa deyilir ki, onların varlığı bizim qüdrət və ixtiyar çərçivəmizdən kənardır. Əməli hikmət də o varlıqların əsl həqiqətini anlamağa deyilir ki, onların varlığı bizim qüdrət və ixtiyar dairəmizdədir, məsələn, həyata keçirdiyimiz işlər kimi.

2. İffət: Bu o, deməkdir ki, insanın şəhvət qüvvəsi ağıl qüvvəsinə tabe olub onun dediklərindən kənara çıxmasın. Bunun nəticəsində insan əsl azad bəndə olub həvayi-nəfsinin əsirinə çevrilmir.

3. Şücaət: Şücaət ona deyilir ki, qəzəb qüvvəsi ağıl qüvvəsinə tabe olsun, çəkinilməsi lazım olan təhlükələrdə ağlın sözünə qulaq asıb narahat olmayası şeylərdən çəkinməsin.

4. Ədalət: Ədalət də ona deyilir ki, əməli ağıl nəzəri ağıla tabe olub qəzəb və şəhvət qüvvələrini ağıl və şəriətə uyğun olaraq öz tabeliyində saxlasın.

Bəzi əxlaq alimləri ədalət sifətinə başqa cür tərif verərək demişlər ki, ədalət bütün qüvvələrin ağıl qüvvəsinə tabe olub onun əmrlərindən çıxmamasına və aralarında hər hansı ziddiyyətin yaranmamasına deyilir.

Ağıl qüvvəsinin digər qüvvələrə qalib gəlməsinə səy etmək. Ağlı olan və özünə düşmən olmayan insan çalışmalıdır ki, ağıl

qüvvəsini digər qüvvələrə hakim edib, əbədi səadətə çatmaq uğrunda əlindən gələni etsin, gözəl xislətlərə yiyələnib pis xislətlərdən uzaq olsun. Cismani ləzzətlər və nəfsinin istəkləri ardınca çox qaçmasın, şəhvət və nəfsinin istəklərini yalnız zərurət miqdarında təmin etsin. Yeməyi yalnız sağlamlığını qoruyub bədənin ehtiyacı miqdarında yesin, daha başını müxtəlif çeşidli yeməklərlə aldatmasın. Əgər birdən zərurət miqdarından çox da yesə, o qədər yeməsin ki, başqalarının yanında rüsvay olsun. Geyimini elə geyinsin ki, onu istidən və soyuqdan saxlaya bilsin, bundan artığını edərsə də, elə geyinməsin ki, insanların nəzərində gözdən düşsün. İntim münasibətlərə çox da aludə olmasın, yalnız bədənin tələb etdiyi və nəslin qorunub saxlanılması üçün lazım miqdarla kifayətlənsin. Bir sözlə başını çox da dünyanın eyş-işrətinə qatmasın. Əks təqdirdə bu, onu əbədi bədbəxtliyə aparıb uçuruma yuvarladacaq.

Ey Allahın bəndələri, Allah rizasına özünüzə rəhminiz gəlsin, ruhunuza laqeyd qalmayın. Ayaqlarınız sınmazdan qabaq bacardığınız qədər çox yol qət edin, ölüm yetişməmiş özünüzü dərk edin. Qəflət yuxusundan ayılın, ömür çox qısadır. Mənfi xislətlər özünə yer etməmiş, xoşagəlməz sifətlər adət halını almamış, şeytan ordusu qəlblərinizə hakim kəsilməmiş, ən qüvvətli dövrünüz olan gəncliyiniz başa çatmamış bir çarə fikirləşin. Yoxsa ömür keçə-keçə mənfi xislətlər özünə yer edib daha da möhkəmlənəcək. Gəncliyində şeytan ordusuna qarşı mübarizə apara bilməyən şəxs qocaldıqca necə mübarizə apara bilər ?!

Lakin Allahdan ümid kəsilməz. "Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər!" [1]

---

1Yusuf, 87.

Əxlaq elminin görkəmli nümayəndəsi, bu sahədə samballı əsər yazmış ilk müsəlman alimi Şeyx Əhməd ibn Məhəmməd ibn Yaqub yazır: "Mən o vaxt qəflət yuxusundan ayıldım ki, gəncliyim artıq bada getmiş, bəyənilməz xislətlər ruhumda özünə yer etmişdi. Lakin buna baxmayaraq yenə də nəfsimi boğub onun istəklərinə qarşı çıxdım, Allah-təala da əziyyətimi puç etməyib məni çirkab girdabından xilas etdi".

Elə isə ey müsəlmanlar, ey möminlər, ümidinizi itirməyin, Allahın mərhəmət qapıları istənilən vaxt hamının üzünə açıqdır. Ancaq elə də fikirləşməyin ki, günahlar nəticəsində əldən getmiş nuraniyyət bir daha geri qayıda bilər. Əsla, bu, xam xəyaldan başqa bir şey deyil. Sadəcə olaraq etdiyimiz günahları yaxşı əməllər sayəsində aradan aparmış olarıq. Bu isə o deməkdir ki, həmin günahları etməsəydik, indi daha artıq nuraniyyət əldə etmiş olardıq. Deməli, günahlar öz işini görür.

Həzrəti əmirəl-möminin Əli (ə.s) buyurur: "Dünya bir ilan kimidir, yumşaq və incə olduğuna baxmayaraq, öldürücü zəhəri var. Cahil biliksiz ona bel bağlayar, ağıllı və ayıq adam ondan çəkinər".[1]

## Cəhlin istəklərilə mübarizə

Rahattələblik və tənbəllik həmişə insanladır. Bu xüsusiyyətlər bais olur ki, müəyyən bir təkamül pilləsinə qalxmış insan işini bitmiş bilib rahatca oturur. Hansı ki, təkamül nərdivanında yuxarı qalxdıqca yıxılmaq təhlükəsi daha da artır və insandan daha böyük diqqət tələb olunur. Dağın ətəyində dayanmış, yoxsa onun zirvəsinə dırmaşmış insan üçün təhlükə daha böyükdür? Təkamül yolunda bizim də vəziyyətimiz belədir. İslam dini və Əhli-beyt (ə.s) məktəbini seçmək müəyyən bir

1Nəhcül-bəlağə, səh. 489.

irəliləyiş hesab olunsa da, bu mərhələdə büdrəmək böyük təhlükələrə səbəb ola bilər. Şeytan böyük düşməndir. Şeytanın məqsədi insanı doğru yoldan azdırmaqdır. Təkamül yoluna qədəm qoymamış insan azğın olduğundan şeytan belələrindən uzaqdır. Şeytan üçün kamilləşmək istəyən insan maraqlıdır. İnsan təkamül yolunda irəlilədikcə şeytan da öz səylərini artırır. Doğru din və doğru məktəb seçməklə əsl təkamül yolunu tutmuş insanla şeytan qatı düşməndir. Şeytan belə bir insana qarşı bütün qüvvələrini səfərbər etdiyi tək, insan da onunla mübarizədə səfərbər olmalıdır. Əsl çətinliklər qabaqda olduğundan bir addım qabağa getmiş insan arxayınlaşaraq ehtiyatı əldən verməməlidir. Şeytanın son nəfəsədək ondan əl çəkməyəcəyini bilən insan aqibətindən qorxmalıdır.

İmam Sadiq (ə.s) buyurur: "Ey Əbdullah, şeytan bu aldadıcı dünyada öz tələlərini qurub. Onun bu işdə bizim dostları tələyə salmaqdan başqa məqsədi yoxdur". Əbdullah İmamın (ə.s) xüsusi dostlarından olduğu üçün imam mətləbləri geniş şərh etmir.

Sosial bərabərsizliyin fəlsəfəsi; nə üçün insanların bir qismi dövlətli, digər bir qismi isə kasıbdır ? Əvvəla var-dövlətin çoxluğu Allahla dostluq yox, imtahan əlamətidir: "Bilin ki, var-dövlət və övlad sizin üçün yalnız bir imtahandır".[1]

Dilimizə sınaq mənasında tərcümə olunmuş sözə Quranda "fitnə" kimi işarə olunub. Ayələrdə var-dövlət fitnə, başqa sözlə, sınaq kimi tanıtdırılır. İnsan var-dövlət qazanıb onu sərf edərkən ilahi göstərişlərə əməl edə biləcəkmi ? Bir halda ki, dünya imtahandır, ona vurulmağa dəyərmi?! Əlbəttə ki, dünya son məqsəd olsaydı onun haqqında düşünməyə dəyərdi. Bir halda ki, dünyanın ömrü imtahan bitənədəkdir, ona könül verməyə də dəyməz. Dünya, üzərində suallar yazılmış imtahan

---

1Ənfal, 28.

vərəqi kimidir. Bu kağızın gözəl olub-olmamasının əsl məqsədə heç bir dəxli yoxdur. Əsl məqsəd suallara düzgün cavab yazmaqdır.

Yuxarıda qeyd olunan bərabərsizliyin ikinci səbəbi budur ki, dünya nemətləri Allah nəzərində biz düşünmədiyimiz kimi dəyərli deyil. Qurani-kərimin bir çox ayələrində dünya nemətləri axirət ne'mətləri ilə müqayisə olunur və təbii ki, axirət nemətlərinə üstünlük verilir. "Axirət ruzisi daha xeyirlidir" buyurulur. İnsana dünya nemətlərinə uymayıb axirət nemətləri haqqında düşünmək tapşırılır. Bəli, əsl ruzi olan, yəni "Allah ruzisi" adlandırılan əbədi axirət nemətlərinin ardınca getməyə dəyər.

Düşüncə zəifliyi; əgər insan elə bir ictimai mühitdə yaşayırsa ki, bu mühit İslam həqiqətlərinin dərk olunmasında bir maneədir, bu insanın aqibəti necə olacaq ? Diqqət etsək görərik ki, yer üzündə əksər insanlar üçün ictimai maneələr mövcuddur. İslam və Əhli-beyt həqiqətlərinin təbliğ olunduğu cəmiyyətdə yaşayanlar uca Allaha şükr etməli və həqiqi iman qazanmaq üçün səy göstərməlidir. İslam və Əhli-beytdən (ə.s uzaq ideyaların təbliğ olunduğu cəmiyyətlərdə əksər insanların heç ağlına da gəlmir ki, əsl həqiqət tamam başqa yerdədir. Həmin cəmiyyətlərdə nəinki həqiqət təbliğ olunmur, üstəlik İslam və Əhli-beyt yoluna qaralar yaxılır. Bir çox ölkələrdə şiələr müşrik kimi təqdim edilir, onların hansısa xüsusi bir Qurana etiqad etdikləri bildirilir. Hətta bəzi ölkələrdə belə uydurma rəvayətlər danışılır ki, guya şiələr Cəbrail mələyin xəyanət edib imam Əliyə (ə.s) göndərilən vəhyi həzrət Məhəmmədə (s) gətirməsini iddia edirlər. Guya şiələr namazı bitirdikdən sonra üç dəfə "Əllahu əkbər" əvəzinə üç dəfə "Cəbrayıl xəyanətkardır" deyirlər. İnsanları bu

böhtanlara elə inandırıblar ki, min dəfə and içsək də əhəmiyyət verən olmaz.
□□Yaxşı, belə bir şəraitdə yaşayan insan Əhli-beyt vilayətini qəbul etmirsə o, behiştə gedə bilərmi ? Axı rəvayətlərdə buyurulub ki, Əhli-beyt vilayətini qəbul etməyənlər cəhənnəmə gedəsidir. Cəmiyyətin aşıladığı düşüncə tərzindən qeyri bir düşüncə tərzinə əli çatmayan, həqiqəti dərk etmək gücündə olmayan insanlar İslamda "müstəzəf" adlanır. Müstəzəf düşüncə zəifliyinə məhkum insandır. Onun inamı və əməlləri düşüncəsinin zəifliyi qədər üzürlüdür. Bu insanlara əqli və nəqli yolla həqiqətlər sübut olduqca üzr aradan qalxır. İnsan həqiqəti anladığı dərəcədə də məsuliyyət daşıyır. Bəli, insanın səadəti onun son nəfəsədək qorunmuş imanından asılıdır. İman isə yalnız o vaxt son nəfəsə qədər qorunur ki, insan daim ona nəzarətçi olsun. Əks təqdirdə iman elə asta-asta zəifləyir ki, insan nə vaxt kafir olduğunu hiss etmir. Hansı ki, ardıcıl şəkildə diqqət etsəydi qəlbindəki şəkk-şübhələrə cavab tapıb imanını qoruyardı.Yaxşı, bəs düzgün etiqadlı insanlar günaha yol verdikdə onlarla necə rəftar edək ? Axı bütün insanlar məsum ola bilməz. Sözsüz ki, açıq-aşkar günah edən insanlarla yaxınlıq etmək olmaz. Çirkin sifətlərə malik insanla dostluq nəticəsində, insan bu çirkin sifətlərə yoluxa bilər. Amma onun haqqında pis danışmaq olmaz. Əksinə, ona ürək yandırıb tərbiyələnməsinə çalışmaq lazımdır. Onun günahdan uzaqlaşıb tövbə etməsi üçün dua etməyimiz yaxşı olar.Demək, imanını qoruyan insan əvvəl-axır behiştə gedər. Əlbəttə ki, günahlarının cəzasını aldıqdan sonra!
"Kim zərrə qədər yaxşı iş görmüşsə bu işin xeyrini, kim zərrə qədər pis iş görmüşsə bu işin zərərini görəcəkdir".[1]

Bütün işlər nəzərə alınacaqdır. Əhli-beytin şəfaətinə o qədər ehtiyaclıyıq ki, bu şəfaətə çatmaq ləyaqətini itirməmək üçün

1Zilzal, 7/8.

günahdan qorunmalıyıq. İmam Sadiq (ə.s) ömrünün son anlarında belə buyurdu: "Namazı yüngül sayan bizim şəfaətimizə nail olmaz".[1] Tövbə insanın günahını bağışlatdırdığı kimi, bəzi pisliklər də insanı şəfaət ləyaqətindən məhrum edir.

Ağıl insanı qarşıdakı çətinlikləri aradan qaldırmağa çağırır. Adi məişət problemlərinin həllinə xeyli vaxt ayırıb əbədi həyat səadətinin təmini üçün tədbir görməmək ağıla uyğun deyil. Dünya ləzzətləri ardınca qaçan insan qarşıdakı müdhiş təhlükənin nə qədər əhəmiyyətli olduğunu anlamır. Rəvayətdə deyilir ki, boynum zəncirlənib azad olmaq istəyirəm. Amma boynumdakı ağır yük imkan vermir; nəzarətçilər məni bədbəxtliyə sürükləyir. Bəli, batdığımız günahlar boynumuzda yük olub. Bu yükdən azad olmağa çalışmayanın cəhdi, qəm-qüssəsi yanlış istiqamətə yönəlib. Hədis: "Sübh əzabdan qurtulmaq fikri ilə oyanmayan şəxs mühüm bir məsələni yüngül sayıb. Böyük bilməli olduğunu kiçik bilib. Allahdan kiçik bir xeyir istəyib".

Əbədi əzab haqqında düşünməyən insan şübhəsiz ki, dünya işlərini çək-çevir edəcək. Əbədi əzaba diqqət yönəltməyən kəs qurtuluş üçün tədbir də tökəsi deyil. Ağıl tələb edir ki, insan axirətə inandığı qədər çalışmalıdır. Çünki dünya çətinlikləri axirət çətinlikləri ilə müqayisədə çox əhəmiyyətsizdir. Axirət əzabını düşünən insana dünya ağrıları çox asan gəlir. Əlbəttə ki, imanı güclü olan bəndələr bu işdə daha çox səy göstərərlər.

Maraqlıdır ki, İmamın yuxarıdakı buyruqları hansı şəraitə uyğundur? Məsum imamların buyruqlarını anlamaq üçün diqqət və ali dini anlayışa (ictihad) ehtiyac vardır. Rəvayəti

---

1Biharul-ənvar, c. 82, səh. 235.

oxuyub onun zahiri mənasına əməl etmək düzgün deyil. Bəziləri rəvayətin zahiri mənası xoşa gəldiyi üçün ona istinad edirlər. Məsələn, onlar bir rəvayət oxumaqla belə qənaətə gəlirlər ki, əsl şiə xaqldan uzaqlaşıb fərdi ibadətlə məşğul olmalıdır. Guya şiə o şəxsdir ki, çölə-bayıra çox çıxmasın, çıxanda da əbasını başına çəkib kimsə ilə kəlmə kəsməsin. Söz yox ki, son dövrlər möminlərdə ictimai fəallıq müşahidə edilir. Unutmaq olmaz ki, hansısa müstəhəb, əxlaqi bir göstəriş vacib vəzifənin qarşısını ala bilməz. Xüsusi şəraitə malik olan əxlaqi göstərişlər heç vəchlə vacib ictimai vəzifələri öhdədən götürmür. Dərviş təxəyyüllü bəzi insanlar bir rəvayət eşitməklə cəmiyyətdən uzaqlaşıb, ünsiyyətdən qaçırlar. Bəs İslamdakı ictimai vəzifələr kimə aiddir və bu vəzifələrə nə vaxt əməl olunmalıdır ?!

Amma başqa bir qrup müsəlmanlar ictimai vəzifələrə maraq göstərib ibadət və özünütərbiyə məsələlərini ikinci plana keçirirlər. Onlar elə düşünürlər ki, ictimai fəaliyyətlə məşğul olan insanın müstəhəb ibadətlərə ehtiyacı yoxdur və ibadət qocaların, imkansızların işidir. Guya Quran oxuyan, dua və zikrə məşğul olanlar başqa bir iş bacarmadıqlarından ibadət edirlər. İctimai iş bəhanəsi ilə ibadətdən uzaqlaşmaq böyük səhvdir. İbadət və özünütərbiyəyə hamı ehtiyaclıdır. Əlbəttə ki, şərait və ehtiyaclar müxtəlifdir, amma ictimai iş ibadəti əvəz edə bilməz. İctimai işdə məqsəd Allahla yaxınlıqdır. İbadətə diqqətsiz insanın ictimai fəaliyyətinin mahiyyəti də dəyişir. Əgər həm ibadət, həm də ictimai işdə məqsəd Allaha yaxınlaşmaqdırsa, nə üçün bu işlərdən yalnız birinə üstünlük verilməlidir ?! Cəmiyyətə xidmət etmək savab olsa da, Quran oxumağın da öz savabı vardır. Vacib ictimai vəzifənin savabı Quran oxumağın savabından çox olsa da, ibadətə olan ehtiyac ödənməz. Möminlik ruhunu daim qorumaq üçün müstəhəb

ibadətlərin faydası müstəsnadır. İbadətdən uzaqlaşmış insan ictimai işlərdə əsl məqsəddən uzaq düşüb, yolunu aza da bilər.

Bizim nəfsimizin feliyyəti bizim fəaliyyət, iş və əməllərimizin məhsulu olub bizim əqidə, əxlaq, səciyyə, xislət və əməllərimizin vasitəsi ilə formalaşır. Onun yaxşı və ya pis nəticəsi də axirət aləmində aşkar olacaqdır.

Başqa bir yerdə Həzrəti Əmir (ə.s) belə buyurur: "Necə də pis ticarətdir dünyanı öz nəfsinin dəyəri kimi bilib və onu Allah yolunda olanların əvəzində satmaq".[1]

## Modern cahiliyyətə qarşı "Ağıl, Həya, İman və Həzrəti İmam Məhdinin (ə.f.) mübarək zühuru

Cahilləyə barədə danışanda o keçmiş əsrlərə aiddir. Rasionalizm cərəyanının hökm sürdüyü dövrdə danışmaq mənasız söhbətdir, lakin cahiliyyə məfhumuna diqqətlə nəzər saldıqda anlayırıq ki, onun müasir insana yetirdiyi bu böyük müşküldür. Özümüzün müxtəlif nəfsani xəstəliklərimizin tanınmasında istifadə olunası müəyyən vasitə və yolların burada qeyd edilməsi yerinə düşərdi:

1. Əql qüvvəsinin gücləndirilməsi: İnsanın mələkuti və ali mərtəbəsi onun sair məxluqlardan seçilməsinə, onun imtiyaz və üstünlüyünə səbəb olan amil Quran və hədislərdə müxtəlif adlarla qeyd olunmuşdur; ruh, qəlb, nəfs və əql. Bunların hamısı vahid bir həqiqəti ifadə edir. Lakin müxtəlif səbəblərə görə müxtəlif cür adlandırılmışdır. Həqiqi təfəkkür və düşüncənin mənşəyi olduğuna görə əql adlandırılır.

"Nə üçün yer üzündə seyr etmirlər ki, onların təəqqül edə biləcək qəlbləri olsun ?!" [2]

---

1Nəhcül-bəlağə, 32-75-ci xütbələr.

2Həcc, 46.

Uca Allah əqlə, qulağa, dilə malik olub real gerçəkliklərin, həqiqətlərin tanınmasında onlardan istifadə etməyən şəxsləri heyvanlarla bir cərgədə, hətta onlardan da alçaq səviyyədə təqdim edir. Çünki onlar öz əql qüvvələrindən istifadə etmirlər.

"Allah çirkinliyi o kəslərə aid edər ki, əql qüvvəsini işlətmirlər".[1]

İnsanın malik olduğu bütün yaxşılıqlar onun əqli tərəfindədir. Əql vasitəsilə Allahı tanıyır, Ona ibadət edir, məadı qəbul edir və onun üçün hazırlaşır, peyğəmbərlərin (ə.s) haqq olduğunu qəbul edir və onlara itaət edir, gözəl əxlaqi səciyyələri tanıyıb, özünü onlar əsasında tərbiyələndirir, çirkin xüsusiyyətləri, rəzillikləri tanıyır və onlardan üzaq olur. Buna görə də Quran və hədislərdə əql böyük məqama layiq görülür. Nümunə üçün:

Həzrəti İmam Musa ibni Cəfər (ə.s) buyurur: "Hər kəsin mürüvvəti olmasa nuru yoxdur. Hər kəsin əqli olmasa mürüvvəti yoxdur. İnsanların ən dəyərlisi o kəsdir ki, dünyanı öz nəfsinin dəyəri bilməsin. Bilin ki, sizin bədənlərinizin qiyməti cənnətdən başqa bir şey olmaz. Onu cənnətdən başqa bir şey müqabilində satmayın".[2]

Həzrəti imam Cəfər Sadiq (ə.s) buyurur: "Əql mömінin yol göstərənidir".[3]

Yenə həzrət (ə.s) belə buyurur: "Əql o şeydir ki, onun vasitəsilə Allaha ibadət edilir və behişt kəsb olunur".[4]

Həzrəti İmam Musa ibni Cəfər (ə.s.) buyurur: "Əql sahibləri nəinki günahları, hətta dünyanın artıq işlərini belə tərk edirlər. Halbuki dünyanı tərk etmək fəzilət, günahı tərk etmək isə vacibdir".[5]

---

1Yunus, 100.
2Kafi, c.1, səh. 19.
3Kafi, c.1, səh. 25.
4Kafi, c. 1, səh. 11.
5Kafi, c.1, səh. 17.

Başqa bir hədisdə buyurur: "Əql sahibi nəfsi meyl etməsinə baxmayaraq, heç vaxt yalan danışmaz".[1]

Bu hədislərdən əqlin dəyəri, onun maarif və elm kəsb etməkdə, iman qazanıb Allaha pərəstiş etməkdə, əxlaqi səciyyələrdən istifadə etməkdə və onları tanımaqda, günahlardan və çirkin xasiyyətlərdən çəkinməkdəki mühüm rolu məlum olur. İndi isə bir zəruri məsələni qeyd etmək lazımdır. Bu mühüm hədəflərin təmin olunmasında sadəcə əql kifayət deyildir, əsas əqli işlətmək və ondan istifadə etmək lazımdır. Bədəndə əqlin varlığı işbilən və ədalətli bir qazinin məsəli kimidir. Lakin o vaxt yaxşı mühakimə yürüdüb hökm çıxara bilər ki, aram bir mühit yaranmış olsun və onun mühakiməsi qəbul edilsin. O bilikli, bacarıqlı, tədbirli, xeyirxah bir hakim kimidir. Lakin bu şərtlə ki, onun hökmü təsbit edilsin. O bilikli, etimadlı, xeyirxah bir müşavirdir, lakin bu şərtlə ki, ondan məşvərət istənilsin və sözlərinə düzgün qulaq asılsın.

Əgər əql insanın hakimi olaraq nəfsani istəkləri və qərizələri normal (mötədil) hala salsa insanın "bədən aləmini" ən yaxşı şəkildə idarə edəcək, qərizələr və qüvvələr arasında müvazinəti qoruyub saxlayacaq və hər bir şeyi təkamül, Allaha doğru irəliləmək yolunda qərar verəcəkdir. Lakin görəsən heyvani qərizələr və meyllər əqlin hakimiyyətini elə bu sadəliklə qəbul edərək onun göstərişləri müqabilində təslim olurmu ? Əsla! Heyvani qərizələr və meyllər o qədər təxribatçılıq, fitnə-fəsad törədirlər ki, nəhayət onu meydandan çıxarırlar. Çarəsi də yalnız əqli gücləndirməkdir, çünki o, nə qədər güclü və nüfuzlu olarsa, batini düşmənlərini daha yaxşı

---

1Kafi, c.1, səh. 19.

tanıyar, onların qarşısını alıb məhv etməkdə daha bacarıqlı olar. Əqlin gücləndirilməsi və möhkəmləndirilməsi yolunda çalışmaq hamının vəzifəsidir.

2. Əməldən qabaq təfəkkür etmək: İslam bizi təfəkkürə, axır-aqibəti düşünməyə dəvət edir. Əmirəl-möminin Əli ibni Əbitalib (ə.s) buyurur: "Təfəkkür vasitəsilə öz qəlbini agah et".[1]

Yenə buyurur: Təfəkkür insanı yaxşı işlərə və onlara əməl etməyə dəvət edir".[2]

Allahın Rəsulu (s) buyurur: "Tələsmək insanları həlakətə salır. Əgər insanlar işlərində dərindən fikirləşsəydilər heç kəs həlak olmazdı".[3]

Başqa bir hədisdə buyurulur: "Təfəkkür yaxşılıqları və pislikləri sənə göstərən bir güzgü kimidir".[4]

3. Nəfs barəsində bədbinlik: İnsan əgər öz nəfsinə dərindən, diqqətlə nəzər salıb nəfsani sifətlərini insafla araşdırsa, əksər hallarda özünün nəfsani xəstəliklərini və eyblərini dərk edər. Çünki insan özünə hər kəsdən artıq agahdır. Allah-təala Quranda buyurur: "Xeyr, insan öz nəfsinə (nəfsinin yaxşı və pis işlərinə) daha agahdır, baxmayaraq ki, öz bəsirət gözlərinə üzr (pərdəsi) atır".[5]

Həzrəti Əmir (ə.s) buyurur: "Mömin həmişə öz nəfsinə bədgüman olmalıdır. Həmişə onun eybini axtarar və ondan yaxşı işləri tələb edər".[6]

4. Ruhani təbibə müraciət etmək: İnsan öz eyblərini tanımaq üçün öz nəfsini paklaşdıran, özünü bəyənilən xüsusiyyətlərlə

1Kafi, c.2, səh. 54.
2Kafi, c.2, səh. 54.
3Biharul-ənvar, c.71, səh. 340.
4Biharul-ənvar, c.71, səh. 324.
5Qiyamət, 14/15.
6Nəhcül-bəlağə, 176-cı xütbə.

zinətləndirən əxlaq aliminə müraciət edərək, daxili xasiyyətlərini və ziddiyyətlərini onun üçün tamamilə şərh edə və onun nəfsindəki eyblərin və çirkin sifətlərin xatırlanmasını istəyə bilər. Ruhani təbib, islami əxlaqşünas və psixoloq, əməl əhli və gözəl əxlaqlarla zinətlənmiş olan bir şəxs insanın nəfsinin aludəliklərdən təmizlənməsində, saflaşmasında və Allah dərgahına doğru seyr etməsində çox təsirlidir. Əgər insan belə bir şəxsi tapa bilsə, bu böyük nemətə görə Allaha şükr etməlidir. Çox təəssüf, belə şəxslər çox az tapılır.

5. Xeyirxah və bilikli dosta müraciət etmək: Yaxşı, bilikli və xeyirxah dost Allahın böyük nemətlərindən biridir ki, insan nəfsinin təmizlənməsində, çirkin sifətlərin tanınmasında insana layiqli kömək edə bilər. Bu şərtlə ki, bilikli olsun və yaxşı-pis xasiyyətləri tanıya bilsin. Bundan əlavə o, insan üçün xeyirxah və etimadlı bir şəxs olmalıdır. Çünki əgər yaxşı və pis sifətləri ayırd edə bilməzsə, insana bu barədə heç bir kömək göstərə bilməz. Hətta çox hallarda yaxşını pis, pisi də yaxşı cilvələndirə bilər. Əgər etimadlı və xeyirxah olmazsa, dostluğun qorunub-saxlanması, incilik yaranmasın deyə öz dostunun eyiblərini gizlətməsi, hətta ona xoş gəlsin deyə pis işlərini yaxşı cilvələndirib tərifləməsi də mümkündür.

Həzrəti imam Cəfəri Sadiq (ə.s) buyurur: “Qardaşlarımın ən yaxşısı o kəsdir ki, eybimi mənə hədiyyə etsin”.[1]

6. Başqalarının eybindən ibrət götürmək: İnsan əksər hallarda öz eyiblərindən qafildir, amma başqalarının eybini görərək onların çirkinliyini yaxşı şəkildə dərk edir. Atalar demişkən “başqasının gözündə tükü görür, öz gözündə isə tiri görmür”.

1Tuhəful-uqul, səh. 385.

Peyğəmbəri-əkrəm (s) buyurur: “Xoşbəxt o kəsdir ki, başqalarından ibrət alsın”.[1]

7. Tənqiddən nəticə çıxarmaq: İnsan düşmənlərin tənqidləri müqabilində iki cür reaksiya göstərə bilər:

A) Özünü müdafiə etmək fikrində olsun. Bu sözlərin düşmən tərəfindən deyilməsini və xeyirxahlıq məqsədinin olmasını bəhanə edərək mümkün olan hər bir vasitə ilə özünü müdafiə etsin və onların səsini boğsun. Belə şəxs nəinki öz eybini islah etməmiş, əksinə xəta və sair səhvlərə də aludə olmuşdur.

B) Düşmənlərin tənqidlərinə yaxşı-yaxşı qulaq assın, sonra həqiqəti axtarıb tapmaq məqsədilə öz nəfsinə müraciət etsin, onu insafla araşdırsın. Əgər düşmənin tənqidinin düzgün və öz nəfsinin eyibli olduğunu görsə, dərhal onu islah etmək fikrinə düşsün, hətta əgər məsləhət olarsa, onun eybini deməklə nəfsinin saflaşdırılmasına səbəb olduğu üçün düşmənə də təşəkkür etsin. Belə düşmənçilik şübhəsiz insanın eyiblərini gizlədərək onu tərifləyən, bununla da insanı nadanlıq və cəhalətdə saxlayan mühafizəkar və yaltaq dostlardan çox yaxşı və faydalıdırlar. Amma əgər öz nəfsinə müraciət etdikdən sonra qeyd olunan eyblərin onda olmadığını görərsə, Allaha şükr etsin və sonralar belə çirkin sifətlərə aludə olmaması üçün öz nəfsini gözləsin. Belə olan halda insan düşmənlərin tənqidlərindən bəhrələnər. Əlbəttə, bu cür rəftarlar insanın xain düşmənlərin hiyləgərlik planlarını əqli və şəri yollarla zərərsizləşdirməsinə mane olmamalıdır.

8. Qəlbin xəstəliyinin əlamətləri: Xəstəliyi tanımağın ən yaxşı yollarından biri onun əlamətlərinin görünməsidir. Bədəndə mövcud olan əzaların xəstəliyi iki yolla tanınır: ya ağrı hiss edilməklə, yaxud da hər hansı bir üzvün orqanizmdə öhdəsinə aldığı işi yerinə yetirməməsi ilə. Bədən üzvlərindən hər biri

---

1Biharul-ənvar, c.71, səh. 324.

sağlam halda bədənin idarə olunmasında xüsusi funksiyanı, öz vəzifəsini lazımınca yerinə yetirir. Deməli, əgər hər hansı bir üzv öz vəzifəsini yerinə yetirməkdə aciz olarsa xəstələnməsi məlum olur. Məsələn, göz sağlam halda və xüsusi şəraitdə xarici əşyaları müşahidə edir. Əgər bu şəraitin mövcud olması ilə ya ümumiyyətlə görməzsə, ya da görməsi zəifləyərsə xəstələnməsi məlum olur. Əgər insan Allaha diqqət yetirməsə, ibadət, dua və münacatdan ləzzət almasa, bu kimi işlərdən qaçsa, Allahı sevməsə, dünya mal-dövlətinə, məqam və sərvətə, arvad-uşağa, şəhvətə və heyvani ləzzətlərə meyl etməyi Allahın razılığından üstün hesab etsə, həyatda şəxsi mənafeyini təmin etməkdən başqa bir hədəfi olmazsa, fədakarlıq, ehsan, Allahın məxluqlarına xidmət etməkdən ləzzət almazsa, insanların əzab-əziyyət və narahatlığından narahatlıq hissi və vicdan əzabı keçirməzsə belə bir şəxs nəfsinin doğrudan da xəstə olduğunu bilməlidir. Əgər öz səadət və xoşbəxtliyini istəyirsə mümkün qədər tez bir zamanda onu islah və müalicə etmək qərarına gəlməlidir.[1]

Həzrəti Əmir (ə.s) buyurur: "Əql və şəhvət bir-birinə ziddir. Elm əqli, həvayi-nəfs isə şəhvəti himayə edir. Nəfs bu iki qüvvənin çəkişdiyi, mübarizə apardığı meydandır; onlardan hər biri digərinə qələbə çalsa, nəfsi öz ixtiyarına keçirir".[2]

Ağıl insan üçün çıraqdır necə ki, Qurani-kərimdə qəlb, əql və nəfsin insana aid xüsusiyyətlər olması bəyan olunur: "Rəbbinin rəhm etdiyi kimsə istisna olmaqla nəfs pis işlər görməyi əmr edər".[3] Bu ayədə nəfs mənfi tanıtdırılır. Amma

---

1Nəfsin saflaşdırılması, müəllif: İslam alimi və Ayətullah İbrahim Əmini h.ə, Bakı. 2017, səh. 22/29, 60/73.

2Ğurərul-hikəm, c. 1, səh. 96.

3Yusuf, 53.

bəzən o sevgi ilə yad edilir: "Ey arxayın nəfs, dön rəbbinə, sən Ondan, O da səndən razı halda".[1]
"İnsan deyəcək: "Ey kaş, əvvəlcədən axirət həyatım üçün bir iş görəydim".[2]
"Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyil. Axirət aləmi isə şübhəsiz ki, əbədi həyatdır".[3]

Gözlərini dünyaya qapayan insan əbədi həyata düşdüyünü anlayır. İnsan bilməlidir ki, nəfsin şirin vədləri yalnız ölümə qədərdir.

İmam Sadiq (ə.s) buyurur: "Sən özün-özünə həkim olmalısan. Həm dərdin, həm də dərmanın sənə tanıtdırılıb. Aqil insan heç zaman sağlamlığı qoyub dərdi götürməz…".

Müasir ya ikinci cahiliyyətin mənası odurki onu elan edənlər bəşərin fərdi və kollektiv əlaqələrindən və həyatından Allahın (c.c) kitabının və ruhunun çıxdığını deyirlər. Materialist və müsəlman olmayan alimlər və mütəfəkkirlər XVIII-ci əsrdən etibarən kamillik və elm rəmzi kimi böyük rəğbət qazanmağa, tarixin inkişaf qanunlarını təsbit etməyə başladılar. Bu əsrdə yeni mədəniyyət və texnologiyanın sürətlə inkişafına baxmayaraq bu dövr birinci cahiliyyət dövründən daha çox pisdir. Söhbət ondan getmir ki, kamillik və elm yəni gözəl həyat müasir şəhərlər, cah-cəlallı dünya və yer üzündə ən bəsit həyat nümunələri ilə müqayisədə yanaşı qoyulmamalıdır. Mövzu ondan ibarətdir ki, həyatın müasir surətinə həyatı yüngülləşdirən müasir cihazların istifadəsinə əbəs köklər və izahatlar salınmasın. Bu əsrdə küçələrin gündüz kimi nura qərq olması fonunda, ən əsas insanın ruhu, qəlbi və mədəniyyəti qaranlığa qərq olmasın. Diqqətə layiqdir ki, bizim

1Fəcr, 27/28.
2Fəcr, 24.
3Ənkəbut, 64.

təsəvvürümüzə və təxminimizə baxmayaraq texnalogiya və müasir mədəniyyətlə dolu əsrimizdə ikinci və ya müasir cahiliyyət birincisindən daha çox pis şəkildə zühur edir. Cəhalətin cənginə aldığı dünyanı yalnız həzrəti Bəqiyyətullah (ə.f.) islah edəcəkdir.

"Bu gün kafirlər sizin dininiz(i məhv edib aradan apara biləcəklərin)dən ümidlərini kəsiblər".[1]

İmam zaman Ağanın (ə.f.) hökumətinin yaranması və zühur etməsi üçün ən mühüm və ümdə səbəblərdən biri cəhalətə və insan cəhlinin, səfihliyinin doğulduğu zülmətlərin dağıdılması zərurətidir. Cahiliyyə və onun səfihliyi insanı əbədilik zirvəsindən heyvani mərtəbəyə endirmiş və bunu rasionalizm bəhanəsi ilə etmişdir. Bu barədə Qurani-Kərimdə və məsum imamların (ə.s.) rəvayətlərində deyilir. Bəqiyyətullahın (ə.f.) cahiliyyəyə qarşı gözlənilən mübarizəsi barədə xeyli sayda hədis və rəvayətlər var və biz onlardan bir neçəsini misal gətirməklə kifayətlənirik:

"Əgər sənə itaətsizlik etsələr, de: "Mən sizin etdiklərinizdən (sizin çirkin və batil işlərinizdən) uzağam. Və o qadir, qalib və mehriban (Allaha) təvəkkül et".[2]

"Allah rəsulu (s) buyurur: "Kim mənim sünnəmdən üz çevirərsə, məndən deyildir".[3] İslam peyğəmbəri (s) daha sonra buyurur: "Axır zamanda mənim ümmətim hökmranlar tərəfindən ağır bəlalara məruz qalacaq. Belə ki, ondan ağır və şiddətlisi eşidilməmişdir! Hətta yer üzü bu qədər genişliyi ilə belə, onlara dar olacaq, zülm və haqsızlıq hər yeri tutacaq. Mömin bir kəs zülmdən pənah aparmağa yer üzündə bir yer tapmayacaqdır. Bu zaman Allah-təala mənim sülaləmdən olan

---

1Maidə, 3.
2Şuəra, 216/217.
3Səhihi-Buxari, nigah-1, Səhihi-Müslim, nigah-5.

bir nəfəri göndərəcək ki, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldursun. Göy və yerin sakinləri ondan razı olarlar, yer üzü özünün bütün toxumlarını cücərdər, səma bütün yağışını onun üzərinə tökər (və hər yeri xeyir-bərəkət bürüyər)!” [1]

Həzrəti Əmir (ə.s) buyurub: “Zühuru (Ali-Məhəmmədin (s) zühurunu) gözləyin və Allahın rəhmətindən ümidinizi üzməyin. Heç şübhəsiz, Allah dərgahında ən üstün əməllərdən biri də onun zühurunun intizarında olmaqdır”.[2] Yeri gəlmişkən həzrəti Əmir (ə.s) Allah rəsulundan (s) nəql edərək buyurur: “Onun qeybi dövründə dünyaya gələn şəxs zamanının imamını tanıyıb qəbul etmədən ölərsə cahil kimi (cahiliyyə dövrünün insanı kimi dinsiz, imansız) ölmüşdür”. Və başqa bir hədisdə isə Allah rəsulu (s) belə buyurmuşdur: “Yer üzü zülm və düşmənçiliklə dolacaqdır və həqiqətən bizim Əhli-beytdən (ə.s) olan kişi qiyam edəcəkdir ki, yer üzünü ədalətlə doldursun. Necə ki, düşmənçilik və zülmlə dolmuşdur”.[3]

De: “Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm”.[4]

“İmam Əbu əl-Abbas əl-Muğstağfiri “Dəlailun-Nubuvvəti val-Mucizat” kitabında Mehdi haqqında Abdullah ibn Məsuda (Allah ondan razı olsun) qədər sənədlə rəvayət edər: “Rəsulullah (salləllahu aleyhi və sələm) bu cür buyurmuşlardır: “Günlər və gecələr tükənmədən Allah əhli beytimdən adı mənim adımdan, atasının adı atamın adından olan bir adam göndərər. Yer üzü necə zülm və cövr ilə

1əl-Müstədrəkü ələs-səhiheyn, c. 4, səh.465. Heydərabad çapı.
2Biharul-ənvar, c. 52, səh.123.
3Biharul-ənvar, c. 5, səh. 73.
4Şura, 23.

doldurulldu isə o da ədalət ilə doldurular…”[1] “Bunlar (Allahın dərgahına, lütfünə və mərhəmətinə) yaxın olanlardır”.[2]

Qurani-kərimin “Əhzab” surəsinin 33-cü ayəsi vasitəsilə Hz Əmir (ə.s) və Xanım Fatimənin (s.ə) uca Allah tərəfindən məsum olduğu göstərilir. Mübarək ayədə buyurulur: “Ey Əhli-beyt (ə.s), həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) aparmaq və sizi pakdan-pak etmək istər!” Bütün İslami mənbələrdə qeyd olunan məlumatlara əsasən sözü gedən ayə məhz peyğəmbər (s) və Əhli-beytinə (ə.s) yəni hz. Əmir (ə.s), Xanım Fatiməyə (s.ə), imam Həsənə (ə) və imam Hüseynə (ə) aiddir.[3]

Həzrət Fatimeyi-Zəhranın (s.ə) “Səhifə”sində belə buyurulur: “(Allah-təala buyurdu ki:) …Kainatda olanlara Öz rəhmətim sayəsində vəsilər silsiləsini Həsən Əskərinin (ə.s) oğlu ilə tamamlayacağam. O, (bir kəsdir ki;) Musanın (ə) kamalına, İsanın (ə) heybətinə və Əyyubun səbrinə malikdir...” [4]

“İman gətirənləri xalis etmək və saflaşdırmaq, kafirləri tədriclə məhv etmək üçün!”.[5]

“Nəhayət, müsəlmanların əmiri Hz.Mehdi (ə.f) Məryəm oğlu İsa (ə.s.) deyər: Gəl bizə namazda imam dur. Bunun qarşılığında Hz.İsa (ə.s.): Xeyr, Allahın bu ümmətə bir ikramı

---

1Məhəmməd ibn Məhəmməd ibn Mahmud əl-Hafizi əl-Buxari, “Faslul-Xitab” kitabı, səh. 553-557, No: 45.

2Vaqiə, 10/11.

3Siyuti. Əl-İtqan. II c., səh. 563; Fəxrəddin Razi. Məfatihul-ğeyb, VI c. səh. 7; Tarixi Bağdadi, X c., səh. 278; Təfsiri Zəməxşəri, I c., səh. 369; Buxari Fədulbəyan, II c, səh. 265; Siyuti. Əbdurrul-Mənsur, V c., səh.198.

4Kəmalud-din, c. 1, fəsil. 28, hədis.1, səh.569.

5Kəmalüd-din, c.1, s.265.

olaraq sizin bir qisminiz digər bir qism üzərinə əmirlərsiniz – deyər”.[1]

“Musa öz qövmünə dedi: “Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz, yer üzü Allaha məxsusdur və istədiyini onun varisi edir”.[2]

Böyük filosof və astronom N.Tusi “Təsridül-əqaid” kitabında yazır: “İmamın istər aşkar, istərsə də gizli varlığı bəşəriyyət üçün böyük mənəvi nemət və Allaha yaxınlaşma vasitəsidir...”

“Biz (isə) istədik ki, o yerdə (məmləkətdə) zəif salınmışlara mərhəmət göstərək və onları (camaata) imam, (yer üzünə) varis edək”.[3]

Yəqin çoxları bu məşhur hədisi oxuyub və ya eşidib: “Əhməd öz “Müsnəd” kitabında Əbu Salehdən, o da Müaviyyədən Peyğəmbərin (s) belə dediyini qəbul edir: “Bir kəs imamı olmayan halda ölərsə, o cahil kimi dünyadan köçmüşdür”.[4] IV əsr (h.q) əhli-sünnə rəhbərlərindən olan İbn Həbban Asim ibn Əbi Nəcvəddən (yeddi Quran qarisindən biri olub), o da Əbi Salehdən, o da Müaviyyədən Peyğəmbərin (s) belə dediyini nəql edir: “Hər kəs imamı olmadan dünyadan köçərsə, cahil kimi dünyadan köçmüşdür”.[5]

Nasuriddin əl-Albani də bu hədis və ravilərinin siqə olduğunu söyləmişdir. Bu hədisi ibn Əbi Asim də özünün “Əs-sünnə” kiatabında da elə məhz bu formada nəql etmişdir”.[6]

“Füzeyl İbn Yəsar deyir: "İmam Sadiqin (ə.s) hüzurunda idim. Həzrət (ə.s) söhbətə başladı və Peyğəmbərin (s) belə buyurduğunu dedi: "Hər kəs İmamı olmayan halda ölərsə,

---

1Səhihi-Müslim, c.1, səh. 209.

2Əraf, 128.

3 Qəsəs, 5.

4Müsnəd Əhməd, c. 4, səh. 96.

5Səhih İbn Həbban, c.10, səh.434.

6əs-Sünnə, c.2, səh.503.

cahiliyyət dövünün insanı kimi dünyadan getmişdir. Mən: “Hər kəs imamsız ölərsə, ölümü cahil insanın ölümü kimidir?” – deyə soruşdum. İmam (ə.s) buyurdu: “Bəli”.[1]

Digər hədisi də Şeyx Kuleyni (r.ə) bu sənədə əsasən nəql edir: Əhməd ibn İdris (Şeyx Kuleyninin hədis müəllimlərindən) Əbu Əli Əşəridən (Siqə və şiənin seçilən hədis ravilərindəndir), o da Muhəmməd ibn Əbdül Cəbbardan, o da Səffanbin Yəhyadan, o da Füzeyldən, o da Haris ibn Müğeyrədən belə nəql edir: "İmam Sadiqdən (ə.s) soruşdum: "Peyğəmbər "hər kəs İmamı olmadan ölərsə, cahil və dinsiz kimi ölmüşdür" – buyurubmu?"

İmam (ə.s) cavab verdi: "Bəli". Mən imamdan: "Belə bir şəxsin ölümü cəhalət və nadanlıqda dünyadan getmiş şəxsin (cahili qasir, yəni məlumatsız və anlamaz birinin) ölümü kimidir? Yoxsa İmamını tanımayan cahil (cahili müqəssir) bir şəxsin ölümü kimidir?" – soruşduqda İmam (ə) belə cavab verdi: “Küfr, nifaq və azğınlıqda olan bir şəxsin ölümü kimi”.[2]

---

1əl- Kafi, c.1, səh.376.

2Kafi, c.1, səh.377.

## Nəticə

Modern cəhalətin qarşısının alınmasında Şərq və Qərb fəlsəfi baxışlarının mühüm rol oynadığı inkaredilməz faktdır. Müasir dövrdə dinlərarası dialoq ümumdünya əxlaqının yaranmasına gətirib çıxaracaqdır. Çünki dinlərdə ümumbəşəri dəyərlər təbliğ edildiyindən, nəinki dinə mənsub olanlar, hətta qeyri-dini təmayüllərin tərəfdarları da ümumbəşəri dəyərlər baxımından həmrəylik nümayiş etdirərək ictimai cəhalətin yayılmasının qarşısının alınmasında əməkdaşlıq edə bilərlər. Modern cahilliyin qarşısının alınması prosesində dini sahədə dialoq həm bir dinə mənsub qrupların, həm də fərqli dinlərə mənsub insanların inanc və düşüncələrini bir-birlərinə məcburi və ya qeyri-etik yollarla qəbul etdirmə təşəbbüsündən olmadan, ortaq məsələlər ətrafında tolerant şəraitdə danışa bilməsi, müzakirə edilə bilməsi və əməkdaşlıq qura bilməsi deməkdir. Dinlərarası dialoqun zəruriliyi ideyası müasir dövrdə hərtərəfli müdafiə olunmalıdır. Çünki İslam dini bir çox əsrlər boyu yəhudi-xristian dəyərlərinin düşməni olmuş və bu gün də onların düşməni olaraq qalır. Sözün geniş mənasında dialoqun baş tutması o deməkdir ki, bu prosesin iştirakçıları arasında birinin digəri ilə qarşılıqlı şəkildə uyğunlaşması özünü göstərir, nəticədə xalqlar arasında modern cəhalətin yayılmasının qarşısı qisməndə olsa alına bilər.

Bu modern cəhalətin yayılması probleminin həll olunması üçün isə ağıl və hidayət prosesi ilə dinlərarası dialoq siyasətinin qarşılıqlı əlaqəsinin yollarının göstərilməsi önəmlidir. Ağıl və hidayət prosesinin hər bir dövlət üçün müsbət təsirləri özünü göstərir və bir neçəsini qeyd edək.

Müsbət cəhətlər aşağıdakılardır:

1. Xaricə ağıl və hidayət edən şəxslərin əldə etdikləri maddi gəlirlərdən eyni zamanda onların vətəndə qalan

qohum-əqrəbalarına yararlanırlar. Bu həm pul kütləsinin ölkə iqtisadiyyatında dövriyyəyə buraxılmasında, həm də sosial-iqtisadi cəhətdən imkansız olan ailələrin maddi rifahının yaxşılaşması deməkdir.

2. Ağıl və hidayət nəticəsində əmək bazarında rəqabət azalır və işə götürülən zaman digər təhsilli insanların (xaricdə oxumayan) işlə təmin edilməsinə imkanlar yaradılır.
3. Ağıl və hidayət eyni zamanda xaql diplomatiyasının bir qoludur. Xarici ölkələrdə təhsil alan və çalışan gənc və yaşlı ağıl sahibləri dövlətinin diplomatik nümayəndəsi kimi missiyanı üzərlərində daşıyırlar.

İndiyədək dünyanın müxtəlif ölkələrində o cümlədən də Sovet İttifaqının süqutu ilə postsovet məkanında dini dəyərlər yenidən aktuallıq kəsb etməyə başladı. Lakin sərhədlərin açılması və əhalinin bəzisinin dini savadsızlığı kənardan ölkəyə qeyri-ənənəvi dinlərin, radikal İslamçı hərəkatların daxil olmasına və onların əhali arasında öz tərəfdarlarını yaratmasına (modern cəhalətin yayılmasına) səbəb oldu. Buna görə də keçmiş postsovet ölkələrinin cəmiyyətini müxtəlif mədəniyyət və dinləri (həmçinin dini-ideoloji cərəyanları) öz geyim, saqqal stili, davranış və baxışları ilə təmsil edən fərqli sosial qruplar əvəz etdi (bu proses davam edir). Keçmiş postsovet ölkələrində sərbəst geyim və davranışları ilə seçilən Qərbyönümlü gənclərlə yanaşı, hicab geyinən xanımları da müşahidə edirik. Hətta dindar xanımlar arasında da geyim (qara niqab və Lə İləhə İlləlləh və Məhəmmədun rəsulullah yazılı əlçək taxmaqla), davranışları və baxışlarına görə fərqlənənlər vardır. Bununla belə dindar xanımlar arasında öz hüquq və azadlıqlarını araşdıran ziyalı xanımlar da çoxluq

təşkil edirlər. Çünki sovet dönəmində cəmiyyətin dindar təbəqəsi, xüsusilə müsəlman xanımlar sanki cəmiyyətdən təcrid olunan bir fenomen kimi dəyərləndirilmişlər. Buna görə də onlar özlərini təsdiq etmək üçün adətən internet və KİV-dən istifadə edərək müsəlman xanımların hüquqlarını və onlar üzərinə düşən vəzifələri xanımlarla bölüşürlər. Çünki cəmiyyətdə ateist və deist düşüncəli liberal feminizm ideyaları dindar xanımların əks müqavimətinə şərait yaradır. Bu qarşıdurma tədricən regional müstəvidən çıxaraq qlobal müstəvidə gedən liberalizm və antiliberalizm qarşıdurmasında əks olunur. Buna görə də keçmiş postsovet ölkələrində xanımlar internet, beynəlxalq tədbirlər və vebinarlar vasitəsilə beynəlxalq sekulyar feminizmin və İslam feminizmi hərəkatlarına qoşulurlar. Bu artıq informasiya texnologiyaları vasitəsilə müxtəlif sivilizasıyalarda qloballaşan müasir dünyanın gerçəkliyidir. Buna baxmayaraq, cəmiyyətdə İslam maarifçiliyinin aşağı səviyyədə olması elmi şəkildə deyil, bir dəb şəklində yayılması cəmiyyətdə müəyyən sosial-mədəni problemlərin ortaya çıxmasına şərait yaratmışdır. Çünki cəmiyyət həm İslam, həm də ümumi təhsil sahəsində axsayır. Hər iki istiqamətdə aparılan maarifçilik işləri onların arasında müəyyən kəsişən məqamların ortaya çıxmasına və bəzi problərin cəmiyyətdə həll olunmamasında şərait yaradır. Bu həm ölkənin milli-mənəvi birliyini, həm də cəmiyyətdə modern cəhalət bəlasının yayılmasını artırır.

Müasir Şərq və Qərb cəmiyyətinin inkişafının bəzi mərhələlərində və siyasi qərarların verilməsində açıq-aydın modern cəhalətin yayılmasını görmək olar. Xüsusilə ilə Qərb nümunəsindəki "universal imperalizm" kimi dəyərlər. Nəticədə bir sıra ideya-siyasi cərəyanlar meydana çıxmışdır ki, bunlardan biri kimi, bəzi ərəb müsəlman ölkələrində dini-siyasi ideologiyanı misal göstərə bilərik: İraqda şiə və sünnü

qarşıdurması və yaxud da, Suriya və Libiyada vətəndaş müharibəsi, Əfğanıstanda əl-Qaidənin orduya qarşı hücumları və s. XXI əsrdə Qərbin Şərqdəki müstəmləkə ekspansiyasına, onun hərbi-siyasi və mədəni-ideoloji fəaliyyətdə meydan oxumasına şərait yaradan bir neçə mənfi amili qeyd edək.

Mənfi cəhətlər:

1. İlk olaraq bəzi müsəlman ölkələrinin hakimiyyətində kadr dəyişikliklərinin olmaması faktı.
2. Ali məhkəmələrin ədalətli qərar qəbul etməməsi.
3. Səhiyyə sistemində yüksək ixtisaslı həkimlərin kifayət qədər çatışmamazlığı və dövlət tərəfindən xalqa ödənişsiz tibbi yardımların olmaması.
4. Ölkənin elmi potensialına dəyən ciddi zərər nəticədə siyasi, sosial, iqtisadi və hüquqi inkişaf istiqamətində yeni fikirlərin olmaması. Eyni zamanda orta məktəb və ya ali təhsil ocaqlarına o cümlədən dövlət idarələrində hicab qadağası.
5. Ölkənin strateji müəssisələrində savadlı kadr böhranı və yeni ixtiraların yoxluğu.
6. İslam alimlərinin Qurani-kərim və Əhli-beytin (ə.s) kəlamları ilə açıq-şəkildə insanları maarifləndirməsinin qarşısının alınması.
7. Ailələrin dağılması, genetik inkişafın qarışıq nikahların sayəsində balansının pozulması.
8. Ölkə daxilində elm və təhsilə marağın azalması.
9. Elmi və təhsil müəssisələrində çalışmaq istəyən insanların sayının azalması.
10. Savadsız kadrların əlacsızlıqdan müxtəlif işlərə cəlb edilməsi və nəticədə istehsalatda problemlərin doğulması.

11. Zəka axınına qoşulanların əksər hissəsinin əməklərinin və zehinlərinin istismarı.
12. Ölkədən çox sayda vətəndaşın xarici ölkələrə miqrant kimi axını.
13. Xarici ölkələrin ideoloji təsirlərinin ölkə daxilində yayılması (din, kosmopolit) və s.

Belə çıxır ki, bu cür ölkənin sosial-iqtisadi inkişafının tənəzzülə uğraması, həm cahil və nadan ekstremistlər üçün əlverişli şərait yaradır, həm də ölkədəki iqtisadi sıxıntı içində olan xalqın kükrəməsindən və o biri tərəfdən də xarici qüvvələrin dəstəyi vasitəsilə ölkədə ən dəhşətli vətəndaş müharibəsinin başlanmasına gətirib çıxarır. Nəticədə həmin ölkənin ilk və yaxuda da, modern cəhalət bataqlığında batması anlamına gəlir. Bu cür xoşagəlməz situasiyaların baş verməməsi üçün iqtidarın xalqın rifahı üçün istənilən sahədə dövlət hesabından maliyyə ayırmasıdır. Həmçinin müəyyən çərçivə müstəvisində də cəmiyyətə söz azadlığı hüququ verilməlidir. Bir millət iqtidar tərəfindən sıxıldıqca və əzildikcə aqibəti yuxarıda qeyd etdiyimiz kimi ölkə böyük zərərlər ilə nəticələnə bilər.

Fikrimizcə modern cəhalətin yayılmasının qarşısını almaq üçün ölkədə mövcud olan problemlərə xüsusi diqqət yetirmək önəmlidir. Araşdırmalarımız onu göstərir ki, bu gün bəşəriyyətin ağıl və hidayət prosesinə qoşulmalarına şərait yaradan sosial-iqtisadi, dini dəyər və inanclara qarşı olan problemlərin qarşısının alınması istiqamətində hər bir dövlət tərəfindən addımlar atılmasına baxmayaraq, bu insanların modern cəhalət bəlası prosesinə qoşulmasını əngəlləyə bilmir.

## İstifadə olunmuş mənbələr


1. Qurani-kərim.
2. Nəhcül-Bəlağə, Seyid Rəzi.. Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev, Nurlar, Bakı, 2006.
3. Asarus-Sadiqin, Ayətullah Ehsan Bəxş, Əhli-beyt (ə.s) Tədqiqat və Nəşriyyat İnstitutu tərəfindən nəşr olunmuşdur.
4. “Biharul-Ənvar”, Muhəmməd Baqir ibn Muhəmməd Təqi ibn Əl-Məqsud Əli əl-Məclisi.
5. “Böyük Şirkdə Cəhalət kitabı”, Şeyx Ali ibn Xudayr , Tərcüməçi: Mahmud Talib.
6. “Bilik”, Fərman Eyvazov, Azərbaycan SSR Cəmiyyəti, Gənclik Bakı. 1981.
7. “Buluğul-ərəb fi mərifəti əhvalul-ərəb”, Seyyid Məhmud Şükri Alusi Bağdadi, çap Misir Kitab Evi.
8. “Əl-Camius-sağir”, Cəlaləddin Siyuti, İlk çapı 1286-cı il Qahirə şəhərində, cild II / 2144.
9. “Əl-Ehticac, Əbi Mənsur Əhməd ibn Əli ibn Əbi Talib ət-Təbərisi, Mənşuratuş-şərif ər- Rəzi, 1385 h.
10. “Əl-Əmali”, Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Beyrut, Muəssisətul-ələmi lilmətbuat, 2009.
11. “Əl-Ərəb qəbləl-İslam”, Cavad Əli, 1442 q, 2006 m.
12. “Əd-Durul-mənsur”, Cəlaləddin Əbdurrəhman bin Əbu Bəkr Siyuti, Beyrut, Darul-fikr, 2011 m.
13. “Əl-İtqan fi ulumil-Quran”, Cəlaləddin Əbdurrəhman bin Əbu Bəkr Siyuti, Beyrut.
14. “Əs-Sünnə”, Əhməd ibn Hənbəl, Əlmətbətus-sələfiyyə, 1349 h.

15. “Əl-Müstədrəkü ələs-səhiheyn”, Hakim əl-Nişaburi, Heydərabad
16. Ər-Rihaniyyət, Əmin Rihani, Hindavi, 2012.
17. “Əs-Səhifə əs-Səccadiyyə”, Həzrəti imam Səccad (ə.s)
18. Furuğe-Əbədiyyət, Cəfər Sübhani. Tərcüməçi Mais Ağaverdiyev, Bakı, “Şərq-Qərb”, 2010.
19. ‟Həzz və İztirab”, Fəlsəfə elmləri doktoru, professor Ziyəddin Göyüşov, Azərbaycan dövlət nəşriyyatı, Bakı – 1969.
20. “İslam və ərəb mədəniyyəti”, Qustav Le Bon, Hindavi, 2012.
21. “İslam Əxlaqı”, Əhmədağa Əhmədov, Bakı, 1993.
22. “İslam Təlimi”, Azərbaycan alimi və dosent, Əhmədağa Əhmədov.
23. İslamda Əqidə Əsasları, Cəfər Sübhani. Tərçüməçi Elşən Mustafaoğlu. Bakı Mirasnəşr, 2012.
24. Kəmalud-din və təmamun-nemə”, Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, 1405-ci hicri.
25. Əl-Burhan fi alamətil-Məhdiyyil-axiriz-zəmən, Darus-səhabə litturas, Əli bin Hisamud-din, 1992, birinci çap.
26. Kənzul-ümmal, Əlaəddin Əli Müttəqi ibn Hüsaməddin, Beyrut, muəssisə ər-risalə, 1985, beşinci çap.
27. “Hamımıza dair” məqaləsi, Axund Molla Ruhulla Məmmədzadə, İrşad qəzeti 1906-ci il
28. “Quran və sünnədə ağıl və cəhalət”, İsmayıl Şafei Sarostani
29. “Kitabul-Qeybət”, Məhəmməd ibn İbrahim ən-Nomani, Tehran, Məktəbətu əs-Səduq, 2016,
30. “Mirati-Əxlaq”, Səlanikli Helmi, II-ci hissə, Cəhalət, Himaqət və s. Əlyazmalar İnstitutunun arxivindən.

31. “Meracus Səadə”, İslam alimi Şeyx Əhməd Nəraqi, Bakı – 2019
32. Mən lə yəhduruhul-fəqih, Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Livan, Beyrut, muəssisətul-ələmi lilmətbuat, 1986, birinci çap.
33. Mizanul-hikmət, Məhəmməd Məhəmmədi Reyşəhri, Livan, Beyrut, 2001, birinci çap.
34. Müqəddimətu İbn Xəldun, Əbu Zeyd Əbdürrəhman ibn Məhəmməd ibn əl Hədrami, Livan, Beyrut, 1992.
35. “Nəfsin saflaşdırılması”, İslam alimi və Ayətullah İbrahim Əmini, Bakı. 2017.
36. “Sadiq yol axtaranlar üçün İmam Sadiq (ə.s) nəsihətləri”. Məhəmməd Təqi Misbah Yəzdi. Bakı. 2010.
37. Səhihi-Müslim, Müslim ibn Həccac əl-Qəşiri Nişaburi, tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Qahirə, Darül-hədis, 1412 hicri-qəməri, birinci çap.
38. Təhzibul-əhkam, Məhəmməd bin Həsən Tusi, Darul-kutubul-islamiyyə, 1365 ş, dördüncü çap.
39. Üsuli-Kafi”, Məhəmməd bin Yəqub Kuleyni, Darul-kutubul-islamiyyə, 1363 ş, beşinci çap.
40. “Nurus-Səqəleyn”, Şeyx Əbdəli ibn Cümə Ərusi, Qum, 1963.
41. “Tövhid kitabı”, Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Bəbaveyhi əl-Qummi, Tehran, 1967.

# Təsdiq sahəsində əxlaqın dinə ehtiyacı

**İlqar Əzimov**[1]

## Abstrakt

Mövzumuz "Təsdiq sahələsində əxlaqın dinə ehtiyacı" olduğu üçün ilk öncə din və əxlaqın tərifini nəzərdən keçirək, çünki məntiqi nöqteyi-nəzərdən mövzunun düzgün tərif olunması mövzu haqqında düzgün bilgi əldə etməyə zəmin yaradır. "Din" ərəb sözü olub, lüğətdə mükafat mənasını ifadə edir. "Din vəhy ilə gələn, insanların Quran və sünnə vasitəsilə doğru yola hidayəti üçün onlara çatdırılan həqiqətlər və dəyərlər toplusudur. " "Əxlaq" xülq sözünün cəm formasıdır: xəlq və xülq sözləri ərəb mənşəli olub, eyni kökdən götürülmüşdür, lakin məna etibarı ilə bu sözlər bir-birindən fərqlənir: "xülq" daxili xüsusiyyəti, "xəlq" isə zahiri formanı nəzərdə tutur. İnsanlarda müşahidə olunan hər bir daxili keyfiyyət, əməl və hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

**Açar sözlər:** Din, Əxlaq, Kamillik, Təkmilləşdirmə, Ehtiyac

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Giriş

“Xalis və doğru olan dinə tərəf üz tut! Bu İlahi fitrətdir. Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişkənlik yoxdur. Möhkəm din budur, lakin insanların əksəriyyəti (bunu) bilmirlər.”

“Əxlaqda qeyd olunan “pis” və “yaxşı” məfhumları insanın ixtiyari işləri ilə həmin işlərin son nəticəsi arasındakı əlaqə növünü göstərir. İnsanın hər hansı işi onun son xeyir məqsədi ilə müsbət əlaqədədirsə, həmin iş “yaxşı”, mənfi əlaqədədirsə “pis” sayılır.

İdrak - Obyektin özünün və ya əksinin insan varlığında hazır olması ilə yaranan şüurlu aktiv prosesdir və bu prosesdə insan varlığında yer alan obyekt, yaxud onun əksi, bilik adlanır.

Fəzilətlərin ən üstünü, kamalın ən son həddi məhz ədalətdir. Ədalət varsa, deməli, bütün fəzilətlər də vardır. Ədalətin əksi zülmdür, zülm də bütün qəbahətləri özündə toplayır. Ədalət də elə bir xüsusiyyət, elə bir keyfiyyətdir ki, onun sayəsində bütün işlər normal həddə tənzimlənir, insanın nəfsindəki müxtəlif qüvvələr arasında uyğunluq yaranır, qüvvələrdən biri digərinə qarşı çıxmır.

## Təsdiq zəmanəti sahəsində əxlaqın dinə ehtiyacı
## İslam - fitrət dini

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا ۚ فطرة اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا ۚ لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ۚ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

“Xalis və doğru olan dinə tərəf üz tut! Bu İlahi fitrətdir. Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişkənlik yoxdur. Möhkəm din budur, lakin insanların əksəriyyəti (bunu) bilmirlər.”[1]

---

1. Quran: Rum surəsi, ayə: 30.

İslam dini sonuncu və ən kamil din olduğu üçün onun bütün qayda -qanunları insan fitrəti (yəni "anadangəlmə xüsusiyyətlər") ilə uyğundur və həyatın müxtəlif sahələrində insana nicat (xilas) yolunu göstərir. Beləliklə, dinlər içərisində son və haqq din İslam dini olduğu üçün dinin İslama uyğun tərifini qeyd edirik:

"Din" ərəb sözü olub, lüğətdə mükafat mənasını ifadə edir.

"Din vəhy ilə gələn, insanların Quran və sünnə vasitəsilə doğru yola hidayəti üçün onlara çatdırılan həqiqətlər və dəyərlər toplusudur. "

Bəşərin səadəti istər bu dünyada, istərsə də axirətdə gündəlik həyatın müxtəlif (həm fərdi, həm də ictimai) sahələrində İslami qayda - qanunlara əməl etməklə birbaşa bağlıdır.

İslam dini əsas üç mühüm sahəyə ayrılır:

1. "Üsuliddin" adlanan əqidə sahəsi insanın fikir və əqidəsinin islah olunması üçün nəzərdə tutulubdur. Bu sahə əqidə məsələləri ilə bağlı olduğuna görə, hər bir müsəlman həmin məsələlərdə əminlik əldə etməli, əminlik isə dəlil - sübuta əsaslanmalıdır.

2. "Firuiddin" – "Fiqh" və ya "Əhkam" adlanan sahə isə əməli göstərişlər sahəsidir ki, insan Allaha itaət etmək məqsədilə bir sıra əməlləri yerinə yetirməli, bir sıra əməllərdən isə çəkinməlidir.

3. "Əxlaq" adlanan psixoloji və rəftar sahəsi isə insanın ruh və rəftarının islahından bəhs edir.

Sadə bir bənzətmə ilə bunu belə ifadə etmək olar: İslam dini sanki bir ağac, üsuliddin bu ağacın kökləri, firuiddin onun gövdə və budaqları, əxlaq isə sanki , onun yarpaq və meyvələridir: gözəl əxlaq şirin meyvə, çirkin əxlaq çürük meyvə !

Bu misaldan aydın görünür ki, ağacın əsas məqsədi, şirin dadlı meyvənin əldə olunmasıdır, lakin meyvənin əldə olunması üçün ağac sağlam kök, möhkəm gövdə və budaqlara malik olmalıdır.

Bu üç sahəni nəzərdən keçirsək, görərik ki, əqidəyə aid məsələlər praktiki məsələlər deyil, yəni birinci sahədə yalnız bu əqidələrə sarılmaq və onlara səmimiyyətlə inanıb, dildə etiraf etmək tələb olunur. Fiqh və əxlaq məsələlərinin məzmunu isə fərqlidir, çünki bu iki sahədə bir sıra İlahi qanunlar və dəyərlərə istinad edən qaydalarla üzləşirik. Məsələn, namaz qılmağın vacib olması, özünü başqalarından üstün tutmağın pis olması kimi digər fiqhi və əxlaqi təlimlər təkcə inanılası əqidələr yox, həm də İlahi qanunlar və dəyərlər toplusuna aid olan əməllərdir. Deməli, İslam dini özündə həm həqiqətləri, həm də dəyərləri əhatə edən bir dindir.

Əxlaq İslam dininin əsas sütunlarından biri olduğu üçün, əxlaqın da tərifinə diqqət etməliyik. Beləliklə, “Əxlaq” xülq sözünün cəm formasıdır: xəlq və xülq sözləri ərəb mənşəli olub, eyni kökdən götürülmüşdür, lakin məna etibarı ilə bu sözlər bir-birindən fərqlənir: “xülq” daxili xüsusiyyəti, “xəlq” isə zahiri formanı nəzərdə tutur. İnsanlarda müşahidə olunan hər bir daxili keyfiyyət, əməl və hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

## Müsəlman mütəfəkkirlərinin "Din və Əxlaq" barədə görüşləri

İslam filosofları və sxolastları (mütəkəllimləri) arasında hicri IV və V əsrlərdə geniş yayılmış "işlərin yaxşı-pisliyinin zati[1] olub-olmaması və bunun müstəqil ağıl qüvvəsi tərəfindən edilib-edilməməsi" bəhsi əslində din və əxlaq mövzusunun ilkin təzahürü idi.

Həmin bəhsin mahiyyəti haqqında bunu demək olar ki, İslam sxolastikasının erkən çağlarında, yəni hicri IV və V əsrlərdə mütəkəllimlər arasında belə bir məsələ müzakirə olunmağa başladı ki, insan ağlı dini hökmlərə və qanunlara müraciət etmədən, işlərin yaxşı və ya pis olduğunu dərk edə bilərmi? Bu problemi digər formada da ortaya qoymaq olar: "İnsanın yerinə yetirdiyi işlərin Allah tərəfindən pis və ya yaxşı olması göstərilməsə, həmin işlər öz-özlüyündə zati olaraq pis və ya yaxşı adlana bilərmi? "

Göründüyü kimi, müsəlman dünyasında sxolastik bəhslərin formalaşdığı ilk çağlarda dinin əxlaqla qarşılıqlı münasibəti əsas müzakirə obyektinə çevrilmişdi. Həmin vaxtlar məsələnin öz həllini tapmasında müsəlman mütəfəkkirlər tərəfindən iki yol təklif edildi: əşərilik və mötəzililik.

Əşərilik cərəyanı işlərin yaxşı və pisliyinin tam şəkildə Allahdan asılı olduğunu, mötəzililik (xüsusilə də, imamilik) təlimləri isə bütün işlərin deyil, bəzi işlərin yaxşı və pisliyinin ağıl tərəfindən dərk edildiyini bildirmişlər.

---

1. Ərəbcədir: 1. Əsil, mənşə, mahiyyət, kök, nəsil, nəsəb. 2. köhn. Şəxs, adam, şəxsiyyət, sima. 3. Özü, öz nəfəsi, öz varlığı.

İndi din və əxlaq münasibətləri barədə irəli sürülən həmin iki görüşlə, daha sonra isə digər müsəlman filosofların bu haqdakı fikirləri ilə tanış olacağıq.

**Əşərilik**

Kəlam elmində əsas qollardan biri kimi, hicri tarixi ilə IV əsrin əvvəllərində Əbülhəsən Əl-Əşəri tərəfindən yaradılan əşərilik dini-fəlsəfi təlim kimi tanınır. Əslində bu məktəb həmin dövrdə İslam sxolastikasının digər fəal cərəyanı olan mötəzililik ilə mübarizə şəraitində yeni kəlam məktəbi kimi formalaşdı. Sözügedən məsələnin ("işlərin yaxşı-pisliyinin zati olub -olmaması və bunun müstəqil ağıl qüvvəsi tərəfindən edilib-edilməməsi") əşərilik məktəbi tərəfindən izahına gəldikdə, burada problemin qoyuluşu ilə bağlı bir məqam müqəddimə olaraq aydınlaşdırılmalıdır.

Öncə də qeyd edildiyi kimi, İslam sxolastikasında " din və əxlaq münasibətləri " bəhsi işlərin yaxşı və ya pisliyinin İlahi iradədən asılı olmaması mövzusunun müzakirəsi ilə başlamışdı. Burada bir məsələni vurğulamaq lazımdır ki, müsəlman mütəkəllimləri arasında mövcud olan bu problemin iki aspekti var idi. Daha doğrusu, həmin məsələ iki hissədən ibarət idi: birinci hissədə işlərin zati olaraq öz-özlüyündə yaxşı və ya pis adlana bilməsi, ikinci hissədə işlərin pis və ya yaxşı olmasının ağıl tərəfindən dərk olunub-olunmaması müzakirə edilirdi.

**Əşərilikdə problemin həlli**

Əşərilik məktəbi yarandığı dövrdə bəzən dini əqidələrin izahında ağıla istinad etsə də, bir sıra məsələlərdə ağlın rolunu tam inkar edirdi. Hər iki mərhələdə həmin münasibət müşahidə olunur, yəni Əl-Əşəri işlərin yaxşı və ya pis olmasını həm zati, həm də əqli idrak aspektindən tam İlahi iradə və qanunlara əsaslandırır. Deməli, əşərilik məktəbi baxımından heç bir iş öz

- özlüyündə yaxşı və ya pis deyil. Təkcə Allahın yaxşı və ya pis hesab etdiyi işlər həmin xüsusiyyətlərə malik ola bilər, həmçinin insan İlahi iradənin köməyi olmadan işlərin yaxşı və ya pis olduğunu dərk edə bilməz. Bu mərhələdə də son söz Allaha məxsusdur. Beləliklə, biz yalnız Allah-Taala tərəfindən günah adlanan işləri günah hesab etməliyik. Qeyd etmək lazımdır ki, Əl-Əşəri özünün “ Əl-Lümə ” əsərində rasional dəlillərdən istifadə etsə də, “ Əl-İbanə ” kitabında bütün əqli istinadlardan imtina etmişdir. Əşəri bütün əsərlərində işlərin yaxşı və ya pis olmasının zatiliyini dindən kənarda müəyyənləşməsini inkar etmişdir.

**İmamilik və mötəzililik**

İmamilik və mötəzililik cərəyanları öncə qeyd etmək lazımdır ki, din və əxlaq münasibətləri mövzusunda eyni mövqedən çıxış etmişlər. Onlar bəzi işlərin zati və dindən müstəqil şəkildə yaxşı və pis olduğunu təkid edirlər. Nəsrəddin Tusi bu ideyanın öncüllərindən olan mütəfəkkir öz “ Təcridül - etiqad” əsərində bildirir ki, biz bəzi işlərin tam rasional şəkildə pisliyini sübuta yetirə bilməsək, şəriət hökmlərini də qəbul edə bilmərik. O deyir: “Əgər bütün işlərin yaxşı və ya pis olmasını yalnız şəriət hökmləri və dinə əsaslandırsaq, bu vaxt məntiq hökm edər ki, şəriətin özünün düzgünlüyü iddia edilməməlidir. Misal üçün, əgər yalan danışmaq ağıl və zəka baxımından pis sayılmasa və yalan danışmağın pisliyinin şəriət mənbəyindən əldə edilməsini zəruri saysaq, bu vaxt Allah tərəfindən din gətirmiş peyğəmbərin də sözlərini və şəriətini qəbul etməyimiz zəruri olmayacaq. Çünki yalan danışmaq pis iş olmadığına görə peyğəmbərin sözlərinin yalan olması ehtimalı

mövcuddur. Beləliklə, onun peyğəmbərliyi sübuta yetməyəcək. ”[1]

Başqa sözlə, biz hətta peyğəmbərin sözünün düzgün olmasını təsdiq etmək üçün öncədən və tam müstəqil əqli idrak yolu ilə yalanın pisliyini dərk etməliyik. Çünki yalan danışmağın pisliyini şəriətlə əlaqələndirsək, bu vaxt şəriətin hökmlərini qəbul etmək məcburiyyətində qalmayacağıq.

Qeyd edək ki, insani əxlaq normalarının qəbulu digər bir fəlsəfi problemlə bağlıdır. Bu, insanın iradə azadlığına malik olub-olmaması məsələsidir. Əşərilik məktəbində bütün işlər Allahın iradəsinə aid edildiyinə görə insan azad iradə sahibi sayılmır. Bütün işləri ərsəyə gətirən Allah və Onun əzəli iradəsidir. Bu məqamda normativ əxlaq prinsiplərindən danışmaq cəfəngiyyatdır, çünki ənənəvi əxlaqda insanlara yaxşı işləri həyata keçirmək və pis işlərdən çəkinmək tövsiyyə olunur. Azad iradə olmayan yerdə isə insanlara bu qəbil tövsiyələr vermək tam mənasızdır. Deməli, əşərilik təliminin müddəalarından biri insanda azad iradənin imkansızlığıdır. Bu baxış ikinci dəstənin görüşlərində tam fərqlidir. Onlar insanın azad iradəyə malik bir varlıq olduğuna inanırlar. Buna görə də, insan azad təfəkkür və sağlam düşüncə sahibi olaraq bir sıra ümumi əxlaq qanunlarını dərk edə bilər. Beləliklə də, bu şəraitdə əxlaq prinsiplərindən danışmaq olar.

Əşərilikdə yaranan digər problem ondan ibarətdir ki, Allah-Taala çox rəzil insanları cənnətə, yüksək İlahi və insani dəyərlərə malik olan insanları isə cəhənnəmə ata bilər. Yəni Allah-Taala belə bir iş görsə, biz Allahı bu işinə görə qınaya bilmərik, çünki yaxşı və pis işləri tam İlahi iradə ilə əsaslandırsaq , bu vaxt Allahın bütün işləri yaxşı hesab edilməlidir. Onda Allahın yuxarıda qeyd etdiyimiz işləri də,

---

1. Hilli, “Kəşful murad fi şərhi təcridil - etiqad”, s. 303.

yaxşı hesab edilir, halbuki bu müddəa imamilik və mötəzililik təlimlərində qətiyyətlə rədd edilmişdir. Həmin təlimlərə əsasən, Allah-Taala ədalətlidir, Onun ədaləti qeyd olunan işlərin Allah tərəfindən həyata keçməsinə izin vermir. Buna görə də, bu iki İslam sxolast cərəyanlarına "ədliyyə" (Allahın ədalətini qəbul edənlər ) adı verilmişdir. Burada artıq daha bir suala cavab verməliyik: Ədliyyə cərəyanının din və əxlaq münasibətləri mövzusuna baxışında əxlaqın ümumiyyətlə, dindən asılı olmadığı bildirilir, yoxsa bəzi əxlaq qanunlarının müstəqil şəkildə dərk edildiyi təkid olunur?

Bu sualın cavabında bildirmək lazımdır ki, ədliyyə məktəbi təlimlərində bir sıra fundamental xarakterləri etik qanunların tam rasional müstəvidə aludə olması mümkün sayılır. Növbəti misallara diqqət yetirək:

Başqalarının hüquqlarına təcavüz etmək pisdir, zəif insanlara kömək etmək yaxşıdır, yalan danışmaq pisdir. Bu tipli əxlaq qanunları tam şəkildə insan zəkası tərəfindən dərk olunur. Lakin həmin bünövrə qanunları ağıl yolu ilə təsdiqlədikdən sonra əxlaq və dinin digər əxlaq qanunları ilə sıx əlaqəsi başlanır. Misal üçün namaz qılmaq dində əxlaqi bir vəzifə kimi insanlara vacib edilmişdir. Bu qəbildən olan əxlaq normalarında əxlaq tamamilə dindən asılıdır.

## Ustad Misbah Yəzdinin baxışları

Müasir İslam filosofu Misbah Yəzdi din və əxlaq münasibətlərində bir qədər fərqli baxışlarla çıxış edir. O, "Əxlaq fəlsəfəsi" əsərində yazır:

"Əxlaqda qeyd olunan "pis" və "yaxşı" məfhumları insanın ixtiyari işləri ilə həmin işlərin son nəticəsi arasındakı əlaqə növünü göstərir. İnsanın hər hansı işi onun son xeyir məqsədi ilə müsbət əlaqədədirsə, həmin iş "yaxşı", mənfi əlaqədədirsə "pis" sayılır. Bu ideyanın özü dini qanunlardan götürülməmişdir, yəni bu müddəanı təsdiqləmək Allahı, peyğəmbərləri və dini qanunları qəbul etmək deyil. Bəs insanın varlığının son məqsədi nədir? Bu sualı cavablandırarkən əxlaqın dinlə əlaqəsi üzə çıxır. Biz insanın son məqsədini araşdırarkən və bu suala cavab verərkən, həmin məqsədin "Allaha yaxınlaşmaq" olduğunu vurğulayırıq. Həmçinin yaxşı işləri müəyyənləşdirmək və onların son məqsədlə əlaqəsini səciyyələndirmək üçün insanın əbədiliyini və onun axirət həyatında öz yaşayışını davam etdirəcəyini ortaya qoymalıyıq. Əxlaq qanunlarının təyin edilməsində ölümdən sonrakı həyata inam ona görə zəruridir ki, biz inanclı insana belə bir tövsiyə verə bilərik: sənin son səadətin və varlığın son məqsədi bir sıra maddi və dünyəvi mənafelərinə zidd olarsa da, əbədi mənafelərini üstün tutmalısan. Çünki həqiqi xeyir məhz bundadır və bunun əksinə olan işlər pis işlərdir. Deməli, Allahın varlığının təsdiqindən əlavə məad əqidəsi də əxlaq qanunlarının müəyyənləşməsi və sabitləşməsi üçün zəruridir."

Misbah Yəzdi bunu da əlavə edir ki, müstəqil insan zəkası bir sıra ümumi əxlaq qanunlarını dərk edə bilsə də, onun nümunələrini müəyyənləşdirməkdə acizdir. Məsələn, ağıl dərk edir ki, ədalətli olmaq yaxşıdır, lakin bir çox xırda məsələlərdə hansı rəftarın ədalətə uyğun olduğu qaranlıq qalır. Həmin

məsələlərdən biri də cəmiyyətdə kişi və qadın hüquqlarının bərabərliyi məsələsidir. Biz bu qəbil məsələlərdə ədalətin tətbiqində çətinlik çəkirik və onların həlli üçün dini qanunlara müraciət etmək labüddür. [1]

1. Sekulyar əxlaq humanist ideyalara əsaslanır, dini əxlaq isə teoloji baxışlardan qaynaqlanır. Nəticədə sekulyar əxlaq cəmiyyətdə insanların fərdi hüquqlarının keşiyində dayanır, din məzmunlu əxlaq isə insanların yalnız Allah qarşısında vəzifələrinin düzgün həyata keçirilməsini özünün əsas qayəsi hesab edir. Bir sözlə, dini əxlaq insanların fərdi hüquqlarını tam təyin edə bilmir.

Qətiyyətlə deməliyik ki, bu iradla çıxış edənlər İslam dininin mahiyyətinə yetərincə varmamışlar. İlkin İslam dövrünü ötəri nəzərdən keçirsək görərik ki, bu müqəddəs din insanların bütün maddi və mənəvi ehtiyaclarını təmin etməyə çalışır, cəmiyyətdə bütün insanların həm sosial, həm də fərdi hüquqlarını bərpa etməyə səy göstərir. Quran ayələrini, bu səmavi kitabın İlahi hökmlərini mütaliə edərkən , onun insan hüquqlarına necə diqqət yetirdiyinə şahid oluruq. Burada nümunə olaraq Quranın bir neçə surəsindən bir neçə ayəni nəzərinizə çatdırırıq:

Allah-Taala “Əbəsə” surəsində İslam peyğəmbərinin və yaxud Peyğəmbərə yaxın şəxslərdən birinin[2] kor bir kişi ilə rəftarını bəyan edərkən məlum olur ki, Allah-Taala cəmiyyətdə kimsənin hüquqlarının azacıq olsa belə tapdanılmasına razı deyil, çünki kor bir kişiyə kiçik bir etinasızlıq səbəbindən bu barədə bir neçə ayə nazil olur. Təkcə bu ayələri əsas götürərək dini əxlaqın fərdi insan hüquqlarına

---

1. Misbah Yəzdi, “Düruse fəlsəfeye əxlaq”, s. 197-199
2. Quranda adı çəkilmədiyinə görə təfsirçilərin rəyi müxtəlifdir.

sekulyar əxlaqdan yüngül yanaşması fikrini rədd etmək mümkündür. İslamda qeyd olunan ayələrə oxşar ayələr və hədislər kifayət qədərdir. Digər bir tərəfdən İslamda insanlara din ayinləri və qanunlar çərçivəsində təqdim olunan nə varsa, hamısı onların dünya və axirət həyatı üçün faydalı, bəzən də zəruridir. Deməli, bu baxımdan İlahi dəyərləri insani dəyərlərdən ayırmaq əsassızdır.

2. Müsəlman xalqların az bir hissəsi dini əxlaqa yiyələnmişdir. Yalan, rüşvətxorluq və bu kimi əxlaqa zidd işlərin müsəlmanlar arasında geniş yayılması onu göstərir ki, dini əxlaq sistemi cəmiyyətdə işlək ola bilməz.

Bu irada cavab olaraq deyirik:

a). Etik normalara zidd bir çox davranışları müsəlmanlara aid etmək olmaz. Bundan əlavə müasir dövrdə əxlaq problemi sekulyar cəmiyyətləri də narahat edir. Hətta bir çox sahələrdə, o cümlədən, ailə qurumu məsələlərində müsəlmanların problemləri digər dinlərə sitayiş edənlərin problemlərindən daha azdır.

b). Öncədən də qeyd olunduğu kimi, müəyyən qanunlar toplusunun mövcudluğu həmin qanunların cəmiyyətdə tətbiq edilməsinə zəmanət vermir. İslamda kamil və mütərəqqi əxlaq qanunlarının mövcud olması müsəlman adlanan insanların həmin qanunlara uyğun yaşamasına təminat vermir. Deməli, biz həmin qanunların bəzən işləməməsinin səbəblərini araşdırıb tapmalıyıq.

3. Zaman dəyişdikcə onun tələbləri də dəyişir. Zamanla dəyişən, fərqlənən və inkişaf edən bəşər cəmiyyətləri üçün zamanla ayaqlaşan əxlaq qanunları tələb olunur, dini əxlaq qanunları isə dəyişməz və sabitdir. Deməli, dini əxlaq zamanın tələblərinə cavab verə bilməz.

Qeyd edək ki, İlahi dəyərlər əsasında formalaşan əxlaq sistemi dəyişkənliyə məruz qalan cəmiyyət üçün daimi olaraq

əxlaq normaları tənzimləyir. Lakin bu o demək deyil ki, həmin əxlaq qanunları dəyişkənliyə məruz qalır. İnsanlar ilk yaranış günündən dünyanın sonuna qədər bir sıra dəyişməz qanunlara tabe olmalıdırlar. Misal üçün zaman nə qədər dəyişsə də, cazibə qanunu dəyişməzdir; min illər sonra da paradoks hallarının mümükünsüzlüyü dəyişməz qalacaqdır. Deməli, bəşər həyatında yeniləşməyən ( heç vaxt dəyişməyən ) həqiqətlər vardır. Həmin həqiqətlərin bir hissəsi də insanları xoşbəxtliyə yönəldən əxlaq qanunlarıdır. Tam əminliklə deyə bilərik ki, "başqasının hüququna təcavüz etmək qadağandır" qanunu zaman və məkan çərçivəsinin fövqündə dayanan bir qanun kimi dəyişməz qalacaqdır. Bizim qənaətimizə görə, İslamda mövcud olan etika qanunlarının hamısı bu qəbildəndir. Deməli, İslamın əxlaq qanunları bütün zaman və məkanlarda, habelə müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar arasında həyata keçə bilən dəyişməz həqiqətlərdir.[1]

Beləliklə, əxlaqın dinə ehtiyacının təsdiq sahəsini daha yaxşı dərk edə bilməkdən ötrü təfəkkürün nə olduğunu anlamalıyıq.

---

1. Mail İsmayıloğlu, "Din fəlsəfəsi" (2009-cu il), s. 112-120.

## İslam dünyagörüşündə idrak vasitələri

### Təfəkkür

Qurani-Kərimdə təfəkkürlə bağlı buyurulur:

- "Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, düşünələr".[1]
- "Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi?"[2]
- "De: "Kor görənlə bir olarmı? Məgər düşünmürsünüz ? "[3]
- "Yeri (insanların və başqa canlıların yaşaya bilməsi üçün) döşəyən (uzadıb genəldən), orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən (erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və s. olmaqla) cüt-cüt yetişdirən, gecəni gündüzlə (gündüzü də gecə ilə) örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda (bütün bu deyilənlərdə) düşünən insanlar üçün (Allahın qüdrətini və təkliyini sübut edən) neçə-neçə dəlillər vardır! [4]
- "O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər".[5]

İndi isə təfəkkürlə bağlı hədislərə nəzər yetirək:

- "Təfəkkür, qəlbin bəsirət gözünə həyat verir".[6]
- "Bir saat təfəkkür yetmiş il ibadətdən xeyirlidir".[7]

---

1. Quran: əl-Həşr surəsi, ayə:21
2. Quran: ər-Rum surəsi, ayə:8
3. Quran: əl-Ənam surəsi, ayə:50
4. Quran: ər-Rad surəsi, ayə:3
5. Quran: Ali-İmran surəsi, ayə:191
6. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd “Ğurərul-hikəm və durərul-kiləm”, s. 57
7. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd “Ğurərul-hikəm və durərul-kiləm”, s.. 56 - Bu hədisdən "Elə isə elmlə məşğul olan insana ibadət lazım deyil" - kimi nəticə almaq tamamilə yanlışdır. Çünki elm və ibadətlə bağlı yüzlərlə ayə və hədis mövcuddur. Bunların hər birini nəzərə aldıqda belə nəticə çıxır ki, bu hədisin mənası insanlara elmin müqəddəsliyini, ucalığını və əzəmətini göstərməkdir. Çoxsaylı ayə və hədislər bizə elmlə məşğul olarkən

- "Allahın nemətləri barədə edilən təfəkkür ən gözəl təfəkkürdür".[1]
- "Allahın nemətləri barədə təfəkkür edin, çünki heç vaxt Onun zatının əzəmətini dərk edə bilməzsiniz".[2]
- "Allahın keyfiyyəti, necəliyi haqqında fikirləşən yolunu azar və məhv olar".[3]
- "Allahın zatı haqqında təfəkkürdən çəkinin, çünki bu, insan üçün yalnız sapqınlıq gətirər".[4]

**Təfəkkürün əhəmiyyəti**

Quranda təfəkkürlə bağlı buyurulan ayə və hədislərə nəzər yetirdikdə təfəkkürün aşağıdakı kimi iki mühüm sahəyə ayrıldığı məlum olur:

1. Qadağan olunan təfəkkür:
a) Allahın zatı ilə bağlı
b) Günah və şərlə bağlı
2. Bəyənilən təfəkkür:
a) Yaradılış haqqında (Aləmşünaslıq)
b) İnsan haqqında (İnsanşünaslıq)
v) Allahın sifətləri haqqında (Allahşünaslıq).

---

ibadəti unutmamağı, ibadətlə məşğul olduqda isə elmi unutmamağı tövsiyə edir və insanın bu ikisinin əhatəsində kamilləşə biləcəyini bildirir.

1. Müstədrəkül-vəsail, c. 11, s.185
2. Biharul-ənvar, c. 68, s. 322
3. Məhəmməd ibn Yəqub ibn İshaq Kuleyni , Üsuli-kafi, c. 1, s. 93; Biharul-ənvar, c. 3, s. 264
4. Səduq, “ Tövhid ”, s. 457

## İdeoloji və məchullu təfəkkür

Digər tərəfdən, insan, hətta (məsələn, Quranda təfəkkür üçün göstərilən) aləm, dəvə və səma haqqında düşündükdə də, məchullarla üzləşir və bu məchulları məluma çevirmək üçün təfəkkürdə yanlışlığa yol verməməyə çalışır. Allah-Taala Qurani-Kərimdə Ali-İmran surəsinin 191-ci ayəsində buyurur: "O kəslər ki, ... göylərin və yerin yaradılması haqqında düşünər". Əlbəttə, bu ayədə göylərin və yerin yaradılması haqqında təfəkkür edərək heyrət və imanla dolu: "Doğrudan da, Allah göyü və ulduzları nə qəribə yaratmışdır?" nəticəsi alınır. Belə təfəkkür, yalnız imanlı şəxslərə aiddir. Elə şəxslər var ki, səmaya baxdıqda, heç də qeyd etdiyimiz nəticəyə yetişmirlər. Onlar heç ulduzları Allahın yaratdığı varlıq kimi qəbul etmirlər[1]. Yaxud yuxarıdakı iman yönlü sualdan sonra düşünə bilərik ki, "Onda bəs Allahı kim yaradıb?"; "Görəsən, bu Allahdan başqa Allah da varmı?"; "Əgər yoxdursa, bu Allah var ola bilirsə, niyə başqa Allah var ola bilmir?" və s. bu kimi suallar insanı məchullarla üz-üzə qoyur. Demək olar ki, çox zaman iman müstəqil şəkildə məchulları məluma çevirə və onlara cavab verə bilmir. Deməli, təfəkkür yalnız heyrət və imanla dolu düşüncədən ibarət deyil. Yuxarıdakı birinci növ təfəkkürü ideoloji, ikinci növ təfəkkürü ( həqiqi sualla yanaşı olan təfəkkürü ) isə məchullu təfəkkür adlandırmaq olar. İdeoloji təfəkkürdən, adətən, Allaha iman gətirən və sadə insanlar istifadə edir. Həzrət Peyğəmbərin (s) bir çox dəyərli səhabələri də Allaha belə təfəkkürlə yaxınlaşmışlar. Məchullu təfəkkürdən isə daha çox, hər sözü asanlıqla qəbul edə bilməyənlər, alim və filosoflar istifadə edirlər. Hər halda, deyə

---

1. Materialist görüşünə görə aləm və aləmdəkilər Allah tərəfindən deyil, maddələrin yerdəyişməsi və maddələrdəki dəyişikliklər nəticəsində yaranmışdır. Lakin Aristotel, Farabi və İbn Sina kimi böyük alimlər isbat etmişlər ki, hər şey Allahın iradəsi ilə yaranmışdır və materialist görüşü əsassızdır.

bilərik ki, bu iki növ təfəkkürün bir- biri ilə sıx əlaqəsi vardır. Bu məsələ insan psixologiyası və başqa elmlərin mövzusudur. Buna görə də alimlər təfəkkürə ümumi yanaşmış və ona geniş şəkildə izahlar vermişlər.

**Təfəkkürün tərifi**

Təfəkkür ümumi camaat arasında "zəruri təsəvvür” dən ibarətdir. Yəni təfəkkür, başa düşülməsində düşüncəyə ehtiyacı olmayan məfhumdur. Amma elm və insan psixologiyası məqamında isə o, "nəzəri təsəvvüf " hesab edilir. Yəni onun mənası, tərifi dəqiq verilməlidir. Çünki elm dəqiqlik tələb edir və hər hansı bir sahə ilə bağlı məsələlərə aydınlıq gətirmək üçün, əlbəttə ki, hər şeyin dəqiq mənası izah edilməlidir. Alimlər ümumi olaraq təfəkkürə aşağıdakı kimi tərif vermişlər:

Təfəkkür - zehnin məchulla məlum arasındakı hərəkətindən ibarət olan aktiv idrak formasıdır.

Burada aktiv dedikdə, kompüter beyninin passiv hərəkətinin, yəni iradəsiz, ixtiyarsız, şüursuz hərəkətinin əksinə olaraq, onun iradəli, ixtiyari, şüurlu hərəkəti başa düşülür və bu hərəkət beş əsas mərhələyə bölünür. Bu mərhələlərə aşağıda işarə olunacaq.

**Zehin və kompüter**

Məlumdur ki, kompüterin işləmə prinsipi zehnin işləmə prinsipi ilə eynidir. Alimlər zehin üzərində uzunmüddətli araşdırmalardan sonra, nəhayət, süni zehni — kompüteri ixtira edib təkmilləşdirmişlər.

Siz kompüterdə bir məsələni həll edərkən müəyyən düymələri basmaqla bir anda məsələnin həllini ekranda müşahidə edirsiniz. Amma bəzən bu proses bir qədər uzun

çəkir. Zehin də (demək olar ki,) eynilə belədir. Amma gəlin görək kompüterdə, bir anda baş verən hərəkət hansı mərhələləri keçərək sona çatır?

Kompüter ikilik (0;1) say[1] sistemində işlədiyindən, daxil edilən məlumatların hamısını ikilik say sisteminə çevirərək məsələni həmin məkanda həll edib, sonra yenidən, cavabı ikilik say sistemindən, verilən məlumatlar məkanına çevirib ekrana verir. Məsələn, "5+2=7". Əvvəlcə, öz ana məlumatlarının arasından, daxil edilən "5" ədədinə uyğun ikilik say sistemindəki ədədlə "2" ədədinə ikilik say sistemindəki uyğun ədədi toplayıb həmin say sistemində bir ədəd alır. Yeni alınan ədədi ana məlumatlarda axtarıb onluq say sisteminə uyğun olaraq ekrana verir. Maraqlıdır ki, bu qədər proses saniyənin onda, yaxud yüzdə bir hissəsində baş verir.

**Beş mərhələli hərəkət və nəticə**

İnsan məchulla üzləşdikdə onu məluma çevirmək üçün zehnini hərəkətə gətirir. Bəzən bu hərəkət qısa bir anda, bəzən isə uzun zaman ərzində sona çataraq nəticə verir. Buradakı hərəkət kompüterdəki ixtiyarsız, iradəsiz, şüursuz şəkildə olan passiv fiziki yerdəyişmə ilə baş verən hərəkətdən fərqlənir. Zehnin bu işi, onun öz fəzasına uyğun mərhələləri keçməklə həyata keçir. Zehin də hər hansı bir məchulu məluma çevirmək üçün müəyyən mərhələləri qət edərək məluma yetişir. Amma bu hadisə qısa zaman kəsiyində baş verdiyi üçün bizə elə gəlir ki, məchul birbaşa məlumdan alınır. Bu təhlildə məqsəd belə bir sualı cavablandırmaqdır: nə üçün zehin də kompüter kimi

---

1 Mövqeli say sisteminin 4 say sistemi var: İkilik say sistemi, Səkkizlik say sistemi, Onluq say sistemi, Onaltılıq say sistemi. Onluq say sistemi bizim gündəlik işlətdiyimiz say sisteminə deyilir.

müəyyən mərhələləri keçdiyi halda, kompüterin əksinə olaraq, səhvlərə yol verir?

Cavab: Kompüter iki prinsip etibarilə zehindən fərqlənir. Birincisi budur ki, kompüterin iradəsi yoxdur. Apardığı hər əməliyyat və aldığı nəticə icbari şəkildə həyata keçir. İkincisi, kompüterin "təfəkkür hərəkəti" zahirdə zehnin canlı və mənəvi hərəkəti kimi görünsə də, əslində, mexaniki hərəkətdir. Yəni kompüterin "təfəkkürü" elektronların mexaniki hərəkətindən başqa bir şey deyil. Amma zehnin təfəkküründə beyin hüceyrələri mexaniki hərəkətə gəlsə də, bununla bərabər, ruhda da dəyişikliklər baş verir. Bunun da isbatını fitri olaraq belə vermək olar: bu, "hüzuri elm"in vasitəsi ilə baş verir. Yəni insan qəlbən və öz-özlüyündə hiss edir ki, onun ruhunda da dəyişikliklər özünü göstərir.

Bu iki fərqi nəzərə alsaq, məlum olur ki, "kompüter zehni" hərəkət edən zaman onun hərəkət yolu üzərində heç bir maneə və hərəkətə təsir edən kənar bir qüvvə olmur. Məlumdur ki, maneə olmadıqda məqsədə çatmaq da mütləqdir. Amma zehnin işinə təsir göstərən amillərdən ən əsası olan nəfs, adətən, təfəkkürün yoluna sədd çəkir. Bu da çox zaman alınan nəticələrə bilavasitə öz təsirini göstərir.

Ümumi şəkildə qeyd edək ki, təfəkkür dörd formada baş verir; "mücərrədləşdirmə", "tərif", "bölgü" və "əqli nəticə" ... və məntiqin elə əsas xətti də bu dörd istiqamətdədir. İndi isə qeyd etdiyimiz beş mərhələnin izahına diqqət yetirək:

**Birinci mərhələ: məchul obyekt, iradə və gərginlik.**

Zehin hər hansı bir obyekti məchul kimi qarşılamalıdır ki, insanda bu məchulu məluma çevirmək iradəsi yaransın. Bəzən insan həqiqətdə məchulla üzləşdiyi halda, həmin mövzuya etinasız yanaşdığından, onda bu sualla bağlı "cəhalət" halından

çıxaraq "elm"ə yiyələnmək istəyi oyanmır. Amma cəhalət halından çıxaraq elmə yiyələnmək iradəsi yaranan zaman zehnin aldığı vəziyyət dayandığı yerdən hərəkətə başlayan avtomobilin vəziyyətinə bənzəyir. Mühərriki işlək halda hərəkətsiz qalan avtomobil, yerində işlədiyi kimi, insan da məchulla üzləşdikdə əgər onu məluma çevirməyə iradə göstərsə, onun zehnində gərginlik əmələ gəlir. Bu gərginlik insanın məchulu məluma çevirmək istəyindən törəyir və yuxarıda qeyd etdiyimiz kimi, həm insanın beynində, həm də ruhunda özünü göstərir. Onu da qeyd edək ki, bu mərhələ insan əxlaqına da təsir göstərir. Belə ki, bəzən insan özünü, ona məlum olmayan bir şey qarşısında təkəbbürlülük, inadkarlıq, təəssübkeşlik və s. üzündən alim kimi göstərir. Bu da sonrakı mərhələlərin icrasının qarşısını alır, yəni belə insan üçün məsələ həll olunmadan həll olunmuş kimi qəbul olunur.

**İkinci mərhələ: məchulun növü.**

Məchulu məluma çevirmək istəyindən sonra mütləq məchulun növü aydınlaşmalıdır, yoxsa onu məluma çevirmək mümkün deyil. Yəni məchulun hansı elmlə və hansı sahə ilə bağlı olduğu aydınlaşdırılmalıdır.

**Üçüncü mərhələ: hərəkət**.

Yəni zehnin məsələni həll etməkdən ötrü münasib məlumatlar seçmək üçün ana məlumatlar məkanına daxil olması. Hər bir sahə ilə bağlı məlumatlar beyində qrup şəklində toplandığından, zehin müvafiq qrupa daxil olmalıdır.

**Dördüncü mərhələ: axtarış.**

Bu mərhələ zehnin ən çətin keçdiyi mərhələdir. Çünki məchul üçün hər məlumatı seçmək olmaz. Saysız zehni məlumatlar arasından münasib məlumat seçilməlidir. Məchulla, onu həll etmək üçün seçilən məlumatlar arasında

uyğunluq olmalıdır. Bu uyğunluğu düzgün seçməmək, nəticənin yanlış olmasına səbəb olur. Bəzən zehin bu mərhələdə saatlar və günlər keçirir. Bəzən də bunu bir anda başa vurur. Bu da məchulun növündən, zehnin gücündən və s. amillərdən asılı olur.

**Beşinci mərhələ: qruplaşdırma.**

Zehnin məlumatlar məkanından xaric olaraq, həmin məlumatları qruplaşdırıb nəticəyə çatması. Misal: "Aləm əzəlidir, yoxsa sonra yaranıb?" Bu məchul yuxarıda dediyimiz dörd təfəkkür formasından dördüncüsü ilə bağlıdır. Yəni təfəkkürün "əqli nəticə" formasıdır. Bu suala uyğun olaraq, zehnin yuxarıdakı beş mərhələli hərəkətinə baxaq: Birinci mərhələdə bu sual bizim üçün məchuldursa, onu məluma çevirmək istəyəcəyik. Bundan sonra ikinci mərhələdə bu sualın hansı elmə aid olduğunu aydınlaşdırırıq və əqli elmlərlə bağlı olduğunu görürük. Üçüncü mərhələdə sualımız əqli sual olduğundan, aydındır ki, zehnimizdə əqli elmlərlə bağlı məlumatlar ön plana keçir və zehin bu məlumatlar məkanına daxil olur. Dördüncü mərhələdə zehnimiz bu sualı cavablandırmaq üçün daxil olduğu məlumatlar arasında gəzərək axtarış aparır və "Aləm dəyişkəndir", "Bütün dəyişkənlər sonradan yaranır" - kimi münasib məlumatları seçərək oradan xaric olur. Nəhayət, beşinci mərhələdə zehnimiz bu iki məlumatı "Aləm dəyişkəndirsə və bütün dəyişkənlər sonradan yaranırsa" - kimi qruplaşdıraraq "Deməli, aləm sonradan yaranıb" - nəticəsini alır.

Bir daha qeyd edək ki, hər hansı bir sahədəki təfəkkür dörd formada ola bilər: ya hər hansı bir ümumi məfhumun yaradılması, ya həmin məfhumun mahiyyətinin düzgün ifadə edilib, ona tərif verilməsi, ya həmin məfhumun xarici

nümunələri üzərində düzgün bölgü aparılması, ya da ağıl vasitəsi ilə bu məfhumla bağlı hər hansı bir hökmün ələ gətirilməsi zamanı. Təfəkkürün bu formalarından birincisi "mücərrədləşdirmə", ikincisi "tərif", üçüncüsü "bölgü", dördüncü isə "əqli nəticə" adlanır. Bunlardan birincisini çıxmaq şərti ilə, hər birində yuxarıda qeyd edilən beş mərhələdən keçməmiş nəticə almaq olmaz. Çünki birinci təfəkkür forması olan mücərrədləşdirmə ümumi xarakter daşıyır, belə ki, zehin qarşılaşdığı bir neçə əşyadan, sadə təfəkkür sayəsində müəyyən bir məfhum ala bilər. Bir az diqqət etməklə zehnin, qalan üç təfəkkür formasında, həqiqətən də, bu mərhələləri qət edərək nəticəyə çatmasını hamımız təsdiqləyə bilərik.

Sonda bir məsələyə aydınlıq gətirməklə bəhsimizi yekunlaşdırırıq. O da bundan ibarətdir ki, bir qrup insanlar qeyd etdiyimiz məsələdən müstəsnadırlar. Yəni belə insanlar nəticəyə yetişmək üçün heç də bu "beş mərhələ"ni qət etmirlər, əksinə, onlar nəticəni birbaşa əldə edirlər. Belə şəxslər aşağıdakılardır:

**a) Peyğəmbərlər (s) və imamlar (ə).** Çünki onlar İlahi ilhama, vəhy idrakına, "lədunni elm"ə[1] malikdirlər.

**b) Ariflər.** Onlar Allah dostları; bütün şirk növlərindən uzaq olan şəxslər; tövhidin ən ali məqamına yetişənlərdir. Ariflər, bəzi həqiqətləri "hüzuri idrak" ilə dərk edirlər, yəni həqiqətlərin özünü dərk edirlər; haqqında danışdığımız beş mərhələ mövzusu isə "hüsuli" idraklar qrupuna aiddir.

" Hüsuli " idraka malik olanlar isə alim adlanırlar.

**c) Güclü, qeyri-adi əqli qüvvəyə malik olan insanlar.** Belə insanlar üçüncü və dördüncü mərhələyə ehtiyac duymurlar. Bu cür təfəkkür bəzən hər insanda baş verir və bunun, bir növ,

---

1. Lədunni - Allah tərəfindən vasitəsiz olaraq verilən elm

ilhama yaxın olduğunu söyləmək olar. Onun ali forması, qeyd etdiyimiz kimi, öncə peyğəmbərlərdə (s), sonra imamlarda (ə), daha sonra isə ariflərdə olur.[1]

Təfəkkür haqqında müəyyən bir anlayış əldə etdikdən sonra idrak prosesinin də baş verməsi haqda məlumat verməyi zəruri hesab edirik.

**İdrak və biliklər sistemi**

"Varlıq" məfhumu zehni baxımdan hər şeydən aşkar, həqiqəti isə nəhayətsiz dərəcədə gizlidir. Bu, özünü filosofların varlıq haqqında tədqiqatlarında da dolğun ifadə edir.

"İdrak" məfhumu da varlıq kimi aşkardır. İdrak, yaxud elm cəhalət müqabilində duran, aydın başa düşülən, amma həqiqəti isə, alimlərin nəzərincə, hələ də insana tam şəkildə məlum olmayan çox böyük sirlərdəndir. Allah-Taala Quranda "ət-Təkasur" surəsinin 3-7-ci ayələrində idrakın, elmin müxtəlif növ və dərəcələrinə işarə edərək buyurur:

"Xeyr! Siz (əməllərinizin aqibətini) mütləq biləcəksiniz!

Xeyr, xeyr! Siz (əməllərinizin aqibətini) mütləq biləcəksiniz!

Xeyr, əgər (Qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə ( "elmül-yəqin" ilə ) bilsəydiniz (fani dünya malına uymazdınız)!

Siz o Cəhənnəmi mütləq görəcəksiniz!

Bəli, siz onu mütləq öz gözünüzlə ( "elmül-yəqin" ilə) görəcəksiniz!"

Göründüyü kimi, burada əvvəlcə sadə, sonra da təkidlə bərabər gələn idrakdan söhbət gedir. Sonra isə "elmül-yəqin“ də, daha sonra isə "eynül-yəqin“ də olan idrak irəli sürülür. Məlumdur ki, bunlar müxtəlif adlarla gəldiyinə görə müxtəlif

1. Rauf İmranoğlu, “Məntiq” (2011-ci il), s. 33-43

dərəcələri əhatə etməlidir. Bunların daha dəqiq mənası üçün təfsirlərə müraciət etmək lazımdır. Amma biz, idrakın bildiyimiz müxtəlif dərəcələrinə əsasən, ümumi şəkildə deyə bilərik ki, ayədə əvvəlcə sadə idraka işarə edilmişdir. Sonra idrakın yəqin şəklindəki formasına, daha sonra isə yəqindən də üstün formasına, gözlə müşahidə ediləcək qədər yüksək dərəcəsinə işarə olunmuşdur.

Alimlər idrakın bu növləri və hər birinin dərəcələri haqqında geniş şəkildə izahlar vermişlər. Amma idrakın, bu növlərin hər birini əhatə edən tərifini isə ümumi şəkildə aşağıdakı kimi vermişlər:

İdrak - Obyektin[1] özünün və ya əksinin insan varlığında hazır olması ilə yaranan şüurlu aktiv prosesdir və bu prosesdə insan varlığında yer alan obyekt, yaxud onun əksi, bilik adlanır.

İdrak, yəni hər hansı bir ünsürün başqa bir ünsür (insan, yaxud heyvan) hüzurunda, zatında yer almasıdır. Bu yer alma zamanı ikinci ünsürün məkanına çevrilən birinci ünsür (insan, yaxud heyvan) öz zatının var olduğunu birbaşa dərk etdiyindən, onun zatında yer alan ikinci ünsürün də varlığını öz zatı ilə dərk etməlidir. Belə yer almanın əşyaların aynada əks olunaraq yer almasından fərqi aktiv olmadadır, yəni ikinci ünsürün məkanına çevrilən birinci ünsür aynanın əksinə olaraq, həmçinin bu yer almanı şüurlu şəkildə qavrayır və bu prosesdən agahdır.

İnsanın öz zatını, onun var olduğunu birbaşa hiss etməsi, dərk etməsi "hüzuri", zatında yer alan ünsürlər vasitəsi ilə xarici obyektlərin varlığını dərk etməsi isə "hüsuli" idrak forması olur.

İndi də idrakın növlərinə və idrak sayəsində yaranan biliklər, yaxud məlumatlar sisteminə baxaq.

---

1. Burada, obyekt dedikdə, gerçək aləmdəki hər bir varlıq başa düşülür. Məsələn: insan, xarici aləm, xarici aləmdəki qanunlar və s.

İdrak prosesi zamanı dərk edən - "alim", dərk olunan "bilik" (yaxud elm, məlumat) adlanır. Aşağıda adı çəkilən hər idrak, bu tərifin nümunəsi olacaq.

**İdrakın növləri və biliklər sistemi**

İdrak prosesi zamanı yaranan biliklər bir neçə cəhətdən növlərə bölünür:

- Ya hüsuli (təcrübi), ya da hüzuridir (fitridir).
- Ya hissi, ya xəyali, ya təxəyyül, ya vəhmi, ya da əqlidir.
- Ya təsəvvür, ya da təsdiqdir.
- Ya zəruri, ya da nəzəridir.

İnsanın bir şeyi dərk etməsi "idrak" prosesi, bu idrak prosesi zamanı dərk edən - "alim" (idrakın "subyekt"i), dərk olunan - "məlum, bilik" (idrakın "obyekt" i) adlanır.

**Hüsuli (təcrübi) və hüzuri (fitri) idrak[1]**

Obyektin "öz"ü və onun zehindəki inikası baxımından idrak iki yerə bölünür:

1. Hüsuli idrak,
2. Hüzuri idrak.

Hüsuli idrak - obyektin insan zehnindəki inikasından ibarətdir.

Yəni obyekt müstəqil olaraq xarici aləmdə mövcuddur və onunla insan arasında fasilə olmasına baxmayaraq, beyində əks olunmaqla insanda onun haqqında müəyyən bilgi formalaşır. Bu bilgi "hüsuli" (təcrübi) idrak adlanır. Adından məlum olduğu kimi, hüsuli idrak obyekt barəsində hasil olan, kəsb edilən məlumatdır. Burada, xaricdə müstəqil olan obyekt məlum, insan alim və həmin məlumun insan beynindəki

---

1. İdrakın bu iki növü ilk dəfə İbn Sina tərəfindən kəşf edilmişdir. Şeyx İşraq isə bu iki növü elmi dəlillə isbat etmişdir.

inikası isə bilikdir. Məsələn: Amazon meşəsində bu vaxtadək bizə məlum olmayan bir canlı haqqında ya eşitmək, ya da onu görməklə aydın, ya da qaranlıq bir təsəvvür əldə edirik. Amma bu canlını tam olaraq tanımaq bizim üçün qeyri-mümkündür. Bunun üçün aşağıda qeyd edəcəyimiz "hüzuri" (fitri) idrak lazımdır ki, canlı haqqında bütün məlumatlar bizə məlum olsun. Burada, canlı məlumdur, biz alim, canlı haqqında qiyabi təsəvvür isə bilikdir.

Hüzuri idrak-obyektin özünün insan varlığında hazır olmasından ibarətdir.

Məsələn, bizim özümüzü dərk etməyimiz kimi, yaxud özümüzə olan elmimiz kimi; hər kəs öz varlığını bütün varlığı ilə dərk edir. Hər kəsin şəxsiyyəti onun təsəvvüründə deyil, onun hüzurunda bütün varlığı ilə hazırdır və insan onu qavrayır, duyur. Burada, obyekt, yaxud insanın özü məlum, yenə insanın özü alim və yenə də insanın özü bilikdir və bu idrak, artıq hüsuli yox, hüzuri idrakdır. Çünki burada, obyekt olaraq insanın özü məlum götürülmüşdür.

Hüzuri və hüsuli idrakların yuxarıdakı təriflərindən sonra onlar arasında aşağıdakı fərqləri əldə etmiş oluruq:

1. Hüzuri idrak hüsuli idrakdan öndədir. Çünki hüsuli idrak xarici aləm haqqında zehni məlumatdır və insan xarici aləmi dərk etməzdən əvvəl öz varlığını hüzuri olaraq dərk edir.
2. Hüsuli idrak zehni, hüzuri idrak isə ruhi hazırlıq tələb edir.
3. Hüsuli idrak obyektin, yaxud məlumun surətinin alimin varlığında, hüzuri idrak isə obyektin özünün alimin varlığında hazır olmasından ibarətdir.
4. Hüsuli idrakda "obyekt # məlum" (yəni obyekt məluma bərabər deyil), hüzuri idrakda isə "obyekt = məlum" bərabərliyi ödənilir.
5. Hüsuli idrak vasitəli, hüzuri idrak isə vasitəsizdir.

6. Hüsuli idrak obyektin mahiyyətinə, hüzuri idrak isə onun varlığına, özünə olan elmdir.
7. Hər hüsuli idrakın özü bir hüzuri idrakdır, çünki hüsuli idrak sayəsində yaranan biliyin özü də insanın varlığında yer alır və insan həmin biliyin özünü hüzuri idrakla dərk edir.
8. Hüzuri idrak şəxsi, yaxud fərdi, hüsuli idrak isə ümumidir.
9. Hər iki idrakda idrakın subyekti insandır.

Hüsuli idrakda idrakın obyekti ilə məlum (yaxud bilik) fərqlənir, amma hüzuri idrakda idrakın obyekti ilə məlum (bilik) eynidir. Başqa sözlə, hüsuli idrakla zehində əks olunaraq dərk olunan xarici aləmdəki obyekt zehindəki məlum (bilik) vasitəsi ilə, amma hüzuri idrakla dərk olunan obyekt isə elə məlumun özü olub birbaşa dərk olunur.

10. Hüzuri idrak "fərdi", hüsuli isə "ümumi" dir. Yəni hüzuri idrak sayəsində yaranan biliyin xarici aləmdəki nümunəsi vahiddir və elə həmin dərk olunan obyektin özüdür, amma hüsuli idrakın xarici aləmdəki nümunəsi vahiddən çoxdur. Əlbəttə, bu haqda diqqətli bölgü aparmaq tələb olunur. Məsələn, aşağıda gələcək hissi idrak hüsuli olsa da, onun da xarici aləmdəki nümunəsi vahiddir. Hər halda, bu haqda diqqətli olmaq tələb olunur və burada qeyd olunanlar hüzuri idrakla, hüsuli idrakın fərqinin açıqlanması üçün qısa məlumatlardır. İdrakların hər birinin tərifi ilə tanış olduqdan sonra hansının hüzuri, hansının hüsuli olduğunu da aydınlaşdırmaq daha dəqiq olar.

## Hissi, xəyali, təxəyyül, vəhmi və əqli idrak

İnsana, digər canlılardan fərqli olaraq, Yaradan tərəfindən onun yoluna işıq saçan bir nemət - təfəkkür verilib.

İndi isə görək digər canlılar düşünən varlıq olmamasına baxmayaraq[1] insanla hansı xüsusiyyətlərdə müştərəkdir, hansında isə müştərək deyil?

Yuxarıdakı idraklar öz növbəsində İbn Sinanın nəzərincə ( "İşarat" əsərində dediklərinə əsasən), zehnin malik olduğu "duyğu", "xəyal", "vahimə", "ağıl" və "hafizə" qüvvələri sayəsində meydana gəlir. Qeyd edək ki, yuxarıda göstərilən qüvvələr sayəsində zehində yaranan biliklər, məlumatlar hafizə qüvvəsinin vasitəsilə qorunub saxlanılır. Bu məlumatlar hüsuli idrakın ardıcıllıq baxımından mərhələləridir və aşağıdakılardan ibarətdir:

1. Hissi, 2. Xəyali, 3. Təxəyyüli, 4. Vəhmi, 5. Əqli

**Hissi idrak**

Dünyaya yeni gələn insanın məlumatları tədricən əmələ gəlir. Yəni onun yuxarıda qeyd etdiyimiz əqli idrakı olmur. Məsələn, körpə uşaqdan "Ana nədir?" soruşulsa, o öz anasını göstərəcək. Yəni uşaq "analığı", yalnız hissi idrakın sayəsində qavrayır. "Ana" dedikdə, yalnız öz anasını dərk edə bilir. Əqli idrakın "mücərrədləşdirmə", yəni məfhum yaratma qabiliyyəti uşaqda olmadığından," o, yalnız öz anasını dərk edə bilir. Bununla yanaşı, dünyaya yenicə göz açmış körpə qısa zaman müddətində, artıq nələrinsə yaxşı və pis olduğunu hiss edir.

---

1. Qeyd edək ki, burada, heyvanın düşünən varlıq olmayaraq qeyd olunması, insanın təfəkkürünü öyrənmək üçündür. Yəni heyvanı düşünməyən varlıq kimi götürmək, onun məhz insan kimi düşünən varlıq olmadığını vurğulamaq üçündür. Digər elmlərdə isə heyvan düşünən varlıq kimi qəbul olunur. Məsələn, irfanda bütün məxluqatın öz həddində şüurlu olduğu deyilir. Buna görə də burada heyvanın şüursuz, yaxud düşünən varlıq olmaması deyildikdə, onun məhz insan kimi təfəkkür edə bilmədiyi başa düşülür. Onu da qeyd edək ki, bunlar çox qısa məlumatlardır və ola bilər ki, heyvan haqqında həqiqət tamamilə başqa cür olsun. Bu deyilənlər, yalnız və yalnız təfəkkürü müəyyənləşdirmək üçündür.

Gözəl qoxular xoşuna gəlir, nələrdənsə qorxur, anasının mehriban laylasına xumarlanır, dadlı şirin şeyləri xoşlayır, kənardan bədəninə olan ağır təsirdən əziyyət çəkir. Bildiyimiz kimi, bu idraklar, bu məlumatlar beş duyğu üzvlərinin nəticəsidir:1. Görmə 2. Eşitmə 3. Dadbilmə 4. İybilmə 5. Lamisə.

Beləliklə, hissi idrak beş duyğu üzvünün insanda yaratdığı idrakdan ibarətdir. İnsanın idrakı birinci növbədə, həmin bu hissi idraklar vasitəsilə inkişaf etməyə başlayaraq dərin əqli və fəlsəfi mövzulara yetişir. Buna görə də hər kəs bu beş hissi idrakdan birinə malik olmasa, həmin hissi idrakla bağlı başqa idraklardan məhrum olur. Məsələn: anadangəlmə görmə qabiliyyətinə malik olmayan bir şəxs, sonradan rəng haqqında fizikanın kəşf etdiyini anlaya bilməz. O, necə anlasın ki, rəngin görünməsi "cisimlər, yeddi rəngi özündə cəmləmiş ağ işıq üzərlərinə düşən zaman yeddi rəngdən altısını udaraq birini əks etdirir" qanunu ilə həyata keçir və s.

Bildiyiniz kimi, heyvanlar hissi idrakda insanla müştərəkdir.

Hətta bəzi heyvanlarda bu beş hiss daha güclü olur.

Onu da qeyd edək ki, hissi idrakın özü iki - duyğu (zahiri) və hüzuri (batini) idraka ayrılır. Yəni hüzuri idrak da hissi idrakdır. Məsələn: biz özümüzü, öz daxili, nəfsi istedadlarımızı, qüvvələrimizi də hiss edirik.

**Xəyali idrak**

Hissi idrak, insanın beş duyğu üzvündən biri ilə xarici aləmlə əlaqə yaratdığı zaman onda davam edən həmin hissiyyatdır (idrakdır), xəyali idrak isə bu bağlılıq qırıldıqdan sonra həmin idrakın insan zehnindəki xəyali formasıdır. Xəyal qüvvəsinin sayəsində yaranan "təxəyyül"ə də yuxarıda işarə edildi.

Həmçinin hissi idrakın yuxarıda dediyimiz batini forması da belədir.

İdrakın bu forması uşaqlarda və qadınlarda daha güclü olur. Uşaqların bir dəfə görüb xoşladıqları şeyi yaddan çıxara bilməmələrinin, qadınların emosional olmalarının və insanın qorxulu hadisə ilə üzləşib illərlə unuda bilməməsinin bir səbəbi xəyal ilə bağlıdır. İdrakın bu növündə də heyvanlar insanla müştərəkdir.

**Vəhmi idrak**

İnsan obyektlərlə üzləşərkən hissi və xəyali idrakdan əlavə, obyektlərin xarici görkəmləri onda üçüncü bir idrak əmələ gətirir və buna "vəhmi" idrak deyilir. Məsələn: qorxunc, vahiməli obyektlə üzləşərkən onun qorxusu vahimə qüvvəsi ilə dərk olunur. Bunda da heyvan insanla müştərəkdir. Belə ki, bu idrak, qarşı tərəfdə müşahidə edilən halın, şəxsin özündəki buna uyğun hal ilə müqayisəsi nəticəsində meydana gəlir.

Heyvanın idrakı burada sona çatır, amma insanın yuxarıdakı daxili qüvvələrinə başqa bir qüvvə də əlavə olunur ki, o da "ağıl"dır. Yəni heyvan insanla əqli idrakdan başqa qalan üç idrakda müştərəkdir.

**Əqli idrak**

Əvvəlcə bir misalla izah edək. Tutaq ki, eyvanda əyləşib səmanı seyr edirsiniz. Elə bu zaman səmanın dərinliklərində bir obyektin sizə tərəf gəldiyini müşahidə edirsiniz. Sizin "müşahidə etdiyiniz halda gördüyünüz", həmin obyektin zehninizdə canlanaraq hasil olan ( hüsuli ) görüntüsü "hissi" idrak olur. Yəni bu hissi idrakın özü də hüsuli idrakın bir forması olur. Müşahidə etdiyiniz obyekt səmada itdikdən sonra onun zehninizdə qalan surəti "xəyali" idrak, yaxud bilik adlanır. Xəyalınızda hasil olan müxtəlif şeylərin vasitəsilə

zehninizdə qurduğunuz surətlər "təxəyyül" olur (məsələn, xəyalınızda özünüzü qədim zamanlarda təsəvvür etməyiniz kimi, yaxud fantastik əsərlərin, filmlərin yaradılması). Bundan sonra, səmadan sizə tərəf gələn obyektin durmadan yaxınlaşdığı zaman onun qorxunc varlıq olduğunu görsəniz, sizdə qorxu hissi yaranır. Onun qorxulu olduğu da vahimə qüvvəsi ilə dərk edilir. Buna da "vəhmi" idrak, yaxud bilik deyilir. Bunlardan sonra zehnin ağıl qüvvəsi ilə əldə edilən yeni idrak meydana gəlir. Əvvəlcə ağıl qüvvəsinin "mücərrədləşdirmə"si (əvvəldə qeyd olunan dörd təfəkkür formasından birincisi) sayəsində həmin xəyali elmlərdən ümumi məfhum yaradılır. Məsələn: əgər insan, yaxınlaşdıqca həmin obyektin cisim olduğunu görsə, onun "göy cismi" olduğunu dərk edəcək. Bu da zehnin onu, əvvəl də qeyd etdiyimiz dörd təfəkkür formasından birincisi olan "mücərrədləşdirmə" sayəsində "Bu, göy cismidir.” kimi mənalandırmasıdır. Buna bir balaca izah verək: məlumdur ki, insan həmin obyekti müxtəlif xüsusiyyətləri, məsələn: hansısa bir rəngdə, formada, çöküklük-qabarıqlığı ilə birlikdə görür. Amma onu bu cüzi xüsusiyyətlərindən ayıraraq, təmizləyərək, onun üçün ümumi bir məfhum yaradıb, onu bu xüsusiyyətlərdən təmiz halda, göy cismi adlandırır. Bu cüzi xüsusiyyətlərdən əqli ayırma və təmizləməyə "mücərrədləşdirmə" deyilir.

İkinci təfəkkür formasına da qısa olaraq belə işarə etmək olar: insan mücərrədləşdirmədən sonra alınan məfhumun həqiqi mahiyyətini başa düşməyə çalışır. Məsələn: müxtəlif mən, sən, o və s. kimi fərdləri müşahidədən sonra, zehin mücərrədləşdirmə əməliyyatı vasitəsi ilə yeni bir "insan" məfhumu yaradır. Belə ki, artıq zehində yer alan bu məfhumun boy, rəng, haralı olması və s. kimi cüzi xüsusiyyətləri olmur.

Bununla belə, mücərrədləşdirmə sayəsində yaranan "insan" məfhumu zehin üçün bir qədər məlum olsa da, amma onun həqiqi mahiyyəti hələ ki, məchul qalır. Yəni "insan"ın əsl mənası nə deməkdir, əsl həqiqəti nədir? Bu sualı cavablandırmaq üçün isə zehin ikinci bir təfəkkür formasından istifadə edir və bu təfəkkür formasına da "tərif" deyilir. Mücərrədləşdirmə əməliyyatı çox asan bir əməliyyat olub, ümumi xarakter daşıdığı halda, "tərif" təfəkkür forması xüsusi insanlara məxsusdur. Yəni hər bir insan heç bir çətinlik çəkmədən mücərrədləşdirmə əməliyyatı apara bilir və bunun üçün, digər üç təfəkkür qanunlarında olduğu kimi, dəqiq şəkildə təfəkkürün şərtlərinə riayət etmək lazım deyil.

Bundan sonra, həmin məfhumun nümunələrini bir-birindən hansısa xüsusiyyətlərinə görə bölünməsinə baxmaq olar. Məsələn: "insan" məfhumuna düzgün tərif verdikdən sonra onun fərdlərini alim-cahil, güclü-zəif, azərbaycanlı və qeyri-azərbaycanlı kimi bölmək olar. Məlumdur ki, bu bölgü əməliyyatı da ağlın sayəsində həyata keçir və onu təfəkkürün üçüncü forması öyrənir və "bölgü" adlanır.

Nəhayət, insan bu əməliyyatlardan sonra, yaratdığı məfhumun başqa varlıqlarla əlaqəsinə baxa bilər; onun haqqında hökm verə bilər. Məsələn: zehinin yaratdığı həmin "insan" məfhumu haqqında "İnsan heyvanlardan fərqli olaraq cəmiyyət halında yaşamağa və başqalarının hüquqlarına riayət etməyə məcburdur" hökmünü kəşf edə bilər. Bu hökmü isə isbatsız olaraq qəbul etmək düzgün deyil. Ümumiyyətlə heç bir hökm isbatsız qəbul olunmur. Həmin isbat metodunu isə təfəkkürün dördüncü forması araşdırır və "əqli-nəticə" adlanır. Təfəkkürün bu forması ilə bağlı olan aşağıdakı başqa bir misala baxaq:

Alimlər Günəşin Şərqdən çıxaraq Qərbdə batdığını müşahidə etdikdə belə nəticəyə gəlmişlər ki, "ya Yer Günəşin, ya da

Günəş Yerin ətrafına fırlanır". Alimlərin bu hökmü verməsi ağıl qüvvəsinin dördüncü təfəkkür forması olan "əqli-nəticə"nin sayəsindədir.

İnsan bu idrakla heyvandan fərqlənir və bu onun kamilliyini göstərir. Əqli idrak zehni təhlillər sayəsində yaranır. Məsələn, insan və heyvan hissi idrakda müştərəkdir, yəni ətraf aləmi müşahidə edən insan və heyvanda hissi təsəvvürlər əmələ gəlir və heyvan bu təsəvvürləri məfhum halına salıb qruplaşdıra (mücərrədləşdirə) bilmədiyindən onun üçün əqli idrak hasil olmur. Amma insan hiss etdiyi şeylərdən (hissi idrak) ümumi məfhumlar alaraq (mücərrədləşdirmə) onları mənalandıra (tərif) bildiyindən, hissələrə ayırdığından (bölgü), onlar arasında bağlılıq qurmağa (əqli-nəticə) qadir olduğundan, əqli məlumatlara da malik ola bilir. Heyvan isə ətraf aləmdəki varlıqları, yalnız həmin varlıq olaraq dərk edə bilir. Dediyimiz kimi insan isə heyvanın bu idrakından əlavə həmin varlıqlar arasındakı əlaqələri də dərk edə bilir. Məsələn, insan kimi heyvan da Günəşi müşahidə edir. Heyvan hər dəfə Günəşi müşahidə etdikdə təkcə Günəşin özünü müşahidə edir. Onun Yerlə əlaqəsini dərk edə bilmir. İnsan isə Günəşi müşahidə etdikdən sonra onun Yerlə əlaqəsini, yəni Yerin Günəş ətrafında fırlandığını da dərk edir. Yaxud, şiri görən maral, şiri müəyyən formalı rənglərin cəmi olaraq qorxulu bir şey kimi dərk edir. Yəni maral, şirin öz-özlüyündə bir canlı olduğunu və şirin rənglərinin şirdən fərqli olduğunu dərk edə bilmir. İnsan isə şirin mahiyyətinin yalnız vəhşi bir canlı, rənginin də şirin özündən fərqli olduğunu dərk edir. Bundan sonra isə, məsələn, şirə qırmızı-boz rəngi hökm edərək, "şir qırmızı-boz rəngli vəhşi heyvandır" nəticəsini alır. Yəni maral şiri, yalnız şirin rəngi ilə görür, insan isə şiri xaricdə iki şeydən (şirin mahiyyəti və rəngindən) təşkil olmuş bir obyekt kimi dərk edə

bilir. Elə bu səbəbdən də, maral və digər heyvanlar şiri hərəkətsiz halda gördükdə təhlükə hiss etmirlər. Şir onlara tərəf hərəkətə başladıqda isə bu zərif heyvanlar şirdən qaçmağa başlayırlar. Amma insan şirin vəhşi olduğunu ümumi məfhum olaraq dərk etdiyindən, hər zaman ondan kənar gəzir.

Əqli biliklər zehnin ağıl qüvvəsinin sayəsində təfəkkürün bu dörd - "mücərrədləşdirmə", "tərif", "bölgü" və "əqli-nəticə" formaları ilə yaranır.

**Ağıl qüvvəsinin xüsusiyyətləri**

a) Əqli idrak üçün digər idraklarla müqayisədə hədd yoxdur və insanın, bu əqli idrakı inkişaf etdirmə imkanı var.

b) Ağıl qüvvəsi hissi, xəyali və vəhmi elmlərin yanlışlarının qarşısını almaqda insana kömək edir.

c) Ağıl vasitəsilə insan digər idraklardan istifadə edərək onlar üçün ümumi məfhumlar yaradır (mücərrədləşdirmə).

d) Ağıl vasitəsilə şeylərin əsl mahiyyətinə varılır (tərif).

e) Ağıl vasitəsilə məfhumların xarici nümunələri qisimlərə bölünür (bölgü).

f) Ağıl vasitəsilə verilənlər qruplaşdırılaraq yeni nəticələr almır, ümumi qanunlar kəşf edilir (əqli nəticə).

Min illər bundan öncə çətinliklər içərisində yaşayan insana, bugünkü müasir texnikanı bağışlayaraq onun rahatlığını təmin edən də məhz ağıldır.

**Rəssamdakı zehni qüvvələr**

Tutaq ki, rəssam tablo üzərində bir əsər yaratmaq istəyir. Bu zaman, rəssamın yuxarıda adlarını çəkdiyimiz zehni qüvvələrdən necə istifadə edərək əsər yaratmasına nəzər salaq. Məlumdur ki, rəssam duyğu üzvləri vasitəsilə ətraf aləmi müşahidə etdikdən sonra əsər yarada bilər. Çünki o, əvvəlcə, əşyaları müşahidə etməlidir ki, onların şəklini tablo üzərinə

köçürə bilsin. Deməli, əvvəlcə, rəssamın duyğuları, hissi dərk etmə qüvvələri işləməlidir. Bundan sonra tablo ilə üz-üzə duran rəssamın qalan üç - xəyal, vahimə və ağıl qüvvələrinin işə düşməsinə baxaq. Tutaq ki, rəssam hər hansı bir təbiət mənzərəsini tablo üzərində təsvir etmək istəyir. Dedik ki, buna görə o, əvvəlcə, təbiəti duyğu üzvləri vasitəsilə müşahidə etməlidir. Əvvəlcə çay şəkli çəkmək istəyən rəssam, ağıl qüvvəsinin sayəsində dərk edir ki, çayın axın istiqamətini yuxarıdan aşağıya doğru çəkməlidir. Amma çayın, tablonun hansı tərəfində çəkilməsinə isə, artıq rəssamın təxəyyül qüvvəsi qarışır. Yəni rəssamın zövqünə uyğun olaraq çay tablonun ya sağında, ya da solunda verilə bilər. Məlumdur ki, bu zaman ağıl işləmir. Ümumiyyətlə, rəsm əsərində əşyaların qarşılıqlı münasibətinin gözəl təzahürü rəssamın təxəyyülündən asılı olur. Bu təxəyyül sayəsində də rəssamlar bir-birindən fərqlənirlər. Daha sonra rəssam, əsərə gözəllik vermək üçün çayın kənarında müxtəlif heyvan şəkilləri çəkmək istəyir. Tutaq ki, şir ilə maralı çayın kənarında birgə göstərmək istəyir. Məlumdur ki, şir ilə maral bir yerə cəm olası heyvanlar deyil. Yəni əgər rəssam istəsə ki, tabloda şir ilə maralı bir-birinə yaxın məsafədə versin, mütləq şiri maralın arxası ilə sürətlə qaçan halda çəkməlidir. Bu da rəssamın vahimə qüvvəsinin sayəsindədir. Çünki maralın şirdən qaçmasının səbəbi vahimə qüvvəsinin sayəsində dərk edilir.

Bu misalla zehnin müəyyən hallara düşərək yuxarıdakı qüvvələrdən necə istifadə etməsi daha da aydın olur. Onu da qeyd edək ki, musiqiçilər, konstruktorlar, memarlar, ədiblər, yazarlar və şairlər öz əsərlərini yuxarıdakı misala uyğun olaraq zehnin qüvvələrindən istifadə etməklə yaradırlar.[1]

1. Rauf İmranoğlu, “Məntiq” (2011-ci il), s. 55-68

## Nəticə

Fəzilətlərin ən üstünü, kamalın ən son həddi məhz ədalətdir. Ədalət varsa, deməli, bütün fəzilətlər də vardır. Ədalətin əksi zülmdür, zülm də bütün qəbahətləri özündə toplayır. Ədalət də elə bir xüsusiyyət, elə bir keyfiyyətdir ki, onun sayəsində bütün işlər normal həddə tənzimlənir, insanın nəfsindəki müxtəlif qüvvələr arasında uyğunluq yaranır, qüvvələrdən biri digərinə qarşı çıxmır.

Ədalətin əsas əxlaqi fəzilətli və özəlliyi ondadır ki, o müxtəlif işlər arasında heç bir fərq qoymur, müxtəlifliyi, mübahisəni, ayrıseçkiliyi yatırır. İnsanı ayrı-ayrı tərəflərə çəkmək istəyən qüvvələrin hamısını normallaşdırıb ifrata varmağa (həddini aşmağa) və ya əndazəsindən geri qalmağa qoymur. Bütün qüvvələr sanki birləşib eyni məqsədə xidmət etməyə başlayırlar ki, bunun da nəticəsi olaraq vəhdət yaranır. Sözsüz ki, vəhdət çoxluqdan daha yaxşı, daha üstündür. Deməli, varlıqların da ən üstünü heç bir tərkib hissəsi olmayan, vəhdət halında olanıdır ki, bu da yalnız Allah-Taaladır. Digər varlıqlar da məhz Onun sayəsində var olmuşlar. Dünyadakı vəhdətlər də Onun vəhdətinin təcəssümüdür. Vəhdətin elə bir xoş ətri vardır ki, onu əhli olan insanlar hiss edə bilərlər. Ədalətin işi odur ki, hər şeyi ifrat və onun əks tərəfindən qoruyub orta həddə saxlasın.

Ədalət ya əxlaq və əməllər baxımından olur, ya pay bölgüsündə, ya camaatla rəftarda, ya da, idarəçilikdə. Sadalananların hamısında ədalətli şəxs odur ki, iki tərəfdən birinə meyl göstərməyib tam obyektiv olsun. Hamıya eyni gözlə baxıb normadan ifrata varmasın, yaxud normadan geri qalmasın. Bunun üçün də hər şeyin normal həddini eləcə də onun ifrat və qarşı tərəflərini tanımaq lazımdır. Bu isə olduqca çətin məsələdir. Hər şeyin normal həddini tanımaq hamıya

müyəssər olan şey deyil. Ölçünü dəqiq ölçmək üçün tərəzidən istifadə olunduğu kimi, ədalətin də bir tərəzisi olmalıdır. Ədalət tərəzisi də Allahın hökmləri və Peyğəmbərin sünnəsidir. Deməli, əsl ədalətli şəxs Allahın hökmləri və Peyğəmbərin sünnəsini çöx gözəl bilməlidir.

Ədalət haqqında qeyd edilənlərdən belə məlum olur ki, hər insanın kamal və səadətin son həddinə çatması onun ədalətli olmasına bağlıdır. Ədalət də bütün işlərdə, əməllərdə, hərəkətlərdə orta yolu tutmaqdan ibarətdir. Elə bir yol seçilməlidir ki, nə həddi aşasan (ifrata varasan) , nə də geriyə qalasan: İstər insanın özünə münasibətində olsun, istərsə də, başqalarıilə münasibətdə. Dünya və Axirət səadəti də, məhz orta yolla getməklə hasil olur.

İnsanın orta yolu tutub getməsi üçün ilk növbədə bacardığı qədər elmlə əməli birləşdirib onların arasında irəliləməlidir. Təkcə elmlə kifayətlənib əməlsiz qalmaq olmaz, eləcə də elmsiz, kor-koranə əməl etmək heç bir işə yaramaz. Elm ilə əməldən – ikisindən biri ilə kifayətlənən şəxsdən Peyğəmbər (s) həzər edir.

Əməlsiz elmin heç bir faydası yoxdur. Alimin bir günahı bağışlanılana qədər cahilin yetmiş günahı bağışlanır. Elmsiz əməl də hədərə getmiş zəhmətlərdən başqa şey deyil. Əməl zamanı insan zahirlə batini birləşdirməlidir. Təkcə zahiri bəzəyib batini çirkin saxlamaq və yaxud batini bəzəyib zahiri çirkinliklər içində qoymaq da düzgün deyil. Zahirini bəzəyib batinini çirkin saxlayan şəxs gözəl bəzənib gəlin paltarı geymiş qoca qarıya bənzər. Təbii ki, zahiri nə qədər gözəl görünsə də, qocalığı onu dəyərdən salır. Batinini bəzəyib zahirini çirkinliklər içində qoyan şəxs də nəcasət quyusuna atılmış qiymətli daşa bənzər. Buna görə, hər ikisinə də diqqəti yönəldib orta yolu tutmaq zəruridir.

Elm, mərifət öyrənərkən də ifrat varmaq, yaxud geriyə qalmaq lazım deyil: Həm batini və əqli elmləri, həm də zahiri və şəriət elmlərini öyrənmək lazımdır. Ayə və hədislərin zahiri mənasını öyrənib əsas mənasından xəbərsiz qalanlardan olmamalıyıq! Belələri özlərini alim hesab edib həqiqi alimlərin fikirlərini öyrənmədən, sözlərini dinləmədən onları nadan, hətta yeri gəldikdə kafir də adlandırırlar.

Bütün ömrünü dəqiq elmlərə sərf edib hər şeyi ağlın ixtiyarına buraxan, ağlın başa düşə bilmədiklərini qəbul etməyənlərdən də olmamalıyıq! Belələri, hətta Quran ayələrini də öz başa düşdükləri kimi təfsir edir, Peyğəmbərin (s) hədislərinə məhəl qoymurlar, şəriət alimlərini qınaq obyektinə çevirirlər. Peyğəmbərlərin vərəsələri sayılan alimləri savadsızlıqda ittiham edib, özlərini alim kimi qələmə verirlər. Ağılla xəyalı ayırd etmədikləri halda özlərini ağıllı hesab edirlər. Onlar şəriətin köməyi olmadan ağlın heç nə edə bilməyəcəyindən xəbərsizdirlər. Buna görə də, həm əqli, həm nəqli elmləri bir araya gətirmək, yəni ikisinin arasında olan bir mövqe seçmək lazımdır.

Elm öyrənmək istəyən şəxs, hər şeydən öncə Şəriət Sahibindən özünə bir bələdçi istəməli, sonra da ağlını həmin bələdçinin ardınca aparmalıdır. Ağlını işə salmaqla yanaşı ibadəti də öz yerində olmalıdır. Məhz belə olduqda ağlın gəldiyi nəticə şəriətə müvafiq olacaqdır.

Ədalət sifətinin tələbinə uyğun olaraq ağıl qüvvəsi digər qüvvələrə hakim kəsilməli, hamısını öz hakimiyyəti altında birləşdirməlidir. Buna görə də hamı çalışmalıdır ki, bütün qüvvələrini ağlına tabe etsin. Belə olarsa, onda insan Allahın yer üzərindəki həqiqi xəlifəsinə çevrilər. Özünü islah etməyib ədalət sifətinə yiyələnməyən insan başqalarını da islah edə bilməz. Başqalarını islah etməzdən öncə insan ilk növbədə özünü islah etməlidir, əks təqdirdə onun kimisə islah etməyə

mənəvi haqqı çatmır. Axı özü ilə bacarmayan şəxs başqaları ilə necə bacara bilər?! ... İnsanlara başçılıq edə biləcək əsl hökmdar özünü islah etmiş şəxsdir. Əgər rəiyyətə belə bir insan başçılıq edərsə, onda cəmiyyətdəki bütün əxlaqi pozğunluqlar aradan qalxar, hər şeydə ədalət öz yerini tutar, nəticədə Allahın maddi və mənəvi nemətləri onların üzərinə yağar. Təsadüfi deyil ki, ədalətin növləri arasında ən şərafətlisi, ən üstünü hökmdarın ədalətli olmasıdır. Hətta digər ədalətlər də məhz onun ədalətindən asılıdır. Hökmdar ədalətli deyil, zalım olarsa, bu zaman başqaları da ədaləti icra edə bilməzlər, çünki ədalətə qarşı çıxan hökmdar hər işi ədalətlə icra etmək istəyənlərin də qarşısını alacaq. Cəmiyyətdə fitnə-fəsad baş alıb gedəcək, hamı ədalətsizliyə tuş gələcək. Bir sözlə, kamala, səadətə çatmağın, elm, mərifət əldə etməyin, şəriətin cəmiyyətdə icra edilməsinin açarı hökmdarın ədalətli olmasındadır...

Hədislərdə buyurulmuşdur ki, ədalətli hökmdar rəiyyətin bütün savab işlərinə şərikdir, həmçinin zalım hökmdar da rəiyyətin bütün günah işlərinə şərikdir. Həzrət Peyğəmbər (s) buyurmuşdur :”Qiyamət günündə Allaha ən yaxın bəndə ədalətli hökmdar, Allahın mərhəmətindən ən uzaq şəxs də zalım hökmdar olacaq.” Başqa bir hədisdə buyurur: “Bir saat ədalətli olmaq yetmiş illik ibadətdən üstündür.” [1]

---

1. Şeyx Əhməd Nəraqi; “Meracus-Səadə” (Səadət zirvəsində, Çap ili: 2012 ), s. 36-41

## İstinad olunmuş mənbələr

1. Qurani-Kərim
2. Hilli, "Kəşful murad fi şərhi təcridil - etiqad"
3. Misbah Yəzdi, "Düruse fəlsəfeye əxlaq"
4. Mail İsmayıloğlu, "Din fəlsəfəsi" (2009-cu il)
5. Təmimi Amidi, Əbdulvahid ibn Məhəmməd "Ğurərul-hikəm və durərul-kiləm",
6. Mirzə Hüseyn Nuri, Müstədrəkül-vəsail
7. Əllamə Məclisi, Biharul-ənvar, c. 78
8. Məhəmməd ibn Yəqub ibn İshaq Kuleyni, "Üsuli-əl-Kafi", c.2
9. Şeyx Səduq ibn Babuveyh, " Tövhid "
10. Rauf İmranoğlu, "Məntiq" (2011-ci il),
11. Ayətullah əl-üzma Nasir Məkarim Şirazi, "Təfsiri nümunə" (2018), c. 16
12. Şeyx Əhməd Nəraqi; "Meracus-Səadə" (Səadət zirvəsində, Çap ili: 2012 )
13. Şeyx Təbərsi , "Məcməül-bəyan", c.10
14. Sərrac Tusi "Lümə" 1960-cı il
15. S. Xəlilov, "Fəlsəfə: tarix və müasirlik"
16. Əxbər əl-Həllac, 1936-cı il
17. Könül Bünyadzadə, "İnsan: kamilliyin arxitektonikası" (Bakı – 2014-cü il),
18. Mürtəza Mütəhhəri, "İlahi ədalət
19. Molla Sədra, "Əsfari ərbəə"
20. Cəfər Sübhani, "İlahiyyat"
21. Məhəmməd Hüseyn Təbatəbai, "Əl-mizan"
22. Məhəmməd Təqi Misbah Yəzdi, "Amuzeşi fəlsəfə"
23. Məhəmməd Hüseyn Təbatəbai, "Nihayətul-hikmət"
24. İmam Ruhullah Xomeyni, "Qırx hədisin şərhi
25. Görünüş: "Ruzi kəsb etməkdə insanın rolu". Görünüş: "Hidayət və ilahi izlal (zəlalət)"

26. Mətləb Baqir, "İslam fəlsəfəsi ilə tanışlıq", Sadate Razavi nəşriyyatı, Çap tarixi 2005-ci il.
27. "Əl-mənhəcul-qəba", cild 5,
28. Nasir Məkarim Şirazi, "Təfsiri nümunə", cild 10. Nəşr tarixi: hicri şəmsi ili ilə 29/01/1394
29. Ayətullah Nasir Məkarim Şirazinin "Quranda əxlaq" kitabından iqtibas edilib ("İmam Əli ibn Əbi Talib (ə)" mədrəsəsi, Qum, ilk nəşr, 1998), c. 1
30. Misirli Seyid Qütb (1906-1966), "Fi-Zilalil-Quran" təfsiri, c.6
31. Əbdül-Əli ibn Cümə "Nurus-Səqəleyn" təfsiri, c. 4

**Rus dili**

32."Komsomolskaya Pravda Gürcüstanda" qəzeti, 2-8 fevral 2007 il , Svetlana Kuzina, tərcümə etdi: Əzimov İlqar.
33. Бэкон Фр. Великое восстановление наук // Сочинения в 2 томах. Т.1 М.: Мысль, 1977

# Həqiqət və onu tanıma yolları

**Namiq Babayev**[1]

## Abstrakt

İnsan ictimai bir varlıqdır. Onun sahib olduğu fərdi və ictimai yönlər bir birindən təsirlənir və bir birini tamalayır. İslam dini insanın hər iki tərəfinə xitab edən bir çox prinsiplər gətirmişdir. Fərdi yönü, yəni mənəvi aləmi düzgün inşa etmədən, ictimai yönü yəni sosial həyatı nizamlı şəkildə yaşamq mümkün deyil.

Müqəddəs kitabımıza nəzər saldıqda, insan mövzusunda daha çox fərdi yönə üstsnlük verildiyini görürük. İnsanın şəxsiyyəti, davranışı daha çox bəyan olunur.

İnsanın həqiqəti açıqlandıqdan sonra onun təqva, ixlas, ədalət doğruluq və bu kimi mənəvi sifətlərinə toxunulur. Bu xüsusiyyətləri mənimsəməkdən ötrü insan mənəvi aləmini tərbiyə etməlidir. İnsanlığın əsası bu prinsip üzərində qurulmuşdur. Mənəvi dunyamızı tərbiyələndirməklə, sosial həyatda ictimai menasibətlər düzgün tənzimlənəcəkdir.

Dinimizin Tovhid əqidəsi ədalətdən ayrı olmadığından, dünya və axirət əlaqəsi də ayrılmazhissədir. Nəfsin paklanması ilə Allaha yaxınlıq əlaqəsi bir birini tamamlayır. Nəfsi paklaşdırmaqla Allaha yaxınlaşmaq, Allahı tanımaqla nəfsin psaflaşdırılmasına nail oluruq. Bir sözlə, bütün və kamil lan dinimiz, iman, ibadət və əxlaq bütünlüyünü öz pərəstişkarlarına tövsiyə edir.

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

**Açar sözlər:** İslam, din, əxlaq, nəfs, təhzib, saflaşdırma, həqiqət

## Giriş

Həqiqət dedikdə, insanın yaradılış məqsədi olan Allaha yaxınlıq və kamillik zirvəsi nəzərdə tutulur. Bildiyimiz kimi insanın həqiqəti onun ruhudur. İnsan ruhunu, nəfsini nə qədər yaxşı tanıyarsa, bir o qədər Allahı tanıyar və ona yaxınlaşmış olar. Necə ki hədisi-şərifdə deyilir: "Mən ərəfə nəfsəh fə ərəfə rəbbəh" – hər kəs özünü tanısa Allahını da tanıyar. Allaha yaxınlıq insan yaradılışının ən ömdə prinsiplərindəndir. Onun kamillik dərəcəsinə çatıb, ilahi feyzd\n bəhrələnməsi məhz həqiqəti tanımaqla başlanır. Həqiqət Allahın varlığına yeganəliyinə inanıb, ona yaxınlaşmaqdır. Həqiqi səadət budur. Qüdrətli məbud insana məhəbbətlə nəzər salıb onu öz mərhəmətinə qərq etsin. Bildiyimiz kimi tarix boyu bütün bəşəriyyət həqiqətin axtarışında olmuş, ona yaxınlaşma üçün daim hərəkətdə olmuşlar. Hətta bütpərəstlər belə Allaha yaxınlaşmaq üçün müəyyən ayinlər yerinə yetirirdilər. Bu haqda Quranda oxuyuruq:" Biz bütlərə yalnız Allaha yaxınlaşmaq üçün ibadət edirik. Ayə Məkkə müşrüklərinin dilindən deyilir.

Ən yaxın yol və ən dəqiq yolu bizə elə ilahi vəhy göstərir. Bilirik ki insan əqli bəzi məsələləri dərk edir amma bəzi məsələlər onun əhatəsindən uzaqdır. Buna görə bəzən insan ağlı ilahi vəhyin köməyi ilə bu cür məsələlərin öhdəsindən gəlir.

Beləliklə, Allah peyğəmbər vasitəsi ilə insanlara həqiqətin nə olduğunu çatdırıb höccətini tamamlamışdır. "Allah bəşarət verən və xəbərdarlıq edən peyğəmbər göndərmişdir. "[1]

1 - Bəqərə surəi, ayə 213

Digər bir tərəfdən Həqiqəti tanimaq hissi bütün insanlarin vücudunda fitri olaraq vardır. Demək olar ki hamı həqiqət axtarışındadır, hamı ona yaxınlaşmaq istəyir. Bəs, fitri istəkdir. Ancaq necə və hansı yollarla İlahi həqiqətə yanınlaşmaq olar? Görəsən bu yaxınlıqdan məqsəd nədir? Zamanla yaxınlıq mümkündürmü? Yoxsa məkana həm ehtiyac var, yada başqa yaxınlıq nəzərdə tutulur? Bu kimi suallara cavab verməkdən ötrü gəlin bəhsimizə ətraflı nəzər salaq.

**Vücudda həqiqət əlamətləri**

İnsan özündə Allaha yaxınlığın ən aşağı mərhələlərini hiss etdiyindən, bu yaxınlığın həqiqi mənasını da dərk etmək qabiliyyətinə malikdir. Bəzi kamal sifətləri vardır ki, insanlar onu danışıqsız qəbul edir, əksini isə eyb və nöqsan sanırlar. Elm buna misal ola bilər. Hamı elmi kamillik, nadanlıq və savadsızlığı isə eyb və nöqsan kimi qarşılayır. Digər bir nümunə qüdrət və gücdür ki, hər kəs bu sifətə nail olmağa can atır, zəif və gücsüz olmaqdan çəkinirlər. Hər iki sifət Allahın kamillik sifətlərindən hesab olunur ki, bəndələrinə də əta etmişdir. Bəs həmişə səadət, firavanlıq, ləzzət dalıyca olan insanlar bu hissinfitri olduğunu bildikləri halda, əsl səadətin Allaha yaxınlıq olduğunu unudurlar.

Əlbətdə bəzi nəzəriyyələrə əsasən, insan bu kamillik sifətlərini özündə tamamlasa, uca məqama çata bilər. Ancaq bu görünüş səhvdir. Belə izah edək, insanin vücudu deyil də ruhun vücudu kamil olarsa, bu məsələ baş tutar. Ruh əməllə bu mərhələyə çatır. Səxavət, mərhəmət, rəhm kamillik sifətlərinin vücudda təzahürüdür. Biz gərək ruhumuzu saölam saxlayaq. Yalnız sağlam ruha malik olan bədəndə kamillik nişanələrini də asanlıqla görmək mümkündür.

## Elm və mərifətlə Allaha yaxınlaşma

Məlumdur ki İslam etiqadlarının əsası üç əsas təməl üzərində qurulmuşdur. Bunlar tovhid, nubuvvət və məaddır. Ədalət tovhidin, İmamətisə nubuvvətin əlavəsidir.

Deməк, İslam etiqadının varlıq təməlləri tovhid, məad və onunla bağlı elmlər, nübuvvət və ən əhəmiyyətlisi imamət və vilayətdir. Dinimizdə etiqad mövzularının izahlarında bunların hər birinin tovhiddən qaynaqlandığının şahidi oluruq. Bütün bunlara elm və mərifət nuru ilə çatmaq olar. Allah barəsində, onun birliyi, subutiyyə( Allahda olan sifətlər), səlbiyyə(Allahda olmayan sifətlər)cəlaliyyə( gözəllik sifətləri), mələklər və qeyriləri, asimani kitablar haqda elm sahibi olmaq gözəl bir xüsusiyyət olduğu halda onun iman və mərifətlə qəbulu insanı ilahi məqama yaxınlaşmasında daha təsirlidir.

Burada təkcə elm kifayət eləmir, cünki şeytan da elmə sahib olduğu halda küfr edib kafir olmuşdu.

İman qəlbə xas olan bir hərəkətdir. Əqli dəlillər və ya dinlərin əhəmiyyəti və zərurət dəlili ilə hər hansı bir mövzuda elm sahibi olan bir şəxs, qəlbi ilə də o məlumatlara təslim olmalıdır. Təslimiyyət, xuzu, məsuliyyət və qəbuldan ibarət olan qəlbdə bir sıra əməlləri də yerinə yetirmək lazımdır ki, insan mömin ola bilsin. İmanın kamalı arxyınlıqdır. Cünki imanln artmasının ardından qəlbimizdə arxayınlıq hissi hasil olacaq.

Qəlbin hissəsi olan təslim, ağlın hissəsi olan elmdən çox fərqlidir. bunu belə izah edirik ki bəzən insan Yaradanın, haqq gününü və digər inancları ağıl və elmi dəlillərlə təsdiq edir. amma qəlb onu qəbul etməkdə çətinlik çəkir.

“La ilahə illəllah “ həqiqəti ağıl və imanla qəbul edildikdə, qəl Allahla olur. Və insan Onun qarşısında tam surətdə təslim olur. Ondan başqa kimsədən kömək və məqam ummur. Belə bir

fərd tamamilə dəyişmiş və riyadan uzaq olur. Allaha öz məhbubuna çatmaqda sadiqanə və saf, möhkəm addımlarla irəliləyir.
Allahı tanımaq onun həqiqətini tanımaq və Onun buyurduğu yolla nəfsi kamala çatdırmaq məcazi deyil, həqiqi əməllərdəndir. Başqa sözlə desək, insanın allaha tərəf hərəkət etməsi agahlıq və ixtiyar üzündən olan birhərəkətdir. Bu hərəkət yolu insan doğulduğu andan quvvədə olub, öldüyü ana qədər olan zaman məsafəsində baş verir. Burada ilahi eşqin rolunu da unutmaq olmaz.
Digər tərəfdən, Allaha yaxınlıq digər mənalarda olan məkan və zaman və məcazi yaxınlığ deyil, tam fərqli bir mənanı əhatə edir. Məqsəd və hədəf kamal yaxınlığı vücudi yaxınləqdər. Bunu da aydın məsələdir ki elm və mərifət yolu ilə anlamaq olar.
Məsələyə aydınlıq gətirək. Dini əqidə və Kəlam kitablarına diqqət yetirsək görərik ki, vücud və varlıq məsələsində subuta yetirilmişdir ki, onların müxtəlif dərəcə və mərtəbələri vardır. Bu fərqlilik eyniylə şiddətli və zəif nura oxşayır. Nurun ən aşağı mərtəbəsi zəif olsa da nurdur. Kulminasiya mərtəbəsi isə tamamilə nura bələnmişdir. Bu iki mərtəbə arasında yerləşən boşluqlar hər biri dərəcə ölçüsünə görə olsa da nur hesab olunur. Fərqsə yalnız zəif və şiddətli olmaqdadır.
Vücud da eyniylə belədir. Onun aşağı mərtəbəsi təbiət və maddə, ən yüksək mərtəbəsi Allahın vücud baxımında sonsuz olan muqəddəs Zatıdır. Vücudda eyniylə nurda olduğu kimi şiddət və zəiflə fərqlənir. Vücud güclü olduqda kamala çatma şansı daha artıq olur. Əksinə, vücud nə qədər zəif olarsa Allahın vacibul-vücudundan da bir o qədər uzaq olar.
Bu müqəddiməyə əsasən insan ruhunun Allah qatına nə qədər yaxın və uzaq olmasını təsəvvür etmək məncə çətin deyildir.

Mücərrəd olan ruhumuz maddi olan bədənimizlə birlikdə hərəkət edə bilir, kamilləşir və nəhayət özvücudunun son mərhələsinə çatır. Bəs biz həyatımız boyu nə qədər çox kamal kəsb edərsək, vücud mərhələlərində bir o qədər təkamülə çatarıq və eyni o həddə Alla yaxınlaşmış olarıq. İman məhz həmin nurdur ki bizə bu yolda yoldaşlıq edir. İman saleh əməllə birləşərsə, qürb məqamına daha tez çatmağa kömək olar.

Deməli, burdan aydın olur ki, bizim hərəkətimiz sonsuz bir məqsədə doğru davam edir. Hər birimiz öz səy və bacarığımız müqabilində qürb məqamına nail ola bilərik. Başqa cür ifadə etsək, bu " qürb məqamı" bir nöqtə deyil əksinə, müxtəlif dərəcələrə malik olan bir həqiqətdir. Bəs əslində qürb nisbi məsələdir. Biz də öz fəaliyyətimizin müqabilində onun məqamlarını fəth edib, İlahi feyzlərdən bəhrələnə bilərik.

**Kamalı tanımaq**

İnsanın həqiqəti, onun ruhunun kamalı, kamal isə insanın Allaha və əbədi səadətə yaxınlaşmasıdır. Deməli həqiqət yəni kamal, ruhla əlaqədardır və cismə məxsus deyil. İnsanın təkamülü onun ruhani istedadlarının çiçəklənməsidir. Bizim cismimiz isə yalnız bu istedadların çiçəklənməsinə yardım etmək üçündür. Cism həqiqət hesab olunmur. Cismin kamalı onun inkişaf edib böyüməsidir. Bəs deyə bilmərik ki həqiqəti təcrübə yolu ilə tanımaq olar. Ona görə ki ruhun kamalı o zaman baş verir ki, insan özü ona yol tapsın, tanısın. Daxili qüvvəsinin təcrübəsi ilə batini hisslərinin köməyi ilə ona qovuşsun.

Fəlsəfi irəliləyişlər və sənaye elmlərinin günümüzdəki inkişafı həmin daxili quvvələrin və əqlin səmərəsidir. İnsan ağlı ilə bəzi məsələləri həll edərkən, bəzilərində şəkk- şübhəyə düçar olur və onun həllində aciz qalır. Digər tərəfdən, İslam

nöqteyi- nəzərdən, bəzi həqiqətləri tanımaq mümkün olduğu halda bəzən tanışlıq üçün dəlil və sübutların olması zəruridir. Ümumiyyətlə, araşdırma aparmaq üçün alimlər üç yolu qarşımıza qoyurlar:

1-təcrübə yolu
2-əqli dəlillər
3- vəhy yolu

Təcrübə yolu hamımıza məlumdur. Əqli dəlillərlə sübut da həmçnin və burada sadəcə xatırladaraq keçmək istəyirik. Vəhy yolu haqqında da yuxarıda məlumat verdik. Təcrübə elmi bəzən əqli dəlillərə əsaslanır və sübuta yetirilir. Əqli dəlillər isə özlüyündə ağlın hökm etdiyi məsələlərlə kifayətlənir. Ancaq vəhy yolu yeganə meyardır ki( ölçüdür ki ) hər tərəfli məsələyə yanaşır və hər tərəfli isbata yetirir. Ağıl və hiss kimi bir -birilərinin əksinə hökm vermir. Həqiqəti tanımaq ruha aid olduğundan nə təcrübə və hiss yolu ilə, nə də təkcə ağıl və əqli dəlillərdə sübuta yetirilə bilməz. Buna əsasən biz vəhy yolu ilə həqiqəti tanıya bilərik. Aydın məsələdir ki təcrübə və əqli dəlillər əgər vəhy və şühud elmi ilə üst-üstə düşərsə, onlardan bəhrələnmək maneəsizdir. Səbəb olaraq bunu göstərə bilərik ki tanışlıq və araşdırma üçün üç amil əsas götürülür: bunlar var olmaq( varlığın süübutu) ağlın varlığı və yəqindir. Birinci və ikinci varlıqları təcrübə və əqli dəlillərlə sübuta yetirilir. Ancaq üçüncüsü yalnız vəhy və şühud yolu ilə isbat edilə bilər. (cavad amili) Deməli həqiqəti tanımaq üçün ilahi vəhyə muraciət etməliyik.

**Həqiqəti tanımaqda vəhyin zərurəti**

İlahi vəhyə və Qurana istinadən (əsasən) insan cism və ruhdan yaradılmışdır. Onun bədəni olan cismi, ölümün baş verməsi ilə aradan gedir və geriyə qalan yalnız onun ruhu olur. Ruh

insanın həyat cövhəridir və o öz həyatına başqa bir aləmdə davam edir. Deməli, əbədi səadət və həqiqi kamal ki ruhla əlaqədardır, gərək ruh kimi əbədi və daimi olsun. Digər tərəfdən, insanın kamalı, onun öz ixtiyarı ilə olan bir sıra hədəfli əməllərinin nəticəsidir. Bəs,

1) İnsanın yaradılış məqsədi budur ki öz istək və ixtiyarı ilətəkamül yolunu seçsin. Allaha yaxınlıq ancaq bu yolla mümkündür.

2) Aydın məsələdir, insan o zaman təkamülə çatar ki həm səadətə aparan yolu tanısın həm də hədəfini təyin etsin. Bu yolda baş verəcək büdrəmələrdən xəbərdar olsun. allahın hikməti hökm edir ki Ona yaxınlaşmaq üçün lazım olan bilik və vasitələri insanın ixtiyarına qoysun.

3) İnsanların adi tanışlıq mərhələsi hiss və ağlın nəticəsidir və ya bu ikisi ilə əldə olunur. Bu ikisi hərçənd yaşayış ehtiyaclarını ödəməkdə mühüm rol oynasa da, həqiqəti tanımaqda həyatın hər bir sahəsində, maddi və mənəvi dünyəvi və uxrəvi kifayət eləmir. Əgər bu çatışmamazlıqları aradan götürmək üçün hansısa bir yol mövcud olmasa idi, Allahın yaradılış prinsipi həyata keçməzdi. Faydasız olardı.

Bu müqəddimələrə əsasən belə bir nəticəyə gəlirik ki, Mütəal-Allahın hikməti budur; ağıl və təcrübədən əlavə elə bir yolu insanların qarşısına qoysun ki, onu təkamülə çatmaqda hər tərəfli təmin etsin. Bu yolla insan müstəqil şəkildə vəya vasitə ilə ondan bəhrələnsin. Bu Allahın Peyğəmbərlərin ixtiyarına qoyduğu həmin vəhy yoludur. Bəşəriyyətin Peyğəmbərlərin vücudundan bəhrələnərək səadətə gedən yolda lazım olan məlumatlara yiyələnsinlər.

Deməli, Allah öz hədəfinə çatmaq üçün “vəhy”i insanın ixtiyarına verir və höccətini tamamalayır.

Digər bir tərəfdən yanaşdıqda əqli tanışlıq bütün bir düşüncədir, bütün həqiqətləri bütün məsələləri dərk etməkdə

acizdir. O, insanın hərəkətlərində baş verən təzadları tək başına qarşılamaq gücünə malik deyildir. Nəticədə ağlın vəhyə həmişə ehtiyacı vardır.
Qurana istinadən, elm və yəqinə çatmaq hər bir fərd üçün mümkündür və o bu yolda addımlamaqdan ötrü tovhid, nubuvvət və məadın nə olduğunu öyrənməlidir.
Məsum İmamlarımızın (ə) kəlamlarında yəqin hasil olunması mömin üçün qaçılmaz haldır və düzgün və yəqinliyə çatmaq əsas şərtlərdən biridir. Mömin şəxs heç vaxt şəkk-şübhəyə əsaslanmamalıdır əksinə, yəqinə çatmaq üçün daim araşdırma aparmalıdır.

**Həqiqət axtarışı və onun meyarının təyini**

Həqiqət axtarışı qədim məsələlərdən hesab olunur. Onun mənşəyi iyirmi beş əsr öncəyə gedib çıxır. Qədim Yunanıstan ərazisində bir dəstə mütəfəkkirlər bu məsələyə aydınlıq gətirməyə çalışmışdırlar. “Sufista” lar adlı qrup belə qənaətə gəlmişlər ki, insan heç vaxt həqiqəti hanıya bilməz və bu əlçatılmazdır. Bir müddət sonra tarixdə “ şəkk edənlər və ya Şəkkaklar” adlandırılan başqa bir dəstə ortaya çıxdı. Bu günümüzdə də onların fikirlərini təsdiqləyən alimlərlə rastlaşırıq. Şəkakklar belə düşünürdülər ki tanışlıq nisbi bir haldır və həqiqət budur ki elm onu təsdiq edir. Qurani-Kərim bu fikri qətiyyətlə rədd edir. (inkar edir) Ayələrdə şahid oluruq ki Allah hansısa bir qövmün bəla və bədbəxtliyini bizə bəyan edərkən onların şəkk və tərəddüddə olduqlarını çatdırır.
Bütün bunlar sübut edir ki, insanın yaradılış hədəfi o zaman məna tapır ki, ağıl və hiss yolundan əlavə başqa bir yol onu həqiqətin varlığına çatdırsın. Və bu yol yalnız vəhy yoludur. Vəhyin zərurətinin məqsədi də məhz budur ki Allahın qanunlarını öz seçdiyi peyğəmbər (s) vasitəsi ilə insanlara

çatdırılsın. Peyğəmbərlərin köməyi olmadan əbədi səadətə və kamala çatmaq qeyri-mümkündür. Bir sıra əxlaqi dəyərlər vəhy vasitəsi ilə bəyan olunub. Çünki ağıl tənha surətdə əxlaqi məsələləri dəqiqliklə tənzim və həll edə bilmir.

## Həqiqəti tanımaqda ruhun rolu

İnsanşünaslıq İlahi elmin və bəşəriyyətin ən mühüm sahələrindən biridir. İnsana olan maraq və onun təhlili elmin müxtəlif sahələrində o cümlədən, fəlsəfə, din, ürfan elmi, əxlaq elmində və müxtəlif mövzuların yaranmasına səbəb olmuşdur.

Bu elmlərin hər birinin araşdırmalarına əsasən insan mövzusu müxtəlif maneələrlə qarşılaşmış və qane edici cavablar alınmamışdır. Bu kimi məsələlərin həllini isə yalnız din sahəsində görmək mümkündür. Bu sahədə araşdırılan insan vücudu maneə və problemlərsiz bütün suallara tam cavab verir. Diqqət cəlb edici nüans budur ki İlahi vəhyə əsaslanaraq məsələni olduğu kimi həll və isbat etmək mümkündür. Biz də insan vücudunu din sahəsində araşdırmağa qərar verdik ( məsləhət bildik) və bu yoldan həqiqətə yaxınlaşmağın mümkün olduğunu anladıq.

Müqəddəs dinimizə əsasən insan yeganə varlıqdır ki həm ruh və həm cismdən təşkil olunmuşdur. Başqa varlıqların dda ruhu var. Amma bizim nəzərimizdə tutduğumuz ilahi və əbədi ruhdur. Ruhun varlığı heç kim üçün inkaredilməzdir.

## Ruhun varlığının sübutu

Dinimizə əsaslanaraq ruhun varlığını üç yolla isbat edə bilərik:

-Əqli fəlsəfi yolla. Ruhun mücərrədliyinin sübutu ilahi fəlsəfi dəlillər ilə mümkündür. Kuliyyatın dərki, sadiq yuxular, ruhun çağırılması, təbii yuxuların varlığı v. s.

-Digər bir yol daxili və şühudi təcrübədir ki, insan çalışır bu yolla öz “mən” liyini tapsın. Varlığını tanısın. Bu yol çox zəhmətli yoldur və əsasən ürfan alimlərinin seçimidir. Ancaq sadə bəşəriyyət də öz gücü, mənəviyyatı həddində müəyyən mərhələyə çata bilər. Tovhid mərhələsi bu mərhələlərdən biri, eyni zamanda ən vacibidir. Tovhid, Allaha inam, insanın Allahın yeganəliyinə tam şəkildə yəqin əldə etməsidir. Necə ki hədislərdə buyurulduğu kimi : “ Hər kəs özünü tanısa, Allahını tanıyar. ” Başqa sözlə ifadə etsək, özünü tanıma Allahı tanımanın müqəddiməsi hesab olunur. Burada ruhun rolu çox böyükdür. Ruhun həqiqəti müşahidə etməklə ilahi məqama yüksəlməsi mümkündür.

**Ruhun əsəri**

Ruhun isbatında istifadə olunan digər bir dəlil -ruhun əsəridir. Bəzən insan yuxuda məchul olan bir məsələnin həllini tapır. Oyanandan sonra bu əmrin həqiqətə çevrildiyinin şahidi olur ( həqiqətən də doğru olduğunu anlayır) və ya itmiş əşyanın yerinin insana göstərilməsi və ya yuxuda hansısa ölmüş insanla söhbət etmək, hətta normal həyatda belə bu kimi hadisələrin baş verdiyinin şahidi oluruq. Allah evliyalarının həyatları buna subut ola bilər. Bütün bunlar ruhun varlığının ağılla isbatının məcmuəsidir.

**Kamal varlığını tanımaq**

İslam ideologiyası İslami baxışlara və əqidələrə əsaslanır. Bu ideologiyanın təməl prinsipi üç hədəf üzərində qurulub:

1)Allahı tanıma
2) Məadı tanıma
3) Dünya və axirət əlaqəsini tanıma

Bəşər, insani keyfiyyətləri qazanmaq və onu ömur yolunda düzgün istifadə etməsi üçün yeganə yol, ilk öncə Yaradanını tanımalıdır. Sonra Axirət dünyasını. Bu iki anlayış haqqında düzgün məlumat alan insan, daha rahat yolla Allaha yaxınlaşa və əbədi səadətə qovuşa bilər. “ Biz cinn və insanları Bizə ibadət etməsi üçün yaratdıq. ”[1] ayəsi buna bir dəlildir. Bu yalnız ibadət və itaət yolu ilə mümkündür.

İnsan ibadət etmək üçün öncə öz məbudunu tanımalıdır. Allahın varlığını düzgün şəkildə tanımaq, həqiqəti düzgün tanımaq deməkdir. Bütün bəşəriyyət Allahın varlığına inandığı halda onu başqa şəkildə qəbul edirlər və sonda səhv nəticə və ya şübhələrlə üz-üzə gəlirlər. Allahın varlığı onun məxluqatla əlaqəsi zəminində sübut olunur. Belə ki, Yaradılış aləmi, Allahın nişanə və əlamətlərinin daşıyıcısıdır. Həmçinin dünyada var olan nizam və baş verən hər bir hadisə Onun iradəsinin simvoludur.

Ümumi olaraq götürdüyümüzdə, Allahın insan və varlıq aləminin bir birini tamamladığını, bir biri ilə əlaqədar olduğunu görəcəyik. Varlıq aləmi özlüyündə iki hissəyə bölünür: insan və dünya. Buna görə ayələr və Əhl-beyt rəvayətlərində insanın dünyanın digər varlıqlarından fərqli xəlq olunduğu vurğulanır. Allah insanı özünün xəlifəsi, məxluqatın ən şərəflisi adlandırmışdır.

İnsan Allahın əmanətinə sahib çıxacaq yeganə məxluqdur. İmam Sadiq əleyhis-səlam buyurur: “Allah insanları Onu tanımaqları üçün yaradıb. Çünki Allahı tanımaq ibadət və bəndəliyə aparıb çıxardır. Allahın bəndəsi olan insan isə bütün məxluqatdan ehtiyacsız olduğunu hiss edər və yalnız Allaha sığınar və Allahla bütün ehtiyacını qarşılayar. ”[١]

1 - Zariat surəsi, ayə 56

## İlahi nemətlər haqqında təfəkkür

Ayələrin müəyyən bir qismiAllahın nemətləri, onların yaradılışı haqqında fikirləşməyi tövsiyə edir. " Onun nişanələrindən biri də aramlığınız üçün sizə özünüzdən zövcələr yaratmasıdır. O sizin aranızda dostluq və mərhəmət qərar verdi. Həqiqətən bu işdə düşünən qövm üçün böyük ibrətlər vardır. "[1]

İnsanın yaradılışında onun tək qalıb iztirab çəkməməsi üçün Allah on a həmdəm yaratdı ki ömür yolunda onunla birgə addımlayıb, çətinliklərin öhdəsindən birgə gəlsinlər. Öz maddi və mənəvi ehtiyaclarını birgə ödəsinlər. Digər bir ayə:

" Sənin Rəbbin bal arısına ilham etdi ki, dağlarda, ağaclada, alaçıqlarda özünə yuva sal, bütün məhsullardan ye, sonra boyun əyərək Rəbbinin yolu ilə get.

Qarınlarından insanlar üçün müxtəlif rənglərdə bal çıxır. Həqiqətən bunda düşünənlər üçün böyük bir dəlil vardır. " [2]

Vəya " İçdiyiniz suyu görmürsünüzmü? Onu buluddan nazil edən sizsiniz yoxsa biz? İstəsək onu acı edərik. Nə üçün şükr etmirsiniz?"[3]

## İnsanın varlığı haqqında təfəkkür

Təfəkkür əhli həqiqəti daha tez dərk edə bilir. Çünki bütün dünyanı insanın ixtiyarına qoyan bir varlıqdan qəflətdə qalmaq ağıl sahibi üçün düşünülməzdir. Düşünən beyin qəflətdən qurtular. Bu həmin düşüncədir ki onun bir saatı bir ilin ibadətindən üstün tutulur. Allah insanı öz vücudu haqqında düşünməyə belə səsləyir:

---

1 - Rum /21
2 - Nəhl /68-69
3 - Vaqiə /68-70

“ Məgər sizi dəyərsiz və qiymətsiz bir sudan yaratmadıqmı?!Sonra onu sağlam bir yerdə qərar verdik. Müəyyən bir müddətə qədər. Bizim bu işə qüdrətimiz vardır, biz necə də yaxşı qüdrətliyik. Vay olsun o gün təkzib edənlərə” [1]

Digər ayədə buyurur:” Bütün yer üzündə olanları sizin üçün xəlq etdi”[2], ” Ona doğru yolu göstərmişik; istər şükr edən olsun, istərsə də nankor” [3]

“ Məgər onlar özləri düşünmürlər ki, Allah göyləri və yeri, onların arasında olanları haqq olaraq müəyyən bir vaxt üçün yaratmışdır?[4]

Beləcə, təfəkkür insanı pillə-pillə mərifətə çatdırıb, onu öz insanı inancına doğru sövq edir. [5]

**Yaranış haqqında təfəkkür**

İnsan yaranışı müəyyən bir hədəf üzərində qurulmuşdur. Yaranışın hədəfi haqqında ayələr sübut edir ki yaranış məqsədyönlüdür və insan bu haqda düşünməlidir:

“ Elə güman edirsiniz ki, sizi əbəs yerə yaratmışıq və bizim yanımıza qayıtmayacaqsınız? “[6]

Nəticə alırıq ki yaranəş məqsədli olduğundan qiyamət sorğusu da zəruridir.

“ Biz göyü, yeri və onların arasında olanları oyun oyuncaq yaratmadıq; Əgər belə etmək istəsəydik, öz yanımızda edərdik. Biz isə bunu edən deyilik”[7]

---

1 - Mursəlat /20-24
2 - Bəqərə /29
3 - İnsan /3
4 - Rum/ 8
5 - Misbah yəzdi Allaha doğru, səh 87
6 - Muminun /115
7 - Ənbiya /16-17

Tamamilə aydındır. Təcrübə elmi və materialism həmçinin " nihilism" cərəyanı təbiətin öz -özünə, təsadüfən yarandığına inananların baxışları puç və boşdur. Dünyanı Allahsız düşünmək təxəyyülatdan başqa bir şey deyildir. Yaradan haqqında təhlil apararkən, Allahı nəzərdən qaçıranlar heç bir nəticə əldə edə bilməzlər. Yaranışa məna verən onun Allahla bağlı olmasıdır.[1] Bəli, dünyanın yaradılışında hikmət vardır və bu həqiqətə çatmaq yalnız düşüncə yolu ilə əldə etmək olar. "Allah öz ayələrini sizə bu cür açıqlayır ki, bəlkə dünya və axirət haqqında düşünəsiniz". [2]

**İman həqiqətin tanınma açarı**

Allahın layiqli bəndələri ona layiqli işlər görməklə doğurdan da ona yaxınlaşır.

Eyni halda günahkar bəndələr isə gördükləri günah üzündən Allahdan uzaqlaşır. Bunun əsas mənşəyi İmanın olmamasıdır. Bəs nədir bu iman?

Gəlin məsələyə aydınlıq gətirək. İman dedikdə Allahın varlığına inanmaq, Onun haqq olduğunu, yeganəliyini canla, qəlblə, bütün vücudi ilə qəbul və dərk etməsidir. Allahın yeganəliyinə bir anlıq belə şübhə ilə yanaşmamaqdır. İman Allaha bütünlüklə inam, məad və nübuvvətin, axirət və qiyamətin qəbuludur.

Kamillik və səadətə çatmaq üçün iman və saleh əməl əsas şərtlərdəndir. Quranda bu iki xüsusiyyət paralel zikr olunur. "Mömin halda saleh əməl edən kişilər və qadınlar cənnətə daxil olarlar"[3] Bəzi insaların nəzərinə görə iman "inam" deməkdir və elm yolu ilə əldə edilir. Allahın varlığını

1 - Misbah Yəzdi, Allaha doğru, səh 106
2 - Bəqərə / 219-220
3 - Nisa /24

təsdiqini iman hesab edən insanlar elə buna görə, imanı elmlə bərabər tuturlar. Amma əslində bu belə deyildir.
Qurani-kərimə muraciət etdikdə, bu baxışın yalnış olduğu məlum olur. Bir şeyin varlığını bilmək ona iman gətirmək demək deyil. Bu haqda Nəml surəsinin 14cü ayəsində buurulur: " Ürəkdən əmin olduqları halda zülm və təkəbbür səbəbindən inkar etdilər". Söhbət Fironun Allahı inkarından gedir. Burdan aydin olur elmin olduğu yerdə imanın olması fikri yalnışdır. Amma bir nöqtəni qeyd etmək lazımdır ki, imanın yaranması üçün elmə və ağla ciddi ehtiyac vardır. Biz yuxarıda elm və mərifətdən söz açdıq. İnsanı xalis tövhidə qovuşduracaq elm və maarifdən söhbət gedir. Şübhəsiz ki İslam dini və maarifini nəzərdə tuturuq. Dinin başlanğıcı tanımaq, məərifətdir dedik. İnsan nəzəri tövhidi öyrəndikdən sonra, onu əməli tovhidə çevirməlidir. Bunun yolu isə İlahi sevgidir. Deməli, elm sevgi ilə birləşdikdə, iman yaranır. İnsan Allahdan qeyrisini sevməməlidir. Biz bir şeyi sevdikdə ona itaət edir və sevdiyimizin əsirinə çevrilirik. Sevginin izlərindən biri, itaət və təslimdir. Bu isə bir növ " ibadət" dir. Biz Allahı sevsək, ona iman gətirmiş olarıq; nəfsimizi sevsək, onu özümüzə ilah qərəa verərik. Deməli, iman elm və sevgidən doğan br hissdir. Ayədə buyurulduğu kimi:
" Kim Allahı sevsə, Ona ibadət etmiş olacaq və kim aradan gedən dünyanı sevsə, ona ibadət etmiş olacaq. Öz nəfsini özünə ilah edəni gördünmü? Və sən onu hidayət edə bilərsənmi?"[1]
İman və mərifət nəfsani kamalların və Allah dərgahına seyr etməyin əsası hesab olunur. Necə ki Müqəddəs kitabımızda buyurulur:

1 - Furqan /43

" Allah sizlərdən imanlı olan şəxslərin dərəcəsini yuxarı aparır. Elmə malik olan şəxsləri yüksək dərəcələrə qaldırır. Allah gördüyünüz işlərdən agahdır. "[1]
Deməli biz bilməliyik ki Allaha iman insanın hərəkətinə istiqamət verib. onun
məqsədini aydınlaşdırır. Əgər imanımız olmazsa, təkamül yolunu düzgün seçə bilmərik. " Allaha və Qiyamətə imanı olmayan şəxslər düzgün yoldan azacaqlar. "[1]
Düzgün iman və etiqad bizi maddiyyatdan və heyvani istəmələrimizdən tədricən uzaqlaşdırır və yalnız ehtiyacımız olduğu miqdarda( həddə) kifayət edir. İman nuru olmayan insanlar isə bunun əksinə, birbaşa madiyyata, heyvani istəklərinə üz tutub maddi aləmə bağlı qalırlar. Belə insanlar həqiqət yolunda olmadıqlarından eyni zamanda həqiqəti axtarmadıqlarından, Allaha yaxınlaşmaları da heç vaxt mümkün olmayacaq. Biz bir yaxşı iş gördüyümüzdə, onu Allaha xatir niyyəti ilə yerinə yetiririk. Bu bizim fitrətimizdən doğan ( irəli gələn) qaynaqlanan bir istək, imanımızdan yaranan bir fikirdir.
İman əməllərin əsası, bünövrəsidir və ona dəyər verir. ( onu dəyərə mindirir).

## İman və İradə

İman elmdən əlavə insanın istək və iradəsindən asılı olan bir xüsusiyyətdi. İstək olmayan yerdə imandan danışmaq olmaz. İman o zaman qəlbdə peyda olur ki insan müəyyən həqiqətə ehtiyaclı olduğunu anlayır və ona yaxınlaşmaq qərarına gəlir. İman bilmək və bildiyinin tələblərinə uyğun olaraq hərəkət etməkdir. İnsan öz ixtiyarı ilə imana çata bilər və heç bir

---

1 - Muminin /74

qüvvə onu bu yolda məcbur etmək qabiliyyətində deyildir. İman məcbur olsaydı, Allah bizi ona dəvət etməzdi.
“Ey insanlar! Peyğəmbər Rəbbiniz tərəfindən haqqı gətirdi. İman gətirsəniz bu sizin üçün daha yaxşıdır. ”[1]
İnsanın imana münasibətdə malik olduğu ixtiyar onun qəlbinə aiddir və ona tərif vermək çətindir.

## Quranda İman

İnsan imanın əsl ünvanını bilməsə səhvə düşəcəkdir. Həmişə olduğu kimi yenə də həqiqi imanı bizə Allah belə tanıtdırır:
“Yaxşılıq təkcə üzünüzü gün çıxana ya gün batana çevirməklə deyil. Yaxşı əməl odur ki insan Allaha, axirət gününə, mələklərə, kitab və peyğəmbərə inanıb, olanından Allah yolunda sərf etsin” [2]
Ayə bizə imanı tərif etməklə yanaşı, bəyəndiyi ehsan sifətini də tərifləyir. Deməli, Allaha bütün sifətləti birgə olan iman, həqiqi imandır. Allaha iman Onun hikmət sifətinə imana səbəb olacaqdır ki buda hikmət üzərindən peyğəmbərlərin göndərilməsi yəqinliyinə çatdırır. Bunun ardınca Peyğəmbərə göndərilən kitaba, mələklərə, məada və qiyamət gününə iman yaranır.
“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirdi və bütün möminlər Allaha, mələklərə, kitablara və peyğəmbərlərə iman gətirdilər. ”[3]
Yalnız bildiyinə əməl etmək insanda iman yaradır. Bildiyinin əksinə əməl etmək isə küfr adlanır. Həqiqət axtarışında olan mömin hər tərəfli imana sahib olmalıdır. Beləliklə o imanın bütün mərtəbələrinə sahib olacaqdır.

1 - Nisa /170
2 - Bəqərə /177
3 - Bəqərə /285

"Möminlərin imanlarının üstünə iman artırmaq üçün onların qəlblərinə arxayınlıq nazil edən Odur" [1]
İmanın dərəcələri haqqında qısa da olsa məlumat vermək istəyirik. İmam Sadiq (ə) bu haqda belə buyurur. " Allah - təala imanı yeddi hissəyə bölüb: yaxşılıq, düzgünlük, yəqinlik, razılıq, vəfadarlıq, elm və dözüm. Sonra onu insanlar arasında bölüb. Kiminə bir, kiminə iki və ya daha çox pay düşüb.. . Bir pay imanı olan şəxsə, iki pay imanı olan şəxsin yükünü yükləməyin.. . Onlar bu yükü daşıya bilməz".[2]
İmanın dərəcələrini ustad Misbahın fikrincə sonsuzluğadək artırmaq olar. Ancaq imanən meyarını təyin etməkdən ötrü insanın əməlinə diqqət yetirmək lazımdır. dini vəzifələri yerinə yetirmək imanın artmasına səbəb olur. Əməl azaldıqca iman da azalır. dütün dini göstərişləri qəlbən qəbul edib onu əməldə göstərmək insani imanın birinci pilləsinə çıxmasına kömək edir. Qəlbən qəbul edib, qismən əməl edən insanlar günahkar və nöqsanlı şəxs kimi tanınır. Belə insanlar öz əməllərinə uyğun iman mərtəbəsində yer tuturlar.

## Saleh əməl

İmandan sonrakı ən bəyənilən əməl saleh əməl və yaxşı işlərdir. Bu qənaətə Allahın ayələrinə əsasən gəlmək olar. Allah imandan sonra İlahi dərgaha yaxınlaşmağa və ali-insani dərəcələrə nail olmaqdan ötrü saleh əməlin vacibliyini vurğulayır. :
"Hər kəs iman və saleh əməllə Allaha tərəf gedərsə, məhz onlar çox yüksək dərəcələrə və məqamlara nail olarlar. "[3]

---

1 - Ənfal /2
2 - Biharul-ənvar, 69 -cu cild
3 - Taha /75

Saleh əməl müqəddəs şəriətimizdə vacib və ya müstəhəb əməl kimi təqdim edilir. Ən gözəl əxlaqi keyfiyyətlərdən sayılır. Qiyamət günü əməl tərəzisinə qoyulacaq olanlardan ən əsası saleh əməllərdir. Burada imanın rolu da istisna deyil. İmam Sadiqdən bu haqda belə rəvayət olunur ki, iman yalnız saleh əməllə sabit olur. [1]

Əməlin saleh olmasının yeganə meyarı onun şəriət və vəhylə muvafiq, uyğun olmasıdır. Elmi və qəlbi etiqadlar əməllə birləşərsə, təkamul yolunda addımlamaq daha rahat olar. Elm və əməl arasında kökdən gələn bir bağlılıq vardır. Hər kəs öz daxili aləminə görə əməl edir. Uca Allah İsra surəsində bu mövzuya toxunur:

“De: hər kəs öz qabiliyyətinə görə iş görər “. [2]

Ayə insan əməlinin onun xislətinə və bənzəyişinə uyğun və muvafiq olduğunu bildirir. Bu, əmələ nisbətdə sanki bədəndə cərəyan edən ruh kimidir ki, əzaları və əməlləri ilə ruhun mənəvi halını təmsil edir. [3]

Hasil olan budur ki, əgər insan ondan saleh əməllərin zahir olması üçün Uca Allahın əxlaqları ilə əxlaqlanmaq istəsə, gərək birinci növbədə qəlbi etiqadlarını düzəltsin.

Kamilliyin zirvə nöqtəsi hər şeyi Allahdan bilməkdir. Yəni hədəfə çatmaq üçün irəliləyən kamil insan üçün Allahın iradə və istəyi hər şeydən üstündür. Bu isə ona dəlalət edir ki Allahın buyurduğu hər bir şeyi qəbul və əməl etməlidir. Əməl etmədən öyrənməyin faydası yoxdur. Necə ki Allah buyurmuşdur:

“Tövrata əməl etməyə mükəlləf olan, lakin onun haqqını verməyən kəslər( əməl etməyənlər) belində çoxlu kitab daşıyan ulağa bənzərlər. Allahın ayələrini yalan sayanlar

1 - Vəsailuş-şiə /cild 15, səh 168, hədis 6

2 - İsra / 84

3 - Seyyid Kamal Heydəri, Ruhun tərbiyəsi, səh. 30

barədə çəkilən məsəl necə də pisdir. Allah zalım qövmü doğru yola yönəltməz!”. [1]

Göründüyü kimi bu və bunun kimi bir çox ayədə yəhudilərin küfrünə, müşriklərin fəsadına, munafiqlərin müsəlmanlara qarşı olan nifaqına eləcə də peyğəmbər və möminlərin imanına, onların əməllərini və hərəkətlərini dəlil olaraq göstərir. Əməlin necəliyi insanın elminə münasibdir və buna dəlalət edir. [2](əlmizan)Ona görə də tovhiddəki terminləri tanimaq deyil, əksinə, onları tanımaq insanı hədəfə doğru aparan bir vəsilədir ki, insan onunla kamilləşir. Buda özlüyündə əməli tovhiddir.

Deməli, mühüm etiqad məsələlərindən biri insanın xoşbəxtliyində iman və əməlin roludur. Müqəddəs kitabımız imansız əməli faydasız hesab edir. Çünki insanın gordüyü bütün işlər üçün iki hal mümkündür; İş görənin məqsədi Allahın razılığıdır, yada hansısa şəxsi məqsəddir. [3]

Saleh əməl imanın şərtidir. Bizim əqidəmizə görə axirət səadətini yalnız müsəlman anlaya bilər. Yeganə doğru yol İslam dini olduğundan, onun göstərdiyi yol da, göstərişlərə əməl etməkdir. Bu göstərişləri bizə Peyğəmbərimizvə onun pak Əhli-beyti verir. Əhli- beyt yolunu tutanların həqiqəti tanımaqda heç bir problemləri yoxdur. Onlar məqsədə doğru düzgün hərəkət edən İlahinin bizə bəxş etdiyi rəhmətdir.

Hz Əlinin(ə) yetimlərin qayğısına qalması, onları himayəsinə götürməsi bizə sübut və örnəkdir. Pis işlə Allahın qəzəbinə, onun öz bəndələrindən üz döndərməsinə səbəb olur. “Allah Qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz!”[4]

---

1 - Cümə /5
2 - Əl-Mizan /cild3, səh 189
3 - Misbah, Allaha doğru, səh 133
4 - Ali İmran /77

Saleh əməlli möminlər Allahın etinasızlığından çox qorxurlar. Bu eyni zamanda fitri bir hisdir. Zahirdə kiçik görünən bu əməllər batində Allahın razılığına səbəb olur. İsar, sileyi-rəhm, insaf və mərhəmət də bu katiqoriyaya aiddir. Niyyəti Allahın razılığı olan hər bir iş saleh əməl adlanır. Hədislərimizdə bu haqda çox oxumaq olar. Saleh əməlin savabını saymaqla qurtarmaz. Saleh əməl yerinə yetirən və ya bir ehtiyaclı mömin qardaşının istəyini ödəmək, Həcc əməlini yerinə yetirmək qədər qiymətlidir Allah yanında. Hz Sadiq (ə) buyurur: "Ey Cündəb oğlu! Dostluğun və düşmənçiliyin Allah xatirinə olsun. "[1]

Saleh əməlin təməlində bu prinsip durarsa, nə xoş bizim halımıza! Bəli, bu olduqca çətin işdir və güclü iman istəyir. Müqəddəs kitabımızda dəfələrlə bu mövzuya toxunulmuşdur. "Rəbbin yalnız ona ibadət etməyi və valideynlərinə yaxşılığı buyurmuşdur"[2], "Biz insana ata-anasına yaxşılıq etməyi tapşırdıq.[2]" Hətta Allah sübhanəhu -təala Əhli-beytə olan sevgisinə işarə edərək buyurur:

"(Ya Peyğəmbər!) De ki, mən sizdən təbliğim müqabilində ən yaxınlarımı sevməkdən başqa bir şey istəmirəm"[3]

Saf məhəbbət, sevgi, mərhəmət və ehtiram özü də saleh əməllərdən sayılır.

Bütün bunlar bir daha sübut edir ki, təkamül yolunda həqiqət axtarışına çıxan hər bir fərd, saleh əməllərdən yn keçməməli, onları öz ömürləri boyu hayata keçirməlidirlər. Səbəb:

"Biz yaxşı iş görənlərin mükafatını zay etmərik"[4]

"Xeyir işlər görənlər mütləq mükafatlanacaqlar"[5]

---

1 - İsra /23
2 - Loğman / 14
3 - Şura/23
4 - Kəhf /30
5 - Zəlzələ /7-8

“Kim zərrə qədər yaxşı əməl etsə, onu görəcək, kim zərrə qədər pislik etsə, onu görəcəkdir”[3]

İnsan xeyir və şər əməllərinin nəticəsini deyil, batinini görəcəkdir.

Qəlblə qılınan namazın dəyəri ölçülməzdir. Zahirən düzgün qılınan namaz daxilən də düzgünvə təmiz surətdə olmalıdır. Diqqətli olaq! Namazı ömrün son namazı kimi qilaq. Bu bizə tövsiyə olunur. “Ehsan odur ki, Allaha onu görmüş kimi ibadət edəsən. Əgər sən Onu görmürsənsə, O səni görür.” [1]

**İbadət**

Həqiqəti tanıma yollarından biri də ibadətdir. İbadət dedikdə ağlımıza gələn ilk namaz və oruc olur. Ancaq ibaətin mənası böyükdür və təkcə namaz və orucla tamamlanmır. Qurani - Kərimə isnadən bilirik ki Allah ins və cini məhz ona ibadət üçün yaradıb. Halbuki, onun bizim ibadətimizə ehtiyacı yoxdur. Çünki O, mütləq kamal və mütləq ehtiyacsızdır. Hz Əli (ə) Nəhcül-Bəlağədə buyurur:” Allah məxluqu onun ibadətindən ehtiyacsız, itaətsizliyindən amanda olduğu halda yaratdı.”

Bəs niyə ibadət etməliyik? İbadətin nə kimi faydaları ola bilər ki? Bu kimi suallarla zehnimiz hardasa daim məşğuldur. Dini əqidə mənbələrimizə əsaslanaraq gəlin bu sualları cavablandıraq.

Biz həqiqəti dərk etmək və yaradılış fəlsəfəmizi anlamaq üçün Allahla aramızda olan maneə və pərdələri aradan qaldırmalıyıq. Bunun üçün isə ən rahat və səmərəli yol ibadətdir. Sadiqanə edilən pərəstiş ən gözəl yoldur. İbadət edən insan özünü Allahın iradəsinə təslim edir. Bugünkü

1 - Biharul-ənvar / 70 -ci cild

dünyamızda Allaha itaətsizliyin təməlində iradə azadlığı durur. İnanın öz nəfsinə və özü kimi insanlara tabe olub, Allahın qanununa itaət etməməsi halhazırda azadlıq hesab olunsa da, əsl həqiqətdə əsarətdir. Nəfsin əsarəti. Biz gərək yalnız Allaha bəndəlik edək ki bəndəliyin ilk addımı isə ibadətdir. [1]
Allah-təala insana buyurur: " Səni azad yaratdım, başqasına qul olma.". Yəni Allah özündən qeyrisinə olunan ibadəti zülm və cəfa hesab edir. Ona tabe olmaq, onun istəklərini şərtsiz yerinə yetirmək deməkdir. Bəndılik budur ki insan həqiqəti yəni hər şeyin Allahın iradəsindən asılı olduğunu anlasın. Bərdə olub, nəfsinin qulu olmasın. Çünki həqiqəti dərk etmək istəyən insan nəfs azadlığından kənara çıxmalıdır.
İnsan nəfsini cilovladıqca daha çox kamal məqamına yaxınlaşır. Kamal zirvəsinə çatdıqda isə nəfs unudulur və insan Allahın iradəsiylə " nəfəs " alır.
Qeyd etdik ki insanı hədəfinə çatdıracaq yeganə yol bəndəlikdir. Bəndəliyin ilk şərti ibadətdir. İbadət özlüyündə üç növdür. Bir qrup insan Allaha cəhənnəm əzabının qorxusundan ibadət edir- buna qulların, bərdələrin ibadəti deyilir. Bu sirf qorxu üzərindən edilən ibadətdir. Digər bir qrup isə behişt və cənnət nemətlərinin tamahı ilə ibadət edirlər ki buda özlüyündə tacirlərin ibadəti hesab olunur. Bizim nəzərimizdə tutduğumuz ibadət isə Allaha pərəstişə layiq olduğu üçün sevgi ilə edilən ibadətdir. Məhz bu ibadət azadanə ibadət- bəndə ibadəti adlanır. Əlbətdə, sadaladığımızların heç biri dinimizdə rədd olunmur. Ancaq sırf həqiqəti tanımaqda köməkçi olan ibadəti – azad və aşiqanə ibadəti daha çox dəstəkləyir. Belə olan halda insanı ibadətə vadar edən onun Allaha olan məhəbbəti və mərifətidir. Biz əgər bele bir ibadət edəriksə, atdığımız hər bir addım qarşılığında Allah -təala on addım bizə tərəf yaxınlaşar.

1 - Misbah Yəzdi, Allaha doğru, səh 30

Həmçinin bu ibadəti özümüzə adət etdirsək, gecə- gündüz Allaha zikr halında olarıq və bu işimizdən ləzzət almaqdan yorulmarıq. Çünki, insan vücudu, onun varlığı Allahla rabitədədir. Sadəcə bəzi insanlar qafillik üzündən bunu dərk edə bilmirlər.

**İtaət**

İtaətkarlıq (xüşu) bizi Allaha və həqiqi namaza aparan yoldur. Xüşu özünü sındırma, təvazö və itaətkarlıq mənalarını bildirir. Quranda xüşu bəhsinə xüsusi ilə toxunulub. " Doğurdan da möminlər nicat tapdılar. O möminlər ki namazlarını xüşu ilə qılarlar"[1], " Bütün sədalar Rəhman Allahın qarşısında xüşu halın alar, pıçıltıdan başqa bir səs eşitməzsən ". [2]

İtaət və xüşu bir növ Allaha qarşı zəlil görkəmini almaq mənasındadır. Bu halı ancaq itaətə gəlmiş nəfsdə, qəlbdə görmək mümkündür. İnsan mənən qəlbini Allah qarşısında sındırmalıdır. Əli hər yerdən üzülən insanların bu hal ilə qarçılaşmalarını çox görmüsünüz. Ancaq bu xüşu deyil, zəlillikdir. Bəlkə də eqoizmin, xudbinliyin öldüyü andır. Eqoizm insanın təkamülə çatmasında böyük maneə hesab olunur. Adi insanların nəzərinə görə itaətkarlıq bir psixoloji vəziyyətdir. Insan aciz halda olanda itaətkarlıq edib, ağlaya bilər. Bu tamamən səhv fikirdir. Psixi cəhətdən problemli insanalr dünyəvi çətinliklər qarşısında çıxılmaz vəziyyətdə qalır və tab gətirmir. Ancaq mömin insanlar yalnız Allah qarşısında muti olurlar.[3]

---

1 - Muminun /1-2 ci ayə
2 - Taha / 109
3 - Misbah / Allaha doğru, 80

Bəli, pak fitrətə malik insanlar Allahın nişanələrini gördükdə, və ya Quran ayələrini tilavət etdikdə, onların təsirindən riqqətə gəlirlər. İmanlı insanlar ilahi nişanələr qarşısında həyəcanlanırlar. Qulağa çatan bu xoş nəvaziş möminin ruhunu sakitləşdirir. Xüşu da belədir. Bir növ özünü itirməkdir. Allah qarşısında özünü sındırmaq ləzzət vericidir. Necə olsa da insan Onun əzəmət və iradəsi qarşısında acizdir. Bizim əldə etdiyimiz hər bir elm, istedad, Onun sonsuz qüdrətinin nişanəsidir. “ Allah özünü aşağı tutanları ucaldır. ”[1]

Allah qarşısında sınıb, göz yaşlarını axıdan insanxüsusi bir ləzzət duyur və daim bu haqda qalmaq istəyir. İlahi eşqin insanda təcəllisi burada baş verir. 2.

İnsan özünü məhbubu qarşısında daim həqir hiss edir. Mömin üçün Allahdan gözəl məhbub tammaqsa qeyri- mümkündür. İnsanın ən gözəl vaxtlarından tutmuş, ən zəif vaxtlarında həmişə ona pənah vermiş, onu öz rəhmət qanadlarına almışdır. Hər zaman onunla olan, onun bütün sirlərindən xəbərdar olan yeganə sadiq dost Allahdır. Mehriban rəhmət nəzərləri daim üzərimizdədir. Belə bir varlığı sevməmək ağılsızlıqdır və qeyri mümkündür. Allah bizləri onu həqiqi sevənlərdən qərar versin və həmişə yalnız Ona itaət etməyi nəsib etsin.

İnsan öz vücudunu daim Allahın əzəməti ilə müqayisə etdikdə istər istəməz xüşu halını alir, mütiləşir. Əgər naamzın merac qüvvəsinə malik olması üçün xüşu halının başlıca şərt olduğunu bilsəydik, həqiqətə çatmaq üçün bu sifəti özümüzdə yaratmağa çalışardıq. Xüşu halı bizə xof və xəşiyyətlə birlikdə bizim yol yoldaşımız ola bilər. Qorxu və ümid Allahın heybəti qarşısında yaranan hisslərdir. Biri bizi Allahın heybətindən qorxutduğu halda, digəri bizi Allahın rəhməti ilə ümidləndirir.

Dedik ki Allahın heybəti qarşısımda yaranan hiss “xof” adlanır. Əslində xof hissi və xüşu əzəmət müqabilində yaranır,

---

1 - Misbah / Allaha doğru, 81

əzab qorxusundan deyil. Ola bilər ki bəzi insanlar ilahi əzabın qorxusundan xüşu etsinlər (itaət etsinlər) Bu özlüyündə həqiqi xüşu deyil. Həşr surəsinin iyirmi birinci ayəsində oxuyuruq:
" Əgər Quran bir dağa nazil edilsəydi, onun Allahın qorxusundan xüşu edib parça-parça olduğunu görərdin".
Məsələ budur ki, dağ günah etmir və bu halda onun qorxusu olmamalıdır. Əzab günahın qarşılığında olur və günahkar öz aqibəti üçün qorxur. Əslində burada qorxudan məqsəd xəşiyyətdir. Belə aydınlıq gətirək; İnsan bilir ki, ona Allah tərəfindən heç bir zərər toxunulmayacaq. Əmin olduğumuz əzəmət qarşısında özümüzü itirmə hissi qorxu yox, xəşiyyətdir. İnsan günah etdiyi əmələ görə onda qorxu hissi yaranır. Ancaq mömin günah əhli olmadığından qorxu hissi xəşiyyətlə əvəz olunur. Xəşiyyət əzabdan doğan qorxu ilə ilahi əzəmətin dərk olunmasından doğan qorxunun cəmidir. Hz Fatimə (s) namaz zamanı yarpaq tək əsər, İmam Həsən (ə) isə dəstəmaz alarkən titrəyərmiş. Allah-təala bu səhnələrə işarə ilə mələklərə buyurmuşdur:
"Baxın mənim xəşyətimdən titrəyən bədənlərimə! Şahid olun ki, onların dostlarına şəfaət verəcəyəm. " [1]

**Ümid və Qorxu əlaqəsi**

İnsanın ixtiyari olaraq bir işi yerinə yetirib, o birindən çəkinməsi üçün ümid və qorxuya ehtiyacı vardır. İnsanı ümid yaşadır. Qəlbimizdəki ümid və qorxu bizim düşüncə və ağlımızla əlaqədardır. Yaşlı insanlar xəstəlikdən, kasıbçılıqdan qorxduğu halda, gənc nəsillər cgələcəkdə güclü və varlı olmağa ümid edirlər. Mərifətli, düşüncəli insanlar isə mənəviyyat məsələlərinə xüsusi fikir verir, ağıl və imanı

1 - Biharul- ənvar, cild. 28

itirməkdən qorxurlar. Başqa sözlə ifadə etsək, mömin insan üçün mənəviyyatını əldən verib, Allahın qəzəbinə düçar olmaq, onu gözündən düşmək daha qorxuludur. [1]

İmanın müxtəlif dərəcələrində insanın ümid və qorxusu da müxtəlif olur. İmanın birinci dərəcəsində cəhənnəm əzabından qorxulduğu halda, ən yuxarı mərtəbəsində Allahın razılığını itirməkdən xoflanılır. Həqiqətən ümid və qorxu təkcə dünya həyatı üçün deyildir. Həqiqət axtarışında olan insan əbədi axirət həyatını unutmamalıdır. Bu insanlığa tərəf hərəkətin amilidir. Allahın razılığını qazanmaq istəyən şəxs, çirkin əməllərdən həya edib çəkinməlidir. Çox vaxt bəndə Allahın mərhəmətinə ümid edib, böyük günahlara bata bilər. Bu tez-tez baş verən hadisələrdəndir. Belə ümid saxtalıq nişanəsidir. Ancaq yenə də Allah insanı onun hansısa əməlinə görə bağışlayır.

İnsan Allahdan elə bir həddə qorxmalıdır ki, onu günahlardan çəkindirə bilsin. Ümid qorxudan çox olarsa, insan günaha düşər. Qorxu ümiddən çox olarsa, bu dəfə də insan bədbinlik hissinə qapılar. [2]

Deməli, itaətkarlıq və bəndəlik hissi pak nəfsli insanın bütün vücudunu bürüyür. Məsum İmamlar (ə) və Peyğəmbərimiz (s) Allahın cəlal sifətlərini düşünəndə qorxar, cəmal sifətlərini düşünəndə isə ümidvar olardılar.

“ Bilin ki Allah dostları üçün heç bir qorxu yoxdur və onlar kədərlənməzlər”[3]

Biz də onları örnək götürüb, yollarını davam etdirəriksə tez bir zamanda öz istəyimizə çata bilərik.

1 - Misbah Yəzdi, İmam Sadiqin nəsihətləri, səh 87
2 - Həmin, səh 90
3 - Yunis / 62

## Həqiqəti tanımaqdakı maneələr

### Bağlılıqlar

Həqiqət axtarışında olan insan maneələri tanımalı və onları bir bir aşmaqdan ötrü Uca Allahdan kömək istəməlidir. Allah belə insanı ilk növbədə dünyaya bağlanmaqdan çəkindirir. Dünyanı aldadıcı həzzdən, əyləncədən başqa bir şey olmadığını bəyan edir:

" Dünya həyatı oyun- oyuncaqdan və həvəsbazlıqdan başqa bir şey deyildir. Axirət dünyası isə təqvalılar üçün daha yaxşıdır. Bu barədə dərindən düşünmüsünüzmü?".[1]

İnsan dünyadan öz ehtiyacı həddində istifadə etməlidir. Qənaətə, zöhdə riayət etməlidir. Dünyaya könül vermək möminə yaraşan sifət deyildir. Pul məqsədə çatmaq üçün vasitədir. Biz onu ehtiyacımız üçün xərcləməliyik. Ancaq onu toplayıb var dövlət yığmaq, ehtiyacı olduğu halda xərcləməmək dünyaya bağlılıqdır.

Sadə geyinib sadə yaşamaq, sadə yeyib sadə gəzmək zöhdün əlamətidir. Zöhd dünyaya bağlılığın qarşılığıdır. Ancaq çox vaxt bu sifət hamıda özünü göstərmir. İnsan ifrata və təfritə yol verir. Məsələn dünya malına məhəbbət, malın az və ya çoxluğuna bağlı deyil və insanda hərislik yaradır. İnsan tamahkar məxluqdur. Hər şeydən onun da olmasını istəyir. Əgər dünya malına bağlılıq insanın ibadətinə və ictimai vəzifələrinə zərər vurursa, bu təhlükəli haldır. İnsan sahib olduğu bir şeyi əldən verərkən qəmlənərsə, bu dünyaya bağlılığın bir nişanəsidir.

Belə insanlar heç vaxt çata bilməyəcəyi şeyləri ələ gətirməkdən ötrü daim götür- qoy edir. Qənaət ruhiyyəsində

---

1 - Ənam / 32

olan heç zaman acımadığı kimi, bu ruhiyyədə olmayan insanlar da heç zaman doymaq bilmirlər. Acgöz olurlar. Süfrələrdə çeşid -çeşid təamlar, hesablarında pul olduğu halda daim ehtiyac və aclıq hissi ilə əriyirlər. Məsum İmamlarımız dünyanı şor suya bənzədir. Ondan içməklə sussuzluğun daha da artır və elə hey içmək istəyirsən. Dünyaya bağlılıq belədir. Dünyanın aldadıcı, süst işləri, o cümlədən şan- şohrət, cah-cəlal, məqampərəstlik, vəzifə tələbi, hərislik, tamahkarlıq, tıkıbbür, əyləncəli həyat, rəyasət və bu kimi sifətlər dünyaya bağlılıqla qazanılır.

İnsanı dünya malına bağlayan digər br əlaqə zəif əxlaqi sifətlərdir. Yalnız belə insanlar dünyaya meyl salıb, onun ardınca qaçırlar. Əllərində olanları itirdikdə qəm- qüssəyə batma səbəbləri məhz zəif iradə və əxlaqın olmasıdır.

İnsan dünya malına məhhəbbət etməsə, yalnız öz ehtiyacını ödəməklə və vəzifələrinin icrası üçün ondan istifadə etsə, heç zaman dünyaya bağlanmaz. Ona könül verməz. İmam Sadiqin buyurduğu kimi böyük var-dövlət və güc, səni məst etməsin.

“ Allah sevincdən özünü itirənləri xoşlamır”[1]

“Əlindən çıxmış nemət üçün Allaha bədbin olan insan, Allah sevgisindən məhrum olar. Ancaq axirət və həqiqət sorağında olanlara bu şamil edilmir. ”[3]

“Həqiqətən insan çox həris və tamahkar yaradılmışdır; ona bir pislik üz verdiyində fəryad qoparır, xeyir nəsib olduqda isə xəsislik göstərir. Namaz qılanlar istisnadır”[2]

## Özünəpərəstiş

Özünəpərəstiş (eqoizm) fəsadların anası ( ummul- fəsad) və bütün günahların mənşəyi kimi tanınır. Nəfsin paklaşdırılmasında ciddi maneə hesab edilir.

---

1 - Qəsəs \76

2 - Məaric / 19-22

Bilməliyik ki, hər bir canlı varlıq özünün zatına, fel və kamallarına məhəbbət bəsləyir. Yəni təbii olaraq özünü sevir. Deməli, özünü sevmıyi tam şəkildə məzzəmmət etmək olmaz. Digər tərəfdən, əvvəldə qeyd etdik ki insanda iki "öz" insani və heyvani öz mövcuddur. İlahi yönə malik olan insani nəfs vəya həmin öz, mələkut aləmindən nazil olmuşdur. Məqsədi insanı yer üzünün xəlifəsi qərar verməkdir. İnsani öz elm, həyat, qüdrət, rəhmət, ehsan, feyz və kamal sifətlərinə meyillidir və onları sevir. Deməli, biz özümüzü bu yöndən sevərsək, əxlaqi fəzilətlərə, bütün kamallara və yaxşılıqların mənşəyinə yəni Allaha yaxınlaşacağıq.

Bəyənilən sifətlər vücudumuzda canlanacaqdır. Yox əgər heyvani öz dediyimiz bütün heyvani qərizə və meyillərin arxasınca olub, nəfsi -əmmarənin gücləndirsək, agıl və imanı özümüzdən uzaqlaşdırıb, tədricən heyvani "mən"liyi sevəcəyik.

Belə olan halda həqiqi insaniyətdən uzaqlaşacaqıq və bu özünüsevmə bütün pisliklərin açarı və məzəmmət olunanıdır.

Özünü sevmək yalnız heyvani istəklərin təmin olunmasıdır. Nəfs bu hədəfinə nail olmaqçün özünü azad hiss edir, heç bir məsuliyyət qəbul etmək istəmir. İnsan nəfsini razı salmaqdan ötrü başqa bir hədəfi olmadığından, öz hədəfinə nail olmaq üçün bütün yolları mübah sayır, hər bir çirkin işə bəraət qazandırır. Bu yolda zülm etməkdən, yalan danışmaq, töhmət vurmaq, xəyanət və digər günahlardan imtina etmir. Zülm etmək onun yaratdığı bir fəsaddır.

Özünəpərəstiş insanı elə bir nöqtəyə gətirib çıxarır ki, insan onu yaradana qarşı baş əyməyə belə razı olmur. Buradan da bütün günahların mənşəyinin eqoism olduöu açıq-aydın görünür. Yalnız öz şəxsi mənafelərini qoruyan "mən", insanı Allah və cəmiyyət qarşısında azğınlığa, cinayətlərə sürükləyir.

Eqoizmin ən so həddi isə fironlaşaraq “ mən Allaham”deməsidir.
Nəfsini özünə tanrı nisbət qərar verən insanın əslində ağıl qüvvəsi düzgün fəaliyyət göstərmir.
Onun gözləri və qulaqları tutulub, gözləri kor olur. “ Həvai nəfsini özünə Tanrı edəni gördünmü? [1]
Allah belə insanların azğınlığını artırır və bütün qurtuluş yollarını onun üzünə bağlayır. Eqoist insanlar heç vaxt Allahı görə bilməz. O hara baxirsa, özünü və istəklərini görür, qəlbləri daşlaşır və təkəbbürlük hissi vücudlarını bürüyürş Nəzərinizə çatdıraq ki, təkəbbürlük hissi elə bir maneədir ki, insanı belə rahatlıqla Allaha boyun əyməyə qoymur.

## Zəif iradə

İradə zəifliyi həqiqət axtarışında qarşıya çıxan digər mühüm maneələrdəndir. O insanın qəti qərara gəlib hərəkət etməsinə mane olur. İradə zəifliyi imanın az olmasından qaynaqlanır. İnsanın yalnız zəruri məsələlərdə kifayət etməsinə səbəb olur. Burada şeytanın və nəfsi əmaarənin rolu da az deyil. İnsanı həqiqət axtarışından bir fayda əldə etməyəcəyinə inandırıb, onu süst hala salır. Məyusluq və tənbəllik hissi insanda yaranır. Zəif iradə sahıbləri şeytanın bu hiylələri qarşısında tez “sınır” təslim olb ümidsəzliyə qapılır. İbadət və itaətə qərarsız halda davam edir. Oruc tutmağın iradənin güclənməsində əvəz olunmaz və güclü rolu vardır. Bu, zəifliklə mübarizıdı bizim köməyimizə gələ bilər.

## Çox yatmaq və çox danışmaq

İnsanı Allahdan uzaqlaşdıran və hüzuri qəlb yaranmasına mane olan əməllərdəndir. Əxlaq alimlərinin nəzərincə çox yatmaq və çox danışmağ bəyənilməyən sifətlərdəndir. Ona

---

1 - Casiyə\23

görə ki ağlın azlığına və tənbəlliyə işarə edir. Bihudə və boş sözlərin insanın dünya və axirət həyatına heç bir xeyri yoxdur. Sadəcə vaxt və enerji ikisinə səbəb olur. Boş yerə danışıq qeybət, böhtan kimi günahlarla nəticələnir. Və insanın diqqətini Allahdan uzaqlaşdırır.

" Çox danışmaqdan çəkinın, yalnız Allahın zikrindən başqa!. Çünki, çox danışmaq qəlbin bərkiməsinə ( qəsavətli olmasına) səbəb olur. Allahdan çox uzaq olan insanlar qəlbi qara olanlardır. "[1]

Çox yemək də belədir. O insanın qəlbində mərifət nurunu öldürür. Allala ünsiyyətə mane olur, raz- niyza etməsinə qarşı çıxır. Münacat ləzzətinin yerini alır. İmam Sadiq (ə) ın Əbu Bəsrə bu haqda belə buyurur: " Qarın çox yemək nəticəsində tuğyan edir. Bəndənin Allaha ən yaxın vaxtı qarnı boş olduqda, ən uzaq vaxtı da qarnının dolu vaxtıdır. "[2]

Çox yemək insanda halsızlığa, ibadıtdı rəğbətsizliyə, qəlbin qəsavət bağlamasına ən başlıcası da Allahdan qafil olmasına başlıca səbəbdir. Həqiqət yolçusu ehtiyacı qədər yeməli və danışmalıdır.

**Nəticə**

Qurani-Kərim: «Nəfsi istəyini, həvəsini öz məbudu edən şəxsi gördünmü? Allah-taala onu elmi olduğu halda azğınlığa buraxdı, onun qulağına, qəlbinə möhür vurdu, gözləri önünə pərdə çəkdi. Allahdan başqa onu kim hidayət edər? Məgər nəsihət götürmürsünüzmü?»[3]

İnsan üç əsas hədəf üzərində yaradılmışdır. Bunlar ibadət, dünyanın islah və abadlığı və əmanətə sahib çıxmaqdır. İbadət

---

1 - Biharul-ənvar /cild 71, səh 281

2 - Vəsailuş-şiə / cild 16, s 405

3 Casiyə, ayə 23

deyildikdə təkcə namaz, oruc nəzərdə tutulmur. İbadət bütünlükdə Həqiqətin varlığını tanımaq, (mərifət) və öz vücudunu Allahın iradəsinə şüurlu şəkildə təslim etmək istəyidir.

Yaradılış hədəfinin ikincisindən məqsəd, bizə əmanət olunan öz mənliyimiz və ətrafımızın qorunması nəzərdə tutulur. Burada Allah yer üzünü abad islah etməsi, onu inkişaf etdirməsi və insanın kamillik dərəcəsinə çatması üçün insanı yer üzünə xəlifə təyin edib, übudiyyətə çatması üçün onun ixtoyarına qoyulması nəzərdə tutulur.

Yaradılışın üçüncü əsas hədəfinə gəlincə, bu ona verilən əmanətə sahib çıxılmasıdır. Bu haqda müxtəlif təfsirlər bəyan olunsada, zahirən bu əmanət ağıldır.

“ Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən qorxub, çəkindilər. Ona insan yükləndi. Həqiqətən o çox zalım, çox cahildir”.

Ağıl insana verilən əmanətdir və ondan sual olunacaq. İnsanın yer üzündə Allahın xəlifə və canişini olması yaınız ağıl sayəsində mümkündür. İnsan ağlı ilə bütün çətin mərhələləri keçib, fəna fillah məqamına çatıb, mələklərdən üstün məqama sahib ola bilər. Onu digər məxluqatdan fərqləndirən bu əmanət nəfsi nəzarətə götürməklə, onu idarə edib Allahın bəyəndiyi şəxsiyyət formasına sala bilər.

İmam Sadiq (ə): «Elm öyrənməklə deyil, əksinə, Allah-taalanın doğru yola yönəltmək istədiyi hər kəsin ürəyində işıqlandırdığı nurdur. Buna görə də elm istəyirsənsə, öncə bəndəlik həqiqətini öz canında axtar. Elmi də ondan istifadə etməklə axtar və Allahdan dərrakə, bilik istə ki, səni dərrakəli və alim etsin»[1]

Məhz ağıl və biliklə paklaşdığı zaman insana Allah həqiqəti dadmaq, onu görmək və bəyan etmək qüvvəsi bəxş edir. İmam

1 Biharul-Ənvar, c. 1, səh 225, hədis 17

Əli (ə): «Möminlərin ehtimalından və gümanlarından qorxun. Çünki, Allah-taala həqiqəti onların dillərində qərar vermişdir.»[1]

Bu qabiliyyətə malik olan bir qüvvə, bizim daxili hüccətimiz olan bu qiymətli əmanəti Allah və Əhli-Bbeyt yolunda istifadə edərək onun sevimli bəndələrinə çevrilməyi Uca Rəbbim bizlərə əta etsin.

İmanın yüksəkliyindən, məşuqun qorxusunu vücudunda hiss edən nəfs, həqiqəti itirməkdən həmişə qorxu halındadır. ( qorxu halında olur). Həqiqəti tanımaq insanı ona aşiq edir. Və aşiq öz məhbubunun görüşünə getmək üçün təmiz ixlasla təqva paltarını geyinib, iman ilə ətirlənib, namaz vasitəsi ilə onun görüşünə tələsir.

Həqiqəti tanımağın nəfsin paklaşdırılmasındakı rolu bax budur. ( rolundan məqsəd budur)

## İstifadə olunmuş mənbələr

1. ***Axirət azuqəsi,*** Misbah Yəzdi, Qum, Şəhriyar, 1999 miladi, birinci cild, birinci çap.
2. ***Əbədi öyüd,*** Misbah Yəzdi, Qum, Şəhriyar, 2001 miladi, birinci cild, birinci çap.
3. ***Rəbbin dərgahında,*** Misbah Yəzdi, Qum, Şəhriyar, 2004 miladi, birinci çap.
4. ***Sadiq yol axtaranlar,*** Misbah Yəzdi, Qum, Şəhriyar, 2006 miladi, birinci çap.

1 Nəhcül-Bəlağə, hikmət 309

5. ***Əxlaq fəlsəfəsi,*** Misbah Yəzdi, Qum, 2020 miladi, birinci çap.
6. ***Tuhəfül-üqul ən Ali-Rəsul(səlləllahü əleyhi və alih),*** Həsən ibn Əli Hərrani(İbn Şöbə), tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi, 1404 hicri-qəməri, ikinci çap.
7. ***Təfsiri-ibn Kəsir(Təfsiri-Quranil-əzim),*** İsmayıl ibn Ömər Bəsrəvi Dəmeşqi, tədqiq: Əbdül-əziz Qənim və Məhəmməd Əhməd Aşur və Məhəmməd İbrahim əl-Bənna, Qahirə, Darüş-şüəb.
8. ***Səvabül-əmal iqabül-əmal,*** Məhəmmməd ibn Əli ibn Babeveyh Qummi, tədqiq: Əli Əkbər əl-Qəffari, Tehran, Məktəbətüs-Səduq, 1402 hicri-qəməri, birinci çap.
9. ***Cameül-əhadis,*** Cəfər ibn Əhməd Qummi(İbn Zariq), tədqiq: Seyyid Məhəmməd Hüseyni Nişaburi, Məşhəd, Müəssisətüt-təb vən-nəşr ət-tabeə lil-həzrətil-rəzəviyyətil-müqəddəsə, 1423 hicri-qəməri, birinci çap.
10. ***Cameül-əxbar (Məaricül-yəqin fi üsulidddin),*** Məhəmməd ibn Məhəmməd Şəiri Səbzivari, tədqiq: Alül-beyt müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.
11. ***Xəsaisül-əimmə,*** Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), tədqiq: Məhəmməd Hadi Əmini, Məşhəd, Məcməül-bühusil-islamiyyə, 1406 hicri-qəməri, birinci çap.
12. ***Xisal,*** Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, dördüncü çap.
13. ***Əd-Dürrül-mənsur fi təfsiril-məsur,*** Əbdür-rəhman ibn Əbu Bəkr Siyuti, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, birinci çap.

14.***Əd-dua,*** Süleyman ibn Əhməd Təbərani (vəfat: 360 h. q.), Müstəfa Əbdülqadir Əta, Beyrut, Darül-kotobül-elmiyyə, 1413 hicri-qəməri.
15.***Zəxarirül-üqba fi mənaqibi zəvil-qürba,*** Əhməd ibn Abdullah Təbəri, tədqiq: Əkrəm Buşi, Cəddə, Məktəbətüs-səhabə, 1415 hicri-qəməri, birinci çap.
16.***Əz-zöhd,*** Hüsen ibn Səid Əhvazi, tədqiq: Qulamrza İrfaniyan, Qum, Hüseynioyan nəşriyyatı, 1402 hicri-qəməri, ikinci şap.
17.***Sünəni-ibn Macə,*** Məhəmməd ibn Yezid əl-Qəzvini (İbn Macə), tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Beyrut, Daru-ehyait-turasil-ərəbi, 1395 hicri-qəməri, birinci çap.
18.***Sünəni-Əbi David,*** Sülüyman ibn Əşəs Səcistani əl-Əzdi, tədqiq: Məhəmməd Mühyiddin Əbdül-həmid, Beyrut, Daru-ehyaüs-sünnətin-nəbəviyyə.
19.***Sünəni-Tirmizi (Əl-Camiüs-səhih),*** Məhəmməd ibn İsa Tirmizi (Əbu İsa), tədqiq: Əhməd Məhəmməd Şkir, Beyrut, Darü-ihyait-turas.
20.***Sünənid-dar,***Əli ibn Ömər Bağdadi,tədqiq: Əbu Təyyib Məhəmmədabadi, Beyrut, Aləmül-kutub, 1406 hicri-qəməri, ikinci çap.
21.***Sünəni-Darəmi,*** Abdullah ibn Əbdür-rəhman Darəmi, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-Qələm, 1412 hicri-qəməri, birinci çap.
22.***Sünəni-Səid ibn Mənsur,***Mərvəzi,tədqiq: Həbibür-rəhman Əzəmi, Beyrut, Darül-kutübil-elmiyyə, 1405 hicri-qəməri, birinci çap.
23.***Əs-Sünənil-kübra,*** Əhməd ibn Hüseyn Beyhəqi, tədqiq: Məhəmməd Əbdül-qadir Əta, Beyrut, Darül-kutübül-elmiyyə, hicri-qəməri, birinci çap.

24.***Əs-Sünənil-kübra,***Əhməd ibn Şüeyb Nəsai, Əbdülqəffar Bundari, Beyrut, Darül-kutübil-elmiyyə, 1411 hicri-qəməri, birinci çap.
25.***Sünəni-Nəsai bi şərhil-Hafiz Cəlaləddin Siyuti və haşiyətül-İmamis-Sindi,*** Əhməd ibn Şüeyb Nəsai, Beyrut, Dari-Ciyl, 1407 hicri-qəməri, birinci çap.
26.***Şərhi nəhcül-bəlağə,*** Əbdülhəmid ibn Məhəmməd Mötəzili (İbn Əbil-Hədid), tədqiq: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut, Daru-ehyait-türas, 1387 hicri-qəməri, birinci çap.
27.***Səhihi-Buxari,*** Məhəmməd ibn İsmayıl Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-ibn Kəsir, 1410 hicri-qəməri, dördünçü çap.
28.***Səhihi-Müslim,*** Müslim ibn Həccac əl-Qəşiri Nişaburi, tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Qahirə, Darül-hədis, 1412 hicri-qəməri, birinci çap.
29.***Əs-Səvaiqül-mühriqə,*** Əhməd ibn Hicr, Qahirə, Məktəbətül-Qahirə, 1385 hicri-qəməri, ikinci çap.
30.***Ət-Təbəqatül-kübra,*** Məhəmməd ibn Səd (Ktibül-Vaqedi), Beyrut, Dari-Sadir.
31.***İləlüş-şəraye,*** Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Beyrut, Darü-ihyait-turas, 1408 hicri-qəməri, birinci çap.
32.***Üyunül-əxbar,*** Abdullah ibn Mülim Dinəvəri (İbn Qüteybə), Qhirə, Darül-kutübil-Misriyyə, 1343 hicri-qəməri.
33.***Üyunül-əxbari-Rza (ə),*** Şeyx Səduq, tədqiq: Seyyid Məhdi Lacurdi,, Tehran, Cahan nəşriyyatı.
34.***Qürərül-hikəm və dürərül-kiləm,*** Əbdül-vahid Amidi Təmimi, çərh və tərcüməsi.

35.***Fəthül-bari,*** Əhməd ibn Əli Əsqəlani (İbn Həcər), tədqiq: Əbdül-əziz Abdullah, Beyrut, Darül-fikir, 1379 hicri-qəməri, birinci çap.
36.***Əl-firdovsi bi-məsuril-xitab,*** Şiruyə ibn Şəhrdar Deyləmi, (vəfat: 509 h. q.) Məhəmməd Səid Besyuni Zəğlul, Beyrut, Darül-kutübil-elmiyyə, 1406 hicri-qəməri, birinci çap.
37.***Əl-Kafi,*** Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
38.***Kitabü mən la yəhzüruhül-fəqih,*** Məhəmməd ibn Əli ibn Babəvəveyh, tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi.
***39.Kəşfül-əsrar və üddətül-əbrar (Təfsiri Meybodiy),*** Rəşidüddin Əhməd ibn Məhəmməd Miybodiy, təshih: Əliəsğər Hikmət, Tehran, İbn Sina, 1380 hicri-qəməri.
40.***Kəşfül-ğimmə fi mərifətil əimmə,*** Əli ibn İsa Ərdəbili, təshih: Seyyid Hişam Rəsuli Məhəllati, Beyrut, Darül-kutüb, 1401 hicri-qəməri, birinci çap.
41.***Kənzül-ümmal fi sünnətil-əqval vəl-əfaal,*** Əli Müttəqi ibn Hisamuddin Hindi, təshih: Səfvətüs-Səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, 1397 hicri-qəməri, birinci çap.
42.***Kənzül-fəvaid,*** Məhəmməd ibn Əli Kəraciki Tərabilsi (vəfat: 449 h. q.), Abdullah Nemətin səyi ilə, Qum, Darüz-zəxair, 1410
43.***Əl-Müstədrəkü ələs-səhihəyn,*** Məhəmməd Abdullah Hakim Nişapuri, tədqiq: Müstəfa Əbdül-qadir Əta, Beyrut, Darül-kutübil-elmiyyə, 1411 hicri-qəməri, birinci çap.

44.***Müstədrəkül-vəsail və müstənbətül-məsail,*** Mirza Hüseyn Nəvəri Təbərsi, Alil-beyt (əleyhis-səlam) müəssisəsi, 1407 hicri-qəməri, birinci çap.
45.***Müsnədi-ibn Mübarək,*** Abdullah ibn Mübarək, tədqiq: Mustafa Osman Məhəmməd, Beyrut, Darül-kutübül-elmiyyə, 1411 hicri-qəməri, birinci çap.
46.***Müsnədi-Əbi Davud ət-Təyalisi (Müsnədi-Təyalisi),*** Süleyman ibn David Bəsri (Əbi Davud Təyalisi), Beyrut, Darül-mərifə.
47.***Müsnədi ibn Hənbəl,*** Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq: Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, ikinci çap.
48.***Əl-müsənnəf,*** Əbdür-rəzaq ibn Həmmam Sənani, tədqiq: Həbibür-rəhman Əəzəmi, Beyrut, Mənşurati-məclisil-elmi.
49.***Məanil-əxbar,*** Məhəmməd ibn Əli hbn Babəveyh Qummi (Şeyx Səduq), (vəfat: 381 h. q.), tədqiq: Əli Əkbər Qəffari, Qum, Müəssisətün-nəşril-islami, 1361 hicri-şəmsii, birinci çap.
50.***Əl-möcəmül-əvsəd,*** Süleyman ibn Əhməd Ləxmi Təbərani, (vəfat: 360 h. q.), tədqiq: Tariq ibn Əvəzullah və Əbül-həsən ibn İbrahim Hüseyni, Qahirə, Darül-hərəmeyn, 1415 hicri-qəməri, birinci çap.
51.***Əl-möcəmül-kəbir,*** Süleyman ibn Əhməd Ləxmi Təbərani, (vəfat: 360 h. q.), tədqiq: Həmdi Əbdül-məcid Sələfi, Beyrut, Darü-ehyaüt-türasil-ərəbi, 1399 hicri-qəməri, ikinci çap.
52.***Məkarimül-əxlaq və məaliha,*** Fəzl ibn Həsən Təbresi, tədqiq: Əla Ali Cəfər, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.
53.***Əl-Mənaqib (əl-Mənaqibi lil-Xarəzmi),*** Müvəffəq ibn Əhməd əl-Məkki əl-Xarəzmi, tədqiq: Malik Məhmudi,

Qum, Nəşri islami müəssisəsi, 1414 hicri-qəməri, ikinci çap.

54. ***Əl-Mizan fi təfsiril-Quran,*** Seyyid Məhəmmədhüseyn Təba-təbai, Qum, İsmailiyyan nəşriyyati, 1394 hicri-qəməri, üçüncü çap.

55. ***Nəhcül-bəlağə,*** Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), mütərcim: Seyyid Cəfər Şəhidi, Tehran, 1378 hicri-şəmsi, dördüncü çap.

56. ***Vəsailüş-şiə,*** Məhəmməd ibn Həsən Hürr Amuli, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1409 hicri-qəməri, birinci çap.

57. ***Yənabiül-məvəddə lizil-qürba,*** Süleyman ibn İbrahim Qonduzi Hənəfi, (vəfat: 1294 h. q.), tədqiq: Əli Camal Əşrəf Hüseyni, Tehran, Darül-üsvə, 1416 hicri-qəməri, birinci çap.

# Xanım Fatimeyi Zəhranın (s.ə) fəzilət və ismətinə şiə rəvayətlərinə əsasən qısa bir baxış

**Könül Allahquliyeva**[1]

## Abstrakt

Besətdən (İslam Peyğəmbəri (s.ə.) peyğəmbərliyə çatandan) beş il sonra Cəmadiüs-sani ayının 20-də qeybi ruzilərin bəhrəsi yer üzündə təcəlli etdi. Zəhra ulduzu doğuldu. Hz. Məhəmməd (s.ə.) və Xədicə (s.ə.) evi Fatimənin (s.ə.) nuru ilə işıqlandı. Həzrət Peyğəmbər (s.ə.) uyurur: «Fatimə insan simasında bir huridir. Behişt qoxusu arzulayanda, onu Fatimədən alıram.»
Pak və oxşarsız atadan, pakizə bir anadan bir körpə dünyaya gəldi ki, aləmi sahilsiz kamillik dəryasında qərq etdi. Qısa və bərəkətli ömrü bəşəriyyəti təəccüb və heyrətə gətirdi. Əgər mələklər insan xilqətinin əsrarından xəbərdar olsaydılar, bilsəydilər ki, Adəm nəslindən belə bir əxlaqi fəzilətli, ilahi sifətli insan ərsəyə gələcək, ilahi məhzərdə «Adəmi nə üçün yaratdın?» deyə sual verməzdilər. («Bəqərə» surəsi, ayə 30). Çünki mələklər insan deyildikdə, yalnız günahkar və fəsad törədən adamları təsəvvür edirdilər. Onlar insanın Fatimə kimi uca məqamından xəbərsiz idilər.

**Açar sözlər:** Quran, Hz. Peyğəmbər (s), Əhli-beyt (ə), Hz. Zəhra, İsmət, Məsumluq, Günah, Firqələr

Fatimeyi Zəhra (s.ə) bütün yaradılışın səbəbkarı sayılır. Yəni gördüyümüz bu yaradılışın, eləcə də görə bilmədiklərimizin yaranışının səbəbi Həzrət Fatimeyi Zəhra(s.ə) və Əhli-beytdir(ə).

---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

Əgər bu kimsələr olmasaydı, Allah nə göyü, nə yeri, nə də başqa yaranmışları yaratmayacaqdı.
Əbu Hüreyrə nəql edərək deyir ki, bir gün İslam Peyğəmbəri(s) bizlə söhbət edirdi. Söhbətində Adəm Peyğəmbər(ə) haqda söz açdı. Buyurdu ki, Allah Adəmi(ə) yaradanda O, bir sağına, bir soluna baxdıqdan sonra Allahın ərşinə tərəf nəzər etdi. Orada beş nurani şəxsin oxşarını gördü. Adəm(ə) onları səcdə və rüku halında müşahidə etdi. Bu müşahidə onda çox böyük təəccüb doğurdu. Çünki ilk yaranan insan özü idi və ondan əvvəl heç bir kəs yaranmamışdı. Adəm(ə) təəccüblə Allaha sual verib dedi: İlahi, məgər məndən qabaq torpaqdan kimisə yaratmısan? Allah buyurdu: Xeyr, ey Adəm. Adəm soruşdu: Bəs onda öz şəkil və surətimdə gördüyüm bu beş nəfər kimlərdir? Allah buyurur: Bu beş kimsə sənin nəslindəndir. Ey Adəm, əgər onlar olmasaydı, heç səni də yaratmazdım. O beş nəfərin adını Öz adımın kökündən ayırmışam. Əgər bu beş nəfər olmasaydı, cənnət və cəhənnəmi yaratmazdım. Əgər onlar olmasaydı, göyləri, yeri, ərşi, insanlrı, cinləri və mələkləri yaratmazdım.
-Ey Adəm, Mən insanların içində (sən başda olmaqla) bu beş nəfəri seçib bəyənmişəm. Bütün insanlara bu beş nəfərə xatir nicat verirəm, (bəlalardan) qurtarıram və yaxud təhlükəyə atıram. Ya Adəm, hər zaman sənin Məndən bir hacət və istəyin olsa, sən bu beş kimsəyə təvəssül et. (Mən bunların vasitəsilə sənin hacətini verərəm.)

Həzrət Fatimənin(s.ə) adı həm behiştin qapısının üstündə, həm də Allahın ərşində yazılıb. İbn Abbas deyir: “Bir gün Peyğəmbərin(s) hüzurunda əyləşmişdik. Həzrət(s) bizim üçün meraca etdiyi səfərindən söhbət edirdi. Həzrət(s) buyurdu: Mən meraca gedəndə cənnəti mənə göstərdilər. Cənnətin qapısının üstündə belə bir cümlə yazılmışdı:

-Allahdan başqa heç bir məbud yoxdur. Məhəmməd Onun rəsuludur. Əli Allahın həbibidir. Həsən və Hüseyn Allahın seçdiyi və sevdiyi insanlardır. Fatimə insanların içində ən üstünüdür. Allah onlara qarşı kin-küdurət saxlayanlara lənət etsin.

Bu hədisin sənədinin hamısı əhli-sünnə firqələrinin kitablarından nəql olunmuşdur. Həmin kitabların adlarını nəzərinizə ərz edirəm: “Tarixi-Bağdad”, I cild, səh.259; “Mənaqibi-Xarəzmi”, səh.214; “Kifayətul-Talib”, səh. 274; “Tarixi-Mədinətud-Dəməşq”, XIV cild, səh.170 və “Tarixi-ibn Əsakir” (Tərcümətül-Hüseyn) səh.130.

Digər buna oxşar bir hədisdə də Həzrət(s) belə buyurur: “Allah Həzrət Adəmi(ə) yaratdı. Adəm mələklərlə əyləşmişdi. Başını yuxarı qaldırdıqda ərşdə belə bir yazı gördü:

Allahdan başqa heç bir məbud yoxdur. Məhəmməd Onun rəsuludur. Əli Allahın həbibidir. Həsən və Hüseyn Allahın seçdiyi və sevdiyi insanlardır. Fatimə insanların içində ən üstünüdür.

Yəni bu beş kimsənin adı həm cənnətin qapısının üstündə, həm də Allahın ərşində yazılıb. Bu hədisi şəxsən İslam Peyğəmbərinin (s) özü buyurmuş və Əbu Hüreyrə də həmin hədisi nəql etmişdir.

Hədislərdə buyurulduğuna əsasən Zəhranın (s.ə) surəti cənnətdə asılıb. Bu hədisi bizə nəql edən Ənəs ibn Malikdir. O Deyir: “Mən Peyğəmbərdən(s) eşitdim ki, belə buyurdu: Elə ki, Allah Həzrət Adəmi(ə) yaratdı, Həzrət Adəm(ə) cənnətin hər yerinə baxdı, lakin öz sima və qiyafəsində heç bir kəsi görmədi. Allaha belə sual verdi:

-İlahi, cənnətdə məndən başqa mənim şəkil və surətimdə olan kimsəni yaratmısanmı? Allah ona xəbər verdi və Firdovs behiştini işarə verərək ora baxmağı əmr etdi. Həzrət Adəm(ə)

deyir: Mən Firdovsa daxil oldum. Orada bir imarət gördüm. Ora daxil olandan sonra beş nəfərin surətini mənə göstərdilər. Onların adları da orada yazılmışdı. Allah-təala bir-bir onları mənə tanıtdırdı. Orada yazılanlar bunlardan ibarət idi:
-Allah-təala bu beş kimsəni Adəmə göstərib adlarını ona öyrətdi və başa saldı ki, onların adlarının əsli və kökü Öz adından götürülüb.
Hədislərdə belə nəql olunur: hər kim onlarla müharibə etsə, elə bil Allah və Peyğəmbərlə müharibə edib. Eləcə də hər kim onları sevib sülh edərsə, elə bil Allah və Peyğəmbərlə sülh etmişdir. Zeyd ibn Ərqəm belə bir hədis nəql edir: “Bir gün Peyğəmbər(s) üzünü Əliyə(ə), Fatiməyə(s.ə), Həsən(ə) və Hüseynə(ə) tutub buyurdu:
-Kim sizinlə düşmənçilik etsə, mənimlə düşmənçilik etmişdir və kim sizinlə dostluq etsə, mənimlə dostluq eləyib. Buna oxşar digər bir hədisi isə Əbu Bəkr nəql edir:
-Bir gün Peyğəmbər (s) üçün bir çadır qurulmuşdu. Həzrət(s) əlində qılınc çadırın içində əyləşmişdi. Həmin çadırda Peyğəmbərdən(s) başqa Əli(ə), Fatimə(s.ə), Həsən(ə) və Hüseyn(ə) də əyləşmişdilər. Həzrət Peyğəmbər(s) onlara nəzər salıb müsəlmanlara xitab edərək belə buyurdu: Ey müsəlmanlar, kim bu çadırın içində oturanlarla sülhdədir, mən də həmin insanlarla sülhdəyəm. Kim onlarla müharibədədir, mən də müharibədəyəm. Onları sevəni mən də sevirəm. Atası, anası, babası pak olan və pak qadının ətəyində dünyaya gələn insanlar onları sevərlər. Natəmiz və bədbəxt insanlar onları sevməz. Allah da həmin natəmiz və bədbəxt insanları sevməz. Eynilə bu hədisi Əbu Hüreyrə belə nəql edir:
-Həzrət Peyğəmbər(s) Əliyə(ə), Fatiməyə (s.ə) Həsən(ə) və Hüseynə(ə) nəzər edib buyurdu: Kim sizinlə müharibə etsə, mənimlə müharibə etmişdir və kim sizinlə sülh etsə, mənimlə sülh etmişdir.

Fatimeyi Zəhranın (s.ə) fəziləti barədə "Fatimə (s.ə) bütün xanımların xanımıdır,"- deyilir. Quranda "Ali-İmran" surəsində Məryəm xanımların xanımı kimi bəyan olunmuşdur. İbn Abbas Peyğəmbərdən (s) belə bir hədisi nəql edir. O, bu hədisdə həmin ayənin mənasını və Fatimənin (s.ə) fəzilətini açıqlayır. İbn Abbas deyir: "Bir gün Peyğəmbər(s) əyləşmişdi: Əli(ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) də Həzrətin (s) hüzurunda əyləşmişdilər. Peyğəmbər (s) dua edərək Allahla belə münacat etdi

-İlahi, sən bilirsən ki, bunlar mənim əhli-beytimdir və mənə ən yaxın, əziz insanlardır. İlahi, bunları sevəni Sən də sev, bunları sevməyəni Sən də sevmə. Bunları çox istəyən insanları Sən də çox istə və bunları düşmən biləni Sən də düşmən bil. Bunlara yardım edənə Sən də yardımçı ol.

Sonra Həzrət (s) belə buyurdu: "Ya Əli, sən mənim ümmətimin imamısan və məndən sonra onların xəlifəsisən. Sənin rəhbərliyinlə camaat gedib cənnətə çıxacaq." Sonra Peyğəmbər (s) Fatimə (s.ə) barədə söhbətə başlayaraq belə buyurdu: "Elə bil indidən mən görürəm ki, qiyamət günü Fatimə bir dəvənin üstündə əyləşib. Yetmiş mələk onun sağında, yetmiş mələk solunda, yetmiş mələk qarşısında və yetmiş mələk də onun arxasındadır.

-Mənim ümmətimin qadınlarının hamısına rəhbərlik edərək onları cənnətə tərəf aparır. Sonra Həzrət(s) buyurdu: "Bütün qadınların böyüyü və xanımların xanımı mənim qızım Fatimədir (s.ə)." Bir nəfər Peyğəmbərə(s) belə sual verdi: "Ya Rəsulallah, Fatimə (s.ə) öz zamanının aləmlərinin böyüyüdür və xanımıdır, yoxsa bütün zamanların aləmlərinin?" Həzrət(s) buyurdu: "Öz zamanının aləmlərinin böyüyü və xanımı İmranın qızı Məryəmdir (s.ə). Amma qızım Fatimə (s.ə) isə

insanların əvvəlindən axırına qədər bütün aləmlərin ən gözəli, ən şərəfli xanımı və böyüyüdür.
Zeyd ibn Ərqəm, Əbu Bəkr və Əbu Hüreyrə ayrıayrılıqda bu hədisi Peyğəmbərdən(s) nəql etmişlər. Bu hədislərin sənəd və ünvanı əhli-sünnə alimlərinin bir çox kitablarında qeyd olunmuşdur. Həmin kitabların adlarını nəzərinizə çatdırıram:
-"Möcəmi kəbiri Təbərani", III cild, səh.40;
-"Əlbidayəti və nihayə", VIII cild, səh. 40;
-"Tarixi- Bağdad", VII cild, səh. 137;
-"Müstədrəki-Hakim", III cild, səh. 149;
-"Sünəni-ibn Macə", I cild, səh. 52;
-"Müsnədi-ibn Hənbəl", III cild, səh. 443;
-"Kənzül-Ümmal", XII cild, səh. 97.

**Xanım Zəhranın (s.ə.) məqamı məsumların kəlamlarında**
Xanım Fatimeyi-Zəhranın (s.ə.) məqam və fəzilətlərini dərk etmək üçün mütləq məsum rəhbərlərin kəlamlarına müraciət etmək lazımdır. Onların kəlamlarında o xanımın məqamı, kəramət və böyüklüyü aydın görünür:

**1. Xanım Fatimeyi-Zəhra (s.ə.) Peyğəmbəri-Əkrəmin (s) kəlamında:**
Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Meraca getdiyim zaman Cəbrail (ə) məni behiştə daxil edəndə behişt meyvələrindən daddım. Meyvələr nütfəyə döndü. Yerə qayıtdıqdan sonra Xədicə ilə yaxınlıq etdim və Fatimənin nütfəsi yoğruldu. Fatimə insan simasında bir huridir. Behişt qoxusu arzulayanda, onu Fatimədən alıram."
"Qızım Fatimə (s.ə.) əbədi olaraq iki dünya qadınlarının xanımıdır. O, mənim cismimin yarısı, gözümün nuru, qəlbimin meyvəsi və varlığımın ruhudur... Mehrabda Allah dərgahında ibadətə başladığı vaxt nuru ulduz kimi səma mələkləri üçün

parlayar. Bu zaman Allah-Taala mələklərinə buyurar: “Ey mələklər, Mənim hüzurumda ibadət üçün dayanmış kənizlərimin sərvərinə bir tamaşa edin. Görün, dərgahımda bədəni necə əsir. O, bütün varlığı ilə mənə ibadət edir...”
“Fatimə (s.ə.) İbadət mehrabında dayanarkən müqərrəb mələklərdən yetmiş mini nazil olub, onunla danışarlar. Allah Fatiməni seçdi, pakladı və ona üstünlük verdi.” “Hər kəs Fatiməni sevsə, şübhəsiz, məni sevmiş və məni sevən də, şübhəsiz, Allahı sevmişdir.” “Həqiqətən, Allah Fatimənin razı olması ilə razı olar və qəzəblənməsi ilə qəzəblənər.”

**2. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Əlinin (ə) kəlamında:**
Nəql olunur ki, imam Əli (ə) ilə xanım Fatimeyi-Zəhra (s.ə.) evləndikdən bir neçə gün sonra Peyğəmbəri-Əkrəm (s) imam Əlidən (s): “Fatimə sənə necə zövcədir?” – deyə soruşduqda, imam Əli (ə) belə cavab verir: “Allaha itaət və bəndəçilikdə mənə ən gözəl yardımçıdır.” (Əl-mənaqib”, 3-cü cild, səh.355.)

**3. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Həsənin (ə) kəlamında:**
İmam Həsən (ə) anası Fatimə (s.ə.) haqda belə buyurmuşdur: “Bir gecə anamın mehrabda namaz qıldığını gördüm. O, gün doğana qədər rüku və səcdə etdi. Eşidirdim ki, bir-bir kişi və qadınların adlarını çəkərək onları dua edir, özünə isə bir hacət istəmirdi. Soruşdum: “Anacan! Nə üçün başqalarına dua etdin, lakin özünü dua etmədin?” Anam buyurdu: “Oğlum, birinci

qonşu, sonra isə (öz) ev(in)! (“Biharul-ənvar”, 45-ci cild, səh.9.)
Həmçinin o həzrət buyrmuşdur: “Dünyada (anam) Fatimədən (s.ə.) abid bir kəs yox idi və o qədər ibadətlə məşğul olurdu ki, ayaqları belə şişirdi.” (“Biharul-ənvar”, 43-cü cild, səh.61.)

**4. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Hüseynin (ə) kəlamında:**

İmam Hüseyn (ə) “Aşura” gecəsi bacısı xanım Zeynəbin (s.ə.) taqətsizliyini gördükdə, ona təsəlli verərək keçmişdə nəsil-nəcabətinin başına gəlmiş ağır hadisələri, o cümlədən, anası Fatimənin (s.ə.) çətin günlərini xatırlayaraq buyurmuşdur: “Anam Fatimə məndən yaxşı idi, amma o da dünyada qalmadı.”(“Əl-kamilu fit-tarix”, 2-ci cild, səh.559.)
Digər bir rəvayətdə o həzrətin belə buyurduğu nəql olunur: “Bir gün Allahın Rəsulu (s) Ümmü-Sələmənin evində ikən, Sərsail adlı mələk o həzrətə nazil olub deyir: “Nuru nurla evləndir!” Allahın Rəsulu (s) “Kimi kimlə evləndirim?” – deyə soruşduqda, Sərsail deyir: “Qızın Fatiməni (s) Əli ibn Əbu Talibləə (ə)!” Ondan sonra Allahın Rəsulu (s) Cəbrail, Mikail və Sərsailin hüzurunda Fatiməni (s.ə.) Əli (ə) ilə evləndirir. (“Biharul-ənvar”, 43-cü cild, səh.213, hədis 31.)

**5. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Səccadın (ə) kəlamında:**

İmam Səccad (ə) buyurmuşdur: “Qiyamət günü xanım Fatimeyi-Zəhra (s.ə.) məhşər səhrasına daxil olduğu zaman, belə bir nida eşidilər: “Əhli-beytə (ə) məhəbbət bəsləyənlərdən başqa, hamılıqla başınızı aşağı dikin (ki, Fatimə (s.ə.) gəlir). Budur Mühəmmədin (s) qızı Fatimə!” Xanım Fatimə (s.ə.) və onunla birgə olanlar behiştə doğru hərəkət edərlər. Allah-Taala bir mələyi onun hüzuruna göndərib deyər: “Nə istəyirsənsə, Məndən istə!” Xanım Fatimə (s.ə.) ərz edər: “İlahi! Mənim

istəyim odur ki, mənə və övladlarıma yardımçı olanları əfv et.” (Əvalimul-ülum”, 11-ci cild, səh.2, hədis: 1779-1780.)

**6. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Baqirin (ə) kəlamında:**

İmam Baqir (ə) Cabirə buyurmuşdur: “Qiyamət günü Cəbrail belə nida edər: “Xüveylidin qızı Xədicə haradadır? İmranın qızı Məryəm, Müzahimin qızı Asiyə və Musanın bacısı Ümmü-Gülsüm haradadır?” Onlar ayağa qalxarlar... Allah-Taala buyurar: “Ey əhli-məhşər! Bu gün Mühəmməd, Əli, Həsən, Hüseyn və Fatiməyə kəramət bağışladım. Başlarınızı aşağı dikin və gözlərinizi yumun ki, Fatimə behiştə daxil olmaq istəyir.” Ondan sonraCəbrail behiştdən bir dəvə gətirib xanım Fatiməni (s.ə.) behiştə aparar. Xanım behiştə yaxınlaşdıqda, behiştə daxil olmağa tələsər. Allah-Taala buyurar: “Nə üçün tələsirsən?” Fatimə (s.ə.) deyər: “Belə bir gündə məqamımın tanınmağını istəyirəm.” Allah-Taala buyurar: “Geri qayıt, səni və övladlarını sevən hər bir kəsin əlindən tut və beşhiştə apar!” İmam Baqir (ə) sözünə belə davam etdi: “Ey Cabir, Allaha and olsun! Həmin gün Fatimə (s.ə.) öz şiələri və dostlarını camaatın arasından yaxşı dəni pis dəndən ayıran quş tək ayıracaqdır.” (“Biharul-ənvar”, c.43, səh.64.)

**7. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Sadiqin (ə) kəlamında:**

Müfəzzəl ibn Ömər nəql edir ki, imam Sadiqdən: “Xanım Fatimeyi-Zəhra (s.ə.) necə dünyaya gəldi?” – deyə soruşduqda, o həzrət belə buyurdu: “Xədicə (s.ə.) Peyğəmbərlə (s) evləndikdən sonra Məkkə qadınları onunla əlaqəni kəsdilər.

Heç kim onun yanına getmir, ona salam vermir və hətta qadınlara onunla əlaqə saxlamaq qadağan edilmişdi.
Peyğəmbərin (s) həyat yoldaşı onların bu rəftarından narahat olurdu. Nəhayət, Fatiməyə (s.ə.) hamilə olduğu zaman anasının bətnində onun qəm-qüssəsinə şərik oldu, Fatimə (anasının bətnində ikən) anası ilə danışır, onu səbir və təmkinli olmağa dəvət edirdi. O, anasının yeganə həmdəmi idi. Xədicə (s.ə.) övladı ilə danışdığını Peyğəmbərdən (s.ə.) gizlətsə də, bir gün Həzrət otağa daxil olanda Xədicənin (s.ə.) öz bətnindəki övladı ilə danışdığını gördü. Xədicə (s.ə.) Peyğəmbərin (s): "Səninlə danışan kim idi?" – sualına belə cavab verdi: "Bətnimdəki uşaq!" Peyğəmbər (s) buyurdu: "Cəbrail mənə xəbər verib ki, bu körpə, qızdır, özü də pak və mübarəkdir. Allah-Taala nəslimi onun vasitəsilə davam etdirəcək. Bu ümmətin rəhbərləri onun nəslindən vücuda gələcək və onlar vəhy kəsildikdən sonra Allahın yer üzündə xəlifələri olacaq." ("Biharul-ənvar", c.16, səh.79. )
İmam Sadiq (s) başqa bir hədisdə buyurmuşdur: "Fatimənin "Fatimə" adlandırlmasının səbəbi odur ki, insanlar onun həqiqətini dərk etməkdən acizdirlər." ("Biharul-ənvar", c.43, səh.65, hədis 580.)

**8. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Kazimin (ə) kəlamında:**

İmam Kazim (ə) buyurmuşdur: "Həqiqətən, Fatimə (s.ə.) düzdanışan və şəhiddir." ("Miratul-üqul", c.5, səh.315.)

**9. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Rzanın (ə) kəlamında:**

İmam Rza (ə) məsum ata-babalarından Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql etmişdir: "İmam Əli (ə) ilə xanım Fatimeyi-Zəhra (s.ə.) evləndikdən sonra Allah-Taala buyurdu: "Əgər Əlini yaratmasaydım, yer üzündə qızın Fatiməyə həyat

yoldaşı tapılmayacaqdı.” (“Üsuli-kafi”, c.1, səh. 141, hədis 177.)

**10. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Cavadın (ə) kəlamında:**

İbn Həmzə imam Cavaddan (ə) belə nəql edir: “Allahın Rəsulu (s) Salman Farsiyə buyurdu: “Ey Salman! Allah-Taala qızım Fatimənin bütün əzalarını hədsiz iman və yəqinlə doldurmuşdur...” (“Əs-saqibu fil-mənaqib”, səh.29, hədis 248.)

**11. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Hadinin (ə) kəlamında:**

İmam Hadi (ə) Allahın Rəsulundan (s) belə nəql edir: “Xanım Fatimənin (s.ə.) “Fatimə” adlandırılmasının səbəbi odur ki, Allah-Taala onu və dostlarını cəhənnəm odundan uzaq saxlayacaqdır.” (“Lisanul-mizan”, c.3, səh.346.)

**12. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Həsən Əskərinin (ə) kəlamında:**

İmam Həsən Əskəri (ə) buyurmuşdur: “Biz imamlar Allahın sizin üzərinizdəki höccətləriyik. Bizim höccətimiz isə anamız Fatimədir (s.ə.).” (“Kafi”, c.6, səh.48.)

**13. Xanım Fatimeyi-Zəhra (s.ə.) imam Zamanın (ə) kəlamında:**

İmam Zaman (ə) buyurmuşdur: “Rəsulullahın qızı Fatimə mənə ən gözəl nümunə və örnəkdir.” (“İsmət aynası” və Peyami-zən” jurnalı.)

**Nəticə**

Xanım Zəhra (s.ə) günah və xətalardan uzaq olaraq tam ismətə sahibdir və məsumədir.
Bunun üçün kifayət qədər dəlillərimiz vardır. Bütün alimlərin Təthir ayəsi (paklığ) və "Kisa" hədisi barəsində fikir birliyi vardır və bu şəxslərin Hz. Peyğəmbər (s), Hz. Əli, Hz. Zəhra və İmam Həsən, İmam Hüseyn (ə.s) olduqları bildirilir.

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Bu ayədəki لِيُذْهِبَ kəlməsi (lamul-əmr) qeyd-şərtsiz bütün günahların olmamasını və bütün günahlardan uzaqlığı bildirir. Həmçinin Hz.Əli (ə) Peyğəmbərin dilindən belə nəql edir : "Peyğəmbər (s) Fatiməyə dedi: Allah sənin qəzəbinlə qəzəblənər, sənin rizanla razı olar." Bu o deməkdir ki, Xanımın (s.ə) qəzəbi və rizası, Allahın qəzəbi və rizası ilə müvafiqdir (uyğun). Yəni Xanımın (s.ə) qəzəb və rizası (davranış və əhvali) tam şəriətlə, ilahi göstərişlə uyğundur. O (s.ə) qəzəb və sevinc halında heç vaxt ilahi rizayla, haqqla zidd olmaz. Bu da (Allahın qəzəb və rizası ilə yuğunluq) məsumluğa aşkar dəlildir. Həmçinin Peyğəmbər (s) buyurub: "Mən sizin aranızda möhkəm yapışdığınız halda heç vaxt zəlalətə düşməyəcəyiniz iki əmanət qoyram: Allahın kitabını və itrətim (soyum) olan Əhli-Beytimi. Onlar (ikisi) heç vaxt, qiyamətə qədər bir-birindən ayrılmazlar. Bu da o deməkdir ki, Quran və Əhli-Beyt (ə) arasında bağlılığ vardır. Bu da ismət və məsumluğdur!"

**Mənbələr**


1. **Qurani Kərim**
2. **Biharül-ənvar,** Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi(Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.
3. **İddətüd-dai və nicatüs-sai,** Əhməd ibn Məhəmməd Hilli əl-Əsdi (İbn Fəhd), tədqiq: Əhməd əl-Müvəhhidi, Tehran, Vicdani intişaratı.
4. **Əl-Kafi,** Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
5. **Kəşfül-məhəccə lisömrətil-mühcə,** Əli ibn Musa Hilli (Seyyid ibn Tavus), tədqiq: Məhəmməd Həsun, Qum, Məktəbətül-elamil-islami, 1412 hicri-qəməri, birinci çap.
6. **Kənzül-ümmal fi sünnətil-əqval vəl-əfaal,** Əli Müttəqi ibn Hisamuddin Hindi, təshih: Səfvətüs-Səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, 1397 hicri-qəməri, birinci çap.
7. **Sünəni-ibn Macə,** Məhəmməd ibn Yezid əl-Qəzvini (İbn Macə), tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Beyrut, Daru-ehyait-turasil-ərəbi, 1395 hicri-qəməri, birinci çap.
8. **Səhihi-Buxari,** Məhəmməd ibn İsmayıl Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-ibn Kəsir, 1410 hicri-qəməri, dördünçü çap.
9. **Səhihi-Müslim,** Müslim ibn Həccac əl-Qəşiri Nişaburi, tədqiq: Məhəmməd Fuad Əbdül-baqi, Qahirə, Darül-hədis, 1412 hicri-qəməri, birinci çap.

10. **Sünəni-Tirmizi (Əl-Camiüs-səhih),** Məhəmməd ibn İsa Tirmizi (Əbu İsa), tədqiq: Əhməd Məhəmməd Şkir, Beyrut, Daru-ihyait-turas.
11. **Təfsiri-Qummi,** Əli ibn İbrahim Qummi, tədqiq: Seyyid Təyyib Musəvi Əlcəzairi, Nəcəf, Nəcəfi-Əşrəf mətbəəsi.
12. **Hilyətül-əvliya və təbəqatül-əsfiya,** Əhməd ibn Abdullah Əsbəhani (Əbu Nəim), Beyrut, Darül-kutübil-ərəbi, 1387 hicri-qəməri, ikinci çap.
13. **Ehyau ülumüd-din,** Məhəmməd ibn Məhəmməd Qəzzali (vəfat: 505 h. q.), Beyrut: Darül-hadi, 1412 hicri-qəməri, birinci çap.
14. **Nəhcül-bəlağə,** Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), təshih: Sübhi Saleh, Qum, Darül-üsvə, 1373 hicri-şəmsi.
15. **Müsnədi ibn Hənbəl,** Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq: Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, ikinci çap.
16. **Müstədrəkül-vəsail və müstənbətül-məsail,** Mirza Hüseyn Nəvəri Təbərsi, Alil-beyt (əleyhis-səlam) müəssisəsi, 1407 hicri-qəməri, birinci çap.
17. **MüsnəDi-Əbi Davud ət-Təyalisi (Müsnədi-Təyalisi),** Süleyman ibn David Bəsri (Əbi Davud Təyalisi), Beyrut, Darül-mərifə.
18. **Mişkatül-ənvar fi ğürəril-əxbar,** Əli ibn Həsən Təbrisi, tədqiq: Məhdi Huşmənd, Qum, Darül-hədis, 1418 hicri-qəməri, birinci çap.
19. **Riyazüs-salihin,**Əbu Zəkəriyya Dəmeşqi, tədqiq: Mustafa Əmmari, Hələb, Darül-qələmil-ərəbi, 1413 hicri-qəməri.

20. **Xisal,** Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, dördüncü çap.
21. **Vəsailüş-şiə,** Məhəmməd ibn Həsən Hürr Amuli, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1409 hicri-qəməri, birinci çap.
22. **Ümmi Əbiha,** Seyyid Əli Əkbər Ocaqnejad
23. **Beytul Əhzan**, Şeyx Abbas Qummi
24. **İnciçiçəyi Həzrəti Fatimə ( r.a)**, Mahmud Açıl

# Qurani-Kərimdə  övlad tərbiyəsi metodları

**Könül İmanova**[1]

## Abstrakt

Şübhəsiz ki, müqəddəs İslam dinində tərbiyə və onunla bağlı məsələlərin əhəmiyyəti sübuta ehtiyacı olmayacaq qədər aydındır. Məhz bu əhəmiyyət cənab Haqqın Quranda, məsum öndərlərin hədislərində, görkəmli alim və şərhçilərin bu mövzuda son sözü deməlеrinə səbəb olmuşdur. Yaşadığımız dövrdə əxlaq və təlim-tərbiyənin əsas qaynağı olan ailə quruluşunda meydana gələn büdrəmələr, onun zəruri prinsip və dəyərlərinə etinasızlıq həyatın sütunlarını sarsıdaraq, müasir dövrün əlacı olmayan "özünə biganəlik" xəstəliyinə yol açan "insana biganəlik" adına layiq görülməsinə gətirib çıxarmışdır. Elə həmin səbəbdən, bu meqalede  tərbiyə mövzusu və onun metodları müqəddəs kitabımız olan Quran baxımından araşdırlımış və lazımı məqamlar qeydə alınmışdır.

**Açar sözlər:** tərbiyə, əxlaq, ailə, uşaq, övlad, hüquq, islam, din

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Müqəddimə

İslamda övlad tərbiyəsinin nə dərəcə əhəmiyyətli olduğunun Qurani-Kərimdə də dəlilləri var. Belə ki, övlad arzusunda olan valideynlər Zəkəriyyə Peyğəmbərin duası ilə Allaha üz tutaraq Ondan pak övladlar istəyirlər: "Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən". ("Ali-İmran" surəsi, 38-ci ayə).

Uşaq tərbiyəsi olduqca mühüm və məsuliyyətli vəzifədir. Çünki, uşaqlarımızın düzgün tərbiyəsi, sağlam gələcəyimizin təzminatıdır. Məhz böyüklərin verdiyi tərbiyə, uşağın şəxsiyyətinin formalaşmasında və cəmiyyətə yararlı, faydalı, istedadlı, savadlı, gözəl əxlaqlı insan kimi təqdim olunmasında əsaslı rol oynayır. Bu sahədə, birinci növbədə əsas vəzifə valideynin öhdəsinə düşür. Valideyn həm uşaqla davranışında, həm də, bir-birilərilə, digər ailə üzləri ilə rəftarında gözəl əxlaq nümayiş etdirməlidir ki, bu uşağın beyinaltı qavramına həkk olunsun. Uşağı təhqir etmək, döymək, kobud davranmaq, onu dinləməmək, təklikdə və cəmiyyət içərisində daim tənqid atəşinə tutmaq olduqca təhlükəli və yanlış rəftarlardır. Belə davranışlar onun psixoloji gərginlik keçirməsinə, özünə inamsızlığına, şəxsiyyət əskikliyinə, qəddarlığına, amansız xüsusiyyətlərə malik olmasına və onlarla adını çəkmədiyim mənfi xüsusiyyətlərə sahib olmasına gətirib çıxarır. Buna görə də, uşaq tərbiyəsi zamanı çox diqqətli və səbirli olmaq lazımdır. Əks təqdirdə, gələcəkdə övladlarımızın zərəri təkcə cəmiyyətə deyil, bizə də çatacaq. Necə ki, dini mənbələrimizdə gələn hədislərdə dəfələrlə buna işarə edilir. Allahın elçisi (s) bu barədə belə buyurur: "Allah-taala, övladlarını onların üzünə ağ olmağa məcbur edən, ata-anaya nifrin edər."

Ümumiyyətlə, uşaq tərbiyəsi ya ata-ana tərəfindən, yaxud da, müəyyən bir tərbiyəçi tərəfindən həyata keçirilir. Hər bir sistemdə tərbiyənin özünəməxsus yol və üslubları olduğu kimi,

islamda da, uşaq tərbiyəsinin özünə məxsus yol və üslubları vardır. Burada həmin üslublardan bir neçəsinə işarə edirik.

**Övlad tərbiyəsindəki əsas məqamlar**

1. Övladları sevməyə və onlara qayğı göstərməyə təşviq:
Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:
"Övladını öpənə Allah savab yazar, onu sevindirəni qiyamət günü sevindirər, ona Quranı öyrədənin ata-anasını çağırıb, onlara iki libas geyindirilər ki, nuru behişt əhlinin çöhrələrini işıqlandırar."
"Ət-təbəqatül-kübra" kitabında Müaviyə ibn Qürrənin əmisindən belə söylədiyi nəql olunur:
"O, kiçik oğlu ilə Peyğəmbəri-Əkrəmin (s) yanına gəlib, onu Həzrətin qabağında otuzdurdu. Həzrət ona (uşağın atasına) buyurdu: Onu çox istəyirsənmi? Dedi: Bəli, lap çox!
Bir zaman həmin uşaq öldü. Həzrət atasına buyurdu: Elə bil, onun ölümünə görə narahatsan? Dedi: Bəli!
Həzrət buyurdu: Məgər Allahın səni behiştə apardığı zaman onun behişt qapılarından birinə tərəf gəlib üzünə açmasından sevinməzsənmi? Dedi: Bəli!
Həzrət buyurdu: Həqiqətən, Allahın istəyi ilə sən belə də olacaqsan!" [3]

2. Peyğəmbərin (s) uşaqlara mehriban rəftarı və onlara qayğısı:
Əhməd ibn Hənbəlin "Müsnəd" kitabında Vəlid ibn Üqbədən belə nəql olunur:
"Peyğəmbəri-Əkrəm (s) Məkkəni fəth etdikdə, məkkəlilər uşaqları ilə birgə o həzrətin yanına gəlir və Həzrət də əlini onların başına çəkib, dua edirdi." [4]
Müslümün "Səhih" kitabında Əmr ibn Səiddən Ənəs ibn Malikin belə söylədiyi nəql olunur:

“Peyğəmbəri-Əkrəm (s) kimi öz əhli-əyalına qarşı mehriban olduğunu heç kimdə görmədim.
İbrahim (Peyğəmbərin (s) oğlu) Mədinənin Əvali adlı yuxarı məntəqəsində bir dayəsi var idi. Peyğəmbər (s) həmişə ora gedər və biz də onunla birgə olardıq. Həzrət evə daxil olurdu. Kölə olan dayə evi ətirləyərdi. Peyğəmbər (s) İbrahimi qucağına alıb, öpdükdən sonra geri qayıdardı.
Əmr deyir: İbrahim dünyadan getdiyi zaman Peyğəmbəri-Əkrəm (s) buyurdu: İbrahim mənim övladımdır, südəmər ikən ölsə də, behiştdə iki dayəsi olacaq ki, südəmmə müddətini təkmil edəcəklər.” [5]
3. Uşaqlara salam vermək:
“Kənzül-ümmal” kitabında Ənəsdən belə nəql olunur:
“Peyğəmbəri-Əkrəm (s) uşaqların yanından keçərkən onlara salam verirdi.” [6]
4. Övladlara məhəbbət haqda:
“Qurani-Kərim”də buyurulur:
“Ey iman gətirənlər, nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə (Allahı yada salmasa), beləlləri əsl ziyana uğrayanlardır.” [7]
Başqa bir ayədə belə buyurulur:
“Ey iman gətirənlər, şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin! Amma onları əfv etsəniz, (təqsirlərindən) keçsəniz və bağışlasanız (daha yaxşı olar). Çünki Allah bağışlayan, rəhm edəndir!” [8]
Termizinin “Sünən” kitabında İbn Abbsdan belə nəql olunur:
“Bir nəfər İbn Abbasdan “Ey iman gətirənlər, şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin!” – ayəsi haqda soruşduqda, dedi: “Onlar bir qrup məkkəlilər idi ki, İslamı qəbul etdikdən sonra Peyğəmbərin (s) hüzuruna gəlmək istədikdə, zövcələri və

övladları onlara mane oldu. Onlar o həzrətin hüzuruna gəldikdə, camaatın dinşünas olduğunu görüb, onları cəzalandırmaq istədikdə, mütəal Allah bu ayəni nazil etdi: "Ey iman gətirənlər, şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. Onlardan özünüzü gözləyin!" [9]

5. Övladlar arasında ədalət:

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Övladlarınıza hədiyyə verməkdə ədaləti gözləyin. Əgər bir kəsi üstün tutmaq istəsəydim, şübhəsiz, qadınları üstün tutardım."

**Uşaqlara sevgi**

Uşaqların mayası sevgi ilə yoğrulmalı və onlar sevgi və hörmət dolu bir mühitdə tərbiyə edilməlidirlər. Bu, onların qəlbinin yumşaq qalmasına, cəmiyyətin digər üzvlərinə qarşı da hörmət və sevgi ilə yanaşmalarına və böyüdükdə bunu öz övladlarına da təlqin etmələrinə səbəb olar. Hörmət edilməyən uşaqdan hörmət, sevgi göstərilməyən uşaqdan da sevgi gözləmək qəlizdir. Sevgi, mərhəmət və şəfqət dini olan İslamda övlada sevgi rəhmətdən sayılır. Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın ona salavat və salamı olsun) Həsən ibn Əlini (Allah ondan razı olsun) öpdü. Bu vaxt Əqra ibn Habis (Allah ondan razı olsun) onun yanında otur¬muş¬du. Əqra (Allah ondan razı olsun) dedi: "Mənim on övladım var, onlardan heç birini öp¬məmişəm". Peyğəmbər (Allahın ona salavat və salamı olsun) ona baxıb dedi: "Rəhm etməyən kimsəyə rəhm edilməz" (Buxari (5651) və Muslim (2318)).

Səhih mənbələrə görə, Muhamməd Peyğəmbər (Allahın ona salavat və salamı olsun) uşaqların əlindən tutduqda, uşaqlar özləri onun əlini buraxmadıqca onların əlini buraxmazmış.

**Uşaqlara yalan danışmaq**

Yalan danışmaq islamda böyük günahlardan sayılır. Bəzi valideynlər uşaqlarını yola gətirmək üçün müxtəlif üsullara, o cümlədən yalana əl atır və bunu "günahsız" yalan hesab edirlər. Lakin, kiçik yaşlardan uşaqları aldatmaq və onlara yalanı təlqin etmək onların yalançı və riyakar olmasına gətirib çıxara bilər. Çünki, övlad üçün ən gözəl nümunə valideynlərdir. Uşaq evin aynası olduğu üçün, yalanları da əks etdirir. Abdullah ibn Amrın (Allah ondan razı olsun) rəvayət etdiyi bir hədisdə deyilir: "Hələ mən uşaq ikən Peyğəmbər (Allahın ona salavat və salamı olsun) bizim evimizə gəlmişdi. Mən bayırda oynayırdım və anam məni səsləyərək "Ay Abdullah, bura gəl sənə bir şey verəcəm" – dedi. Allahın Rəsulu (Allahın ona salavat və salamı olsun) soruşdu: "Ona nə vermək istəyirsən ki? Anam dedi: "Xurma." O (Allahın ona salavat və salamı olsun), dedi: "Əgər ona bir şey vermək niyyətin olmasa idi, bu əməlin sənin əleyhinə bir yalan kimi yazılacaq idi" (Əhməd, Əbi Davud rəvayət etmişdir).

**Uşaqlara çox irad tutmaq**

Bəzən özümüz də bunun fərqinə varmadan səbəbli-səbəbsiz uşaqlarımızı hər şeydə qınayır, hər xırda məsələ ucbatından onlara irad tutur, yerli-yersiz danlayırıq. Bu cür davranışımızın nəticəsi olaraq övladlarımız çoxsaylı komplekslərdən əziyyət çəkə, özünəinam hissləri zəifləyə bilər. Ənəs (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullaha (Allahın ona salavat və salamı olsun) 10 il xidmət etdim. Bir dəfə də olsun mənə "uf" demədi, üstümə qışqırmadı. Etdiyim bir işdən ötrü "nə üçün onu etdin", etmədiyim bir işdən ötrü də "nə üçün bu işi etmədin" deyə demədi (Başqa rəvayətdə: Əgər xanımlarından biri məni qınamış olsaydı ona: "Onu buraxın. Çünkü nə təqdir

edilmişsə o, da olur” deyərdi” (Buxari, Müslim, Əbu Davud, Beyhəqi).

**Uşaqlar arasında ayrıseçkilik salmaq**

Ailə kiçik bir cəmiyyətdir. Bu kiçik cəmiyyətin kiçik üzvləri arasında bərabərliyə riayət etmək, onların qəlbində paxıllıq və qısqanclıq kimi hisslərin meydana gəlməsinin qarşısını alar. Haqqları qorunmuş uşaq başqalarının haqqını qoruyar, paylaşmağı və yardımlaşmağı sevər.

Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) səhabələrindən olan Numan ibn Bəşir deyir ki, “Atam öz malının bir hissəsini mənə bağışladı. Anam Amrə bint Rəvahə isə dedi: Sən bu işdə Peyğəmbərdən (Allahın ona salavat və salamı olsun) məsləhət almasan mən razılıq verən deyiləm! Atam mənə verdiyi sədəqəyə Peyğəmbəri (Ona və ailəsinə Allahın salavatı və salamı olsun) şahid tutmaq üçün onun yanına getdi. Peyğəmbər (Allahın ona salavat və salamı olsun) ona dedi: “Sən bütün övladlarına belə hədiyyə etmisənmi?” Atam dedi: Xeyr. O dedi: “Allahdan qorxun və övladlarınız arasında ədalətli (mövqedə) olun”. Atam qayıdıb həmin sədəqəni geri götürdü. Digər rəvayətdə isə onun belə cavab verdiyi deyilir: “Elə isə məni bu işdə şahid tutma. Çünki mən haqsızlığa şahidlik etmirəm”. Digər rəvayətdə isə belə cavab verdiyi nəql olunur: “Sən istərdinmi ki, onlar sənə qarşı xoş münasibətdə bərabər olsunlar?” Atam dedi: Bəli. O dedi: “Elə isə belə etmə” (Buxari, c. 3. S. 45. Müslim, Əbu Davud).

**Doğulandan dərhal sonrakı tərbiyə**

İslamda tərbiyənin üstünlükləri ondadır ki, övlad dünyaya gəlməmişdən qabaq zəminə yaradıldığı üçün tərbiyə ilk

anlardan başlayar. Körpə ana bətnində olanda, onun tərbiyəsi – mühit, ananın yediyi-içdiyi, qulaq asdığı, dediyi, gördüyü və s. barədə dinimizin bolluca tövsiyələri vardır. Bu bəhsdə isə biz, dünaya gəldikdən sonrakı dövrü ehtiva edən tövsiyələrlə bağlı xüsusi tərbiyə metodologiyasından danışacağıq. Əziz 5-ci İmam - Həzrət Muhəmməd İmam Baqirin (ə) mübarək buyuruşları əsasında övlad tərbiyəsinin mühüm nöqtələrini qeyd edək:

1.Qulağa azan və iqamənin deyilməsi və körpəyə Fərat suyunun içirdilməsi. İmam Baqir (ə) buyurur: "Yaxşı olar ki, körpənin ağzı Fərat suyu ilə açıla və qulağına iqamə oxuna".

2. Əqiqə və ad qoymaq. İmam (ə) buyurur: "Sizin dünyaya uşağınız gələndə 7-ci günü - əgər oğlandırsa, erkək qoyun və əgər qızdırsa, dişi qoyunu - əqiqə qurbanı edin. Onun ətindən mamaçaya da verin. 7-ci günü ona ad qoyun".

Ad qoymada ən mühüm cəhətlərindən biri də odur ki, yaxşı adlar seçilməlidir, xoşa gəlməyən adlardan çəkinmək lazımdır. Çünki yaxşı ad övladın xoşbəxtliyinə və xoşa gəlməyən ad isə onun nigarançılığına səbəb olar. İmam Baqir (ə) yaxşı və xoşa gəlməyən adlara aid bir neçə misal çəkir. O, Həzrət (ə) bu haqda buyurur: "Ən sədaqətli adlar - Allaha bəndəliyi iddia edən adlardır və onlardan ən yaxşıları - peyğəmbərlərin adlarıdır".

**Ana südünün tərbiyəyə təsiri**

Övlad tərbiyəsində valideynlər əsas rol oynayırlar. Bu rol və təsir hər bir yaşda eyni səviyyədə deyildir. Tərbiyənin bəzi mərhələlərində atanın rolu mühüm olur və bəzi mərhələlərdə isə ana aparıcı rol oynayır. Ümumi olaraq, onu demək olar ki,

körpə ana bətnində olanda və süd yeyən zaman ananın tərbiyəsi başlıca rol oynayır. Ancaq yeniyetmə dövründən sonra, xüsusilə də oğlanlara aid - atanın tərbiyəsi mühümdür. Ancaq bu, o demək deyildir ki, körpə süd yeyəndə atanın rolu və ya övlad yeniyetmə olanda ananın rolu mühüm deyildir. Xeyr, burada məqsəd odur ki, uşağa hansı mərhələdə kim daha çox təsir göstərə bilir.

Körpənin mühüm mərhələlərindən biri onun süd yeyən dövrüdür. Bu mərhələdə ananın birbaşa və əsas təsiri vardır. Bu mərhələdə körpəyə süd vermək ana ilə övlad arasında rabitənin yaranmasına səbəb olar. Ana südü körpənin qida və sağlamlığı üçün mühüm rol oynadığı kimi, körpələrə bəzi xüsusiyyətlərin ötürülməsində də əsas amil sayılır. İmam Baqir (ə) bu haqda buyurur: "Kütbeyin qadınları uşaqlarınıza dayə qərar verməyin, çünki süd vasitəsilə kütbeyinlik və səfehlik onlara keçə bilər".

O Həzrət (ə) yenə buyurur: "Övladlarınız üçün gözəl dayələr seçin, çirkin üzü olan dayələrdən uzaq durun. Çünki süd (gözəllik və çirkinliyi) ötürəndir".

**Uşaq və sevgiyə ehtiyac**

Sevgi - övladların körpə vaxtı ehtiyac duyduqları zərurətdir. Ona lazımi diqqət olunmasa, körpə düzgün inkişaf etməyəcəkdir. Bu sevgi uşaqlara müxtəlif yollarla ötürülə bilər: öpməklə, qucağına götürüb xoş sözlər deməklə, hədiyyə, oyuncaq almaqla və sair. İmam Baqir (ə) hər bir fürsətdə öz kiçik yaşlı oğlu İmam Sadiqi (ə) qucağına götürməklə və ona xoş sözlər deməklə sevgisini bildirərdi. Bu yolla onun sevgi ehtiyacını ödəyərdi.

O Həzrətin ən yaxın səhabələrindən olan Muhəmməd ibni Muslim nəql edir: "Mən İmam Baqirin (ə) yanında idim. Bu

zaman kiçik yaşlı övladı Cəfər (ə) gəldi. Onun əlində əsa vardı ki, onunla oynayırdı. İmam Baqir (ə) onu sevərək qucağına götürdü, sinəsinə sıxdı. Ona dedi: “Atam-anam sənə fəda olsun, əlindəki çubuqla pis iş görmə və oynama”. Sonra buyurdu: “Ey Muhəmməd, məndən sonra o sənin İmamındır. Onun ardınca get və onun elmindən istifadə et. Allaha and olsun ki, o, həmin Sadiqdir ki, Allahın Rəsulu (s) onun Əhli-Beyt (ə) davamçılarının dünya və axirətdə qələbə çalacaqlarını və düşmənlərinin hər bir peyğəmbərin zamanında məlun olacağını xəbər vermişdir”. Bu zaman Cəfər (ə) gülür və üzü qızarır. Sonra İmam Baqir (ə) mənə dedi: “Ona sual ver”. Mən ondan soruşdum ki, ey Allahın Rəsulunun (s) oğlu, gülmək bədənin hansı üzvündən qaynaqlanır. Cəfər (ə) buyurdu: Ey Muhəmməd, ağıl - qəlbdən, qəm - qara ciyərdən, nəfəs - ağ ciyərdən, gülüş də dalaqdan qaynaqlanır”. Bu cavabı ondan eşidəndə yerimdən qalxdım və onu öpdüm.”

Saleh övladı tərifləmək

Övladı və onun yaxşı işlərini yerli-yerində tərifləmək - onun müvəfəqiyyət qazandığını və güclü olduğunu hiss etməyə bais olar. Eyni zamanda yaxşı işlər görmək üçün stimula çevrilər. Xüsusilə də, əgər tərif yerində olarsa və övladlarının layiqli rəftarları onlar üçün mühüm olan insanların yanında olarsa.

Əli ibni Həkəm İmam Baqirin (ə) səhabələrindən biri olan Tahir haqqında nəql edir. “Mən İmam Baqirin (ə) hüzurunda əyləşmişdim. Oğlu Cəfər (ə) onların yanına gəlir. İmam Baqir (ə) onun haqqında buyurur: “O, Allahın ən gözəl məxluqudur””. Bu hədisdən göründüyü kimi, İmam Baqir (ə) səhabəsinin yanında övladını tərifləyir.

**Nəticə**

Tərbiyə insan üçün ən mühüm məsələlərdən biridir. Onsuz dünya və axirət səadətinə çatmaq olmaz. Məsumlar (ə) həyatları boyunca insanların hidayət çırağı olublar. Onlar tərbiyə sahəsində də ən yaxşı nümunədirlər.

İslamda tərbiyənin üstünlükləri ondadır ki, övlad dünyaya gəlməmişdən qabaq zəminə yaradıldığı üçün tərbiyə ilk anlardan başlayar. Körpə ana bətnində olanda, onun tərbiyəsi – mühit, ananın yediyi-içdiyi, qulaq asdığı, dediyi, gördüyü və s. barədə dinimizin bolluca tövsiyələri vardır.

1.Qulağa azan və iqamənin deyilməsi və körpəyə Fərat suyunun içirdilməsi. İmam Baqir (ə) buyurur: “Yaxşı olar ki, körpənin ağzı Fərat suyu ilə açıla və qulağına iqamə oxuna”.

2. Əqiqə və ad qoymaq. İmam (ə) buyurur: “Sizin dünyaya uşağınız gələndə 7-ci günü - əgər oğlandırsa, erkək qoyun və əgər qızdırsa, dişi qoyunu - əqiqə qurbanı edin. Onun ətindən mamaçaya da verin. 7-ci günü ona ad qoyun”.

Ad qoymada ən mühüm cəhətlərindən biri də odur ki, yaxşı adlar seçilməlidir, xoşa gəlməyən adlardan çəkinmək lazımdır. Çünki yaxşı ad övladın xoşbəxtliyinə və xoşa gəlməyən ad isə onun nigarançılığına səbəb olar.

Övlad tərbiyəsində valideynlər əsas rol oynayırlar. Bu rol və təsir hər bir yaşda eyni səviyyədə deyildir. Tərbiyənin bəzi mərhələlərində atanın rolu mühüm olur və bəzi mərhələlərdə isə ana aparıcı rol oynayır. Ümumi olaraq, onu demək olar ki, körpə ana bətnində olanda və süd yeyən zaman ananın tərbiyəsi başlıca rol oynayır. Ancaq yeniyetmə dövründən sonra, xüsusilə də oğlanlara aid - atanın tərbiyəsi mühümdür. Ancaq bu, o demək deyildir ki, körpə süd yeyəndə atanın rolu və ya övlad yeniyetmə olanda ananın rolu mühüm deyildir.

Xeyr, burada məqsəd odur ki, uşağa hansı mərhələdə kim daha çox təsir göstərə bilir.
Sevgi - övladların körpə vaxtı ehtiyac duyduqları zərurətdir. Ona lazımi diqqət olunmasa, körpə düzgün inkişaf etməyəcəkdir. Bu sevgi uşaqlara müxtəlif yollarla ötürülə bilər: öpməklə, qucağına götürüb xoş sözlər deməklə, hədiyyə, oyuncaq almaqla və sair. İmam Baqir (ə) hər bir fürsətdə öz kiçik yaşlı oğlu İmam Sadiqi (ə) qucağına götürməklə və ona xoş sözlər deməklə sevgisini bildirərdi. Bu yolla onun sevgi ehtiyacını ödəyərdi.
Övladı və onun yaxşı işlərini yerli-yerində tərifləmək - onun müvəfəqiyyət qazandığını və güclü olduğunu hiss etməyə bais olar.
Övladları nəsihət etmək və onlarla söhbət etmək valideynin övlada həyatda düz yol göstərməyi ilə yanaşı, övladla valideyn arasında səmimi rabitənin yaranması üçün də zəminə yaradar. Bu yolla da valideyn, xüsusilə də ata, övlada yaxınlaşa bilər.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qurani-Kərim
2. Məhəmməd Məhəmmədi Reyşəri "Ömrün meyvəsi"
3. Əli Əkbər Babazadə "İslamda ailə hüququ və evlənmə üsulu"
4. İslamda övlad
5. Fürui-kafi", 6-cı cild, səh.281; "Vəsailüş-şiə", 14-cü cild, səh.65
6. Vəsailüş-şiə", 2-ci cild, səh.37
7. Cəvahirül-kəlam", 31-ci cild, səh.251 "Şərhi-lümə", 2-ci cild, səh.116
8. "Vəsaiüş-şiə", 15-ci cild, səh.136
9. "Fürui-kafi", 6-cı cild, səh.24
10. "Vəsailüş-şiə", 5-ci cild, səh.42

11. "Vəsailüş-şiə", 15-ci cild, səh.162, 163
12. "Fürui-kafi", 6-cı cild, səh.37
13. "Töhəfül-üqul", səh.82
14. Vəsailüş-şiə", 15-ci cild, səh.161
15. "Vəsailüş-şiə", 15-ci cild, səh.144

# Mehtilik hakkında müslümanların ittifakı

**Atalay Koçak**[1]

## Abstrakt

Gayba ve gaybla ilgili hakikatlere inanmak peygamberlerin ilahi davetlerinin ekseni olup vahy ve nübüvvete imanın gereklerindendir. Mehdiye inam da bu kabildendir. İslam'ın en önemli kaynağı Kur'an-ı Kerim diğer konularda olduğu gibi bu alanda da ayrıntılara girmeden genel ve tümel olarak bahsetmekte ve iman sayesinde cihanşümul adil bir hükümetin gerçekleşeceğini haber vermektedir. Hz. İmam Mehdi aleyhi's-selâm 'ın eliyle İslam'ın bütün dünyaya egemen olacağı ve yerküre üzerinde, yaratılış gayesinin yani sadece Allah'a ibadet etmenin tahakkuk bulacağı vaadine dair hadisler, Kur'an-ı Kerim'deki ayetlere ve yaratılış felsefesine mutabık bir gerçeği vurgulamakta olup, bu hadislerin inkarı; İslam'ı cihanşümûl bir din olarak takdim eden ayetlerin -haşa- reddi demek olup, yaratılış gayesini bütün dünyada gerçekleştirme hususunda Allah Tealâ'nın -haşa- başarılı olamadığı manasına gelir

**Açar kelimeler:** Mehdi, İslam, Qeyb, Kıyamet ve bs.

## Giriş

Gayba ve gaybla ilgili hakikatlere inanmak peygamberlerin ilahi davetlerinin ekseni olup vahy ve nübüvvete imanın

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

gereklerindendir. Nitekim Bakara Suresi'nin ilk ayetlerinde Kur'an **"gayba inananlar için hidayet edici bir kitap"** olarak tanıtılmıştır: **"Bu bir kitaptır ki, kendisinde şüphe yok. Takva sahipleri için de yol göstericidir. Onlar, gayba inanırlar."** [1]

Gaybî bilgi, insanın kendi başına edinebileceği bir bilgi olamayıp sadece ilahî öğrenim ve vahy yoluyla elde edebileceği inkâr edilmez bir gerçektir. Öyleyse "gayb"; Allah Teala'nın kullarını, peygamberleri vasıtasıyla bilgilendirdiği, melekler, arş, kürsü, cennet, cehennem, geçmiş ve gelecekle ilgili gizli olaylar gibi geniş bir hakikatler yelpazesini kapsamına almaktadır ki, Allah Teala peygamberleri vasıtasıyla halkı bu vb. konulardan haberdar kılmaktadır.

Buradaki bahsimiz gelecekle ilgili bir mevzu etrafında olduğundan; gelecekte vuku bulacak bazı olaylar hakkında semavi kitaplarda bildirilmiş olan birkaç gaybi meseleyi aşağıya aktarıyor, bu örneklerden birkaçına değiniyoruz:

Son Peygamber Hz. Muhammed sallâ'llâhu aleyhi ve alih 'in geleceğine dair daha önceki peygamberlerin bunu haber vermeleri: **"Hani, Meryemoğlu İsa da "ey İsrailoğlulları, gerçekten ben, sizin için Allah'tan gönderilmiş bir elçiyim. Benden önceki Tevrat'ı doğrulayıcı ve benden sonra, ismi "Ahmed" olan bir peygamberin de müjdeleyicisiyim" demişti. Fakat o, apaçık belgelerle onlara gelince "Bu, açıkça bir büyüdür" dediler."** [2]

İsarailoğullarının yeryüzünde iki kere fesat çıkarıp -her ikisinde de- yenilgiye uğrayacakları haberi: **"Kitapta, İsrailoğullarına şu hükmü verdik: Muhakkak siz, yeryüzünde iki defa bozgunculuk çıkaracaksınız ve pek kibirli bir yükselişle muhakkak kibirlenip yükseleceksiniz. Nitekim o ikiden ilk -vaid- geldiği zaman, oldukça zorlu olan kullarımızı üzerinize gönderdik de -sizi- evlerin**

**aralarına kadar girip araştırdılar, bu yerine getirilmiş bir vaiddi”** [3]

- Romalıların Farsları yeneceği haberi: **“Elif Lâm Mim. Rum-orduları- yenilgiye uğradı. Yakın bir yerde. Ama onlar, yenilgilerinden sonra yeneceklerdir...”** [4]

Allah Teala’nın insanoğluna bildirdiği gaybî işlerin her biri onun hayat ve alınyazısıyla belli bir ilişki içinde olup belli bir amaçla gerçekleşmektedir. Bu hedeflerinden bazıları şöyle sıralanabilir:

1- Gaybî haberler gerçekleşince insanlar, peygamberlerin peygamberlik iddialarının doğru olduğunu görmekte, iman ve inançları, pekişmektedir.

2- Gelecekte vuku bulacak iyi veya kötü olayların haber verilip bildirilmesi, o olayların vukuu sırasındaki zaman diliminde yaşayanların gerekli -doğru- tavrı takınabilmelerini sağlamaktadır. Çünkü bu gaybî haberler verildiğinde, bunların vukuu sırasında takınılması gereken doğru tavrın nasıl olması gerektiği de genellikle bildirilmektedir.

3- Bütün bunlardan daha da önemli olanı şudur: Olumlu hadiseler hakkında öngörü bulunup önceden haber vermek aslında o olay için uygun, fikri ve duygusal ortamı hazırlamak demektir. Olumsuz olayların bildirilmesi de, bunların karşısında fikrî ve duygusal engeller oluşturmak suretiyle, ilerleyip yayılmalarının önlenmesini sağlamaktadır.

Bu öngörü ve Kur’an tabiriyle; bu gaybî haberlerin en önemlilerin- den biri de Kur’an-ı Kerim ve nebevî sünnet ile bildirilmiş olan “insanlığın geleceği ve insan topluluklarının kaderiyle ilgili haber”dir ki buradaki bahsimizin ana temasını oluşturan bu haber özetle şöyledir:

“Sonunda bütün yeryüzünün hakimiyeti Allah’ın salih kullarının eline geçecek, şirk ve küfrün kökü kazılacaktır, ki

4.Nəhayət, sonuncu hissədə məada aid olan məsələlər məadı sübut edən müxtəlif dəlillər, öləndən sonra yenidən dirilmək, qiyamət gününün hesabı, dünyanın axırı və eləcə də Cənnət və Cəhənnəmdən söhbət gedir. Bu hissədə diqqəti cəlb edən çoxlu məsələlər var. Bu dörd hissədə qafil insanları ayıltmaq üçün və eləcə də onların diqqətli olması üçün tə'sirli ayələr vardır. Qısaca desək, bu surədə insan müxtəlif səhnələrlə, o cümlədən xilqət (yaranış), qiyamət, həyat, ölüm, qorxutmaq və müjdələrlə üzləşir. Bunların hamısı isə ümumilikdə insan ruhunu ayıldan və ona şəfa verən bir nüsxədir.

## Ön Söz

Yasin surəsi (Məkkədə nazil olmuşdur, 83 ayədir). Adını ilk misra olan " Ya - Sin " hərflərindən alır . Xalq arasında Yasin ölən şəxsin arxasınca oxunur. İslam peyğəmbəri Məhəmmədin bu surəni "Quranın ürəyi" adlandırdığı üçün müsəlmanlar arasında əhəmiyyətli bir yerə sahibdir. Həzrət Rəsuli-Əkrəm (s) buyurur: «Hər kəs «Yasin» surəsini Allah rizayəti üçün oxusa, Allah-Taala ona Qurani-Kərimi on iki dəfə tilavət edənlərin əcrini yazar.»

Həzrət İmam Cəfər Sadiq (ə) bu mübarək surənin tükənməz xətir bərəkəti barədə (ə) buyurur: «Həqiqətən hər bir şeyin qəlbi vardır. Quranın da qəlbi «Yasin» surəsidir. Elə isə hər kəs gündüz (gecə düşməzdən əvvəl) «Yasin» surəsini oxusa o gün Allah-Taala onu bəlalardan hifz etmiş və ruzi əta etmiş olar. Hər kəs gecə, yatmazdan əvvəl bu mübarək surəni qiraət etsə, Haqq-Taala onu rəcim (qovulmuş) olan şeytanın şərrindən və hər cür bəlalardan hifz etmək üçün min ədəd mələyi vəkil qərar verər. Əgər həmin gün o, dünyadan köçsə Allah-Taala onu behiştə

daxil edər, onu qüsl edərək, otuz min mələk onun üçün istiğfar deyərək, Allahdan bağışlanmaq diləyər. Allah-Taala onun qəbrini gözləri görəcək yerədək, geniş edib, onu qəbrin darlığından xilas edər...»

Buna görə də hər bir müsəlman Yasin surəsinə xüsusi diqqət yetirməli və onu düşünərək, anlayaraq və əməl edərək öyrənməlidir.

«Yasin» surəsi müxtəlif dövrlərdə bir çox alimlər tərəfindən təfsir edilmiş və bu mübarək surəyə ayrıca tədqiqat əsərləri, məqalə və şərhlər həsr olunmuşdur.

83 ayədən ibarət olan bu surə özündə nübüvvətə və məada, Allahın tövhid dininə dəvətə dair ilahi kəlamları əhatə etməklə yanaşı, həm də bir sıra qiymətli elmi fikirlər ehtiva edir.

Bu mübarək surədə Günəşin, Ayın və başqa səma cisimlərinin hərəkətinə dair elə qiymətli fikirlər söylənilmişdir ki, onlar Avropa elminə yalnız əsrlər keçdikdən sonra mə'lum olmuşdur. Heliosentrik nəzəriyyənin geosentrik nəzəriyyə ilə müqayisədə elmdə inqilab olduğunu iddia edən alimlər «Qurani–Kərim»lə tanış olduqdan sonra həmin fikrin Allah kitabında olduğunu görüb bundan öz heyrətlərini gizlədə bilməmişlər.

«Yasin» «Qurani–Kərim»in başqa surələri kimi həmişə təfsirə, şərhə ehtiyac hiss edir. Çünki zaman keçdikcə, bəşəriyyətin əqli səviyyəsi yüksəldikcə, elmi kəşflər artdıqca «Quran»ın ilahi kəlamları, buradakı universal həqiqətlər hər dövrün elmi nailiyyətləri əsasında izah edilib insanlara çatdırıldıqda Allah kəlamının mütləq gerçəkliyi və cahanşümul əzəməti bir daha göz qarşısında canlanır.

## Giriş

İslam peyğəmbəri (s) buyurmuşdur: “Yasin surəsinin ümmətimin qəlbində yer almasını cox sevmişəm“ .[1]

On dörd əsr ərzində oxunan və quranın cox sevilən surəsi, quranın urəyi adı ilə tanınan məhz yasin surəsidir. Niyə məhz yasin surəsi quranın ürəyi kimi tanınıb? İslam peyğəmbəri buyurmuşdur: “Quranda bir surə vardır ki, bütün qəlblərə şəfadır. O, yasin surəsidir “[2].

İmam Sadiq (ə) buyurmuşdur: “Övladlarınıza yasin surəsini öyrədin. Çunki o, quran reyhanəsidir”[3]. Bu surədə bir çox mətləblər vardır ki, irəli getdikcə bilmədiyimiz yeni məsələlər ortaya çıxır.

Şair demişkən: “Dərya suyunu içə bilməsəkdə, heç olmasa damcısından dadaq“

## Yasin surəsi hədislərdə

Yasin, Quranın qəlbidir.[4]

Yasin, Quranın adlarından biridir. [5]

Yasin, peyğəmbərin adlarından biridir. [6]

Yasin, İmam Əlinin (ə) adlarından biridir. [7]

Yasinin bir adı Muəmmadır (bütün oxuyanlara, dünya və axirət xeyri verən).[8]

Yasinin başqa bir adı da, dafiə və qaziyədir (pislikləri uzaqlaşdıran, istəkləri qəbul etdirən).[9]

---

1 Bəharul ənvar. Cild 92. Səhifə 291.
2 Təfsiri kəşşaf. Cild 4. Səhifə 32.
3 Bəharul ənvar. Cild 92. Səhifə 291.
4 Təfsiri kəşşaf. Cild 4. Səhifə 471.
5 Bəharul ənvar. Cild 89. Səhİfə 277.
6 Yasin sur. Ayə 3 və 4.
7 Əttar Nişapurinin şerinin məzmunu.
8 Xəvassul ayat kitabı.
9 Yasin surəsini təfsirinə əsasən.

Yasinin başqa bir adı, Həbibi Nəccardır (Ali – yasinin mömini). [1]
Yasin, məsumlar deməkdir. [2]
Yasin, Tövratda “ Bütov Quran ” (məxluqatın toplumu) kimi tanınıb.[3]
Yasin, bir cümlədə Quranın əzəmətini və Həzrəti Muhəmmədin (s) peyğəmbərliyini bildirir. [4]

**Tövratda Yasin**
İslam peyğəmbəri buyurmuşdur: “Tövratda Yasin surəsi, məxluqatın toplumu adlanmışdır. Çünki kim Yasin surəsi ilə ünsüyyətdə olsa, dünya və axirət xeyri ona şamil olar”. [5]

**Yasin surəsi Quran simasında**
Bu surə Məkkə şəhərində nazil olmuş, səksən üç ayədən ibarət olub, ilk ayəsinin adı ilə adlanmışdır. Bu surənin əsas məqsədi, əqaid yəni ideologiyadır. Hədislərdə övladlara öyrətmək və dünyasını dəyişmiş insanlara hədiyyə etmək göstəriş olunmuşdur. Bu surə muqattaə hərfindən sonra, hikmətli qurana and içməklə başlar, peyğəmbərin (s) düzgün yolda olmasının təsdiqi və üç peyğəmbərin peyğəmbərlik missiyaları ilə davam edir (on üçüncü ayədən iyirminci ayəyə qədər). Bu surənin bəzi ayələrində Allahın təkliyinin nişanələrindən, cənnət – cəhənnəmdən, qiyamət haqqında olan suallara cavabdan danışır.

---

1 Yasin surəsi. Ayə 20, 21, 22, 24.
2 Əmali. Səhifə 667.
3 Məcməul bəyan. Cild 4. Səhifə 413.
4 Yasin surəsi. Ayə 2, 3.
5 Məcməul bəyan. (yasin surəsinin təfsiri)

**Yasinda adı çəkilən dəstə**

Allah – taala Türkiyənin indiki Antakiya şəhərinə əvvəl iki peyğəmbər, sonra isə bir peyğəmbər də göndərmişdir. Bu peyğəmbərlər şəhərin girəcəyində bir kişinin xəstə olan oğluna şəfa vermişdilər. O kişi də Allahı qəbul etmişdir. Camaat isə onların da adi insanlar kimi olduqlarını bəhanə gətirərək, qəbul etməyib onları öldürdülər. İmanlı bir kişi şəhərin uzaq məntəqəsində sürətlə kafirlərin yanına gəlib, dedi: "Ey mənim tayfam! Dəvətlərinin müqabilində sizdən heç bir şey istəməyən, Allahın göndərdiyi peyğəmbərlərə tabe olun. Mən onların dəvətini qəbul edib, mömin olmuşam və Allah məni sevdiklərindən qərar vermişdir". Camaat isə bu kişinin sözlərinin tam əksinə olaraq, onu ölənə kimi daşa basdılar. Nəhayət o, can tapşıraraq dünyasını dəyişdi. [1] Yaxud onu ölənə kimi təpikləmişlər. Quranı – Kərimi təfsir edən alimlərin fikrincə bu imanlı kişi, Həbibi ibn Nəccar olmuşdur.[2]

**Qeyd**: Mukrim yəni sevilmiş, əzizlənmiş mənasındadır. Allah bu sifəti mələklərə aid edib. Amma Allah – taala bu sifəti həmdə Həbib ibn Nəccara da aid etmişdir. [3] "Allah məni sevdiklərindən, əzizlədiklərindən qərar vermişdir" [4]

Bu inadkar və peyğəmbər öldürən tafyanın sonu, cox acınacaqlı oldu. Asimandan dəhşətli səsin gəlməsi ilə,hamısı məhv oldu.

Bu səsin nə və necə olması barədə müxtəlif fikirlər vardır. Qulaq batıran gurultulu ildırımdan, dağıdıcı zəlzələdən, ya da sırf səsin özündən ölüblər. [5]

---

1 Yasin surəsi. Ayə 13 dən 27-yə kimi. Təfsiri Qurtubi və Peyğəmbərlər tarixi. Əllamə Məclisinin. Cild-1.
2 Məcməul bəyan təfsiri.
3 Ənbiya surəsi. Ayə 26.
4 Yasin surəsi. Ayə 27.
5 Təfsiri numunə. Cild 18. Səhifə 347.

## Yasinin oxunmasında olan savablar

Yasini oxumaq, on iki dəfə Quranı xətm etməyə bərabərdir. Dünya və axirət səadətinə nail olar və rahat can verər. [1] İmam Sadiq (ə) buyurmuşdur: "Həqiqətəndə hər bir şeyin qəlbi vardır. Quranında qəbi, Yasin surəsidir. Hər kim gündüz və gecə oxusa Allah onu hər növ şeytanın şərrindən Amanda qalması üçün, min mələk göndərər. Əgər həmin gün dünyasını dəyişərsə, Allah onu cənnətə daxil edər. Onun quslu vaxtı, otuz min mələk orda olar. O mələklərin hamısı onun üçün Allahdan bağışlanmaq dilərlər. Onu qəbrə yola salarlar. Qəbrə qoyulan vaxt o mələklər, qəbrin kənarında olarlar. İbadət edib, savabını ona hədiyyə edərlər. Onun qəbr əzabından amanda qalması üçün, dua edərlər. Onun qəbrindən həmişə nur çıxar. Qiyamətdə onu sirat körpüsündən keçirib peyğəmbər, imam və mələklərdən başqa heç kimin məskunlaşmadığı bir yerdə məskunlaşdırarlar. Orada heç bir qorxusu, narahatçılığı olmaz. Allah ona belə buyurar: Ey mənim bəndəm, sənə şəfaət etdim. İstədiyini deyə bilərsən ".[2]

## Yasin Quranın qəlbi

Yasin surəsi Quranın 36 – cı surəsi, 733 kəlmə və 3068 hərf, başqa rəvayətə əsasən 729 kəlmə və 3000 hərf, yaxud 727 kəlmə, 3555 hərf vardır. Hədislərə əsasən Yasin surəsi Quranın savablı və fəzilətli surələrindəndir. O dörd məsuma aiddir. Onu gündüz, cümə axşamında və gecələr oxumaq, xüsusəndə dünyasını dəyişmiş insanlara savabını hədiyyə etmək çox sifariş və təkid olunmuşdur. Peyğəmbərimiz

1 İki min müstəhəbb və məkruh. Səhifə 52
2 Məfatihul hacat. Səhifə 269.

hədisində, Yasin surəsini dünyasını dəyişmiş yaxınlarımız üçün oxumağı tövsiyə etmişdir. Bu sadalanan cəhətlərə görə Yasin Quranın qəlbi kimi tanınıb. Baxmayaraq ki, Quran – Kərim özü İlahi bir möcüzədir. Amma Yasin surəsinin xüsusi üstünlükləri vardır. Əhlibeytdən (ə) rivayət olunmuş hədislərə əsasən, "Quranın qəlbi" bu surə üçün ən yaxşı addır. Necə ki, Quranın anası Fatihə surəsi, gəlini Ərrahmən surəsi və ayələrinin çoxluqu baxımından Quranın seyyidi və ağası Bəqərə surəsidir.

**Dünyanın qəlbi**

Dünyanın qəlbi, Məhəmməd peyğəmbərin (s) varlığıdır. Bu haqqda Quran buyurur: "Biz səni, yalnız aləmlərə rəhmət olaraq göndərdik" . (Ənbiya surəsi. Ayə 107). Hamıya aydındır ki, yaradılmışların ən üstünü insandır. Allah ona ağıl verməklə digər yaradılmışlardan fərqlənmişdir ki, "ondan başqa heç kimə ibadət etməsinlər" (Zariyat surəsi. Ayə 56). Aləmlərin əşrəfi olan sonuncu peyğəmbər, Allahı ilk taniyandır deyə Qurani – Kərim onun qəlbinə nazil olmuşdur. Deməli dünyanın qəlbi peyğəmbərdir. Əgər o olmasaydı aləm yaranmazdı. Bununlada Yasindən məqsəd peyğəmbər olması mümkündür. (doğrusunu Allah bilir).

**Yasin surəsinin mövzuları**

Yasinin surəsi bir çox mövzulardan söhbət aşır. O cümlədən:

1)Məad.
2)Allahtanıma.
3)Peyğəmbərlər.
4)Kafirlər - Müşriklər.
5)Cənnətlilər– cəhənnəmlilər.
6)Qidalar.
7)Hər şeyin cüt yaranması.
8)Gəmi və digər minik vasitələri.

9)Heyvanlar.
10)Qiyamət.
11)Haqqa dəvət.
12)İlahi rəhbərlik.
13)Hər şeyin Allah qüvvəsində olması.
14)Hamının Allaha tərəf qayıtması və s... .

**Yasin surəsi on dörd məsumun xatirəsi**

İslamın böyük alimlərindən olan Ayətullah Seyyid Əbdulkərim Kəşmiridən sual soruşurlar ki, nəyə görə Yasin Quranın qəlbi sayılır? Alim buyurdu: "On dörd məsumun xatirinə" . Cünki biz Yasin deyərkən, təzim edərək "sallallahu ələyhi və əlih" (Allahın salam və salavatı olsun peyğəmbərə və onun əhli – beytinə) deyirik. Ona görədə bu surə on dörd məsumla əlaqəlidir. Necə ki, biz peyğəmbər adını eşidərkən, tək peyğəmbərə deyil, həm də onun əhli – beytinə salavat deyib, yad edirik. Yenədə sual soruşdular ki, bəs Yasinin qəlbi nədir? Buyurdu: "Yasin surəsinin 58 – ci ayəsi" . "Cənnət əhlinə rəhimli Allahdan salam deyiləcək ".[1] Bu ayəni bir az izah etmək üçün, Saffat surəsinin 130 – cu ayəsinə baxsaq, Allahın peyğəmbər ailəsinə salam göndərməsini görərik. Deməli Yasin surəsinin 1 və 58 – ci ayəsi, Saffat surəsinin 130 – cu ayəsi Əhli – beytə də aid olmasını anlamaq olar. [2]

1 Yaxşıların isığı. Səhifə 91.
2 Pişavər gecələri. Cild 1.

**Qeyd**

1)Saffat surəsinin 130 – cu ayəsində qeyd edilən "ali yasin" kəlməsi barədər digər fikir də bidur ki, məqsəd "İlyas"-dır.

2)Hədislədə ayələr haqqında qeyd edilən istək və duaların qəbul olunması üçün, yalnız ayələri oxumaq kifayət deyil. İstəklərin yerinə yetməsi üçün, əməl və etiqadın düzgün olması önəmli şərtlərdəndir. Bu ayələr günahların bağışlanmasına, ruzinin artmasına, duaların qəbul olmasına bir vasitədir. Yəni bu ayəni oxuyub sonra günah etməklə, bu istək yerinə yetməz.

**Yasin surəsinin səksən üç əlacı**

Yasin surəsininin 83 ayəsi vardır. Bu ayələrdə bir çox xüsusiyyətlər vardır. Yaxşı olar ki, bu xüsusiyyətlərlə tanış olaq və onları öz həyatımızda çətinliklərimizin həlli üçün istifadə edək.

1 – ci ayəsinin xeyri: Günahların bağışlanması və şəfaət üçün, 141 dəfə Yasin de.

2 – ci ayəsinin xeyri: Nemətin bol olması üçün, ayəni hər gün 100 dəfə de.

3 –cü ayənin xeyri: Dəli və epileprsiya xəstəsinin sağalması üçün, ayəni xəstəyə 131 dəfə oxu və pilə.

4 – cü ayənin xeyri: Allahın dostu və sevimlisi olmaq istəyən, sübh namazından sonda bu ayəni 100 dəfə oxusun.

5 – ci ayənin xeyri: Padşahlara təsir etmək istəyən, 40 gün subh namazından sonra bu ayəni oxusun.

6 – cı ayənin xeyri: Düşmənin şərrindən amanda qalmaq üçün, bu ayəni üstündə saxlasın.

7 – ci ayənin xeyri: Tək qalanda qorxan, bu ayəni 100 dəfə oxusun.

8 – ci ayənin xeyri: Nəyəsə hakim kəsilmək istəyən, bu ayəni üzüyünə yazdırsın.

9 – cu ayənin xeyri: Xəstəlikdən uzaq olmaq istəsən, bu ayəni ağ istiota oxusun və oda atsın.
10 – cu ayənin xeyri: Nəyəsə qələbə çalmaq üçün, göyərçinin lələyinə bu ayəni oxuyub qəbirstanlıqda basdırsın.
11 – ci ayənin xeyri: Dil bağlamaq üçün bu ayəni köhnə qəbir torpağına oxuyub, palçıq etsin.
12 – ci ayənin xeyri: Hakimlərin gözündə uca olmaq üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
13 – cü ayənin xeyri: Bəxt açmaq üçün, bu ayəni kağıza yazıb gülabla yuyub için.
(14 – cü ayənin xeyri barədə məlumat əldə edə bilmədim)
15 – ci ayənin xeyri: Ekzema və çiçək xəstəliklərindən sağalmaq üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
16 – cı ayənin xeyri: Xəstəliklərinin əlacı üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
17 – ci ayənin xeyri: Düşmənçiliyin yox olması üçün, bu ayəni yazıb üstündə saxlasın.
18 – ci ayənin xeyri: İnsanı yaxud heyvanı sakitləşdirmək üçün, bu ayəni sarı rəngli kağıza yazıb ona bağlasın.
19 – cu ayənin xeyri: Doğum çətinliyi olarsa, bu ayəni gülabla yazıb yusun və içsin.
20 və 21 - ci ayələrin xeyri: Oğlan uşağı olmayan bir şəxs bu ayəni müşk və zəfəranla yazıb, üstündə saxlasın.
22 – ci ayənin xeyri: Hansısa qadının şərrindən amanda qalmaq üçün, qadının adını yazmaq şərti ilə ayəni yazıb, üstündə saxlasın.
23 – cü ayənin xeyri: Hər hansı bir xəstəlikdən amanda qalmaq üçün bu ayəni yazıb, suya atmaq və üç gün suyunu içsin.

24 – cü ayənin xeyri: Qadınları çilədən qurtarmaq üçün bu ayəni yazıb, yusun və həmin o su ilə qadın özünə qusl versin.
25 – ci ayənin xeyri: Qızmanın aradan qaldırılması üçün, bu ayəni bir sapa oxuyub və boyuna bağlasın.
26 – cı ayənin xeyri: Əlacsızlıq və çarəsizlikdən qurtulmaq üçün, bu ayəni yazıb ayağının oynağına bağlasın.
27 – ci ayənin xeyri: Qarın və ğöbək ağrısının həlli üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
28 – ci ayənin xeyri: Qəbzin olmaması üçün, bu ayəni yazıb evin banına qoysun.
29 – ci ayənin xeyri: Uşaq yuxusuzdursa bu ayəni yazıb, yastıqın yaxud döşəyin altına qoysun.
30 –cu ayənin xeyri: Xəstəliklərin zərərindən amanda qalmaq üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
31 – ci ayənin xeyri: Qələbə çalmaq üçün, bu ayəni yazıb üstündə saxlasın.
32 – ci ayənin xeyri: Cinvurmadan amanda qalmaq üçün, bu ayəni yazıb üstündə saxlasın.
33 – cü ayənin xeyri: Cüzam və çiçək xəstəliyindən amanda qalmaq üçün, bu ayəni müşk və zəfəranla yazıb üstündə saxlasın.
34 və 35 – ci ayələrin xeyri: Dil açmaq üçün, bu ayəni yazıb ağır daşın altına qoysun.
36 – cı ayənin xeyri: Qəbr sıxıntısından amanda qalmaq üçün, bu ayəni meyidin kəfəninə yazılsın.
37 – ci ayənin xeyri: Gizlində olan zərərlərdən amanda qalmaq üçün, bu ayəni hər gün 30 dəfə oxusun.
38 – ci ayənin xeyri: Düşmənin xar olması üçün, bu ayəni onun qarşısında oxusun.
39 – cu ayənin xeyri: Dəliliyin uzaqlaşması üçün, bu ayəni yazıb onun boynunda as.

40 – cı ayənin xeyri: Hacətlərin qəbulu üçün, bu ayəni cümə axşamı günü 7 dəfə oxuyun.
41 – ci ayənin xeyri: Sirat körpüsündən rahat keçmək üçün, bu ayəni cox oxusun.
42 – ci ayənin xeyri: Peyğəmbəri yuxuda görmək üçün bu ayəni 3 gün ardıcıl olaraq və çarpayıda oxumamaq şərti ilə, 30 dəfə oxusun.
43 – cü ayənin xeyri: İmanlı halda ölmək üçün, bu ayəni hər gün 100 dəfə oxusun.
44 – cü ayənin xeyri: Cənnət əhli olmaq və düzgün şəxs olmaq üçün, bu ayəni çox oxusun.
45 –ci ayənin xeyri: İşlərdə səlahiyyətə malik olmaq istəyən, bu ayəni çox oxusun.
46 – cı ayənin xeyri: Başqalarına möhtac olmamaq üçün bu ayəni çox oxusun.
47 – ci ayənin xeyri: Qəbr sualının asan olması üçün, bu ayəni çox oxusun.
48 – ci ayənin xeyri: Boğulmaqdan amanda qalmaq üçün, bu ayəni yazıb üstündə saxlasın.
49 – cu ayəsinin xeyri: Daşqalaq olumaqdan amanda qalmaq üçün, bu ayəni yazıb üstündə saxlasın.
50 – ci ayənin xeyri: Təəccüblü sirləri kəşf etmək üçün, bu ayəni çox oxusun.
51 – ci ayənin xeyri: Murada çatmaq üçün, bu ayəni 7 dəfə salavat deyib oxusun.
52 – ci ayənin xeyri: Kiminsə sənə qarşı pis söz deməməsi üçün və dilini bağlamaq istəsən, bu ayəni oda oxu.
53 – cü ayənin xeyri: Düşmənin şərrindən amanda qalmaq üçün bu ayəni çox oxu.

54 – cü ayənin xeyri: Ədalətli olmaq istəyən, bu ayəni çox oxusun.
55 – ci ayənin xeyri: Zəhərli həşəratlardan amanda qalmaq üçün, bu ayəni dördkünc yazıb üstündə saxlasın.
56 – ci ayənin xeyri: Zalimlərə möhtac olmamaq üçün, bu ayəni üstündə saxlasın.
57 – ci ayənin xeyri: Uzun ömürlü və bərəkətli ruziyə nail olmaq istəyən, bu ayəni üstündə saxlasın.
58 – ayənin xeyri: Şəhid savabını əldə etmək yəni şəhid olmaq istəyən və uzun ömürlü olmaq istəyən bu ayəni 15 ardıcıl çərşənbə olmaq şərti ilə 818 dəfə, hər hansı bir istəyinə nail olmaq istəəyən isə, bu ayəni dəstəmazlı halda 1479 dəfə oxusun.
59 – cu ayənin xeyri: Bu ayəni tez – tez oxumaq, min dəfə Quran oxumaqa bərabərdir.
60 – cı ayənin xeyri: Camaatın gözündə sevimli olmaq istəyən, bu ayəni dördkünc yazıb üstündə saxlasın.
61 – ci ayənin xeyri: Bu ayəni oxuyan şəxsdən, həmyaşıdları çəkinər və hörmət edər.
62 – ci ayənin xeyri: Cənnət əhli və düzgün şəxs olmaq üçün bu ayəni oxusun.
63 – cü ayənin xeyri: Hər kim bu ayəni kəfə ninə yazdırsa, qəbr qaranlıqından və əzabından amanda qalar.
64 – cü ayənin xeyri: Hər kim bu ayəni oxusa, dünya ziyanlarından amanda qalar.
65 – ci ayənin xeyri: Bu ayəni oxuyan, qanlı ishal xəstəliyindən (diareya) amanda qalar.
66 – cı ayənin xeyri: Sinə ağrısı olan şəxs olan, bu ayəni üstündə saxlasın.
67 – ci ayənin xeyri: Şeytan vəsvəsəsindən uzaq olmaq üçün, hər gün 3 dəfə bu ayəni oxusun.

68 – ci ayənin xeyri: Hər səhər bu ayəni oxuyan şəxs, kasıbçılıqdan amanda qalar.
69 – cu ayənin xeyri: Hər gün 70 dəfə oxuyub və hər oxuyanda əlini gözünə çəkən, göz ağrısından uzaq olar.
70 – ci ayənin xeyri: Sidik kisəsində olan daşların məhv olması üçün, bu ayəni müşk və zəfəranla yazıb suyunu içsin.
71 – ayənin xeyri: Bu ayəni üç dəfə yazıb və suyunu içən, vərəm xəstəliyindən amanda qalar.
72 – ci ayənin xeyri: Heyvanların və qadınların südünün artımı üçün, bu ayəni yazıb boyunlarından assınlar.
73 – cü ayənin xeyri: Uşaq ağlamasının qarşısını almaq üçün, bu ayəni yazıb uşağın boynundan assınlar.
74 – cü ayənin xeyri: Cüzam və sifilis xəstəliyinə düçar olan şəxsə, bu ayəni bir qaba yazıb suyunu həmin xəstəyə çəksinlər.
75 – ci ayənin xeyri: Meyyitin kəfəninə bu ayə yazılarsa, qəbr əzabından uzaq olar.
76 – cı ayənin xeyri: Övlad arzusunda olanlar bu ayəni ceyran dərisinə dördkünc formada yazıb, özündə saxlasın.
77 – ci ayənin xeyri: Tez – tez özündən gedən şəxsin əlacı üçün bu ayəni bir kətan parçasına yazıb, üstündə saxlasın.
78 – ci ayənin xeyri: Huşdan getmiş adamı özünə gəlməsi üçün, bu ayəni 70 dəfə oxuyub onun üstündə saxlanılsın.
79 – cu ayənin xeyri: Göz yarasından uzaq olmaq üçün, bu ayəni yazıb üstündə saxlasın.
80 – cı ayənin xeyri: Düşməndən amanda qalmaq üçün bu ayəni bir daş parçasına yazıb suya atsın.
81 – ci ayənin xeyri: Düşməndən gizlənmək üçün yol gedən vaxtı bu ayəni oxusun, düşmən onu görməz.
82 – ci ayənin xeyri: Qızıl yel xəstəliyinin müalicəsi üçün, bu ayəni kağıza yazıb qarnına bağlasınlar.

83 – cü ayənin xeyri: İstək və diləklərin qəbulu üçün, bu ayəni oxuyun.

**Yasin surəsini oxumağın on xeyri**

Həzrəti Muhəmməd (s) buyurmuşdur: ” Ya Əli, Yasin surəsini oxu ki, onda on bərəkər  vardır”.

1)Ac adam tox olar.
2)Xəstə şəfa tapar.
3)Susuz sirab olar.
4)Məhbus azadlığa çıxar.
5)Libassız örtülər.
6)Musafir köməksiz qalmaz.
7)Sübay ailə qurar.
8)Olüm asan olar.
9)Qorxaq amanda qalar.
10)İtmiş mal tapılar. [1]

**Ölümü asanlaşdıran yeddi amil**

1)Yasin surəsini oxumaq.
2)Valideynə yaxşılıq.
3)Əlini (ə) və ailəsini sevmək.
4)Ramazan ayının orucunu tutmaq.
5)Mömin qardaşına xeyir vermək.
6)Qohumlara baş cəkmək.
7)Kasıba libas vermək.

**Novruz  günü və yeddi ayə**

Hər hansı bir insan Novruz bayramı günündə bu yeddi ayəni çin kasasına müşk və zəfəranla yazarsa, yuyub və içərsə  gələn

---

1 Səfinə cild 1. Səhifə 418. Bəharul ənvar. Cild 81. Səhifə 239.

il Novruza qədər xəstəlik, çətinlik və zəhmətlərdən Allah onu qoruyar. O yeddi hər biri  “Salamla” başlayır. Yeddi ayələr bunlardır :
1)“Dünyada Allah yolunda bütün çətinliklərə səbr etdiyinzə görə, sizə salam olsun.Cənnət yurdu nə gözəl yerdir“ . (Ərrad surəsi. Ayə 24)
2)“Rəhimli Rəbbdən onlara salam deyiləcəkdir“ . (Yasin surəsi. Ayə 58)
3)“Bütün aləmlər içərisində Nuha salam olsun“ . (Saffat surəsi. Ayə 79)
4)“İbrahimə Salam olsun“ .(Saffat surəsi. Ayə 109)
5)“Musa və Haruna salam olsun“ . (Saffat  surəsi. Ayə 120)
6)“Ali yasinə salam olsun“ . (Saffat surəsi. Ayə 130)
7)“Rəbbindən qorxanlar cənnətə gətiriləcəklər. Cənnət gözətçiləri sizə salam olsun və abədi qalacağınız cənnətə daxil olun deyəcəklər“ . (Əzzumər surəsi. Ayə 73) [1]

**Yasin surəsinin yeddi növ xətmi**

**Yasin surəsinin birinci xətmi**

Bu xətm cümə günündən başlayar və hər gün üç dəfə oxunar. Cümə axşamı gününə qədər oxunur. Düşməni susdurmaq üçün çərşənbə  axşamı günü, izzət və şərəf tapmaq üçün bazar ertəsi günü, ruzi artımı üçün cümə axşamı günü oxumaq gərərkdir. Şəban ayının on beşi (İmam Zamanın ə.f. mövlud günü) üç dəfə Yasin oxusun. Birinci dəfədə oxuyarkən ömrünün uzanmasına, ikinci dəfə oxuyarkən bəlalardan uzaq olmağına, üçüncü dəfə oxuyarkən Allahdan vəzifəsinə əməl etməyə bacarıq tapar.

**Yasin surəsinin ikinci xətmi**

1 Xəzanətul muzəkkirin.

Bir məclisdə 21 dəfə oxusun.

**Yasin surəsinin üçüncü xətmi**

Cümə günü üzü qibləyə dəstəmazlı halda oturub,100 dəfə salavat deyib, Yasini oxusun. On ikinci ayəni, qırxıncı ayəni və əlli səkkizinci ayəni bitirəndən sonra.  Bu üç yerdə Allahdan öz istədiyini diləsin. Bu ayələrə yetişərkən, hər üç ayəni otuz dörd dəfə  təkrar oxusun. Surəni bitirdikdən sonra, bu duanı oxusun:

سُبْحَانَ الْمُفَرِّحُ عَنْ كُلِّ مَحْزُونٍ. سُبْحَانَ الْمُخَلِّصُ عَنْ كُلِّ مَسْبُوحٍ. سُبْحَانَ الْمُنَفِّسُ عَنْ كُلِّ مَدْيُونٍ. سُبْحَانَ الْعَالِمُ عَنْ كُلِّ مَكْنُونٍ. سُبْحَانَ مَنْ جَعَلَ خَزَائِنُهُ بَيْنَ الْكَافِ وَ النُّونِ. سُبْحَانَ مَنْ اِذَا اَرَادَ شَيْئاً اَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ. فَسُبْحَانَ الَّذي بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَ اِلَيْهِ تُرْجَعُونَ.

“Subhanəl mufərrihu ən kulli məhzun. Subhanəl muxallisu ən kulli məsbuh. Subhanəl munəfffisu ən kulli mədyun. Subhanəl alimu ən kulli məknun. Subhanə mən cəələ xazəinuhu bəynəl kafi vənnun. Subhanə mən iza əradə şəyən ən yəqulə ləhu kun fəyəkun. Fəsubhanəlləzi biyədihi mələkutu kulli şəyin və iləyhi turcəun” .

Sonra desin:

اَللَّهُمَّ اِفْتَحْ لِى اَبْوِابَ رَحْمَتِكَ وَ اَبْوَابَ خَزَائِنُكَ بِحَقِّ سُورَةِ يسٍ و تَفَضُّلُكَ وكَرَمُكَ يَا اَرْحَمَ الرَّاحِمِين.

“Allahummə iftəh li əbvabə rahmətikə və əbvabə xazəinukə bihəqqi surati yəsin və təfəzzulukə və karəmukə yə ərhəmər – rahimin” .

Sonra isə 101 dəfə desin:

يَا مُفَرِّجَ اللَّهُمَّ فَرِّجْ.

“ “Ya mufərricəllahummə fərric” (Ey tezləşdirən! Allahım tezləşdir)

**Yasin surəsinin dördüncü xətmi**

Dini istəklərin tələbi üçün Yasin surəsini öncə Həzrəti Muhəmmədə (s), sonra İmam Əliyə (ə), sonra Xanım Fatimeyi Zəhraya (s.ə), sonra İmam Həsənə (ə), sonra İmam Hüseynə (ə) hədiyyə etsin. Sonra desin: ”İlahi, bu beş məsumu diləyimin qəbulu üçün vasitə gətirdim. Onların xatirinə diləklərimi qəbul et”.

**Yasin surəsinin beşinci xətmi**
Yasin surəsini oxusun və əlli səkkizinci ayəni (sələmun qavləm mirrabbir – rahim) yetmiş dəfə təkrar etsin.
**Yasin surəsinin altıncı xətmi**

Müalicə vaxtı Yasini diqqətlə oxusun və on ikinci ayəni (innəə nəhnu nuhyil məvtə və nəktubu məə qaddəmuu və əəsəərahum və kullə şəyin əhsaynəəhu fii iməmim – mubiin) oxuyandan sonra, öz istəklərini Allahdan diləsin.

**Yasin surəsinin yeddinci xətmi**
Hər kim yasin surəsini yazsa və yusa, bal ilə içsin. Bəla və ağrılardan Amanda qalar. [1]

**Yasin surəsinin başqa bir xətmi**
Ramazan ayının ilk cümə axşamı günündən başlayaraq, iki rükət hacət namazı qılsın. Hər rükətdə Fatihə, ayətəl – kursi və üç dəfə isə ixlas surəsini oxusun. Namazdan sonra Bismillah deyib, 730 dəfə desin:
لا اِلَهَ اَلاَّ أَنْتَ سُبْحَانَكَ اِنِّى كُنْتُ مِنَ الظَّالِمِين.
(Ənbiya surəsi. Ayə 87)

---

1 Yasinin eşidilmələri. Səhifə 72.

“La ilahə illa ənt. Subhanəkə inni kuntu minəzzalimiin” . (Səndən başqa məbud yoxdur. Sən paksan. Mən özümə zülm etdim)

**Qeyd**: Bu cümlə “Yunusiyyə” zikri adlanır. Yunus (ə) balığın qarnında olarkən, bu dua vasitəsi ilə oradan xilas olmuşdur. (Saffat surəsinin 140 – cı ayəsindən 146 – cı ayəsinə müraciət edin)

Sonra isə Yasin surəsinin on ikinci ayəsinə qədər oxusun, sonra sağ əllərinin barmağlarını bağlayıb, istəklərini dilə gətirsin və desin: “İlahi, Yasin surəsinin xatirinə bu istəklərimi qəbul et” . Sonra on ikinci ayəni oxusun. Sonra əlini açaraq, ayələrdə hər “mubin” (mənası: aşkar) kəlməsinə yetişərkən yuxarıdakı qayda ilə etsin. Yasin surəsində olan sonuncu “mubin” kəlməsinə çatarkən, barmaqlarını yumub, yeddi dəfə Fatihə surəsini oxusun. Sonra otuz dəfə desin:

اَللّٰهُمَّ فَرِّجْ يَا مُفَرِّجَ الْمُحْسِنِين.

“Allahummə fərric ya mufərricəl muhsinin”. (Tezləşdir, ey ehsan edənlərin tezləşdirəni)

Sonda Yasin surəsini yenidən adi halda oxusun. Qırx gün belə davam edərsə, dilәkləri qəbul olunar.[1]

**Qeyd:** Yasin surəsində yeddi yerdə “mubin” (aşkar) kəlməsi vardır. Bu ayələr 12, 17, 24, 47, 60, 69 və 77 – ci ayələrdə yerləşir.

## Həftə boyu olan xətmlər

Bazar ertəsi: Vaqiə surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.

Çərşənbə axşamı: Ərrahmən surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.

---

1 Quran evinin şəfası.

Çərşənbə: Cinn surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.
Cümə axşamı: Mulk surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.
Cümə: Səcdə surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.
Şənbə günü: Fəth surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.
Bazar günü: Yasin surəsini on dörd dəfə oxuyun və məsumlara hədiyyə edin.
Dualarınız qəbul olunması üçün, ömrünüz boyu heç olmasa bunu bir dəfə bunu edin. [1]

**Quranda dörd ayənin xətmi sifarişi**

Düşmənlərin pis danışıqlarının qarşısını almaq, duaların qəbulunu, insanlardan tərəfindən sevilməsini istəyən, 3333 dəfə dörd ayəni oxusun.
1)Yasin surəsinin bir və ikinci ayələrini.
2)Sad surəsini birinci ayəsini.
3)Qaf surəsinin birinci ayəsini.
4)Qələm surəsinin birinci ayəsini.
Mənbə: Yasinin eşidilmələri. Səhifə 76

**Qurani – Kərimdə təəccüblü xətm**

Ayın ilk cümə günü qırx cümə ardıcıl olaraq, namaz qılsın. İlk öncə istəklərinin qəbulu üçün, iki rükət namaz qılsın. Hər rükətdə Həmddən sonra bir dəfə Ayətəl – Kursi (Bəqərə surəsinin 255 – 256 - 257 ci ayələri) , sonra isə üç dəfə İxlas (tovhid) surəsini oxusun. Namazdan sonra 41 dəfə bu zikri desin:

---

1 Quranla dərman. Səhifə 125.

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيم. لا اِلَهَ اَلاَّ أَنْتَ سُبْحَانَكَ اِنِّى كُنْتُ مِنَ الظَّالِمِين.

"Bismilləhir – rahmənir – rahim. La ilahə illa əntə subhanəkə inni kuntu minəzzalimin". (Ənbiya surəsi. Ayə 87) Sonra isə Yasin surəsini oxusun. "mubin" kəlməsinə çatdıqda, saq əlinin barmaqlarını bağlasın. O biri ayələri oxuyarkən barmaqlarını açsın, yenə "mubin" kəlməsinə çatarkən barmaqlarını yumsun. O vaxta qədər ki, yeddi "mubin" kəlməsini oxuyub, əməl etsin. Yasin surəsini bitirdikdən sonra desin:

اَللَّهُمَّ فَرِّجْ يَا مَفَرِّجَ الْمِحْسِنِين.

"Allahummə fərric ya mufərricəl muhsinin". (Tezləşdir, ey ehsan edənlərin tezləşdirəni)

Sonra isə Yasini adi formada oxusun. Qırx gün bu işi davam etsin. Mərhum Molla Muhsin Feyz demişdir: "Bu əməlin şərti budur ki, İmam Əlinin (ə) eşqi ilə oxusun. Qəbul olunar" . [1]

**Əlli səkkizinci ayəsinin xüsusiyyətləri:**

1)Hər kim bu ayəni 72 dəfə oxusa, bütün qəm – qüssədən uzaq olar və tezliklə işlərində asanlıq əldə olunar. [2]

2)Hər kim bu ayəni gün ərzində 818 dəfə oxusa, rahatlıq tapması üçün əlverilşlidir. Bir şərtlə ki, cərşənbə günü başlasın. Bu işi on beş gün davam etdin. [3]

3)Hər kim bu ayəni 70 dəfə oxusa, duaları qəbul olunar.[1]

---

1 Camiul əhadis.

43 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.
44 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.
45 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.
46 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.
47 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.
48 Yasin haqqinda eşidilməlilər. Səhifə: 98-99-110-111.

**Yasin surəsinin oxumağın fəziləti**

Hər kim şənbə günündən başlayaraq cümə gününə qədər hər gün bir dəfə Yasin surəsini oxusa və İmam Musa Kazimə (ə) hədiyyə etsə, duaları qəbul olunar. [2]

Hər kim cümə axşamından başlayaraq üç gün iki rükət namaz qılıb sonra Yasin surəsini oxusa, Allah onun ruzisini artırar.[3]

Hər kim Yasin surəsini yazsa yusa və suyunu içsə, onun daxilində xəstəliklər bitər, ruzisi artar, rəhmət qapıları üzünə açılar. [4]

Hər kim bu dörd ayəni oxusa, (Yasin surəsinin bir və ikinci ayələri, Sad surəsini  birinci ayəsi, Qaf surəsinin birinci ayəsi, Qələm surəsinin birinci ayəsi) ona qarşı pis və xoşagəlməz danışanların daha danışmamalarına səbəb olar. [5]

Hər kim Yasin surəsini müşk və zəfəranla yeddi dəfə yazıb sonra yusa və ardıcıl olaraq ondan yeddi gün içsə, yüksək hazfizəyə malik olar. Əgər hər hansı bir mövzuda kimləsə bəhs etsə, qalib olar. Həmçinin hər kim Həşr surəsini yazıb yusa və suyunu içsə, yüksək hafizəyə malik olar.[6]

Hər kim Yasin sözünü hər gün 142 dəfə desə, günahların bağışlanmasına səbəb olar.

Hər kim Yasin surəsinin 61 – ci ayəsini hər gün yeddi dəfə oxusa və hər nə qədər bu işi davam etsə, qorxudan amanda qalar. [7]

---

6 Əsrarul Quran.
7 Yasin haqqında eşidilmələlər. Səhifə 102 – 108.

Hər kim Yasin və Saffat surələrini Cümə günündə oxuyub Allahdan dilək diləsə, Allah onun dualarını qəbul edər.
Hər kim Yasin surəsini Şəban ayının əvvəli, ortası və sonunda oxusa, bir il müddətində Allah onu öz amanında saxlar.
Hər kim Yasin surəsini Cümə axşamı günü oxusa, Allah onun günahlarını bağışlayar. [1]

**Yasin surəsinin xüsusiyyətləri**

Allah – taala Adəm peyğəmbəri yaratmamışdan öncə, Yasin və Taha surəsini oxudu.[2]
Yasin surəsi Cənnət surələrindəndir. Allah – taalla aləmi yaratmamışdan 2000 il əvvəl Yasin və Taha yaranmışdır. [3]
Yasin və Taha surəsi Cənnət əhlinə məxsusdur. Başqa sözlə desək, Cənnət əhli yalnız Yasin və Taha surələrini oxuyarlar.[4]
İslam peyğəmbəri (s) buyurmuşdur: "Hər kim cümə günü ata ya anasının qəbrini ziyarət etsə və onların qəbri üstə Yasin surəsini oxusa, Allah – taala Yasin surəsinin hərflərinin sayı miqdarında onun günahlarını bağışlayar".[5]
Peyğəmbər (s) belə buyurmuşdur: "Yasin surəsi, onu oxuyan şəxsə qiyamətdə şəfaət edəcək" . [6]
Peyğəmbər (s) yenə buyurmuşdur: "Cox sevirəm ki, mənim ümmətimdən hər birinin qəlbində Yasin surəsi həkk olsun".[7]
İslam peyğəmbəri buyurmuşdur: "Hər kim Yasini Allah xatirinə oxusa, Allah günahlarını bağışlayar və Qurani – Kərimi on iki dəfə xətm etmə savabını ona verər. Can verən şəxsin yanında Yasin oxunarsa, surənin hərflərinin sayı

---

1 Bəharul ənvar. Cild 89. Səhifə 313.
2 Yasin haqqında eşidilməlilər. Səhifə 102,108.
3 Yasin haqqında eşidilməlilər. Səhifə 102,108.
4 Yasin haqqında eşidilməlilər. Səhifə 102,108.
5 Bəharul ənvar. Cild 89. Səhifə 293.
6 Təfsiri kəşşaf. Cild 4. Səhifə 32.
7 Bəharul ənvar. Cild 89. Səhifə 291.

miqdarında mələklər nazil olar və can verən şəxs üçün salavat söyləyərlər. Onun üçün Allahdan bağışlanmaq dilərlər. Onu yuyarkən, cənazəsini aparararkən və qəbrə qoyarkən mələklər orada olarlar. Onu cənnətə daxil edərək, cənnət suyu ilə sirab edərlər ” .[1]

## Bir ömür boyu bir dəfə Yasin

İmam Baqir (ə) buyurmuşdur: “Kim ömrü boyu bir dəfə Yasin surəsini oxusa, Allah dünyada, axirətdə və asimanda yaratdıqlarının sayının iki min bərabəri qədər ona savab və mükafat verər” . Həmin miqdar günahlarından azalar, dəlilik və bədbəxtlik görməz, kasıb olmaz, evi viran qalmaz, cuzam və digər xəstəliklərə dücar olmaz, ölümü asanlaşdırar, ölüm vaxtı şad olması, axirətdə sevinc içində olar. Allah bütün yer və göy mələklərinə belə xitab edər: “Mən, bu bəndəmdən razıyam. Siz onun bağışlanması üçün dua edin” .[2]

## Nəticə

Yasin surəsi xeyir-bərəkətlərlə doludur. Mənəvi xeyir-bərəkətlər bizi Allaha yaxınlaşdırır. Buna görə də, bu mübarək surənin əzəmətini anlamaqdan qafil olmamaq lazımdır. İmam Sadiq (ə) buyurmuşdur: “Hər kim Yasin surəsini gün batan vaxta qədər oxusa, ömrü boyu bəlalardan amanda qalar və ruzisi bol olar. Əgər yatmadan öncə oxusa, Allah onu hər bəla və şeytandan qorumaq üçün, min mələk ğöndərər” . [3]

Hər kim Yasin surəsini gecə yaxud gündüz oxusa, günah etməməsi üçün Allah ona yardım edər. [4]

---

1 Xətmlər və zikrlər. Cild 1. Səhifə 152.
2 Vəsailuş şiə. Cild 6. Səhifə 248.
3 Məcməul bəyan.
4 Bəharul ənvar. Cild 82. Səhifə 63.

Hər kim Yasin surəsini qəbrstanlıqda oxusa, Allah qəbirstanlıq əhlinin əzabını yüngülləşdirər və ona qəbirstanlıqdakıların sayı qədər savab verər. [1]
Hər kim Yasin surəsini oxusa, iyirmi dəfə həccdə olanların savabını verər və hər kim eşitsə, Allah yolunda iyirmi min dinar sədəqə verən şəxsə bərabərdir. [2]
Hər kim Yasin surəsini yazsa və suyunu içsə ona min nur, min yəqin, min bərəkət, min hikmət, min rəhmət və min dərəcə yazar və ondan min pisliyi uzaqlaşdırar. [3]
Hər kim Yasin surəsini yazsa və bağda ağacdan asarsa, bağın ruzisi artar.[4]
İmam Muhəmməd Baqir (ə) buyurmuşdur: "Hər kim Yasin surəsini zəfəranla bir qaba yazarsa, sonra su ilə qabi yuyub suyunu içsə, qəlbində olan qəsavəti yox olar". [5]
Hər kim Yasin surəsini oxusa, həccdə olmağa bərabərdir. Hər kim Yasin surəsini eşidərsə, Allah yolunda min şəxsə sədəqə verən kimidir. Onu kim yazsa, yusa və içsə min dəva, min bərəkət, min rəhmət ona verilər. Kimin dərd və narahatlığı varsa, ondan uzaqlaşar. Hansısa qadının südü az olsa, onu içsin südü çoxalar. Hər kim onu özü ilə gəzdirərsə pis gözdən, cinndən amanda qalar və yaxşı yuxular görər.[6]
Bir nəfəf İmam Əliyə (ə) dedi: Bir əşya itərsə və yaxud bir şəxsdən xəbər çıxmasa, nə etmək lazımdır? İmam Əli (ə) buyurdu: "İki rükət namaz qıl. Hər rükətdə həmddən sonra Yasin surəsini oxu. Sonra de: "Ya hadiyəz – zallətu ruddə ələyyə zalləti". (Ey azmışları hidayət edən, yolundan çıxdığımı

1 Yasin haqqında eşidilməlilər. Səhifə 42 – 43.
2 Yasin haqqında eşidilməlilər. Səhifə 42 – 43.
3 Yasin haqqında eşidilməlilər. Səhifə 42 – 43.
4 Yasin haqqında eşidilməlilər. Səhifə 42 – 43.
5 Bəsair. Cild 33. Səhifə 608.
6 Xutum və əzkar. Cild 1. Səhifə 152.

mənə qaytar) Həmin şəxs deyir: Mən İmam buyurduğu kimi etdim. Bir müddət sonra itirdiyimi tapdım.[1]

Salman Farsi belə buyurmuşdur: “On gün ardıcıl olaraq heç kimlə danışmadan sübh namazından sonra on dəfə bu duanı, sonra Yasin surəsini oxu. Sonra isə Allahdan istəklərini dilə. Çünki Allahın ismi - əzəmi bu duadadır”.

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيم. يَا قَدِيمُ يَا دَائِمُ يَا حَیُّ يَا قَيُّوم. يَا فَرْدُ يَا وِتْرُ يَا وَاحِدُ يَا أَحَدُ. يا صَمَدُ يَا مَنْ لَمْ يَلِدْ وَ لَمْ يُولَدْ وَ لَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدْ. وَ صَلَّی اللهُ عَلَی مُحَمَّدٍ وَ أَلِهِ أَجْمَعِين. بِرَحْمَتِکَ يَا أرْحَمَ الرَّاحِمِين

“Bismillahir – rahmənir – rahim. Ya qadimu, ya daimu, ya həyyu, ya qayyum. Ya fərdu, ya vitru, ya vahidu, ya əhəd. Ya samadu, ya mən ləm yəlid və ləm yuləd və ləm yəkul – ləhu kufuvən əhəd“ . [2]

İmam Sadiq (ə) buyurmuşdur: “Hər kim yatmadan öncə Yasin surəsini oxusa, Allah min mələyi göndərər ki, onu şeytan şərrindən və oddan amanda saxlasınlar” .[3]

Yasin surəsini bir neçə yollarla oxumaq olar. Bir yolu budur ki, əvvəlcə üç dəfə salavat desin. Sonra üç dəfə İxlas surəsini oxusun. Bir dəfə də Ayətəl – Kursini oxusun. Sonra isə bu duanı oxusun:

“Bismillahir – rahmənir – rahim. Allahummə ya samadu mən indəkə məəzəə ələykə mutəmid. Ya nasiru ya muin. Bihəqqi iyyakə nəbudu və iyyakə nəstəin. İğsini əla kulli halin biquvvəti qudratik. Ya rahmənu ya rahim. Bihurməti yəsin və nəbiyyin muhəmmədin və alihit – tayyibinət – tahirinəl məsumin. Min ali taha və yasin. Vəlhəmdu lillahə rabbil aləmin” . Sonra Yasin surəsini oxusun. [4]

1 Bəharul ənvar. Cild 40. Səhifə 183.
2 Nurlu gecənin ğövhəri. Cild 2. Səhifə 18.
3 Bəharul ənvar. Cild 78. Səhifə 200.
4 Nurlu gecənin ğövhəri. Cild 2. Səhifə 81.

Cətinliklərini həll etmək istəyən, cümə gecəsi dörd rükət namaz qılsın. Namazın qılınma forması belədir:
Birinci rükətdə Həmd surəsindən sonra Yasin surəsini oxusun. Sonra rukuya getsin. Rukudan qalxanda yüz dəfə desin: “Və iza səələkə ibadi ənni fəinni qarib. Ucibi dəvətəd – dai iza dəan. İza dəani fəlyəstəcibu li vəl yuminu bi ləəlləhum yərşudun”. (Bəqərə surəsi. Ayə 186).
İkinci rükətdə Həmd surəsini iki dəfə, Yasin surəsini isə bir dəfə oxusun. Qunutu bitirəndən sonra rukuya getsin. Rukudan başıni qaldırandan sonra həmin ayəni (Bəqərə surəsi. Ayə 186) yüz dəfə oxusun. Səcdə etsin, üç dəfə təşəhhüdü oxusun. Amma salam demədən, ayağa qalxsın.
Üçüncü rükətdə Həmd surəsini üç dəfə, Yasin surəsini isə bir dəfə oxusun. Rukunu yerinə yetirsin. Rukudan sonra yüz dəfə desin: “Fəəsəfəkfikəhumullahu və huvəs – səmiul – əlim ” . (Bəqərə surəsi. Ayə 137)
Dördüncü rükətdə Həmd surəsini dörd dəfə, Yasin surəsini isə bir dəfə oxusun. Rukudan sonra desin: “Ya rabbi idfə ənnis – sadda və əntə ərhamur – rahimin” . Səcdələri, təşəhhüdü edib, salamlarla namazı bitirsin. Sonra alnını torpağa qoyub yüz dəfə “Əstəğfirullah” desin. Sonra sağ üzünü torpağa qoyub, yüz dəfə salavat desin. Sonra sol üzünü torpağa qoyub, desin: “İnnəma əmruhu iza əradə şəyən ən yəqulə ləhu kun fəyəkun”. (Yasin surəsi. Ayə 82). Sonra Allahdan istəklərini diləsin. Allah istəklərini verər.[1]

---

1 Bəharul ənvar, c. 89. səh. 321.

**İstifadə olunmuş mənbələr**

1) Yasinin təəccüblü xüsusiyyətləri. Muəllif: Əli Rüstəmi Çafi.

2) Quranın qəlbi. Muəllif: Şəhid Ayətullah Dəstğeyb.

3) Təfsir – numunə. Muəllif: Ayətullah Məkarim Şirazi.

4) Tur surəsinin təfsiri. Muəllif: Şəhid  Ayətullah Dəstğeyb.

# Quran baxışında imanın dini maarifləndirmədə rolu

**Rza Salmanov**[1]


## Xülasə

Ruhanilər Peyğəmbərimizin (s) ağır məsuliyyət tələb edən vəzifəsini davam etdirilər. İnsanları ilahi həyata, diriliyə sövq edirlər. Çünki pak etiqadın və saleh əməllərin cəmiyyətdə yayılması birbaşa onun fərdlərinin mənəvi dirçəlişinə və inkişafına xidmət göstərir. İmanın nurunda onlar hidayət olunurlar. O cümlədən; xurafatlardan uzaq durmaq, düzgün etiqada malik olmaq, rəhmli, mərhəmətli olmaq, güzəştə gedib, bağışlamaq, ehtiyaclı insanlara əl tutmaq, səbirli olmaq, elm və mənəviyyata üz gətirmək, vətəni sevmək, paklıq və təmizkarlıq, nəzm-intizam, ədalətli-insaflı olmaq, insanların hüquqlarına hörmətlə yanaşmaq, laqeyd qalmamaq, insanları sevmək, gözəlliyə dəyər vermək, qəlbləri sevindirmək və sair kimi yüzlərlə pak dəyərləri saymaq olar. Dinimiz daim bu dəyərlərə təkid edib, insanları ona doğru səsləyir. Əslində din və mənəviyyat dediyimiz məhz elə bunun kimi dəyərlərdir. Məhz belə ilahi dəyərlər insanı kamilləşdirir. İnsana həyat bəxş edir. Əsl insani həyat da, elə bu pak əməllərin nəticəsində əldə edilir. Bu barədə Qurani-kərimdə buyurulur: İslam dinini insanlara yaymaqla məşğul olan şəxs, uzaqgörən, geniş dünya görüşə malik və gələcək haqda perspektivlərə sahib olmalıdır .


---

1. İslam Araşdırmaları fakültəsinin məzunu, İslam Araşdırmaları institutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

Bunun üçün isə ilk növbədə təbliğlə məşğul olan ruhani əhatəli təhlil qüvvəsinə sahib olmalıdır. Qarşılaşdığı çətin məsələləri hərtərəfli düşünərək qərar verməlidir. Belə olmadığı təqdirdə, yanlış nəticələrlə qarşı-qarşıya qalması, məqam və şəxsiyyətinin zərbə görməsi qaçılmazdır. Ən acınacaqlı budur ki, doğru olmayan qərarlar və addımlarla ruhani təkcə özünə deyil, başqa ruhanilərə və dinə zərər vurur. Buna görə də, iman və əql ruhanini təkmilləşdirir.

**Açar sözlər:** İman, İnam, Saleh əməl, Dini maarifləndirmə, İslam, Elm, Təbliğ, Ruhani

## Giriş

İlk yaranışdan bəri instinktlə hərəkət edən canlılarda təhlükə və fayda zamanı bir-birilərinə anlatmaq formaları mövcud olmuşdur. İndi də çox zaman təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman başqa həmcinslərini ondan birlikdə faydalanmağa səslədiyini görürük. Bu təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir.

Qurani-kərimdə bu haqda müxtəlif işarələr mövcuddur. Belə ki, Süleyman peyğəmbər öz qoşunu ilə keçdiyi zaman, qarışqalardan biri o birilərini yuvalarına çəkilməyə səsləyir ki, qoşunun tapdağı altında əzilməsinlər.

حَتَّى إِذا أَتَوْا عَلى وادِ النَّمْلِ قالَتْ نَمْلَةٌ يا أَيُّهَا النَّمْلُ ادْخُلُوا مَساكِنَكُمْ لا يَحْطِمَنَّكُمْ سُلَيْمانُ وَ جُنُودُهُ وَ هُمْ لا يَشْعُرُونَ

"Nəhayət, onlar (Taifdəki, yaxud Şamdakı) qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!" (Nəml, 18)

Həmçinin, Quranda Hudhud (şanapipik) quşunun Səba məntəqəsinin camaatının günəşə pərəstiş etdiyini gördüyü zaman, Süleymana xəbər verməsinin şahidi oluruq.

وَجَدْتُها وَ قَوْمَها يَسْجُدُونَ لِلشَّمْسِ مِنْ دُونِ اللَّهِ وَ زَيَّنَ لَهُمُ الشَّيْطانُ أَعْمالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ فَهُمْ لا يَهْتَدُونَ

"Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan (çirkin) əməllərini onlara gözəl göstərmiş, onları (doğru) yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər." (Nəml, 24)

Bu gün də, başqa canlılar evlərinə qəribə məxluqların daxil olduğunu gördükləri zaman, təhdid ünvanında həmçinslərini xəbərdar edirlər. Deməli, təbliğ və xəbərdarlıq hissi Allah tərəfindən təkcə insanlara deyil, başqa canlılara da bəxş edilmişdir. [1]

Deməli, təbliğ etmək, həqiqəti söyləmək, haqqa doğru səsləmək bütün təbii varlıqlarda olduğu kimi insanda da var. Sadəcə insan varlıq aləminin ən üstün pilləsində dayandığı üçün və maddi varlıqdan əlavə ruhani bir varlıq olduğu üçün insanda bu hiss daha da qabarıq şəkildə mövcuddur.

## İmanin tərifi

***Qurani-Kərim: "İman gətirib imanlarını zülmlə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!"(Ənam 82)***

İman [kəlməsi] lüğətdə təsdiq mə`nasındadır, yə`ni inanmaq. Və təhqiq əhli arasında xas təsdiq mənasındadır və bu həmin təsdiqdir ki, qəti elm və Peyğəmbərin (s) buyurduqlarına qəlbi inam onunla hasil olur. Peyğəmbərin (s) mə`rifəti Qadir, Alim,

---

1 - Quran və təbliğ, Möhsün Qiraəti, səh. 9

Səmi`, Bəsir [olan] Allahın mə`rifətindən ayrı olmaz. O Allahın ki, peyğəmbərləri göndərmiş, Qur`anı Məhəmməd Mustafaya (s) nazil etmiş və İslam ümmətinin yekdil nəzərlə qəbul etdiyi halalı, haramı, vacibi, müstəhəbbi bəyan etmişdir. Deməli iman bu məsələlərə şamil olur, nə az, nə də çox, çünki ondan azı iman sayılmaz və ondan çoxu imanın özü yox, kamalı olar.[1]

Məsələyə başqa formada baxsaq, dha geniş təhlil edə bilərik. İlk növbədə unutmayaq ki, "İman" sözü ərəb dilindən tərcümədə "güvənmək, arxayın olmaq, əmin olmaq, sidq ürəkdən inanmaq" mənalarını verir. Dini anlamda Allaha, Onun peyğəmbərlərinə, axirət aləminə və qəbul edilməsi gərəkən digər prinsiplərə tərəddüdsüz olaraq inanmağa deyilir. İmanlı şəxsi "mömin" adlandırırlar.

İnsanların mənəvi və yüksək inamları, onların bu aləmdə olan bəzi həqiqətlərə qarşı iman və etiqadından doğan bir şeydir. İnsanın iman gətirdiyi bu inanclar həm fərdin və həm də təbiətin fövqündə dayanan həqiqətlərdir. Bu cür iman və etiqadlar öz növbəsində, Allahın peyğəmbərlər vasitəsilə insanlara təqdim etdiyi dünya görüşündən doğan məsələlərdir. Buna görə də, insanın yüksək mənəvi inamı özü üçün fikri və etiqadi bünövrə qurduqdan sonra «iman» adını kəsb edir.[2]

Hikmət alimləri islamda olan imanın dərrakə və düşüncə ilə bağlı olduğunu söyləyirdilər, amma iman haqqında olan bu izahlara diqqət yetirdikdə, onları islami əsaslarla heç cür tətbiq etmək olmur. Çünki islamda olan iman dərrakə və düşüncədən daha geniş bir həqiqətdir. Məsələn, sosioloq cəmiyyəti, zooloq heyvanları, psixoloq isə insan psixloligiyasını araşdırır və öyrənir. Bunları tanıyıb bilmək, onların həqiqətlərini dərk etmək deməkdir.

---

1 - Nəsirəddin Tusi, "Övsaful-əşraf" kitabı, Birinci fəsil,səh 1

2 - M.Mütəhhəri. İnsan və iman. səh-12-13

Görəsən Quranda buyurulan iman da belədir, yoxsa yox? Əlbəttə yox! Çünki, Allah və peyğəmbərə olan iman təkcə onları dərk etməkdən ibarət deyildir və burada əlavə olaraq inam və təslim olmaq da tələb olunur. İman adlı bir məfhuma inam, təslim və məhəbbət ünsürləri də daxildir. İnsan həmişə dərk etdiyi şeylərə meyl və rəğbət göstərmir. Astronom ulduzlara meyl və rəğbət bəsləmir, sadəcə olaraq onları öyrənir və dərk edir. Başqa sahədə çalışan alimlər də öyrəndiyi şeylərə rəğbət bəsləmir və sadəcə olaraq onları dərk edirlər. Hətta bəzən insanın öyrəndiyi və dərk etdiyi şeylərə nifrət etməsi də mümkündür. Siyasətçilər düşmənlərini özlərindən daha yaxşı tanıyırlar, amma bu o demək deyildir ki, onlara rəğbət bəsləyirlər.

Müsəlman alimlərin imanın təkcə düşüncə və dərk ilə bağlı olmadığını söyləmələrinin səbəbi, Quranda Allahı və Onun peyğəmbərini, eləcə də məadı hamıdan yaxşı dərk edən, amma bu həqiqətlərə kafir olan varlığın adının çəkilməsidir. Yəqin ki, bu varlığın Şeytan olması hamıya məlumdur. Şeytan Allahı bizdən daha yaxşı tanıyır və uzun illər Ona ibadət etmişdir. O, mələkləri, peyğəmbərləri və məadı çox gözəl dərk edir, amma buna baxmayaraq Quran onun kafir olduğunu söyləyib buyurur: «...Kanə minəl kafirin». (Sad surəsi-74). Yəni [Şeytan] kafirlərdən oldu.

Əgər filosofların iddiasına uyğun olaraq, iman ancaq düşüncə və dərk ilə əldə olunsaydı, Şeytan hamıdan əvvəl mömin olardı. Amma gördüyünüz kimi belə deyil, çünki o, Allahı tanıya-tanıya inadla Onunla müxalifətçilik edir, düşünüb dərk etdiyi həqiqət qarşısında təslim olmur və Ona rəğbət bəsləmir.

Deməli, qeyd etdiyimiz kimi, iman təkcə düşüncə ilə bağlı deyildir. İslam filosoflarının çoxu Quranda «Ət-Tin»

surəsindəki «...İlləlləzinə amənu» (iman gətirənlərdən başqa) ifadəsini nəzəri hikmət, «Və əmilussalihat»ı (saleh əməllər edənlərin) isə əməli hikmət adlandırırlar.
Halbuki, «...İlləlləzinə amənu» ifadəsi nəzəri hikmətdən daha yüksək bir mənanı çatdırır və nəzəri hikmət bu yüksək mənalı məfhumun yalnız bir hissəsidir.
Deməli, bütün bu söylədiyimiz elm, mərifət, idrak və sair məfhumlardan yüksək olan daha bir məfhum da vardır ki, o da təslim, meyl və rəğbətdir.[1]
İman, meyl və rəğbətlə yanaşı olan, eyni zamanda agahlıq üzərində qurulmuş bir məsələdir. İman agahlıqla yanaşı olduqda təslim deməkdir, yəni Allahı tanıyıb Ona rəğbətlə təslim olmaq. [2]
İman məfhumunun daxilində, agahlıqla təslim və rəğbət bəsləməkdən əlavə, küfr ünsürü də vardır. İman gətirilən hər hansı bir şeyin qarşısında təslim olmaq zəruridir. İnsanın imanı o vaxt kamala çatmış olur ki, iman və təslim olduğu şeyin ziddinə hər nə varsa, onlara qarşı kafir olsun. Ümumiyyətlə insan əgər bəzi şeylərə qarşı kafir olmasa, mömin ola bilməz. Üsyan olmasa, təslim məfhumu öz mənasını əldən vermiş olur. Sizin Allaha imanınız o vaxt həqiqi olur ki, Allahın ziddinə olan hər bir şeyə qarşı kafir olasınız. Allaha təslim olub Ona baş əymək, amma Onun ziddinə olan şeylərə təslim olmamaq «iman» sayılır.
Həzrət Peyğəmbərin (s) ərəblərə birinci şüarı bu idi: «La ilahə illəllah» (Aləmlərin Rəbbindən başqa bir Allah yoxdur). Burada bir təsdiq və bir də inkar vardır.
İnkar, Allahdan qeyri-bir ilahi varlığın rədd edilməsi, isbat isə Onun öz vücudunun təsdiq edilməsidir. Allahdan başqa hər bir şeyin qarşısında üsyan və tüğyan, Allahın qarşısında isə təslim

1 - M. Mütəhəri, Kamil insan, səh-126-128.
2 - M. Mütəhəri, Əxlaqın fəlsəfəsi, səh-245.

və iman olmalıdır. Ayətəl-kursidə buyurulur: «Hər kəs Şeytanı [və ya bütləri] inkar edib Allaha iman gətirərsə, o artıq [qırılmaq bilməyən] ən möhkəm bir ipdən [dəstəkdən] yapışmış olur.»
Quran burada da birinci küfrün, sonra isə imanın adını çəkir. Səid ibni Ənsari Peyğəmbərin (s) səhabələrindən biri olmuşdur. Peyğəmbər (s) onun barəsində söyləmişdir: Səid qeyrətli bir şəxsdir, mən ondan qeyrətliyəm və Allah da məndən qeyrətlidir.
«Allah məndən də qeyrətlidir» sözünün mənası o deməkdir ki, O, heç vaxt özünə şərik qəbul etmir. Allah-təala insanlardan yalnız Onun qarşısında təslim olub, başqa heç bir şeyə baş əyməməyi tələb edir. Ona şərik qoşulmamalıdır. Həm Allaha, həm də onun ziddinə təslim olmaq qeyri-mümkündür.
İmanda agahlıq, rəğbət və meyl, təslim olmaq, tağuta (Allahın ziddinə) küfr bəsləmək ünsürlərinin hamısı bir yerdə cəm olmuşdur. «İman elm və agahlıqdan daha genişdir» ifadəsinin mənası da məhz budur.

## İman və İslamın fərqi

***Qurani-Kərim: «Bədəvi ərəblər dedilər: «Biz iman gətirdik.» De: «Siz iman gətirmədiniz. Ancaq İslamı qəbul etdik deyin. İman hələ ki, sizin qəlblərinizə daxil olmamışdır.»[1]***

Bu ayələrdən məlum olur ki, Allah-təala kəlmeyi-şəhadəti söyləyən, amma bunu təmənna üzündən edən şəxsləri mömin deyil, müsəlman saymağa icazə verir. İslam imanın yalnız zahiri tərəfidir. İnsan kəlmeyi-şəhadəti söyləmək və nümayişkaranə şəkildə ibadətləri yerinə yetirməklə müsəlman sayılar, bununla da özünü təhlükə və məhrumiyyətlərdən

1 Hucurat, ayə 14

qoruyar. Amma bu, onun əqidəsinin saf olub-olmamasını aşkara çıxarmaz. Hədislərdə deyilir: "İslam odur ki, onun vasitəsilə canlar qorunar, əmanətlər sahibinə qaytarılar, izdivaclar halallaşar. Amma savab imana görə verilər". Həzrət Mühəmməd Peyğəmbər (s) buyurmuşdur: "İslam aşkardır, iman isə qəlbdə gizlidir".

Bütün möminlər müsəlmandırlar, lakin bəzi müsəlmanların mömin olmamaları mümkündür. Hədislərdə İslamı Məkkədəki Məscidül-hərama, imanı isə həmin məscid daxilində yerləşən Kəbə evinə bənzətmişlər. Kəbəyə girən hər kəs Məscidül-həramın daxilində hesab olunur. Amma Məscidül-həramın daxilində olan hər kəs Kəbənin içində sayılmaz. Beləcə, möminlik məqamına yüksələn hər kəs müsəlmandır, amma hər müsəlman mömin deyil.

Müsəlman üçün dillə təsdiq və bəzi ibadətlər kifayət etdiyi halda, mömin şəxs mütləq bütün əməllərini Allahın əmr və qadağanları əsasında qurmalı, gözəl əxlaqa sahib olmalıdır. İslam Peyğəmbəri buyurmuşdur: "Möminlərin iman cəhətdən ən kamili əxlaqca gözəl və ailəsinə qarşı mehriban olandır". İmam Əli ibn Əbu Talib (ə) bu barədə demişdir: "İman ürəklə dərk etmək, dillə təsdiqləmək və bütün bədən üzvləri ilə əməldə həyata keçirməkdən ibarətdir".[1] Bu üç xüsusiyyət birləşərək imanı əmələ gətirir. Bunların olmaması isə insanı üç rəzil dəstənin cərgələrinə aparıb-çıxarır. Ürəkdə səmimi etiqadı olmayan münafiqdir. İmanını dillə təsdiqləməyən (yəni inkar edən) kafirdir. Əməldə sübuta yetirməyən isə fasiqdir (günahkardır).

**Dini maarifləndirmənin tərifi**

''Təbliğ'' lüğətdə, hər hansı bir xəbəri munasib və təsirli vasitədən istifadə etməklə çatdırmağa deyilir.

1 - əl-Kafi, c.1, səh.178 , hədis 2

Bu gun dunya, insanları muxtəlif duşuncələrə və əqidələrə sövq etmək uçun çox geniş surətdə təbliğ vasitəsindən istifadə etməkdədir. Muxtəlif dinlərin numayəndələri təbliğat vasitəsi ilə camaatı öz ardıcıllarından etmək istədiklərinə görə öz duncələrini onlara yeritməyə çalışıllar.
Amma İslamda təbliğin məqsədi camaatı İslamin hökumləri ilə, ilahi maariflə tanış etmək, möminlərə mujdə vermək, muxalifləri qorxutmaq, və çəkindirməkdir. Qurani-Kərimdə təbliğ uçun "xəbərdarliq", "çatdirmaq", "mujdə", "qoruxutmaq", "hidayət", "yol göstərmək", "dəvət", "yaxşiliqlara dəvət pisliklərdən çəkindirmək" kəlmələri işlənmişdir ki, bunlarin hər biri, təbliğin bir yönunə işarə edir.

## Mübəlliğin şəraiti

Diqqət etmək lazımdır ki, ümumiyyətlə dini mənbələrimizdə yaxşılıqlara çağırıb, pis işlərdən çəkindirməyin xüsusi şəraiti vardır. Peyğəmbərin (s) buyruqlarına əsasən, din təbliğatçısının, bəzi xüsusiyyətlərə malik olmadan belə bir məsuliyyətli işi əncam verməyə haqqı yoxdur:
1- Dəvət etdiyi yaxşı işləri və çəkindirdiyi pis işləri doğrudan tanıya bilsin.
2- Əmr etdiyi yaxşı işlərdə və çəkindirdiyi pis işlərdə ədalətli olsun.
3- Həlim və mülayimliklə yaxşı işlərə əmr edib, pis işlərdən çəkindirsin.
4- Qarşı tərəfin bir daha pis əməlini təkrar edəcəyini bilsin.
5- Özü də əməl sahibi olsun.
Bir sözlə, yaxşı əməllərə dəvət edib, pis əməllərdən çəkindirən şəxs, bunu gözəl tərzdə etməlidir.[1] Emosiyadan və hissiyyatla

---

1- Kənzül-ümmal, səh. 5523

hərəkət etməkdən uzaq olmalıdır. Münaqişələrə və ixtilaflara səbəb verməməlidir. Sırf dini təəssüblə hərəkət edərək, insanları dindən uzaqlaşdırmasınlar.[1] Necə ki, Allahın elçisi (s) belə ehtimalları göz önünə alaraq buyurur: "Allahı camaata sevdirin ki, Allah da sizi sevsin."[2]

Necə ki, müqəddəs kitabımızda buyurulur:

وَ لْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَ يَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَ أُولئِکَ هُمُ الْمُفْلِحُونَ

***"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış kimsələrdir."***[3]

Yaxud buyurulur:

وَ ما كانَ الْمُؤْمِنُونَ لِيَنْفِرُوا كَافَّةً فَلَوْ لا نَفَرَ مِنْ كُلِّ فِرْقَةٍ مِنْهُمْ طائِفَةٌ لِيَتَفَقَّهُوا فِى الدِّينِ وَ لِيُنْذِرُوا قَوْمَهُمْ إِذا رَجَعُوا إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

"Möminlərin hamısı birdən (düşmənlə döyüşə) çıxmamalıdır. Barı, hər tayfadan bir dəstə (elm öyrənmək, sonra da onu insanlara öyrətmək üçün) qalsın ki, camaatı qayıtdığı zaman Allahın əzabı ilə qorxutsun. Ola bilsin ki, onlar (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər!"[4]

1 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh. 43
2- əl-Möcəmül-kəbir, c. 8, səh. 91
3 - Ali İmran\104
4 - Tövbə\122

**Dini maarifləndirmənin fəaliyyət mərhələləri**

Təbliğin əhatə dairəsi genişdir. O, insanin özundən və yaxinlarından başlayıb nəhayətdə bəşərin hər bir fərdini əhatə edir.

Allah muqəddəs İslam hərəkatının başlanğıcında Rəsulu-Əkrəmdən (s) istəyib ki, ayağa qalxib öz Allahını böyuk sansin, libasını pak etsin və çirkinlikdən uzaqlaşsın.

قُمْ فَأَنْذِرْ وَرَبَّکَ فَکَبِّرْ وَثِيَابَکَ فَطَهِّرْ وَالرُّجْزَ فَاهْجُرْ

***“Qalx (qövmünü Allahın əzabı ilə) qorxut!***
***Öz Rəbbini uca tut!***
***Libasını təmizlə! (Nəfsini günahlardan pak et!)***
***(Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!)”***[1]

Buna əsasən demək olar ki, ilk növbədə Allah öz Rəsulunu (s) çəkindirmişdir. Deməli, ilk mərhələ insanın üzüdür.

Quran ayələrində şəxsən Rəsuluna (s) xitab olunmuşdur. Məsələn bu kəlmələr ilə

وَاذْكُرْ رَبَّکَ کَثِيراً وَسَبِّحْ بِالْعَشِيِّ وَالْإِبْكَارِ

***“Rəbbini çox yada sal (zikr et) və səhər-axşam şəninə tariflər deyib şükür et!”*** [2]

Bu mərhələdən sonar növbə ailə uzvlərini çəkindirməyə çatir.

**يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ ۚ ذَٰلِكَ أَدْنَىٰ أَنْ يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ ۗ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا**

1 - Muddəsir\2-5
2 - **Ali-İmran\41**

***“Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, (evdən çıxdıqda cariyələrə oxşamasınlar deyə, bədənlərini başdan-ayağa gizlədən) örtüklərini örtsünlər. Bu onların tanınması (cariyə deyil, azad qadın olduqlarının bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhm edəndir!”*** [1]

Çəkindirmənin növbəti mərhələsi qohumlari çəkindirməkdir.

وَأَنْذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ

***“Və ən yaxın qohumlarını qorxut!”*** [2]
Sonra məntəqə və şəhər əhlini çəkindirmək.

**وَهَذَا كِتَابٌ أَنْزَلْنَاهُ مُبَارَكٌ مُصَدِّقُ الَّذِي بَيْنَ يَدَيْهِ وَلِتُنْذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَالَّذِينَ يُؤْمِنُونَ بِالْآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلَاتِهِمْ يُحَافِظُونَ**

“Bu (Quran) da mübarək (xeyir-bərəkəti daim, faydası çox), özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə Məkkə əhlini və ətrafındakı insanları (Allahın əzabı ilə) qorxutmaq üçün nazil etmişik. Axirətə iman gətirənlər ona da iman gətirər, namazlarını da qoruyub saxlayarlar (vaxtlı-vaxtında qılarlar).” [3]

Sonunda isə butun dunya əhlini çəkindirmək.

نَذِيراً لِلْبَشَرِ

---

1 - Əhzab\59
2 - Şuəra\214
3 - Ənam\92

***"Butun bəşəri çəkindirmək uçundur."*** [1]

Buna əsasən, o kəs təbliğdə muvəffəq ola bilər ki, ilk öncə özundə kamilliyi yaratsin, sonar övladını, həyat yoldaşini və öz qohumlarını islah etsin. Daha sonra camaatı islah etməyə başlasin.

## Təbliğin hədəfi

Təbliğin əsl hədəf və arzusu Allahın razılığı və insanları mənəvi məqama ucaltmaqdır. Ümumiyyətlə, Tanrının peyğəmbərlər və imamlar göndərməsinin əsl hədəfi məhz cəhalətlə mübarizədir. Çünki, hədislərimizdə də buyurulduğu kimi, cəhalət insanlığın düşmənidir. Nadanlıq hər nə qədər çox olsa, insan cəmiyyəti bir o qədər xəstə və sərsəm vəziyyətdə olar. İstər müqəddəslik cəhaləti olsun, istər müasirlik-elmilik adı altında olan cəhalət olsun, istər nasionalist (qəbilə-əşirət təəssüblü) düşüncələrlə olsun, hansı qalibdə olursa-olursa olsun fərqi yoxdur. Sanki cahil insan, axmaqlığı üzündən, özü də bilmədən, özünə zərər vuran və intihara doğru yönələn bir insana bənzəyər.

Belə hallarda, ruhani qəflətə düşməməli, ayıq olmalıdır ki, "dinə xidmət etdiyini" güman edib, onu təhrik edən şəxsin qəsbkar hədəflərinə qulluq etməsin. İlahi dininin vahid hədəfi vardır: insanların mənəviyyatını zənginləşdirmək, onları paklıq, qardaşlıq, qayğıkeşlik, empatiya, sevgi və əmin-amanlıq dolu həyata sövq etməkdir.[2]

1 - Muddəsir\36

2 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh 48

## İmanın mübəlliğin həyatında və dini təbliğindəki rolu

İman və onun haqda bəhs etdiyimiz məsələləri göz önündə canlandıraraq, onun dini təbliğdəki roluna daha dəqiq və ətraflı şəkildə agah ola bilərik. Sözsüz ki, mübəlliğ dini təbliğin əsas rükn və bünövrələrindən biridir. Buna görə də, imanın dini təbliğdəki rolunu bəhs etdiyimiz zaman, onun mübəlliğin şəxsi həyatında, xüsusiyyətlərində qoyduğu təsirlərdən də söhbət açmalıyıq. Deməli imanın dini maarifləndirmədəki rolunu, imanın müşəlliğin həyatındakı rolu ilə birgə bəhs etmək, daha dəqiq nəticə əldə etməyimizə səbə olacaqdır.

İmanın mübəlliğin həyatında və dini təbliğindəki rolu aşağıdakılardan ibarətdir:

## Allaha təvəkkül edir

Qurani-Kərimdə buyurulur: ***«Ey iman gətirənlər! Düşmənlərdən bir dəstə ilə üz-üzə gəldikdə möhkəm olun və Allahı çox yad edin, bəlkə nicat tapasınız.»***[1]

Dini maarifləndirmə ilə məşğul olan şəxs, həyatının hər bir sahəsində, xüsusilə də bu çətin vəzifəni icra etdiyi zaman, imanla Allaha təvəkkül etməlidir. Bu, istər təbliğ zamanı üzləşdiyi çətinliklər: o cümlədən maddi-məişət problemləri yaxud insanların inadkarlığı və yaxud da rəqiblərin əks mübarizəsi qarşısında dözümlü, iradəli olmaq üşün, istərsə də, daha sürətli və keyfiyyətli müvəffəqiyyətə çatmaq üçün olsun, çox önəmlidir.

Müqəddəs kitabımızda oxuyuruq: ***«Bəndələrim səndən Mənim barəmdə soruşduqda (söylə ki,): Mən onlara yaxınam və Məni çağıran kəsin duasına cavab verərəm. Gərək onlar da Mənim çağırışıma cavab versinlər və doğru yolu tapmaq üçün Mənə iman gətirsinlər.»***[2]

---

1 - Ənfal/45

2 - Bəqərə\186

İmam Sadiq (ə) bu ayə haqda buyurur: «Yəni bilsinlər ki, Məndən istədikləri şeyi, onlara verə bilərəm.»[1]
Əgər mübəlliğ müvəffəqiyyətə çata bilmədiyini və yaxud çətinliklərin ağır olduğunu görürsə, məhz Allaha bağladığı iman və təvəkkül sayəsində onların öhdəsindən gələ bilər. İmam Əli (ə) buyurur: «Duanın qəbul olunmasının gecikdirilməsi sənin ümidini kəsməsin. Çünki Allahın bəxşişi sənin niyyətinə bağlıdır. Çox vaxt, istəyin yerinə yetirilməsi tə‘xirə salınar ki, dilək diləyənə daha böyük mükafat verilsin və (ilahi bəxşişə) ümidvar olana daha böyük bəxşişlər bağışlansın. Çox vaxt görürsən ki, bir şey istəyəndə sənə verilməz, amma gec, ya tez ondan daha yaxşısı sənə bəxş edilər, yaxud sənin xeyrin nəzərə alınaraq istədiyin şey sənə verilməz. Elə diləklər də vardır ki, onların həyata keçməsi sənin dininin, imanının əldən getməsinə və zay olmasına gətirib çıxarardı.»[2]
İmam Kazim (ə) gözəl buyurmuşdur: «Loğman oğluna dedi: «Dünya dərin dənizə bənzər, çox insanlar onda qərq olublar. Buna görə (xilas olmaq üçün) sənin bu dənizdə (mindiyin) gəmin gərək ilahi təqva, onun yükü iman, yelkəni təvəkkül, kapitanı ağıl, yol göstərəni elm və sükanı da səbr olsun.»[3]

### İxlaslıdır

Dini maarifləndirmə zamani imanına sığınan ruhani ilk öncə bu işi Allaha xatir etməlidir. Əgər təbliğ Allaha görə olarsa bu zaman qəlbləri fəth edəcək. Təbliğ zamani İxlasli olmağ Peyğəmbərlərin xususiyyətlərindəndir. Mübəlliğin bəyan,

1- Biharul-Ənvar, c. 93, səh. 323 , hədis 37
2 - Kəşful-Muhəccəte, səh.228
3 - əl-Kafi, c.1, səh.16 , hədis12

rəftar və səylərində məqsədi sırf ilahi razılığı olmalıdır. Hədəfi yalnız və yalnız Allahın razılığını cəlb etmək olmalıdir. Bütün səylərini yalnız Allahın razılığı üçün göstərməli və mükafatını Sonsuz Qüdrət və Rəhmət Sahibindən gözləməlidir.

لا نُرِيدُ مِنْكُمْ جَزاءً وَ لا شُكُورا

"Biz sizdən (bunun müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik."[1]

**Allahı həmişə öz üzərində hakim görür**

Dini maarifləndirmə ilə məşğul olan şəxs, imanın gücü ilə Uca Yaradanı daim öz üzərində hakim və nəzarətçi bilir. Həmişə Allahı yad edir və əməllərinə nəzarət edir. Buna görə də işində ümid və məsuliyyətlə hərəkət edir. Necə ki, Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Allahı çox yad edin, Ona hər səhər və axşam təsbih deyin.»*** [2]

**Dünya malı və təəssübkeşlikdən uzaqdır**

Dini təbliğ edən şəxs imanın gücü ilə daim Allaha sığınaraq, mal-dövlət və yaxud ailə-övladlarının mənafeyinə uyğun deyil, həqiqət və İlahi sevgiyə uyğun hərəkət edir. Heç bir şey onu ədalət və həqiqətdən sapdırmır. Bu haqda Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Mallarınız və övladlarınız sizin fikrinizi Allahı yad etməkdən yayındırmasın. Belə edən kəslər (Əlbəttə,) ziyana uğrayanlardır.»*** [3]

**Bağışlayan və güzəştə gedəndir**

1- İnsan\9
2 - Əhzab/41, 42
3 - Münafiqun/9

Qurani-kərim buyurur: ***"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"*** [1]

Güzəştə getmək və bağışlmaq iman sahibi olan ruhaninin ən gözəl xüsusiyyətidir. O, bilir ki, İnsanları əfv etmək, bağışlamaq insanın izzət və şəfərini artırır. İmanının gücü ilə anlayır ki, güzəştə gedən şəxsin izzətini Allah-Təala artırır."[2]

İnsanların səhvini bağışlamaq böyüklük və ucalıqdır. Bəzən elə başa düşülür ki, kiminsə xətasını görməməzdən gəlmək, onu əfv etmək insanı kiçildir. Guya onun aciz və gücsüz olmasını bildirir. Amma əsl həqiqətdə, bağışlamaq böyük mənəvi dünyaya sahib olan şəxsə aiddir. Bu güclü iradədən xəbər verir. Qəlbin paklığını bildirir.[3]

## Azad insandır

Azadlıq həqiqi iman sahibinin ən üstün xüsusiyyətlərindən biridir. Çünki o, yalnız Allah-təalanın quludur. Nəfsinin, maddi mənafelərinin, başqalarına qarşı çəxsiyyətpərəstliyin, kor-koranə yəqlidin, cəmiyyət baskı və təziqinin burxovundan asılı deyil. Diqqət etmək lazımdır ki, Allah-təala insanı azad yaratmış və azadlığa böyük dəyər vermişdir. Bəşər övladının azad iradəyə malik olması da buna sübutdur.[4]

Doğrudan da azadlıq çox böyük bir nemətdir. İnsanın azad təfəkkürü, azad və müstəqil həyatı onun üçün əvəzolunmazdır. Necə ki, Həzrət Əli (ə) buyurur: "Ey Adəm övladı! Adəmdən nə qul törənib, nə də ki kəniz. Bütün insanlar azaddır... Başqalarına qul olma, Allah-taala səni azad yaradıb.»[5]

---

1- Əraf surasi, 199-ci ayə

2- "Əxlaqi-Şöbbər", səh. 252

3 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh 76

4- İnsan surəsi\3

5- Nəhcüs-səadə, c.1, səh. 198; Nəhcül-bəlağə, məktub 31

Dini insanlara bəyan edən ruhani, azad və müstəqil olmalıdır. İstər dini anlamaqda, istər dini yaymaqda, istərsə də dünyagörüşündə tam azad düşüncəyə və təfəkkürə malik olmalıdır. Kor-koranə başqalarının düşüncəsinə və fikirlərinə tabe olmamalıdır. Ağlı, məntiqi və elmi ilə həqiqəti araşdırmalı, anlamalı, qəbul etməli və yaymalıdır. Əks təqdirdə mənəvi cəhətdən rəhbərlik etdiyi kütləni də kor-koranə itaətkar bir cəmiyyətə çevirəcəkdir. Bunun sonu isə acizlik, qulluq, cəhalət, radikallıq, ifrat və yaxud təfritlə nəticələnəcəkdir.[1]

## Mehribandır

Qurani-Kərim buyurur: ***«Məhəmməd Allahın peyğəmbəridir. Onunla birgə olanlar ... bir-biri ilə mehribandır.»*** [2]

Mehribanlıq dinimizdə möminin ən gözəl və əsaslı xüsusiyyətlərindəndir. Biz yazı biyunca bu məsələyə işarə etdik. Din təbliğatçısı və maarifləndirixisinin də bu gözəl xüsusiyyətə sahib olması, onun imanının gücündəndir. Allahın Peyğəmbəri (s) buyurur: «Kişinin ən gözəl zinəti imanla müşaiyət olunan sakitlikdir.»[3]

İlahi dininin təbliğatçısı mehriban və ürəyi yanan olmalıdır. Necə ki, bir ruhani müəllim kimi, Həzrət Məhəmmədin (s) ən ülvi xislətlərindən biri də mehribanlıq olmuşdur. Belə ki, Allahın Rəsulu (s) buyurur: "Dinin təbliğinə məmur olduğum kimi insanlarla mülayim olmağa da əmr olunmuşam."[4]

Mülayim xasiyyəti və ürəyi yanan olması o qədər O Həzrətin (s) şəxsiyyətilə bütünləşmişdi ki, Allah-təala Peyğəmbərin (s) aləmlərə rəhmət olduğunu bəyan etmişdir:

وَ ما أَرْسَلْناکَ إِلاَّ رَحْمَةً لِلْعالَمين

---

1 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh 77

2 - Fəth\29

3 - Biharul-Ənvar, c. 71,səh. 337 , hədis 2

4- Tühəful-üqul, səh. 48

"Səni (Ya Rəsulum!) aləmlərə ancaq bir rəhmət olaraq göndərdik."[1]

Dini insanlara təlim verən ruhani, insanları sanki özü kimi saymalı, onlara ürək yandırmalıdır.[2]

Qurani-Kərim buyurur: ***«Bundan əlavə, iman gətirənlərdən və bir-birinə səbri və mehribanlığı tövsiyə edənlərdən olmaqdır. Bunlardır xoşbəxtlər (əməl namələri sağ əllərinə verilənlər).»*** [3]

Mübəlliğin rəftarının gözəlliyi və mehribanlığı dünyəvi hədəflərinə çatmaq üçün deyil, imanının gücü ilə olduqda nəticə verəcəkdir. İmam Baqir (ə) buyurur: «Hər şeyin qıfılı var, imanın da qıfılı mülayimlikdir.»[4]

**İnsanların həyatına yersiz müdaxilə etmir**

Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Sizə aşkar olduğu halda xoşunuz gəlmədiyi şeylər barədə soruşmayın. Əgər Qur'an nazil olanda onlar barədə soruşsanız, sizə aydın olar. Allah onlardan (suallardan) keçdi. Allah bağışlayan və həlimdir»*** [5]

İman əhli onlara aid olmayan məsələlərdə dəxalət etmir, hər işə qarışmağı özünə vəzifə bilmir. Çünki insanların şəxsi həyatları və onlara xass bir sıra məsələlərə qarışmaq, onların hüquqlarını pozmaq mənasınadır. Bəzi ictimai işlərdə də, ruhaninin sakitliyini qoruması və qarışmaması lazım olur, bir sıra zamanlarda. Çünki fitnə zamanı onu qurcalamaq və tərəf

1 - Ənbiya\107
2 - Din və Təbliğ, səh. 81
3 - Bələd, ayə17, 18
4 - əl-Kafi, c.2, səh. 118, hədis 1
5 - Maidə\101

bildirmək, bəzən münaqişənin daha da alovlanmasına xidmət edir. Onu yatırmağa deyil.

**Radikal və ifratçı deyil**

Qurani-kərimdə buyurulur: ***"Bizi xatırlamaqdan qəlbini qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə!"*** [1]

İman sahibi olan mübəlliğ, etiqad və əməldə ifrat və radikallıqdan uzaqdır. Çünki Həqiqi iman, insanı aqressivlik, təcavüzkarlıq, dünyapərəstlik, xəsislik, riyakarlıq, paxıllıq və sair kimi çirkin xasiyyətlərdən qoruyur. İmanlı insan yalnız Allaha bel bağlamaqla müxtəlif ağır çətinliklərin öhdəsindən asanlıqla gəlir. Həqiqi iman insanı radikallığa, cinayətə və terrora yönəltmir. Həqiqi iman, insanı paklığa, təmizliyə, izzət və şərəf dolu həyata yönləndirir.

Əməldə ifrat etmək, o cümlədən; tərki-dünyalıq, uzun-uzadı quru və ruhsuz ibadətlər, rahiblik, mübahları belə haram saymaq, halallardan uzaq qalmaq, qəliz və barışmaz mövqelər və bunun kimi onlarla ifrati əməllər dinimizdə pislənib. Bunlar təvqanın, dindarlığın nişanələri deyil, cəhalət və nadanlıq sayılır. Çünki dinin buyruqlarından daha irəli getmək, dini naqis sayıb öz bildiyini önə çəkmək deməkdir. İmam Əli (ə) nadanlığın nişanələrində buyurur: "Elə bir cahil tapa bilməzsən ki, öz işlərində (əməllərində) ifrata, yaxud səhlənkarlığa düşməsin."

Yuxarıda işarə etdiklərimiz pəhrizkarlığın nişanələri deyildir. Təqvalı, pərhizkar insanlar əməllərində ifrat və səhlənkarlığa yol vermirlər.[2]

**Sevgisi və narahatlığı Allah xətrinə olur**

---

1 - Kəhf\28

2 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh 103

Qurani-Kərim buyurur: ***«Allaha və Qiyamət gününə inanan elə bir camaat tapmazsan ki, Allaha və Onun peyğəmbərinə qarşı çıxanlara məhəbbət bəsləsin. Hərçənd, bu müxaliflər onların ataları, ya övladları və ya qardaşları və yaxud həmqəbilələri olsalar belə. Onlardır, Allah-taalanın qəlblərində iman (həqiqətin) həkk etdiyi.»*** [1]
Dini mənbələrimizə əsasən, insanın Allaha olan imanı yalnız o zaman xalis olar ki, Allahı özündən, ata-anasından, övladından, zövcəsindən, malından və bütün camaatdan daha çox sevsin.[2] Deməli imanın verdiyi güc ilə dini maarifləndirmə ilə məşğul olan şəxs, ədalət sahibi olaraq öz nəfsinə və mənafeyinə deyil, Allahın sevgisinə uyğun rəftar edər. Dini bu meyarlarla təbliğ edər. Nəinki öz istəklərinə, yaxınlarının istəklərinə, yaxud hansısa varlı, mövqeli şəxsə xoş gəlsin deyə, onun mənafelərini təmin etsin deyə, ona uyğun dini təbliğatını aparar.
Allahın Peyğəmbəri (s) öz səhabələrindən birinə buyurmuşdur: «Ey Allahın bəndəsi! Allaha xatir sev və Allaha xatir nifrət bəslə, Allaha xatir dostluq et və Allaha xatir düşmənçilik et. Çünki, Allahın məhəbbətini bunlardan qeyri vasitələrlə qazanmaq mümkün deyil. İnsan belə etməsə, nə qədər çox namaz qılıb oruc tutsa da, imanın ləzzətini dada bilməz. Bu gün insanların bir-biri ilə dostluğu, qardaşlığı daha çox dünyaya görədir. Dünya naminə dostluq, dünyaya görə də düşmənçilik edirlər.»[3]
İmam Sadiq (ə) bu haqda buyurur: «Həqiqətən, bizim hədisimiz çətin və çox ağırdır. Ona, müqərrəb mələkdən,

1 - Mücadilə \22
2 - Biharul-Ənvar, c. 70, səh. 25, hədis 25
3 - İləlul-Şəraye, səh. 140, hədis 1

mursəl peyğəmbərdən, Allah-taala qəlbini imanla sınamış bəndədən və alınmaz şəhərdən başqa heç kəs tab gətirə bilməz»[1]

## Məntiq əhlidir

Qurani-Kərimdə buyurulur**:** ***"De: Mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəm."*** [2]

İman libasına bürünmüş ruhani daim arqument və məntiqə əsaslanmalıdır. Dinimiz hər bir mövzuda söhbət açarkən, onu möhkəm dəlillər və sübutlarla bəyan etmişdir. Qurani-kərimin çoxlu ayələrində müxtəlif səthlərdə və cürbəcür mövzularda məntiqi arqumentlər, elmi sübutlardan söhbət açılır. Deməli, dini təbliğlə məşğul olan ruhani də, sözlərini məntiqlə bəyan etməli, dəlillərə əsaslanmalıdır.

Ruhani bilməlidir ki, dinimizin kifayət qədər özünü müdafiə etmək qüdrətinə sahibdir. İslam dini haqq sözünü insanlara başa salmağa lazım olan miqdarda dəlil-sübutlara malikdir. Bunları dərindən öyrənmək və araşdırmaq lazımdır. Belə ali imtiyazlardan bixəbər olub, yaxud üz döndərib, insanlara hədə-qorxu gəlmək, hey danlamaq, onların sualları qarşısında "islamın təhlükəyə düşməsindən" qorxmaq mənasızdır. Şübhələr varsa, deməli cavabları da mövcuddur. Bəşəriyyətə təqdim olunan əbədi və kamil din bunları məntiqi əsaslarla cavablandırmağa qadirdir.[3]

## Əmin-amanlıq və abadlıq tərəfindədir

Qurani-Kərim buyurur: ***«Allahın məscidlərini yalnız Allaha və axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və***

1 - Biharul-Ənvar, c. 70, səh. 26
2 - Ənam\57
3 - Din və Təbliğ, PhDr. Tofiq Əsədov, səh 105

***Allahdan başqa heç kəsdən qorxmayan şəxs abad edər. Ümid var ki, onlar doğru yolu tapsınlar.»*** [1]
İman dolu qəlbilə islam dinini təbliğ edən şəxs, ayrı-seçkilik, kin-küdurət, qruplara bölmə və münaqişə yaratmaqdən uzaqdır. O daim abadlıq yaratmaq niyyətindədir. Abadlıq isə qarma-qarışıqlıq və kin-küdurətlə deyil, rəhmət və ülfətlə mümkündür.

**Şeytana uymazlar**
Qurani-Kərim buyurur: ***«Ey Adəm övladları! Şeytan sizin ata-ananızı Cənnətdən çıxardıb ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurduğu kimi, sizi də aldatmasın. O və onun dəstəsi sizi, onları görmədiyiniz yerdən görürlər. Həqiqətən, Biz şeytanları iman gətirməyənlərin dostları etdik.»*** [2]
Dini təbliğ edən imanlı şəxslər, şeytanın sevdiyi şəhvətpərəstliyə uymaz, onun vəsvəsələrinə qulaq asmazlar. Onlar nəfslərinin ən böyük düşman olduğunu anlayıb, daim onunla mübarizə apararlar. Onu cilovlayıb, kontrolda saxlayarlar. Bu sahədə şeytanın dostları sayılan şəhvətpərəstlərin hiylə və vəsvəsələrindən də ehtiyatlı olarlar. Çünki şəhvətpərəstlərlə yoldaşlıqlıq imanın unudulmasına və şeytanın hazır olmasına gətirib çıxarar. [3]
Qurani-Kərimdə oxuyuruq: ***«Həqiqətən, Şeytanın iman gətirən və öz Rəbblərinə təvəkkül edənlərin üzərində hakimiyyəti yoxdur.»*** [4]

1 - Tövbə\18
2 - Ə‘raf\ 27
3 - Nəhcül-Bəlağə, xütbə 86
4 - Nəhl\99

## Nizam-intizamı pozmaz və qanunlara riayət edər

Hansısa bir məntəqədə fəaliyyət göstərən ruhani, kor-koranə öz istəklərinə "Allahın razılığı" ünvanını qoyub, qanunlara tabe olmamağa və hərc-mərclik yaratmağa haqqı yoxdur. Qanun bir cəmiyyət tərəfindən qəbul edilibsə, ona riayət etmək lazımdır. Əgər kiminsə haqqı pozulursa, buna münaqişə və hərc-mərclik yaradaraq deyil, müasir və qanuni yollarla reaksiya vermək lazımdır. Çünki qanunsuzluq, hər halda pisdir. Xaos yaratmaq, cəmiyyətdə özbaşınalığa yol aça bilər. Amma qanuna qarşı qanunla mücadilə etmək isə, əksinə daha düzgün qanunun tapılmasına şərait yaradır.

## Təvazökardır

Qurani-Kərim buyurur: ***"Yer üzündə təkəbbürlə gəzib dolaşma. Çünki sən nə yeri yara bilər, nə də (əzəmətdə) yüksəlib dağlara çata bilərsən."*** [1]

Təvazökarlıq imanın ayrılmaz bir hissəsi olaraq, insana mənəvi ucalıq bəxş etməkdən əlavə, İlahi rəhmətini cəlb edər, insanların qəlbini ovsunlayar. Buna görə ki, gözəllik gözəllik çağırar, təvazökarlıq könüllərdəki paklığı oyadar.

İmam Kazim (ə) buyurur: "Həqiqətən, əkin daş üzərində deyil, yumşaq torpaqda əmələ gələr. Hikmət də belədir, təvazökar qəlblərdə abad olar, özündənrazı və təkəbbürlü qəlbdə isə yetişməz. Çünki Allah təvazökarlığı ağıl üçün bir vasitə qoyub."[2]

Qurani-kərimdə ilahi dinini insanlara yayan Peyğəmbərə (s) buyurulur: ***"Sənə tabe olan möminləri (təvazökarlıqla məhəbbət) qanadının altına al!"*** [3]

---

1 - İsra\37

2 - Biharül-ənvar, c. 78, səh. 312

3 - Şuəra\215

Bununla belə, unutmaq lazım deyildir ki, hər bir şey öz əndazəsində gözəldir. Təkəbbürlü olmamaq və təvazökar olmaq niyyəti ilə insan özünə inamı itirməməli, iradə sahibi, qətiyyətli, izzətli və vüqarlı olmalıdır. Vüqarlı və izzətli olmaq təkəbbürlü olmaq mənasına deyildir.

## Haqsız mal yeməz

Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən ticarət istisna olmaqla bir-birinizin mallarını haqsız yerə yeməyin və bir-birinizi öldürməyin. Həqiqətən Allah sizə qarşı mərhəmətlidir.»*** [1]

Cəmiyyətdə dini maarifləndirməyə məşğul olan ruhani, öz imanına pənah apararaq kimsənin malına göz dikməz. Kiminsə hüququnu tapdamaz. Haram ruzi əldə etməz. Din təbliğatçısı və ilahiyyatçı ruhani dünyapərəstlikdən uzaq durmalıdır. Çünki insanın qəlbində dünya hərisliyi və sərvət eşqi varsa, onun qəlbində artıq Allah məhəbbəti mövcud deyildir. Həzrət Məhəmməd (s) bu barədə buyurur: "Dünya məhəbbəti ilə Allah məhəbbəti heç bir zaman qəlbdə cəm (birlikdə) ola bilməz." [2] Buna görə ki, dünya həvəsi və sərsəmliyi insanı Allahdan və haqq yoldan uzaqlaşdıran ən əsas amildir. Onun saflığına kölgə salır, onu ikinci mərhələdə qərarlaşdırır. Allaha olan eşqdən və haqqa olan sevgidən yalnız quru iddia qalır.[3]

Qurani-Kərimdə oxuyuruq: ***«Ey iman gətirənlər! Əgər möminsinizsə, sələmdən gələn gəliri tərk edin. Belə etməsəniz, Allaha və onun Peyğəmbərinə müharibə elan etmiş olarsınız. Əgər tövbə etsəniz, sərmayəniz (mayanız)***

---

1 - Nisa\29

2- Tənbihül-xəvatir, c. 2, səh.122

3 - Din və Təbliğ, səh 81

***sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar.»*** [1]
Əlbəttə, bu o demək deyildir ki, imanlı ruhani halal ruzidən də üz çevirsin. Xeyir, əslində pak ruzi elə mənəviyyatın bir hissəsidir, maddiyyat deyil. Necə ki, Qurani-Kərimdə buyurulur: ***«De: Allahın öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur? De: Bunlar, dünyada iman gətirən üçündür, Qiyamət günündə isə yalnız möminlərə məxsusdur.»*** [2]

## Zənn və gümandan uzaqdır

Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Zənn və gümanların çoxundan çəkinin. Çünki gümanların bəzisi günahdır. (Bir-birinizin eybini, sirrini) Arayıb-axtarmayın, bir-birinizin qeybətini etməyin. Məgər sizdən kimsə ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Həmin işə ikrahla baxdınız. Allahdan qorxun. Həqiqətən Allah tövbələri qəbul edən və mehribandır.»*** [3]
Qurani-Kərimdə insana başqalarını mühakimə etməyə məşğul olub, onların eybləri haqda düşünməyə məşğul olmağı deyil, öz eybləri haqda fikirləşmək tövsiyə edilir: ***«Ey iman gətirənlər! Allahdan qorxun və hər kəs öz sabahı üçün nə hazırladığına baxsın. Allahdan qorxun ki, Allah etdikləriniz əməllərdən agahdır.»*** [4]
Diqqət etmək lazımdır ki, ruhani mübəlliğ bədgümanlıqdan uzaq olduğu kimi, özü haqda da sui-zənnin yaranmasına şərait yaratmaz. Daha diqqətli və ağıllı rəftar edər. Ümumiyyətlə, İslam dinini insanlara bəyan edən ruhani, özünü töhmət məqamında

---

1 - Bəqərə\178, 279
2 - Ə’raf\32
3 - Hucurat\12
4 - Həşr\18.

qərarlaşdırmamalıdır. Elə hərəkətlər etməməlidir ki, insanlar onun haqqında yanlış düşüncələrə malik olsunlar. Buna misal olaraq; pis əməlli insanlarla yoldaşlıq etmək, nalayiq yerlərdə səmimi iştirak etmək və sair məsələləri qeyd etmək olar.[1]
Həzrət Əli (ə) buyurur: "Töhmətə səbəb verən və haqqında pis gümanlar edilən məclislərdən uzaq dur. Buna görə ki, pis dost öz yoldaşını aldadar... Töhmətə səbəb olan (nalayiq gümanlar verilən) məkanlarda olan şəxs, barəsində pis güman edənləri danlamamalı, qınamamalıdır.»[2]

**Əbəd və ehtiramla davranar**
Qurani-Kərim buyurur: ***«Ey iman gətirənlər! Sizə «məclislərdə yer verın» deyildiyi zaman yer verın ki, Allah da sizə genişlik versin. «Qalxın» deyiləndə də qalxın!»*** [3]
İslam dini ədəb və əxlaq dinidir. Peyğəmbərimiz (s) məhz gözəl əxlaqın ən ali nümunəsini insanlara göstərmək üçün göndərilmişdir.Belə bir dini insanlara yayan şəxs, onlarla hörmətlə, gözəl davranmalıdır. Çünki o daha gözəl bilir ki, imanlı insanın varlığının qiyməti və dəyəri, elm və ədəbidir. Bunun üçün də, bütün ömrü boyu onları  əldə etməyə çalışır. Anlayır ki, elm və ədəbi hər nə qədər artsa, dəyər və layaqəti də bir o qədər artar.[4]
Ruhani böyüklərə ehtiram, kiçiklərə qayğı göstərməlidir. Necə ki, Həzrət İmam Səccad (ə) buyurur: "Hər bir müsəlmanı öz ailən kimi bil. Böyüklərinə atan kimi, kiçiklərinə də, övladın kimi bax."[5]

---

1 - Əmali, Səduq , səh. 28; Biharül-ənvar, c. 75, səh. 91; Tühəful-üqul,  səh. 376
2- Biharül-ənvar, c. 75, səh. 90; həmin mənbə, c. 75, səh. 90
3 - Mücadilə\11
4 - Mişkatül-ənvar, səh. 135
5 - əl-Həyat, c. 1, səh. 411

## Nəticə

İman və saleh əməl ayrılmaz iki qanaddır. Bir-birilərini tənzimləyir və birgə hərəkət edirlər. Biri o biri olmadan heçdir. İmandan güc alan ruhani, üzləşdiyi çətinliklər qarşısında səbirlidir. Bəlalara dözümlüdür. Həmçinin nəticə əldə etmədikdə belə, yolundan dönmür, çalışır. Onu tənqid edənlərə qarşı kobud və qaba deyil. Çünki özü haqda yüksək fikirdə deyil, özünü toxunulmaz və məsum bilmir. Ruhani unutmamalıdır ki, bəzən qeyri-sağlam tənqidə, iftiralara məruz qala bilər. Nadan insanların sərt və ədəbsiz davranışları ilə üzləşə bilər. Bu zaman o, anlamalıdır ki, hər kəsin sahib olduğu tərbiyə, düşüncə, təfəkkür qabiliyyəti, qavrama istedadı, eyni deyildir. İnsanların bəzisi öz nəfsinin quludur.
Qurani-Kərim buyurur: ***«De! Ey iman gətirən bəndələr! Öz Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edən kəslər üçün yaxşı mükafat vardır. Allahın yeri genişdir. Səbr edənlərin mükafatı hesabsız və bütünlüklə veriləcək»*** [1]
İmanından güc alan ruhani qayğıkeşdir. O, dinin buyruqlarına əməl etməyənlərə qarşı belə kin-küdurətli deyil, bəlkə onlara ürək yanmdırandır. Mehriban, qayğıkeş valideyin kimi baxmır övladı indi nəyi xoşlayır, fikirləşir ki, onun sağlığı, inkişafı üçün nəyə ehtiyacı var. Allahın Rəsulu (s) buyurur: "Dinin təbliğinə məmur olduğum kimi insanlarla mülayim olmağa da əmr olunmuşam."[2] Deməli təbliğ mülayimlik və qayğıkeşliklə birgə olmalıdır.
Dini insanlara təlim verən ruhani, insanları sanki özü kimi saymalı, onlara ürək yandırmalıdır. İnsanların üzləşdiyi problemləri öz problemi bilməlidir. Onların sıxıntılarını və şəraitini nəzərdə almalıdır. Onların xeyirxahı olmalıdır. Bunu səmimi qəlbdən Allah yolunda etməlidir. Buna görə də,

1 - Zümər\10
2- Tühəful-üqul, səh. 48

mehriban və səmimi olmalıdır ki, insanların doğru yola yönəlməsinə yardım edə bilsin. Necə ki, əziz Peyğəmbərimiz (s) də belə olmuşdur:
"Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir (ürəyi yanandır), möminlərə şəfqətli (mehriban), mərhəmətlidir! "[1]

1 - Tövbə\128

## İstifadə olunmuş mənbələr


1. ***Qurani-Kərim***
2. ***Nəhcül-bəlağə,*** Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), mütərcim: Seyyid Cəfər Şəhidi, Tehran, 1378 hicri-şəmsi, dördüncü çap.
3. ***Biharül-ənvar,*** Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.
4. ***Din və Təbliğ,*** PhDr. Tofiq Əsədov, Əl-Mustafa Beynəlxalq Nəşriyyatı, Qum, 2018
5. ***Cameül-əxbar*** (Məaricül-yəqin fi üsulidddin), Məhəmməd ibn Məhəmməd Şəiri Səbzivari, tədqiq: Alül-beyt müəssisəsi, 1414 hicri-qəməri, birinci çap.
6. ***Əl-Əmali,*** Məhəmməd ibn Əli ibn Babeveyh Qummi (Şeyx Səduq), tədqiq: Besə müəssisəsi, Qum, Besə müəssisəsinin intişaratı, 1407 hicri-qəməri, birinci çap.
7. ***Əl-möcəmül-kəbir,*** Süleyman ibn Əhməd Ləxmi Təbərani, (vəfat: 360 h. q.), tədqiq: Həmdi Əbdül-məcid Sələfi, Beyrut, Darü-ehyaüt-türasil-ərəbi, 1399 hicri-qəməri, ikinci çap.
8. ***Əl-Müstədrəkü ələs-səhihəyn,*** Məhəmməd Abdullah Hakim Nişapuri, tədqiq: Müstəfa Əbdül-qadir Əta, Beyrut, Darül-kutübil-elmiyyə, 1411 hicri-qəməri, birinci çap.
9. ***Əl-Kafi,*** Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
10. ***"Əxlaqi-Şöbbər",*** M. Şöbbər, Beyrut, Risalət müəssisəsi, 1406 hicri-qəməri.
11. ***Əxlaqın fəlsəfəsi,*** M. Mütəhəri, Şəhriyar, birinci çap, 2001

12.***İləlüş-şəraye,*** Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Beyrut, Darü-ihyait-turas, 1408 hicri-qəməri, birinci çap.
13.***İnsan və iman,*** M. Mütəhhəri, Şəhriyar, birinci çap, 2003
14.***Kənzül-ümmal fi sünnətil-əqval vəl-əfaal,*** Əli Müttəqi ibn Hisamuddin Hindi, təshih: Səfvətüs-Səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, 1397 hicri-qəməri, birinci çap.
15.***Kamil insan,*** M. Mütəhəri, Şəhriyar, birinci çap, 2009
16.***Mişkatül-ənvar fi ğürəril-əxbar,*** Əli ibn Həsən Təbrisi, tədqiq: Məhdi Huşmənd, Qum, Darül-hədis, 1418 hicri-qəməri, birinci çap.
17.***Məhəccətül-beyza,*** Feyz Kaşani, Beyrut, Dari-Sadir, 20011
18.***Müsnədi ibn Hənbəl,*** Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq: Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, 1414 hicri-qəməri, ikinci çap.
19.***Nurus-Səqəleyn,*** Əbdəli əl-Ərusi Huveyzi, əl-Mətbəətül-Heydəriyyə, 1383 hicri-qəməri, ikinci çap
20.***Nəhcüs-səadə,*** Beyrut, ır-Risalət müəssisəsi, 1409 hicri-qəməri, on birinci çap.
21.***Tuhəfül-üqul ən Ali-Rəsul***(səlləllahü əleyhi və alih), Həsən ibn Əli Hərrani(İbn Şöbə), tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi, 1404 hicri-qəməri, ikinci çap.
22.***Tənbihül-xəvatir və nəzihətün- nəvazir,*** Vərram ibn Əbi Fərras əl-Həmədan, Beyrut, Darud-dəaruf və Dari-Səəb.

23.***Qürərül-hikəm və dürərül-kiləm,*** Əbdül-vahid Amidi Təmimi, çərh və tərcüməsi.
24.***Quran və təbliğ,*** Möhsün Qiraəti, Mərkəz fərhəngiye Quran, Qum, 2001
25.Qurani-kərimin "Nümunə" təfsiri əsasında 170 sual-cavab, Şəhriyar, birinci çap, 2004
26.***Xisal,*** Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, Qum, Nəşrül-islami müəssisəsi, 1414 hicri-qəməri, dördüncü çap.
27.***"Övsaful-əşraf",*** Nəsirəddin Tusi, Darül-fikir, 1417 hicri-qəməri, birinci çap.
28.***Üyunül-əxbari-Rza (ə),*** Şeyx Səduq, tədqiq: Seyyid Məhdi Lacurdi,, Tehran, Cahan nəşriyyatı.
29.***Vəsailüş-şiə,*** Məhəmməd ibn Həsən Hürr Amuli, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1409 hicri-qəməri, birinci çap.